AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2019, 2 (25)

BAKI-2019

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (25), 2019

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika, 2017-ci ildən siyasi elmlər, antropologiya elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

*2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov**
**AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Əliyev**
**AMEA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, professor Urxan Ələkbərov**
**AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov**
**AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyev**
**Fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov**
**Tarix elmləri doktoru, professor Abbas Seyidov**
*(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Psixologiya elmləri doktoru, professor Ramiz Əliyev**
**Pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov**
**Pedaqoji elmlər doktoru, professor Rüfət Hüseynzadə**
**Sevinc Quliyeva** *(məsul katib)*

**UOT 82.(091)+902**

# BABA NEMƏTULLAH NAXÇIVANİ BÖYÜK MÜTƏFƏKKİR, ELM VƏ DİN XADİMİ

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***abbas.seyidov@gmail.com***

***Həbibə Mirpaşa qızı Əliyeva***
***AMEA Milli Azərbaycan Tarixi Muzeyi***
***ahebibe@gmail.com***

**Açar sözlər:** *Azərbaycanlı mütəfəkkir, Nemətullah Naxçıvani, Ağşəhər, Nəqşibəndiyyə, məzar, kitabə, sufilik.*

*Məqalədə Qədim Naxçıvan torpağının yetişdirməsi olan böyük mütəfəkkir, elm və din xadimi Nemətullah Naxçıvaninin həyatı və fəaliyyətindən bəhs olunur. Müəlliflər 2019-cu ilin aprel ayında Türkiyənin Konya şəhərində keçirilən beynəlxalq konfrans zamanı Ağşəhərdə olmuş və Nemətullah Naxçıvaninin məzarına baş çəkmişlər. Məzarın yerləşdiyi əraziyə baxış keçirilmiş, onun üzərindəki kitabələrin fotoşəkilləri çəkilmiş, kitabələrdə olan yazılar oxunaraq, Azərbaycan türkcəsinə tərcümə edilmişdir.*

*Araşdırmalar zamanı məlum olmuşdur ki, Naxçıvanda dünyaya göz açan Baba Nemətullah Naxçıvani doğulduğu şəhərdə mükəmməl təhsil almış, oradan Təbrizə gedərək sufilik baxımından təkmilləşmiş və elmi həyatını davam etdirmişdir. Lakin şiə təriqətli Səfəvilərin dini-siyasi təzyiqlərinə, məmur və mollaların təhdidlərinə məruz qaldığından, hicri-qəməri tarixi ilə 905-ci ildə (miladi 1499-cu il) Osmanlı dövlətinə -- Ağşəhərə mühacirət etmişdir. Azərbaycanda ilk dəfə XV əsrdə görünməyə başlayan "Nəqşibəndiyyə" ("naxış vuran" deməkdir) təriqətinin ilk nümayəndələrindən olan Nematullah Naxçıvani bu təriqəti Anadoluya gətirmiş və onun təbliğində böyük rol oynamışdır.*

*Osmanlı dövlətində 15 il yaşayan alim Sultan Səlimin hakimiyyəti dövründə, hicri-qəməri 920-ci ildə (miladi 1514-cü il) orada vəfat etmiş, Agşəhərin Çəmənli (Köyceyiz) məhəlləsində, Təkkə kəndinə gedən yolun solunda dəfn edilmişdir.*

# БАБА НЕМАТУЛЛА НАХЧЫВАНИ: ВЕЛИКИЙ МЫСЛИТЕЛЬ, НАУЧНЫЙ И РЕЛИГИОЗНЫЙ ДЕЯТЕЛЬ

***Аббас Сеидов***
***Хабиба Алиева***

**Ключевые слова:** *Азербайджанский мыслитель, Нематулла Нахчывани, Акшехир, Накшбандия, гробница, надпись, суфизм.*

*В статье рассказывается о жизни и творчестве великого мыслителя, ученого и священнослужителя Нематуллы Нахчывани, урожение древнего Нахчывана. Во время международной конференции в Конье в апреле 2019 авторы этой статьи посетили гробницу Нематуллы Нахчывани в городе Акшехир, сфотографировали и переведели на азербайджанский язык надписи на его могиле.*

*В ходе расследования выяснилось, что Бабá Нéматулла Нахчывани, получив отличное образование в Нахчыване, переехал в Тебриз, где он отлично изучил суфизм и продолжил свою научную жизнь. Однако, из-за угроз со стороны сефевидских шиитских чиновников и мулл, их религиозного и политического давления он вынужден был эмигрировать в Акшехир, Османскую империю, в х.905 г. (1499 г.). Нематулла Нахчывани был одним из первых представителей секты Накшбандия (знач. вышивальщик), которая появилась в Азербайджане с XV века. Он принес эту секту в Анатолию и сыграл важную роль в ее продвижении.*

*Ученый 15 лет жил в Османской империи и умер там, в х.920 г. (1514 г.), в период правления султана Селима. Он был похоронен в Акшехире, в квартале Чеменли (Кёйчеиз), на левой стороне дороги на деревню Текке.*

# BABA NEMATULLAH NAKHCHIVANI: THE GREAT THINKER, SCIENTIFIC AND RELIGIOUS FIGURE

***Abbas Seyidov***
***Habiba Aliyeva***

**Keywords:** *Azerbaijani thinker, Nematullah Nakhchivani, Akshehir, Naqshbandiyah, tomb, inscription, Sufism.*

*The article deals with the life and creativity of the great thinker, scientist and cleric Nematullah Nakhchivani, who was born in Nakhchivan, the ancient land. During the international conference in Konya in April 2019, the authors visited the tomb of Nematullah Nakhchivani in Akshehir town. The inscriptions on the grave were photographed and translated into Azerbaijani.*

*It was revealed during the investigation that Baba Nematullah Nakhchivani received an excellent education in Nakhchivan. Then he moved to Tabriz where he perfectly studied Sufism and continued his scientific life. However, because of threats of Safavid Shiite officials and mullahs, their religious and political pressures, he had to emigrate to Akshehir, the Ottoman Empire in h.905 (1499 CE). Nematullah Nakhchivani was one of the first representatives of the Naqshbandiyah (meaning embroiderer) sect, which appeared in Azerbaijan since the 15th century. He brought this sect to Anatolia and played a major role in its promotion.*

*The scientist lived in the Ottoman Empire for 15 years and died in h.920 (1514 CE), during the reign of Sultan Selim. He was buried in Akshehir, Chemenli (Koeycegiz) quarter, on the left side of the road to Tekke village.*

***1. Həyatı və dövrün siyasi mənzərəsi:*** Orta əsrlər dövründə Naxçıvan Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Burada boya-başa çatan dövrün ziyalıları "ən-Nəşəvi", "Naxçıvani" nisbəsilə məşhur olmuşlar. Mənbələrdə onların adları sadalanmaqla, fəaliyyətləri haqqında ətraflı məlumatlara rast gəlinir [1, s.140-157; 8, s.55-109; 2, s.36, 129, 371, 374 və s.]. Onlardan biri də Baba Nemətullah Naxçıvanidir. Alimin Azərbaycan fəlsəfi və ictimai fikir tarixində görkəmli yerini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 29 oktyabr 2018-ci il tarixdə "Görkəmli alim Nemətullah Naxçıvaninin irsinin öyrənilməsi və tədqiqi haqqında" Sərəncam imzalamışdır.

Qədim Naxçıvan torpağında dünyaya göz açan məşhur elm və din xadimi, böyük mütəsəvvif və mütəəssir Nemətullah Naxçıvani (tam adı: Nemətullah oğlu Mahmud Şeyx Əlvandır) doğulduğu şəhərdə mükəmməl təhsil almış, sonra isə Təbrizdə sufilik baxımından təkmilləşmiş və elmi həyatını davam etdirmişdir. O dövrün siyasi mənzərəsinə nəzər saldıqda görürük ki, Baba Nemətullah Qaraqoyunlu dövlətinin mövcud olduğu dövrdə (1410-1468) dünyaya göz açmış, Ağqoyunluların zamanında (1468-1501) isə kamala çatmışdır. Lakin şiə təriqətli Səfəvilərin (XIII əsrdən başlayan və 1499-cu ildən genişlənən) dini-siyasi təzyiqlərinə, məmurların və mollaların təhdidlərinə məruz qalaraq, hicri-qəməri tarixi ilə 905-ci ildə (miladi 1499-cu il) Ağşəhərə mühacirət etmişdir [6].

Tarixi mənbələrdə Naxçıvan əhalisinin Şafei təriqətinə itaət etməsi göstərilir [8, s.24]. İslam dünyasında ən geniş yayılmış hüquq məktəblərindən olan Şafei məzhəbi VIII-IX əsrlərdə təşəkkül tapmış dörd müsəlman sünni məzhəbindən biridir. Görünür, Səfəvilərə qədər Naxçıvan əhalisi əsasən sünni olmuş, Şah İsmayılın hakimiyyətə gəlişindən sonra şiə məzhəbinə qulluq etmişlər. Nemətullah Naxçıvaninin Anadolu Səlcuqlu dövlətinin ilk paytaxtı, osmanlıların əsas mədəniyyət beşiyi kimi tanınan, Konyanın bölgəsi sayılan Agşəhərə yerləşməsinin əsas səbəblərindən biri öz sünni məzhəbindən dönməməsi və bu məmləkətin alim, təsəvvüf əhlinə həmişə sahib çıxması idi.

Məscid, mədrəsə, türbə, hamam, kurqan, qəbiristanlıq, qala qalıqları və tarixi binaları ilə seçilən Ağşəhər qədim bir yaşayış məskənidir. Tarixən bu şəhərdə çoxlu dəyərli insanlar yaşamışlar. Onlardan biri də, məzarı burada yerləşən, lətifə və hekayələri ilə məşhur olan Molla Nəsrəddindir (ölüm tarixi hicri-qəməri 683 = miladi 1284-cü il). Anadolunun görkəmli elm və din xadimləri sayılan Mustafa Turabinin, Seyyid Mahmud Heyraninin, Şeyx Əyyubun, Tacəddin Əfəndinin türbələri, Seyyid Yunisun həzirəsi, Sinəddinzadənin və Nemətullah Naxçıvaninin məzarı Ağşəhərdədir.

Azərbaycanda ilk dəfə XV əsrdə görünməyə başlayan “Nəqşibəndiyyə” ("naxış vuran" deməkdir) təriqətinin ilk nümayəndələrindən olan Nematullah Naxçıvani bu təriqəti Anadoluya yayanlardan biri olmuş və onun təbliğində böyük rol oynamışdır. Qurani-Kərimin bütün ayələrinin ilk təsəvvüf təfsirinin müəlliflərindən biri böyük ədib Nemətullah Naxçıvani olmuşdur. O, yaşadığı mühitdə “Nemətullah bin Mahmut ən-Naxçıvani”, “Şeyx Əlvan Ağşəhri”, “Baba Nemətullah”, “Nemətullah Sultan” adlarıyla məşhurlaşmışdır. Böyük sufi alim və təfsirçi Nemətullah Əlvan Babanın (dərvişlərə xalq arasında “dədə” və “baba” da deyirdilər) doğum tarixi haqqında yazılı qaynaqlarda dəqiq məlumat yoxdur. Lakin o, Agşəhərdə 15 il qalmış və Osmanlı Sultanı Səlimin hakimiyyəti dövründə, hicri-qəməri 920-ci ildə (miladi 1514-cü il) orada vəfat etmişdir. Tədqiqatçılar ölüm tarixinin (h.q.920) 1514-cü il olması ilə həmfikirdirlər [7, s.132-133]. Ömrünün son illərini Ağşəhərdə yaşayan Nemətullah Naxçıvanı öz zahiri və batili elmləri, təsəvvüf və irfan yolu ilə yerli əhalinin könlündə özünə taxt qura bilmişdir.

***2. Anadoludakı həyatı və xidmətləri:*** Nemətullah oğlu Mahmud Ağşəhərə gələndən sonra, əsasən Nemətullah Naxçıvani kimi tanınmağa başlamışdır. O, sevdiyi və rəğbət bəslədiyi, doğulub-böyüdüyü doğma torpağının adını yaşatmaq üçün özünə “Naxçıvani” ləqəbi götürmüşdü. Baba Naxçıvani qısa müddətdə ağşəhərlilər tərəfindən çox sevilmişdir. O, qurduğu təkkədə çoxlu şagirdlər yetişdirərək, xalqı irşad etmiş, insanların böyük sevgi və etibarını qazanmışdır. Ağşəhərlilər onunla öyündüyü üçün, Əlvan (Ulvan) Şeyx demişlər. Qaynaqlarda onun adı “Əlvanül-Ağşəhri” (Ağşəhərin fəxri) olaraq keçməkdədir. O, təkkəsinin şeyxi olduğu üçün “Şeyx Əlvan” adı ilə

xatırlanmışdır. Nemətullah Naxçıvani Ağşəhərdə bir zaviyə (kiçik təkkə) qurmuşdur. Daha sonra bu zaviyə təkkə olaraq inkişaf etdirilmişdir [4, s. 281-294].

Bu təkkə 1584-cü ildə-Sultan III. Muradın hakimiyyəti zamanında inşa edilmiş və genişləndirilmişdir. Bunu Ağşəhər Vəqflər Təhrir kitabçalarından öyrənirik. Təkkənin adı belə müəyyən edilmişdir: “Vəqfi-Zaviyəyi Baba Nemətullah Nahcıvani”. Bu qeydə və təkkənin vəqfiyəsinə görə Nemətullah Naxçıvaninin oğlu Mövlana Hacı Əli Çələbi bu zaviyənin mütəvəllisini, şeyxini təyin edəcək səlahiyyətində olmuşdur. Bundan başqa, burada bu zaviyənin təmirinin, bərpasının da onun oğlunun səlahiyyəti və əmri ilə ola biləcəyi yazılır. Ancaq bu gün bu zaviyədən hər hansı bir iz və əsər-əlamət yoxdur [3, s.23-26].

Baba Nemətullah yaradıcılığında qeydə alınan iki əsərini Osmanlı türkcəsi ilə qələmə almış və digər bütün əsərlərini fars dilində yazmışdır. Bu əsərlərdə o, bəzən ərəb dilindən istifadə etsə də, əsas üstünlüyü fars dilinə vermişdir. Əsərlərin əksəriyyətinin təsəvvüfə dair olmasına rəğmən, onların arasında fiqh, hədis, hikmətli kəlam və fəlsəfə kimi fərqli elm sahələri ilə əlaqədar mövzulardan da geniş, ətraflı şəkildə bəhs edilir.

**3.** ***Nemətullah Naxçıvaninin məzarında olan kitabələr:*** Nemətullah Naxçıvani 1514-cü ildə vəfat edəndə neçə yaşında olması məlum deyildi. Açıq vəziyyətində olan qəbri Ağşəhərdə Çəmənli (Köyceyiz) məhəlləsində, Təkkə kəndinə gedən yolun solunda, Ağşəhər dərəsinin sağ tərəfində yerləşir. Mərmərdən hazırlanmış sənduqə və məzarın ətrafında həmişəyaşıl ağaclar əkilib (şəkil 1). Qəbirin ətrafı 1995-ci ildən sonra dəmir barmaqlıqlarla əhatə olunub və yerli əhali tərəfindən “türbə” adlandırılır. Onu sevənlər tərəfindən türbə bir ziyarətgaha çevrilib [5, s.34-42].

Məzar ağ mərmərlə haşiyələnib. Baş, ayaq və yan tərəfdə ərəb qrafikası ilə gözəl süls xətlə olan kitabələr mərhumun adına layiq qoyulub. Burada altı kitabəyə rast gəldik. Əvvəllər məzarın hansı formada olması haqda heç bir fotoşəkil və mənbə yoxdur. Kitabələrdəki yazılardan məlum olur ki, məzar bir neçə dəfə onu sevənlərin himayəsi ilə təmir olunub. Kitabələrdən beşi ərəb qrafikası və osmanlı türkcəsi ilə, lakin biri isə latın əlifbası ilə cızma üsulu ilə həkk olunub. Kitabələrdən birincisi qəbirin baş hissəsinə qoyulan, qırıq kiçik həcmli mərmərdən olan daşın üzərində maili vəziyyətdə, dörd sətirlik türk-farsdilli qarışıq, gözəl süls xətlə yazı və tarix həkk olunub (şəkil 2).

**Birinci kitabə:**

**هو الحَی/ سنه م١٢٧٧ [المحرم]**
**بنی قیل مغفرت یارب یزدان**
**بحق عرش اعظم نور قران**

***Kitabənin tərcüməsi:***

*“Əbədi, əzəli varlıq Odur (Allah), m. (məhərrəm ayınının qısa formasıdır və hicri-qəməri təqvimindəki 1-ci aydır).*
*Məhhərəm ayı 1277-ci il = miladi 1861-ci il.*
*Ey yaradan Allah, məni bağışlananlardan et,*
*Böyük göy (səma) və Quranın nuru haqqına“.*

**Qeyd:** Bu daşın son sətirdəki yazısı və tarixi qırıldığından, kitabəni tam oxumaq mümkün deyil.

İkinci kitabədə beş sətirlik yazı həkk olunmuş, yerli dağ cinsindən hazırlanmış kiçik həcmli daş sənduqənin mərmərdən olan hissənin içinə yerləşdirilmişdir (şəkil 3**).**

**İkinci kitabə:**

**هو دوست**
**کبار اهل‌اللّه‌دن و مفسرین‌عظامدن**
**خواجه نعمةالله قدس سر**
**حضرتلرینك مرقد منوره لریدر**
**تاریخ تعمیری فی ١ ذ[والقعدة] ١٢٦٨**

***Kitabənin tərcüməsi:***

*“O (Allah) dost. Allah əhlinin böyüklərindən və böyük təfsirçilərdən Xoca Nemətullah (Allah onun dərəcəsini müqəddəs eləsin) həzrətlərinin nurlu məzarıdır. Təmir tarixi 5 avqust 1852-ci ildir ”* .

Bu kitabədən məlum olur ki, məzar hicri 1268-ci ilin Zilqədə (hicri-qəməri təqvimdəki 11-ci aydır) ayının 1-də (miladi 1852) təmir olunmuşdur.

Sənduqənin yan tərəfində olan üçüncü kitabə onların ən böyüyüdür. Bu kitabə də yerli dağ cinsli daşdan hazırlanmış və sənduqənin içərisinə yerləşdirilmişdir. Kitabədə süls xətlə beş beytdən ibarət çox gözəl bir şeir həkk olunub (şəkil 4).

**Üçüncü kitabə:**

**1) حقیقت سرفراز اولیادر حضرت نعمت**
**بابا کیم حی معنوی‌در ایدرهرکس‌انی‌تصدیق**
**2) حقیقت حقنه واجب رعایت قدری اعلادر**
**مقامی جدله سر مبراته اولوب تطبیق**
**3) حقیقت منظره ویردی شرف بومرقد ذیبا**
**ایدلدی منقبتله پك مبارك اولدیغی تدقیق**
**4) حقیقت موجب شاندر سراپا دلنشین**
**کورردی عاقبت طرز نوینه صدقله تشویق**

5) حقیقت یمن و جوهرله دیدی تایخنی"عرفان
زهی زینتلره قویدی هله انجمنی " توفیق

***Kitabənin tərcüməsi:***

*"Həqiqətən Həzrət Nemət Baba övliyaların rəhbəri, dirilərin mənavi lideridir,*
*hər kəs bunu təsdiq edərsə onu mənən diri edər.*
*Həqiqətə əməl etməkdə dərəcəsi ucadır,*
*Başqalarından fərqli olaraq doğruluq məqamını tətbiq edər.*
*Həqiqətən bu gözəl məzar mənzərəyə də şərəf verər*
*Camaat da mübarək olar buranı tədqiq etməklə.*
*Həqiqət oxu şanın səbəbidir, başdan ayağa qəlbə yayılar*
*İnsanlara sədəqə verməyi də təşviq edərdi.*
*Həqiqətən İrfan tarixini and və cövhərlə dedi*
*Əqli bəzəklərlə axırda da Tövfiq bina etdi".*

Bu kitabədən məlum olur ki, şeri Ağşəhərdə yaşayan şair İrfan bəy söyləmiş, kitabəni isə öz himayəsi ilə Töfiq bəy yerinə inşa etmişdir. .

Gözəl süls xətlə nəzər diqqəti cəlb edən bu kitabənin sağ və sol hissəsindəki xüsusi medalyonların içərisində aşağıda bəhs olunan yazı təkrarən həkk olunub (şəkil 5).

تاریخ تعمیرینه اشبو جوهر اشارتدر
سنه اثار توفقا
۱۳۰۷ سنه۱۳۰۷

Bu medalyonun oxunuşundan məlum olur ki, məzar ikinci dəfə hicri-qəməri 1307-ci ildə (miladi tarixi ilə 1889-cu il) yenidən təmir edilmişdir. Bu təmir Töfiq bəy adlı bir şəxsin hamiliyi ilə həyata keçirilib. Həmin böyük daşın sol tərəfində, kənarda kiçik həcmli daş mərmərin içinə bərkidilmiş, dördüncü medalyonda kitabənin süls xətlə yazılması haqqında məlumat verilir (şəkil 6).

**Dördüncü kitabə :**

بالادەکه ثلث ریس
بلدی عبدالروف افندی اثری

***Kitabənin tərcüməsi:***

*"Balıdakı süls xətti Bələdiyyə rəisi*
*Abdülrauf Əfəndinin əsəridir".*

Beşinci kitabə mərmərdən baş daşı formasında, gümbəzşəkilli hazırlanıb. Onun yuxarı hissəsi dalğavari yonulmuş və mərkəzdə ləçəkli yarpaqların təsviri verilmişdir. Bu daş kitabənin birinci sətrində ərəb dilində Allahın isimləri yazılıb. Sonrakı sətirlər şeir lövhələri ilə tamamlanır. Kitabə çox gözəl süls xətlə həkk olunub (şəkil 7).

**Beşinci kitabə:**

هوالخلاق الباقی
وسلطان بایزید ولی سنه۸۸۷ تاریخنده

**عصرنده كبار خواجكان نقشبنديه‌دن**
**قطب‌الاقطاب صاحب تفسيرقران و شارح كلشن‌راز**
**عربيه وفارسيه  ومولف رساءل**
**الشيخ بابا نعمةالله نحجوانى قدس سره العالى**
**حضرتلرينك تربه شريفه مباركه سيدر**
**تاريخ تعميرى توفيق‌اثرى در ١٣٠٧**
**تبركا قونيه دفتردارى اسعد افندى يازدى**

***Kitabənin tərcüməsi:***
*“O (Allah) Yaradandır, Əbədidir!*
*1482-ci ildə Sultan Bəyazidi-Vəli dövründə Nəqşibəndi xocalarından övliyaların mürşidi,*
*Quran təfsirinin və Gülşəni-Raz Şərhinin sahibi və ərəbcə, farsca risalə müəllifi Baba Nemətullah Naxçıvani (Allah onun dərəcəsini müqəddəs eləsin) həzrətlərinin mübarək şərəfli türbəsidir. Təmir edən Tövfiqdir. 1389-cu ildə Konya maliyyə məmuru Əsəd Əfəndi mübarək iş olaraq bunu yazdı”.*

Sənduqənin digər yan tərəfinə bərkidilmiş ağ mərmərdən olan altıncı daşın üzərində latın əlifbası ilə kitabə həkk olunmuş və hərflərin üzəri qara rənglə boyanmışdır.

Əhalinin müşahidələrinə və söylədiklərinə görə Nemətullah Naxçıvaninin məzarı olduğu yerdə, indi mövcud olmasa da, onun sağlığında bir dərgah (təkkə) olmuşdur.

Nemətullah Naxçıvani bir təfsir alimidir. O, təfsirlərində Hənəfi və Maturidi məzhəblərinin fikirlərini təhlil etmişdir. Ölümündən sonra belə, Osmanlı rəhbərləri onun əsərlərinə çox müraciət etmişlər [9, s.337].

**Nəticə:** Nemətullah Naxçıvaninin günümüzə gəlib çatan əsərləri əsasən təsəvvuflə bağlıdır. Həmçinin,  külliyyatı araşdıran türk elm adamları onun təsəvvüflə yanaşı fiqh, hədis, fəlsəfə, hikmətli kəlam və dini mövzularda da əsərlərinin olmasını iddia edirlər. Naxcıvani həzrətlərinin “Hidayət-ül İhvan” və “Risalət-ül Vücud” kimi təsəvvüflə bağlı əsərləri vardır.

Onu da qeyd etmək lazımdır ki, İstanbulda - Topqapı sarayında, Sultan III Əhməd xan kitabxanasında 1496-cı ildə onun özünün xətti ilə əlyazma şəklində olan “Əl-fövateh-əl İlahiyyə və-l məfateh-əl-qeybiyyə” (“İlahiyyatın başlanğıcı və sirlərin açarı”) adlı iki cilddən ibarət təfsiri saxlanılır [1, s.147]. Nemətullah Naxçıvaninin digər əsərləri hələ çap olunmayıb. Bu əsərin də araşdırılaraq nəşr olunması Azərbaycan tarixi, ədəbiyyatı və fəlsəfəsi üçün çox əhəmiyyət olardı. Yaşadığı həyatda seçildiyi kimi, Ağşəhərdəki məzarlıqda da onun gözəl süls elementli, nəsx və nəstəliq xəttli çeşidli kitabələri ilə fərqlənən qəbir abidəsi bizim də nəzər-diqqətimizi özünə cəlb etdi. Bu möhtəşəm məzar doğma yurdumuz Naxçıvandan Anadoluya mühacirət etmiş böyük alim Nemətullah Naxçıvaninin barmaqlıqlar arasına alınan, mərmərdən hazırlanmış

qəbri idi. Arzu edirik ki, bu görkəmli elm və din xadimimizin qəbri üzərində olan kitabələrin açıq havada yavaş-yavaş məhv olmasının qarşısını almaq üçün Naxçıvan memarlıq məktəbinə məxsus bir türbə ucaldılsın.

Məzarının baş və ayaq tərəfində əkilən iki sərv ağacının pıçıltısı ilə uyuyan, türk-islam möhürü sayılan təsəvvüf və nəqşibəndiliyi Naxçıvandan Təbrizə, Anadoluya aparan və təbliğ edən, böyük irfan sahibi, arxasında Azərbaycan-Türkiyə elm adamları üçün böyük bir irs qoyub gedən Nemətullah Naxçıvaniyə Allahdan rəhmət diləməklə, onu minnətdarlıqla xatırlamaq bizim şərəfimizdir.

## ƏDƏBİYYAT

1. Məmmədov Rauf. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 səh.

2. Tərbiyət Məhəmmədəli, Danişməndani-Azərbaycan (görkəmli elm və sənət adamları). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, 460 səh.

3. Cebecioğlu Ethem, "Ni'metullah Nahçivanî", Sahabeden Günümüze Allah Dostları, Cilt: 8, Şule Yayınları: 19, Kaynak Eserleri: 1, İstanbul ,1996. s.23-26.

4. Görener İbrahim, "İlmi Cazibe Yurdu Osmanlı'da Çok Yönlü Bir Müfessir: Nimetullâh-i Nahcuvanî", Osmanlı Toplumunda Kur'an Kültürü ve Tefsir Çalışmaları, Kayseri 2010. s. 281-294.

5. İvgini Hayrettin. Türkiye / Akşehir'de Medfun Mutasavvıf Ni'metullah Nahçıvanı ve Türbesi // Bilimsel Eksen-Sicientific Axis-Научный Меридиан / Yıl-Year-Год, 2016 / Sayı-Number-Число 19, Ankara / Türkiye, 2016, s. 34-42.

6. Kurt Yaşar, Ni'metullah Nahcıvanî ve Tasavvufı Tefsiri, (Doktora Tezi), On Dokuz Mayıs Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslâm Bilimleri Anabilim Dalı, Samsun 1998.

7. Kurt Yaşar, "Ni'metullah b. Mahmûd Nahcuvanî", Diyanet İşleri Vakfı İslâm Ansiklopedisi, Cilt: 33, İstanbul 2007, s. 132-133.

8. Piriyev Vaqif. Naxçıvan tarixindən səhifələr, Bakı: Müəllim, 2004, 126 səh.

9. Türkiye Gazetesi, Evliyalar Ansiklopedisi, İstanbul 1992, c.3, s. 337.













UOT 327.5

# SOYUQ MÜHARİBƏ İLLƏRİNDƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏTİ

***Leyla Kərim qızı Nəbiyeva***
***Bakı Dövlət Universiteti***
***leyla_88@yahoo.com***

**Açar sözlər:** *İkinci Dünya müharibəsi, Türkiyə, ABŞ, SSRİ, Yaxın və Orta Şərq*

*Türkiyə İkinci Dünya Müharibəsində sonra formalaşan ikiqütblü dünyada demokratik blokda yer almaq üçün səy göstərirdi. Bu səylər İkinci Dünya müharibəsindən sonra artmağa başlamış Sovet təhdidlərinin nəticəsi olduğu qədər, son bir əsrdir davam edən qərbləşmə siyasətinin bir hissəsi idi. Sovetlər Birliyi isti dənizlərə çıxış əldə edə bilmək üçün İkinci Dünya müharibəsindən sonra Türkiyədən torpaq tələb etməyə başladı. Müharibə illərində izlədiyi tərəfsizlik siyasəti səbəbilə məruz qaldığı yalnızlıq qorxusu, ABŞ və İngiltərənin göstərdikləri soyuq münasibət Türkiyəni bu səyləri artırmağa vadar etdi. Eyni zamanda SSRİ-nin yaratmış olduğu təhlükə həyəcanı ilə Türkiyənin apardığı siyasətlə ABŞ-ın bölgədəki siyasi maraqlarının üst-üstə düşməsi Türkiyənin Qərb blokunda özünə yer tapmasına kömək etdi.*

*NATO üzvlüyü bu dövrdə Türkiyə xarici siyasətinin əsasını təşkil etmişdir. Bu təşkilata üzv olmaq üçün atılan addımlar Türkiyənin xarici siyasətində daha dolğun və aktiv bir dövr yaratdı. Bu yolda Türkiyə hətta ABŞa yardım məqsədi ilə ona he bir aidiyyatı olmayan Koreya müharibəsinə əsgər göndərdi. Nəhayət, 1952-ci ildə Türkiyə NATO-ya qəbul edildi. Bundan sonra Türkiyənin xarici siyasətində Yaxın və Orta Şərq bölgəsinə meyllilik başladı.*

## ВНЕШНЯЯ ПОЛИТИКА ТУРЦИИ ВО ВРЕМЯ ХОЛОДНОЙ ВОЙНЫ

***Лейла Набиева***

**Ключевые слова:** *Вторая мировая война, Турция, США,ССР, Ближний и Средний Восток*

*Турция стремилась принять участие в демократическом блоке, сформировавшемся в эпоху после Второй мировой войны. Эти усилия были частью политики вестернизации, которая продолжалась в течение*

*столетия, а также советских угроз, которые начали расти после Второй мировой войны. Советский Союз начал требовать землю от Турции после Второй мировой войны, чтобы получить доступ к морям. Страх одиночества, с которым он столкнулся в рамках политики нейтралитета во время войны, хладнокровного отношения Соединенных Штатов и Великобритании, побудил Турцию активизировать эти усилия. В то же время политика Турции, проводимая тревожным сигналом СССР и политическими интересами Соединенных Штатов в регионе, помогла Турции найти свое место в западном блоке.*

*В период холодной войны внешняя политика Турции была в основном сосредоточена на улучшении отношений с западными государствами и в основном с США. Членство в НАТО создало более полный и активный период во внешней политике Турции. В 1952 году Турция была официально принята в НАТО. После этого внешняя политика Турции начала перенаправлять системы обороны на Ближнем Востоке и в Восточном Средиземноморье. В 1960-е годы некоторые изменения были внесены в политику Турции на Ближнем Востоке. Турция отказалась от политики Пакта Багдада.*

## TURKEY'S FOREIGN POLICY DURING THE COLD WAR

***Leyla Nabieva***

**Keywords:** *World war II, Turkey, USA, USSR, Near and Middle East*

*Turkey sought to take part in the democratic bloc formed in the era after the Second World War. These efforts were part of the policy of Westernization, which lasted for a century, as well as the Soviet threats that began to grow after World War II. The Soviet Union began to demand land from Turkey after World War II to gain access to the seas The fear of loneliness, which he encountered as part of the policy of neutrality during the war, the cold-blooded attitude of the United States and Great Britain, prompted Turkey to intensify these efforts. At the same time, Turkey's policy pursued by the alarm signal of the USSR and the political interests of the United States in the region helped Turkey find its place in the western bloc.*

*During Cold War period, Turkish foreign policy was mainly focused on the improvement of relations with the western states and mainly with the USA. NATO membership has created a fuller and active period in Turkey's foreign policy. In 1952, Turkey was officially accepted to NATO. After that, Turkey's foreign policy has begun to redirect defense systems in the Middle East and the*

*East Mediterranean. In the 1960s, some changes were made in Turkey's Middle East policy. Turkey withdrew from Baghdad's Pact policy.*

## Giriş

Soyuq müharibə, İkinci Dünya müharibəsindən sonra ABŞ rəhbərliyində Qərb dünyası ilə SSRİ liderliyində kommunist blok arasında dünya üzərində hakimiyyət qurmaq mübarizəsini ifadə edir. İkinci Dünya müharibəsi ərəfəsində Hitlerə qarşı birləşmiş olan qüvvələr, müharibədən sonra dünya üzərində nüfuz uğrunda mübarizəyə başladılar. Müharibədən sonra Türkiyə Qərb blokuna yaxınlaşmağı üstün tutdu.

Türkiyənin müharibədə yürütmüş olduğu tərəfsizlik siyasəti nəticəsində müharibənin qalibləri tərəfindən tənqidlərə məruz qalması, İnönü (1938-ci il M.K.Atatürkün ölümündən sonra Türkiyə Böyük Millət Məclisi tərəfindən ikinci Prezident seçilmişdir) başda olmaqla iqtidarda Sovet təhdidləri qarşısında yalnız qalmaq qorxusu yaratdı. İnönü Türkiyənin demokratik dünya tərəfində yer alması üçün çoxpartiyalı siyasətə keçid kimi daxili və xarici siyasətə təsir edə biləcək siyasət yürütmək məcburiyyətində qaldı. Bu bir mənada Atatürkün modernləşmə və təlükəsizlik istiqamətli siyasətinin davamı idi. Soyuq müharibənin başlanğıcında Türkiyənin xarici siyasətinin əsas hədəfi Sovet təhdidlərindən ölkəni qorumaq, iqtisadi və siyasi sahədə Qərb ölkələri ilə əlaqələri inkişaf etdirmək idi. Bu səbəbdən Türkiyə Soyuq müharibə siyasətinin bölgədə vacib iştirakçılarından olmaqdan çəkinməmişdir. Türkiyənin bu cəhdləri Sovet təhlükəsinə qarşı müttəfiq axtarmaqla yanaşı, eyni zamanda, pisləşmiş olan iqtisadiyyatını inkişaf etdirmək məqsədi güdürdü. Bu ikiyönlü siyasət nəticədə Vaşinqtonun Türkiyənin xarici siyasətinə rahatca daxil olmasını asanlaşdırdı.

## Soyuq Müharibə İllərində Türkiyənin Xarici Siyasəti

“Soyuq Müharibə” həm ABŞ, həm də SSRİ-nin daxili və xaricində hadisələrin qarışıq təsirlərindən qaynaqlanırdı. Mühafizə axtarışları, müharibədən sonra yenidənqurma ehtiyacları, Stalinin şəxsiyyəti, ideologiyanın rolu SSRİdəki daxili təsirlər, Amerikadakı öz müqəddəratını özü həll etmək, kommunizm qorxusu, Amerikan iqtisadi gücü və atom bombaları təhlükəsi qarşı-qarşıya gəldiyi üçün, müharibə daha da təhlükəli oldu [13].

1947-ci ildən etibarən “Soyuq müharibə” gerçəyini qəbul etmiş Amerika 1949-cu ildə yeni bir hərbi ittifaqın əsasını qoydu. Beləliklə ABŞ, Kanada, Danimarka, İrlandiya, Norveç, Portuqaliya, İngiltərə, Fransa, Belçika, Hollandiya və Lüksemburq arasında Şimali Atlantika Paktı imzalanaraq, NATO

təşkilatı quruldu. Bu təşkilat qurulduğu gündən etibarən Türkiyə buraya üzv olmaq üçün müraciətlər etməyə başladı. 11 May 1950-ci ildə Ankara NATO-ya üzv olmaq üçün rəsmi müraciət etdi. Bu arada Qərb ilə bütünləşmə siyasətini yürüdən Türkiyə 1949-cu ildən etibarən Avropa Şurasına üzv olmuş və 1950-ci il 1 May seçimləri və Demokrat partiyasının iqtidara gəlməsi ilə ölkədə liberal siyasi dövr başlamış oldu. 1950-1953-cü illərdə Şimali Koreya ilə Cənubi Koreya arasında müharibə başladı. Bu müharibənin SSRİ-nin təsiri ilə başladığını düşünən Amerika ölkələri Koreyaya əsgər göndərməyə çağırdı. Türkiyə bu müharibənin Türkiyənin NATO-ya daxil olması üçün bir fürsət olduğunu düşünüb, Amerikadan sonra Koreyaya əsgər göndərdi ki, bu da ölkə daxilində bəzi anlaşmazlıqları meydana çıxartdı. İki fikir meydana çıxdı: müharibəyə əsgər göndərməyə müsbət yanaşanlar və mənfi yanaşanlar [2] .

Atlantik ittifaqının Cənub Qərb qanadını zəmanət altına almaq istəyən Amerikan idarəsi 15 May 1951-ci ildə Yunanıstanla birlikdə Türkiyənin NATO-ya qəbulunu təşkilata təklif etdi. Sovet İttifaqı ilə ortaq sərhədlərinin olmasından çəkinən Danimarka və Norveçin tərəddüdlərinə baxmayaraq, Balkanlar Şurası 1951-ci il sentyabrında səs birliyi ilə Türkiyə və Yunanıstanı üzvlüyə qəbul etdilər. 18 Fevral 1952-ci ildə Türkiyə rəsmən NATO üzvü oldu.

Bu illərdə Türkiyə Soyuq müharibədə ABŞ tərəfindən çıxış etməsini də özünə üstünlük bilirdi. Türkiyə ABŞ ilə Koreya müharibəsinə qatıldı, 1952-ci ildə NATO-ya üzv oldu, 1957-ci ildə Eyzenhauer Doktrinasını rəsmən açıqlamasa da, qəbul etdi.

1948-ci ildə İsrail dövlətinin yaranması Türkiyə-ABŞ münasibətlərinin Yaxın Şərqdə təyinedicisi oldu. İsrail dövlətinin qurulduğu dövrdən dəstək verən tək müsəlman ölkəsi Türkiyə idi. Buna görə də Türkiyənin ərəb ölkələri ilə münasibətləri daim məsafəli olmuşdur [9]. Türkiyənin belə davranmasının səbəbi iqtisadi vəziyyətin düzəlməsi üçün ABŞ-dan gələcək maddi kömək idi. Bu yardımın gəlməsi, əldə edilməsi üçün Türkiyə bir neçə liberal addımlar da atdı. Lakin 1950-ci illərin ortalarında iqtisadi vəziyyəti ağırlaşan Türkiyə ABŞ-dan istədiyi yardımı ala bilmədi və Amerika ilə bağlı ümidlərini azaldaraq, xarici siyasətini Avropaya yönəltməyə başladı ki, buna ABŞ da müsbət reaksiya verdi. Türkiyə 1959-cu ildə  Avropa ilə Ortaq bazara qoşuldu [1]. Buna baxmayaraq, Türkiyə ABŞ-ın siyasi xəttindən çox çıxmadı və hətta 1958-ci il İraqda olan çevrilişdən sonra Türkiyədəki raketlərin NATO məqsədlərindən kənarda istifadə edilməsinə icazə verdi. Ankara 1959-cu ildə Yunanıstanın rədd etdiyi raketlərin Türkiyə ərazisində yerləşdirilməsinə də icazə verdi.

1952-ci ilə qədər Türkiyənin gündəmində olan əsas məsələ Türkiyənin NATO-ya daxil olması idi. 14 May 1950-ci ildə Demokrat partiyası hakimiyyətə gəldikdən sonra Kipr problemi ilə maraqlanmağa başladı və bu tarixdən etirbarən Yunanıstan ilə Türkiyə arasında Kiprin statusu problemi yaşanmağa başladı.

1960-cı illərdə Türkiyə xarici siyasətində NATO hələ də əsas yer tuturdu. 1960-cı ilin 27 mayında Türkiyədə ordunun hakimiyyəti ələ keçirməsindən sonra xarici siyasətdə Ərəb ölkələri və bitərəf ölkələrlə əlaqələri inkişaf etdirmək kimi yeni yönlər meydana gəldi. Lakin bu illərdə Türkiyə daxilində ABŞ əleyhinə düşüncələr artmağa başladı. Bitərəf ölkələr qrupu da bir tərəfdən Türkiyə - ABŞ münasibətlərinə təsir göstərirdi ki, bu da münasibətlərdə özünü mənfi büruzə verirdi. Münasibətlərin pisləşməsinə səbəb olacaq bir neçə hadisəni misal göstərmək olar. ABŞ və SSRİ arasındakı soyuq müharibəni nəzərə alan İnönünün ABŞ-a dəstək çıxmasına baxmayaraq, 1960-cı ildə SSRİ üzərində uçmaqda olan U-2 casus təyyarəsinin vurulması səbəbilə meydana çıxan narazılıqlar, 1962-ci ildə Kuba böhranı zamanı Türkiyənin fikri, mövqeyi və mənafeyi nəzərə alınmadan ABŞ-ın Yupiter raketlərini Türkiyə ərazisindən çıxartmaq qərarı da həmin illərdə Türkiyə-ABŞ münasibətlərinin pisləşməsinə səbəb olan hadisələrdən idi. Münasibətlərə təsir göstərən digər səbəblərdən biri də, 1963-1964-cü illərdə Kiprdə baş verən hadisələr zamanı ABŞ-ın Yunanıstanın tərəfini tutmasıdır. Kipr hadisələri zamanı ABŞ Prezidenti Conson İnönüyə yazdığı məktubunda Amerika silahlarının Kiprdə istifadə edilməsini qadağan etmiş və Türkiyəyə bu səbəbdən gələcək SSRİ təhlükəsi zamanı NATO razılaşmasının işləməyəcəyini bildirdi və bu da o dövrdə münasibətlərdə problemlər yaratmağa başladı. 1968-ci ildən etibarən tələbə hərəkatları ilə yanaşı, ABŞ əleyhinə çıxışlar da artmağa başladı.

1974-cü il Kipr məsələsi və 1975-1978-ci illərdə Türkiyəyə tətbiq edilən silah embarqosu münasibətlərdə gərginlik yaratdı. Bunlarla yanaşı 1970-ci illərdə Avropa ilə əlaqələrin yaxşılaşdırılmasına çalışılmışdı. Öz iqtisadi çətinliyini də nəzərə alan Amerika buna müsbət yanaşırdı. Bu illərdə petrol embarqosu və Kipr məsələsində ABŞ-ın silah embarqosunun birləşmiş təsirləri Türkiyənin iqtisadi böhrana girməsinə səbəb oldu. Lakin 1978-ci ilin sentyabr ayında ABŞ embarqosunun qaldırılması ilə Türkiyə müəyyən qədər də olsa, rahatlaya bildi.

İranda 1979-cu ildə Ayətullah Xomeyninin şahı devirməsindən, Amerika səfirliyinin işğal olunmasından sonra İranla Amerika bir-birindən tamamilə uzaqlaşdılar. 27 dekabrda isə SSRİ qoşunlarının Əfqanıstana girməsi ilə ABŞ Türkiyəyə yaxınlaşmağa başladı. Çünki strateji olaraq Türkiyə ABŞ üçün önəm daşıyırdı [8]. Bu hadisələrin gedişində ABŞ Türkiyəni kriz yaşanan bir bölgədə müttəfiq olaraq görürdü. İraqla İran arasında 1980-ci ildə başlayan və 8 il davam edən müharibə də Türkiyənin strateji mövqeyini daha da artırmışdı. Türkiyə-ABŞ münasibətlərində yumşalmaya təsir edən ən önəmli hadisələrdən biri də 1980-ci ildə Müdafiə və İqtisadi əməkdaşlıq müqaviləsinin imzalanması oldu. Bu illərdə Qorbaçov da Şərq-Qərb əlaqələrində bəzi dəyişikliklər etdi.

1947-ci ildə Truman doktrinası ilə sıx əlaqələrə girən və NATO-ya üzv olaraq aralarındakı əlaqələri ittifaq səviyyəsinə çıxaran Türkiyə və Amerika

Birləşmiş Ştatları bundan sonrakı siyasi və hərbi əlaqələrini NATO çərçivəsində imzaladıqları dəyişik anlaşmalarla davam etdirdilər. Bu baxımdan, iki dövlət arasındakı münasibətləri ittifaqlar və anlaşmaları nəzərə alaraq araşdırmaq, daha faydalı olar. Ümumi baxıldıqda Türkiyənin üç əsas səbəblə ABŞ-la ittifaq qurduğunu deyə bilərik. Bunlar daxili və xarici təhlükəsizliyi qorumaq, hərbi və iqtisadi yardımlar əldə etmək və qərb tipli dövlət quruluşunu inkişaf etdirmək idi. Amerika idarəçilərini isə Türkiyə ilə ittifaq qurmağa çəkən əsas səbəb isə ABŞ-ın Yaxın və Orta Şərq bölgəsində olan mənfəəti və SSRİ-ni mühasirə etmək siyasəti baxımından Türkiyənin malik olduğu mövqenin əhəmiyyəti idi [6].

Türkiyə İkinci Dünya müharibəsindən sonra Yaxın və Orta Şərq bölgəsində bir mühafizə sistemi qurmaq istədi və nəticədə Ankara 1955-ci ildə Bağdad ilə "qarşılıqlı əməkdaşlıq anlaşması" imzalandı. Bu anlaşma ilə "Bağdad Paktı" quruldu. Burada üzv ölkələrinin bir-birinin işinə qarışmayacağı, aralarında meydana gələcək anlaşmazlıqları sülh yolu ilə həll edəcəkləri və ərəb dövlətləri ilə bölgənin təhlükəsizliyi yönündən əlaqəli bütün dövlətlərin Pakta qoşulmasına müsbət yanaşılacağı qeyd edilirdi. Misir ilə Suriya İraqı kənarda saxlayacaq bir şəkildə əməkdaşlıq edəcəklərini bildirdilər. Buna qarşılıq olaraq 5 aprel 1955-ci ildə İngiltərə bu Pakta qoşuldu. Bu vəziyyət Türkiyə-Ərəb və Türkiyə-SSRİ münasibətlərinə mənfi təsir göstərdi. 23 sentyabrda Pakistan, 3 noyabrda İran pakta daxil oldular. 14 iyul 1958-ci ildə İraqda inqilab oldu və bununla əlaqədar Paktın mərkəzi Ankaraya köçürüldü. 24 mart 1959-cu ildə İraq Bağdad Paktından tamamilə çəkildiyini bildirdi. Paktın adı dəyişdirilərək "Mərkəzi andlaşma təşkilatı" (CENTO) oldu. 12 martda Pakistan və İranın da bu təşkilatdan ayrılması ilə təşkilat tamamilə dağıldı [1].

1960-cı illərdə Türkiyənin Yaxın və Orta Şərq siyasətində bəzi dəyişikliklər yarandı. Türkiyə Bağdad paktı dövründəki siyasətindən uzaqlaşdı. 27 may hərbi çevrilişindən sonra yeni rəhbərlər tərəfindən yayılmış olan bir bildirişdə Türkiyənin bundan sonra müstəqillik mübarizələrini, xüsusilə də Əlcəzairin mübarizəsini dəstəkləyəcəyi açıqlandı. Hətta bəzi dönəmlərdə Fransa ilə Əlcəzair arasında vasitəçi olmaq kimi cəhdlər də edildi. Ancaq bəzi problemlər meydana çıxdı. 1961-ci ildə Suriya, 1958-ci ildə isə Misir Birləşmiş Ərəb Cümhuriyyətindən ayrılmaq qərarı verdilər. Türkiyə bu qərarı tanıdı. Buna görə də, bu dönəmdən sonra Misir Türkiyə ilə siyasi əlaqələrini dayandırdı. Lakin 1967-ci ildə Misirlə yenidən yaxınlaşma başladı [3, s. 14-15].

1967-ci ildə ərəblərlə İsrail arasında yeni bir müharibə olacağı görünürdü. Suriya ilə İsrail arasında olan müharibəyə münasibətini bildirmək üçün Misir Prezidenti Nasir 1956-cı il müharibəsindən sonra Sina yarımadasına yerləşdirilmiş olan Birləşmiş Millətlər qüvvələrinin çıxarılmasını tələb etdi. Türkiyə hökuməti belə bir vəziyyətdə İsrailin Misirə dərhal hücum edəcəyi xəbərdarlığını etdi. Lakin Nasir fikrindən dönmədi. İsrailə qarşı hərbi

əməliyyatlara başladı. 6 gün davam edən müharibədə İsrail Sina yarımadasını, Qəzzanı, Şərqi Qüdsü tutdu. Müharibədən sonra Türkiyə Prezidenti Süleyman Dəmirəl Nasirə məktub göndərdi və Misirin sərhədlərinin yenidən əvvəlki vəziyyətə qaytarilmasını bildirdi. 22 iyunda keçirilən Birləşmiş Millətlər Təşkilatının iclasında Türkiyə İsrailin güc ilə torpaqlarını genişləndirməsinin düzgün olmadığını bildirən qərara ərəb ölkələri ilə birlikdə razılıq imzası atdı. Bu hadisədən sonra Misir başda olmaqla Ərəb ölkələrinin Türkiyəyə dəstək üçün təşəkkür etmələri, bu ölkəyə artıq bölgədə daha çox müsbət tərəfdən yanaşıldığını göstərdi. 1970-ci illərdə Türkiyənin İslam Konfransı Təşkilatına qatılması da özünü müsəlman ölkə kimi Orta Şərqdə tanıtmasına səbəb oldu [3, s.16].

Türkiyə ilə Suriya arasındakı problemlərin başlanğıcı Fransa tərəfindən Suriyaya müstəqillik verilməsini nəzərdə tutan 1936-cı il anlaşmasıdır. Suriya 1946-cı ildə müstəqilliyini qazandığı gündən etibarən Hatay üzərində haqq iddia etməyə başladı. BAAS partiyasının hakimiyyətə gəlməsilə birlikdə Suriya Hatayın birləşdirilməsini milli hədəf halına gətirdi. Livan, İordaniya və Fələstini də əhatə edən “Böyük Suriya” ideologiyası çərçivəsində dəyərləndirilən Hataya dair Suriya iddiaları bu gün də Türkiyə-Suriya münasibətlərinə təsir edən səbəblərdəndir [7].

6 oktyabr 1973-cü ildə başlayan ərəb-İsrail müharibəsində Türkiyə ərəbləri dəstəkləməyə davam etdi. Belə ki, ABŞ-a İsrailə yardım üçün İncirlik bazalarından istifadə etməyə icazə verməsə də, ərəblərə yardım aparan SSRİ təyyarələrinin Türkiyə ərazisindən keçməsinə göz yumdu. Ərəblər də öz növbəsində Türkiyənin bu hərəkətini qarşılıqsız qoymadılar. OPEC üzvləri Türkiyənin neft ixrac məhdudiyyətlərindən azad olunacağını bildirdilər.

Türkiyə 1970-ci illərdə Fələstin Qurtuluş Təşkilatı ilə əlaqələr qurmağa başladı. 1975-ci il yanvar ayında onları tanıdı və hətta onlara Ankarada büro açmağa icazə verdi. Buna baxmayaraq, Orta Şərq siyasətinin əsas prinsiplərindən uzaqlaşmadı və İsrail ilə əlaqələrini davam etdirdi. 1977-ci il Kemp Devid razılaşmasına əsasən İsrail ilə Misir arasında barışıq razılaşması oldu və bütün ərəb dünyası Misir ilə əlaqələrini kəsdiyi bir vaxtda, Türkiyə Misir ilə əlaqələri davam etdirdi.

Türkiyə-İran əlaqələri də Türkiyənin Orta Şərq siyasətinin bir hissəsidir. 1979-cu il çevrilişindən sonra İranda olan yeni idarə sistemi Türkiyə ilə tam əks mövqedə idi və iki dövlət arasında inamsızlıq və şübhələr meydana gəlirdi. Ancaq buna baxmayaraq, Tehrandakı ABŞ səfirliyinin işğal edilməsindən sonra İrana qarşı embarqo tətbiq edən ABŞ-ı Türkiyə bu mövzuda dəstəkləmədi. Çevrilişdən sonra İranda hakimiyyəti Ayətullah Xomeyni ələ keçirdi. Ən böyük neft ixracatçılarından olan İrandakı bu hadisələr neft qiymətlərinin artmasına səbəb oldu. ABŞ və Qərbi Avropa 1979-1980-ci ildə neft şoku yaşadılar [4]. İran ilə sərhədi olan SSRİ bu İslam çevrilişinin Orta Asiyadakı müsəlman

ölkələrinə də təsir edəcəyindən çəkinirdi. Bu hadisənin təsirindən 1979-cu ildən İraqda hakimiyyətdə olan Səddam Hüseyn neft baxımından zəngin olan Aşağı Fərat vadisindəki çəkişmə mövzusu olan torpaqları ələ keçirmək üçüm fürsətdən istifadə etdi. İran-İraq müharibəsi 1980-ci ilin sentyabrında başladı. Həmin dönəmin Türkiyə Prezidenti olan Turqut Özal müharibənin bitməsi üçün vasitəçilik etməyə çalışdı. Lakin bu cəhd hər iki ölkə tərəfindən rədd edildi. Çünki bu hadisədə hər iki tərəf özünü haqlı bilirdi və hər iki tərəfin digər tərəfi günahlandırmaq üçün özünə görə arqumentləri var idi. 4 sentyabr hadisəsi İraq Xarici İşlər Nazirliyinin açıqlamasında belə qeyd edilir: 1980-ci ilin iyun ayından sentyabr ayına qədər iranlılar sərhəddə yerləşmiş şəhər və kəndlərdə, yollara, sərhəd postlarına qarşı 187 pozuntu xarakterli hərbi əməliyyat keçirmişlər və müharibə də buna görə başlamışdır. İran hökumətinin açıqlamasına görə isə müharibənin başlamasına səbəb 22 sentyabrda İraqın hava, dəniz və qurudan birbaşa hücuma keçib İran torpaqlarını işğal etməyə başlamasıdır [12].

## Nəticə

II Dünya müharibəsindən sonra Türkiyə təhlükəsizliyini qorumaq məqsədilə Qərb ölkələrinin birliyinə daxil olmaq üçün daha çox cəhdlər etdi. Türkiyə təkyönlü, qərbyönümlü siyasət yürütməyə başladı. Xüsusilə, 1947-ci il Truman doktrinası ilə başlayan maddi yardımlarla birlikdə Vaşinqtonun Türkiyə siyasətinə təsiri daha da artdı. Ancaq bu Türkiyənin tamamilə ABŞ-ın idarəsinə keçməsi demək deyildi. Türkiyə bölgədə baş verən hadisələrə öz təsirini göstərə bilirdi.

İkinci Dünya müharibəsinin sonunda SSRİ-nin Şərqi Avropada yürütdüyü siyasət Ankaranı qorxudurdu. Coğrafi mövqeyinə görə qlobal siyasətin maraqlarının kəsişdiyi bir mövqedə olması Türkiyənin bir tərəf tutmasını labüd edirdi. Bu vəziyyətdə Yaxın və Orta Şərq ölkələri ilə yaxınlaşmaq bir o qədər də məntiqli görsənmirdi. Türkiyənin Soyuq Müharibə siyasətinə özünü daxil etməsi əslində bir məcburiyyətdən irəli gəlirdi. Qərb ölkələri qrupuna daxil olmaq bir yandan Sovetlərə qarşı həm təhlükəsizliyini qorumaq, həm də Türkiyə ordusunun daha da modernləşməsini sürətləndirmək məqsədi güdürdü. Bu illərdə Qərblə olan münasibətlər sayəsində Türkiyə yalnızlıqdan çıxmış oldu.

## ƏDƏBİYYAT

1. Alnıak O., Bolcan A., Bolat P., Orta Doğunun Stratejik ve Entellektüel Gücü Türkiye //Dünya Jeopoltiğinde Türkiye, editör Çomak H.,İstanbul: 2011.

2. Cemil Koçak Türkiyede iki partili siyasi sistemin kuruluş yılları (1945-1950) İkinci parti. Cilt 1. İstanbul: İletişim yayınları. 2010. 976 s.

3. Türkmen İ., Türkiye Cümhuriyyetinin Ortadoğu politikası, Orta Doğuda Değişim ve Türkiye, editör Atilla Sandıklı, Erdem Kaya, İstanbul 2014, 37 s.

4. Göktepe C., Seydi S. Soğuk savaş başlangıcında Türk dış politikası / Ahmet Yesevi üniversitesi, Bilig Türk dünyası sosyal blimler dergisi, sayı 72, Ankara: 2015. s. 197-222

5. Türkmen İ., Türkiye Cümhuriyyetinin Ortadoğu politikası // Bilge adamlar starejik araştırmalar merkezi, Orta Doğuda Değişim ve Türkiye, İstanbul: 2014, s.1-39

6. Uslu N., The Turkish- American Relationship between 1947 and 2003: the history of a dinstinctive alliance. New York : Nova Science publishers. 2003. 364 s.

7. Uzgel İ., Türk Dış Politikasında Pragmatizm // Çağdaş Türk Diplomasisi 200 Yıllık Süreç, Ankara: 15-17 Oktyabr 1997 tarixli simpozium materialları toplusu. 802 s.

8. İşyar Ö. G., Türk dış politikası sorunlar ve süreçler, Bursa 2017, 648 s.

9. Türkmen F., Türkiye ABD İlişkileri, İstanbul: 2012, Timaş yayınları. 400 s.

10. Toker M., DP-nin altın yılları. Ankara: Bilgi yayınevi. 2003. 296 s.

11. Geçikli R. M., Menderes Hükümetleri Dönemi Türkiye-ABD ilişkileri. İstanbul: 2016, 632 s.

12. Zemzemi A. M. T,, The İraq-İran war İslam and nationalisms, USA California:USA publishing company, 1986, 298 s.

13. John Lewis Gaddis The United States and the origins of the Cold War 1941-1947. New York: Columbia University press. 1972 396 s.

UOT 94(479.24)

# ABBASQULU AĞA BAKIXANOV: TARİXƏ BAXIŞ

*(Abbasqulu ağa Bakıxanovun 225 illik yubileyi münasibətilə)*

***Naibə Əhmədağa qızı Əhmədova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***naiba_66@mail.ru***

**Açar sözlər:** *tarixşünaslıq, şərq dillərinin bilicisi, Gülüstani-İrəm, vətənpərvər maarifçi, çarizm*

*XIX əsrin I yarısında Azərbaycanın ən qabaqcıl nümayəndələrindən biri A.Bakıxanov Azərbaycan xalqının müqəddaratını rus xalqının müqəddəratı ilə bağlamağa çalışan tərəqqipərvər adamların ideya rəhbəri idi. O, rus xalqının və onun dahi nümayəndələrinin yaratdığı mədəniyyətin köməyi ilə Azərbaycanın inkişaf etməsi və maariflənməsi üçün düzgün yol göstərmişdir. A.Bakıxanov Rusiyanın o zamankı qabaqcıl adamları olan Puşkun, Qriboyedov və Bestujev-Marlinskinin həmçinin Qafqaza sürgün edilən bir sıra dekab-ristlərin ən yaxşı dostu və tərəfdarı idi. O, tarixçi, filosof, şair, nasir, astronom, coğrafiyaşünas və müəllim idi. Onun əsas məqsədi öz xalqını maarifləndirmək, Azərbaycanda geriliyi və cəhaləti aradan qaldırmaq idi. O, yaxşı başa düşürdü ki, xanlıq dövründə Azərbaycanda ictimai həyatın durğun olmasının səbəbi ölkənin geri qalmasının nəticəsi idi.*

# АББАСГУЛУ АГА БАКИХАНОВ: ОБЗОР ИСТОРИИ

*(К 225-летию со дня рождения Аббасгулу ага Бакиханова)*

***Наиба Ахмедова***

**Ключевые слова:** *историография, знаток восточных языков, Гюлистани – Ирем, патриотический просветитель, царизм*

*В первой половине XIX в. А. Бакиханов, один из ведущих представителей Азербайджана, был лидером прогрессивного народа, который пытался покорить народ Азербайджана с предубеждением русского народа. Он проложил правильный путь развития и огромного развития Азербайджана через культуру русского народа и его великих*

*представителей. А.Бакиханов был лучшим другом и сторонником выдающихся людей России, таких как Пушкин, Грибоедов, Бестуев-Марлинский, а также ряда декабристов, депортированных на Кавказ. Он был историком, философом, поэтом и проституткой, астрономом, географом и учителем. Его главная цель состояла в том, чтобы обучить его людей, чтобы устранить напряженность и невежество в Азербайджане. Он хорошо понимал, что причина стагнации общественной жизни в Азербайджане во время ханства была результатом отступления страны.*

## ABBASGULU AGA BAKIKHANOV: REVIEW OF HISTORY

*(To the 225th anniversary of the birth of Abbasgulu aga Bakikhanov)*

***Naiba Ahmedova***

**Keywords:** *historiography, expert on oriental languages, Gulustani-İram, patriotic enlightener, tsarizm*

*In the first half of the 19th century, a. bakikhanov, one of the leading representatives of Azerbaijan, was the leader of the progressive people who tried to conquer the people of Azerbaijan with the bias of the Russian people.He laid the right path of development and the tremendous development of Azerbaijan through the culture of the Russian people and its great representatives. A. Bakikhanov was the best friend and supporter of the outstanding people of Russia, such as Pushkin, Griboedov, Bestuyev-Marlinsky, as well as a number of Decembrists, who were deported to the Caucasus. He was a historian, philosopher, poet and prostitute, astronomer, geographer and teacher. His main goal was to educate his people in order to eliminate tensions and ignorance in Azerbaijan. He understood that the reason for the stagnation of public life in Azerbaijan during the Khanate's period was the result of the country's retreat.*

XIX əsrin birinci yarısında yaşamış görkəmli Azərbaycan tarixçisi, maarifpərvəri, yazıçısı və şairi, Azərbaycan və Dağıstan tarixinə dair ilk əsaslı tədqiqat əsərinin müəllifi Abbasqulu ağa Bakıxanov (Qüdsi ) olmuşdur.

A.Bakıxanov 1794-cü ildə Bakı xanlığının Əmircan kəndində anadan olmuşdur. O, Bakı və Quba xanlarının nəslindəndir, 1802-ci ildə onun atası öz ailəsi ilə birlikdə Bakını tərk edib Qubaya köçmüşdür. Bakıxanov həmin şəhəri özünün ikinci vətəni hesab edirdi. A.Bakıxanov Qubada yaşadığı uzun illər ərzində fars və ərəb dillərini, Şərq ədəbiyyatı və fəlsəfəsini öyrənirdi.

1819-cu ildə Qafqazın baş hakimi general A.P.Yermolov Bakıxanovu Tiflisə dəvət etmiş və şərq dilləri tərcüməçisi vəzifəsinə təyin etmişdi. Tiflisdə olduğu zaman Zaqafqaziya xalqları və rus xalqı mədəniyyətinin bir sıra görkəmli nümayəndələri ilə əlaqə saxlayan Bakıxanov rus dilini mükəmməl öyrənir, rus ədəbiyyatı və tərcümə olunan Qərbi Avropa ədəbiyyatı ilə müntəzəm surətdə tanış olur və qabaqcıl ictimai fikrin ideyaları ilə yaxınlaşır. Rus yazıçısı dekabrist A.A.Bestujev – Marlinski A.Bakıxanovun "olduqca savadlı, öz alimliyi ilə məşhur" bir adam olduğunu göstərmişdi [2, s.131]. Bakıxanov rus ədəbiyyatının mütərəqqi əhəmiyyətini dərindən başa düşmüş və onun öyrənilməsinə səs vermişdi.

Azərbaycan və bütün Qafqazın Rusiyaya birləşdirilməsi tərəfdarı olan A.Bakıxanov Rusiya hərbi – diplomatik xidmətində olduğu zaman 1826-1829-cu illərdə İran və Türkiyə ilə müharibələrdə və Türkmənçayda Rusiya və İran arasındakı sülh danışıqlarında iştirak etmişdi. Həmin dövrdə Bakıxanov Qafqazda baş komandanın qərargahı yanında Yaxın Şərqlə diplomatik əlaqələr şöbəsinin müdiri olan böyük rus yazıçısı A.S.Qriboyedovla xüsusən sıx əlaqə saxlayırdı. Qafqazda rus qoşunlarının baş generalı olan Paskeviç Rusiyanın xarici işlər naziri Nesselrodeyə yazdığı 30 noyabr 1833-cü il tarixli məktubunda bildirirdi: "Gürcüstana gəlib onun qabiliyyətini və nəcib keyfiyyətlərini görərək, onu tam etibarla diplomatik işlərdə saxlamaqda davam etdim. İran müharibəsində Abbasqulu ağanın xidmətindən mən xüsusilə razıyam: Onun İran dilini mükəmməl bilməsi və yorulmaq bilməyən fəaliyyəti çox faydalı oldu. İran sarayı ilə bütün yazışma demək olar onun vasitəsilə aparılırdı və beləliklə bizim İran ilə bütün münasibətimiz və İran siyasətimizin bütün gedişi ona məlum olmuşdur" [2, s.50]. A.Bakıxanov hərbi əməliyyatda və diplomatik danışıqlarda iştirak etdiyinə görə dəfələrlə ordenlərlə təltif edilmişdi. Bir qədər sonra ona polkovnik rütbəsi verilmişdi.

20-ci illərin sonu – 30-cu illərin əvvəllərində, A.Bakıxanov Tiflisdə qulluq etdiyi illərdə M.F.Axundov, M.Ş.Vazeh, erməni alimi və yazıçısı X.Abovyan, gürcü ədəbiyyatının görkəmli nümayəndələri Q.Orbeliani, A.Çav-çavadze, N.Baratişvili, rus şairi Y.Polonski, polyak şairi T.Lado- Zablotski, fransız səyyahı qraf Suzane, alman alimi Karl Kox və başqaları ilə dostluq edirdi. A.Bakıxanovun maarifçilik baxışları həmin dövrdə daha da inkişaf etmişdi. Onun elmi yaradıcılığı xronikaçı tarixçilərin əsərlərindən xeyli fərqlənirdi.

A.Bakıxanov 1833-cü ildə Rusiyaya səyahətə çıxmışdı. O, Moskvanı və Peterburqu gəzmiş, Ukraynada olmuş və görkəmli alim, şair və yazıçılarla, incəsənət xadimləri və dövlət məmurları ilə görüşmüşdü. Bakıxanov özünün yazdığı kimi, həmin görüşlər onun təcrübə və biliyini zənginləşdirirdi. Bakıxanovun hələ Qafqazda ikən tanış olduğu A.Puşkinlə görüşləri ona xüsusilə böyük təsir bağışlamışdı.

A.Bakıxanov Peterburqda böyük şairin ailəsi ilə tanış olmuşdu, Puşkinin evində böyük təntənə ilə qəbul edilmişdi. Bu münasibətlə şairin atası öz qızı O.S.Pavlişşevaya yazmışdı: "...Yaxın günlərdə Aleksandr bizə Abbas ağanı təqdim etdi.. Abbas əvvəlcə ona heyran olan Aleksandrın yanına gəlmişdi. Bu Şərq oğlu doğrudan da çox maraqlı şəxsiyyətdir. Tam mənasilə təmiz fransız dilində maraqlı söhbəti, incə davranışı, Asiya və Avropaya səyahəti haqqında canlı söhbətləri, onun poeziya ilə dolu romantik macərlarını təsvir etməsi, iştirak etdiyi kampaniyalar haqqındakı danışığı – bütün bunlar bizə çox xoş təsir bağışladı" [5, s.293].

A.Bakıxanov altı ay Varşavada yaşamış və burada Azərbaycan yazıçısı İsmayılbəy Qutqaşınlı, gürcü dramaturqu Georgi Eristavi və O.S.Pavlişşeva ilə görüşmüşdü. Bakıxanov yalnız 1834-cü ildə vətənə qayıtmışdı.

Bundan az sonra Bakıxanov istefaya çıxmış və Qubada sakin olmuşdu. Həmin dövrdə Bakıxanovun dünyagörüşündə yeni dəyişikliklər baş vermişdi. Azərbaycandakı müstəmləkə əsarəti və çar məmurlarının özbaşınalığı Bakıxanovun hiddətinə səbəb olmuşdu. 1837-ci ildə Quba əyalətində üsyan başlanandan az sonra Bakıxanov Qubadan Tiflisə çağrılmış və orada çar hakimiyyət orqanlarının hərəkətlərini pisləmişdi. Hərbi nazir qraf Çernışovun I Nikolaya göndərdiyi raportunda deyilirdi ki, "Abbasqulu Tiflisə gələrək və bir çox bədxah adamlarla birləşərək, yerli rəislərdən narazı olduğunu acıqça bildirir və Quba əhvalatına dair yerli rəislərin hərəkətlərini pisləyirdi". Quba kəndlilərinin üsyanı yatırıldıqdan sonra çar hakimiyyət orqanları Qubaya qayıtmağı və üsyanın təşəbbüskarlarını və fəal iştirakçılarını aşkara çıxarıb cəzalandırmaqda yardım etməyi Bakıxanova təklif etdilər. Lakin Bakıxanov bu təklifdən imtina etdi. O, 1838-ci ilin oktybarında təqdim etdiyi izahat məktubunda bir neçə dəfə göstərmişdi ki, Quba kəndlilərinin üsyanına səbəb çar məmurlarının aldıqları hədsiz vergi və rüsumlar olmuşdur [4, s.123-127].

A.Bakıxanov çarizmin Azərbaycanda qoyduğu qaydaları Azərbaycan feodallarının sinfi mövqelərinə uyğun surətdə tənqid edirdi. Təsadüfi deyildir ki, 40-cı illərin əvvəllərindəki islahatdan Bakıxanov xüsusilə bərk narazı idi və bunu Azərbaycan xanları, bəyləri və ağalarının silki hüquqlarının sıxışdırılması kimi qələmə verirdi. Qafqaz komitəsinin hazırlanması, çağırılması və onun işində Bakı və Quba qəzaları "ali müsəlman silkinin" nümayəndəsi olmaq etibarilə iştirak edən Bakıxanov həmin dövrdə mütləqiyyətin yeritdiyi siyasətə qarşı dəfələrlə çıxış etmişdi. Çar hakimiyyət orqanları Bakıxanovu müxalifətçi əhval-ruhiyyəli adam hesab etməyə başlamışdılar.

1846-cı ildə A.Bakıxanov Məkkəyə səyahət etmişdi. Geri qayıdarkən yolda xəstələnmiş və 1847-ci ilin fevralında Vadii-Fatimədə (Məkkə və Mədinə arasında) vəfat etmiş və buradaca dəfn edilmişdi.

1841-ci ildə A.Bakıxanov Azərbaycan tarixinə dair "Gülüstani – İrəm" [3] əsərini işləyib başa çatdırmışdı. XIX əsrdə Azərbaycanda yerli tarixçilər və

salnaməçilərin bütöv bir nəsli yetişmiş və onlardan hər biri Vətən tarixşünaslığının inkişafına öz töhfəsini vermişdir. Lakin təkzibolunmaz həqiqətdir ki, XIX əsrin I yarısında Azərbaycan tarixi üzrə ən mükəmməl əsəri Abbasqulu ağa Bakıxanov yazmışdır. O, Azərbaycan tarixşünaslığına yeni nəfəs gətirmiş, Avropa və Rusiya tarixşünaslığının o zamankı ənənələrindən bacarıqla bəhrələnərək tarixşünaslıqda zəngin qaynaqlara, mötəbər mənbələrə əsaslanan, yeni tarixnəvislik məktəbinin bünövrəsini qoymuşdur [1, s.58]. Akademik Z.M.Bünyadov "Gülüstani-İrəm" əsərinin 1991-ci il nəşrinin ön sözündə yazırdı ki, XIX əsrin I yarısının görkəmli tarixçisi, filoloqu, şairi, filosofu və ensiklopediyaçı alimi Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm"i (Azərbaycan tarixşünaslığında) akademik planlı ilk monoqrafik tədqiqatdır.

A.Bakıxanovun dünyagörüşünün, o cümlədən də elmi dünyagörüşünün zənginləşib formalaşmasında həyatının Tiflis dövrü böyük rol oynamışdır. Qafqazdakı rus qoşunları baş komandanın dəftərxanasında çalışan, bir çox Şərq dillərini mükəmməl bilən A.Bakıxanov hələ rus-qacar, rus-osmanlı, müharibələrinin gedişində rusların işğal etdikləri müsəlman şəhərlərində ələ keçirilmiş məscid, məqbərə kitabxanalarının, o cümlədən Batumun Cümə məscidinin kitabxanasının, Ərdəbildəki çox məşhur Şeyx Səfi kitabxanasının siyahılarını tərtib edərkən Şərq və Qərb qaynaqları ilə tanış olmuş, həmin məxəzlərdən dürlü-dürlü məlumatlar əxz etmişdir [1, s.58]. Fəaliyyətinin Tiflis dövründə Qafqaz adminstrasiyasının hərbi və siyasi xadimləri, Tiflisə baş çəkən Avropa səyyahları və elm adamları ilə görüşlər, Qafqaz, Ön Asiya və Avropa ölkələrinə səyahətlər bu istedadlı şəxsiyyətin formalaşmasında mühüm rol oynamışdır. A.Bakıxanov özü də yazırdı ki, dövlət xadimləri, elmi və sənəti ilə məşhur olan adamlardan bütün görüb-eşitdiklərindən fayda götürməyə çalışmış, ən sonda isə belə bir nəticəyə gəlmişdir ki, xalqın rifahı ancaq elmdədir.

Azərbaycan elmi ictimaiyyətinin yekdil fikrincə, onun elmi yaradıcılığının zirvəsi "Gülüstani-İrəm"dir. XIX əsrin I yarısında Rusiyanın hərbi-siyasi xadimləri yanında ciddi nüfuza malik olan, görkəmli tədqiqatçı İ.Yenikolopovun fikrincə A.S.Qriboyedovun Şərq üzrə müəllimlərindən olan A.Bakıxanov bu əsəri yaratmazdan öncə tədqiq edilən bölgə üzrə materialları külli miqdarda müxtəlif dilli qədim və orta əsr qaynaqlarından istifadə etmiş, çoxsaylı sinxron tədqiqatlarla tanış olmuşdur. Akademik Z.M.Bünyadov yazırdı ki, bu da Bakıxanovun dövrü üçün elmdə igidlik idi, çünki ona qədər heç bir şərq tədqiqatçısı belə erudisiyaya malik deyildi [1, s.59].

H.Həsənov yazır: Cənubi Qafqazın şərq hissəsində məskunlaşmış xalqların tarixinə aid olan "Gülüstani-İrəm" ilk məxəzlər əsasında müəllifin uzun illər bu sahədə apardığı ciddi tədqiqatın nəticəsində yazılmışdır. Müəllif özü dövlət başçısına və müasirlərinə yazdığı müraciətnamələrində əsər haqqında "Mənim uzun illər zəhmətimin məhsuludur", - deyə qeyd edirdi. Müəllif bu əsərini yazarkən dəfələrlə arxeoloji tədqiqat işləri aparmış, tarixi

abidələrdən, qədim faktlardan, sikkələrdən, padşahların və xanların fərmanlarından, milli əfsanələrdən, dini kitablardan, yaşlı insanların nağıl və rəvayətlərindən, səyyahların səyahətnamələrindən, gürcü və ləzgi salnamələrindən, digər şərq mənbələrindən, qədim yunan, Roma, Azərbaycan, erməni və rus alimlərinin əsərlərindən istifadə etmişdir [1, s.60].

"Gülüstani-İrəm" əsəri Azərbaycan və Dağıstan tarixinin ən qədim zamanlardan 1813-cü ilədək olan dövrünün icmalından ibarətdir. Kitab fars dilində yazılmış, sonra isə görkəmli polyak şairi və mütəfəkkiri T.Lado-Zablotskinin köməyi ilə rus dilinə tərcümə edilmişdir.

A.Bakıxanov çox zəhmətlə tədqiqat işi apararaq, Azərbaycanın keçmişinə dair tarixçilərin, coğrafiyaşünasların, səyyahların əsərlərində və digər materiallarda pərakəndə halda olan çoxlu məlumat toplamışdı. Bakıxanov antik və Şərq dillərində olan hədsiz mənbələrdən istifadə etmiş, Herodot, Strabon, Plutarx, Ammian Marselli, Təbəri, Rəşidəddin, Həmdullah Qəzvini və bir çox digər tarixçilərin əsərini öyrənmişdi. Bakıxanov hələ 1828-ci ildə Cənubi Azərbaycanda olarkən, Ərdəbildə rus komandanlığının əlinə keçən zəngin Şərq əlyazmaları kitabxanasını tədqiq etməklə məşğul olmuşdu. Bu kitabxana sonralar Tiflisə köçürülmüş və burada Bakıxanov Qriboyedovla birlikdə həmin əlyazmaları ilə tanış olmaqda davam etmiş və onların kataloqunu tərtib etmişdi. Bakıxanovun bu qiymətli elmi işi "Tiflisskiye vedomosti"nin səhifələrində işıqlandırılmış və alimin həm də "Dərbəndnanə" əsərinin rus dilinə tərcüməsi üzərində işlədiyi qeyd olunmuşdu. Bakıxanovun şəxsi kitabxanası da Şərq əlyazmaları cəhətdən çox zəngin idi. Böyük rus şərqşünası İ.Berezin göstərirdi ki, həmin kitabxanada onun 253 qiymətli əlyazması vardı. Şərq tarixinə dair əlyazması halında olan mənbələri öyrənməsi Bakıxanova "Gülüstani – İrəm" üzərində işləməkdə çox böyük kömək etmişdi.

Qeyd etmək lazımdır ki, müəllif Azərbaycan və Dağıstanın uzaq keçmişi haqqında məlumat əxz etdiyi mənbələrə tənqidi yanaşırdı. Məsələn, həmin ölkələr haqqında antik və şərq müəlliflərinin verdikləri məlumatı A.Bakıxanov qeyri-qənaətbəxş hesab edirdi. O, maddi və mənəvi mədəniyyət, dil, toponimika abidələrinin kompleksli surətdə tədqiq edilməsinin zəruri olduğunu təkidlə qeyd edirdi. Bakıxanov yazırdı: "Əgər bu ölkənin qəbilələri, kəndləri, binaları və qədim asarı geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır" [3, s.29].

A.Bakıxanov erməni tarixçilərinin əsərlərindən və gürcü mənbələrindən də istifadə edirdi. Görünür, A.Bakıxanov Moisey Xorenskinin V əsrdə yazılmış "Ermənistan tarixi " kitabına və erməni tarixçisi Çamçyanın qələmindən çıxan və 1785-1787-ci illərdə Venesiyada nəşr edilən üç cildlik Ermənistan tarixinə də bələd imiş. Belə fərz edilir ki, Bakıxanov erməni mənbələrindən öz dostu X.Abovyanın köməyi ilə istifadə etmişdir [8, s.195-199].

A.Bakıxanov rus tarixşünaslığına, o cümlədən Karamzinin "İstoriya qosudarstva Rossiyskoqo" əsərinə də bələd idi. O, Qərbi Avropa alimlərinin bəzi əsərlərindən də istifadə etmişdi.

A.Bakıxanovun özünün yazdığı kimi, "Gülüstani – İrəm""... uzun illər davam edən məşəqqətli zəhmətin ... barı" idi. Əsərdə bir sıra orijinal fikirlər vardır. Bakıxanov Azərbaycanın qədim və orta əsrlər tarixinin bəzi mühüm problem məsələlərini irəli sürüb həll etməyə çalışmışdı.

A.Bakıxanovun öz əsərinə yazdığı girişdə Şirvan və Dağıstanın təsviri, həmin ölkələrin əhalisinin mənşəyi və dilləri haqqında maraqlı məlumat verilir. Bakıxanov burada yaşamış əhalinin yerli mənşəyini götərir, sonralar Azərbaycan və Dağıstan ərazisində meydana çıxan dövlətlərin sələfi olmaq etibarilə Qafqaz Albaniyası və Alban dövlətinin tarixinə qısaca toxunur. Bakıxanovun Şirvan və Dağıstanın qədim toponimikası haqqında verdiyi məlumatın da böyük elmi əhəmiyyəti vardır. A.Bakıxanov əsərini müqəddimə ilə başlayır. O, yığcam, lakin dolğun məzmunlu müqəddimədə tarix elminə qısa bir tərif verir, onu cəmiyyət və xalq üçün ən faydalı elmlərdən sayır. Tarixə çox ciddi elmi tələblər nöqteyi-nəzərindən yanaşan müəllif bəşəriyyətin keçmiş həyatını təcrübə adlandırır, həyatı yaxşı qurmaq üçün bu təcrübədən istifadə etməyi lazım bilir. Əsərin müqəddiməsində Azərbaycanın və Dağıstanın qısa coğrafi təsviri, qədim yunan, erməni, ərəb və rus mənbələrinə istinad edilərək bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqqında maraqlı məlumatlar verilir. A.Bakıxanov tədqiq etdiyi bölgədə yaşayan xalqların tarixini mühüm tarixi hadisələrə görə 5 dövrə ayırmış və buna əsasən əsərini 5 fəslə bölmüşdür:

1.İslam dini və ilk islam dövlətinin zühurundan ərəb qoşunlarının bölgəyə gəlməsinə qədər Şirvan və Dağıstan ölkələrində baş verən qədim hadisələr.

2. Ərəb ordusunun Azərbaycana gəlməsindən başlayaraq monqolların istilasına qədər olan dövr.

3.Monqol istilasından Səfəvilərin meydana çıxmasına qədər və Şirvanşahlar sülaləsinin səltənəti dövrü.

4.Səfəvilər dövlətinin zühurundan Nadir şahın vəfatına qədər olan dövr.

5.Nadir şahın vəfatından "Gülüstan" adlı yerdə Rusiya və İran dövlətləri arasında bağlanan sülh müqaviləsinə qədər.

A.Bakıxanov əsərin birinci fəslində "Tarixi-Təbəri", "Tarixe-qozidə", "Nizam-üt-təvarix", "Kitabi-məsalik-ül məmalik", "Xəritət-ül-əcaib" və.s kimi qədim Şərq və başqa mənbələrə istinadən Nuhun tufanı, onun övladları, Yasəf, Ham və Şam nəsilləri, Yəcuc və Məcuc, skiflər, massagetlər, xəzərlər, Sasani hökmdarlarının Azərbaycandakı hakimiyyəti və.s haqqında yarımelmi, yarıməfsanəvi məlumat verir [1, s.61].

Müəllif həmçinin birinci fəsildə antik və Şərq mənbələrinə əsaslanaraq, Şirvan və Dağıstan tarixinin ərəb işğalınadək olan dövrünü işıqlandırır. Kitabda

həmin ölkələrin xalqları və onların qonşuları haqqında, Sasani işğalçılarının hökmranlığı haqqındakı tarixi məlumatlar xalq dastanı materiallarına, habelə Tövratdan və Qurandan götürülmüş əfsanəvi məlumatlara qatışır.

A.Bakıxanov birinci fəslin yarımbölməsini “Qədim rəvayətlər” adlandırmışdır. Bundan sonra müəllif Şirvan və Azərbaycanın qədim şəhərləri haqqındakı məlumatlara toxunur. Sonra kitabda Makedoniyalı İskəndərin Şərqdəki işğallarından, albanlardan və onların istiqlaliyyət uğrunda apardıqları mübarizədən, Dərbənd rayonunda müdafiə istehkamlarının tikilməsindən bəhs edilir.

Kitabın birinci fəslində Zaqafqaziya xalqlarına A.Bakıxanovun bəslədiyi rəğbət və məhəbbət özünü göstərir. O, Zaqafqaziyaya soxulan alanlara qarşı Ermənistanın apardığı müharibələrdən bəhs edən “Artaşes və Artabazd” adlı erməni dastanının məzmununu nağılın əsasına daxil edir. Bu dastanın tarixi mənbə olmamasına baxmayaraq, Bakıxanovun Azərbaycan və Dağıstana qonşu olan xalqların tarixini göstərən məlumatın tarixi tədqiqat əsərinə daxil etməsi son dərəcə maraqlıdır.

A.Bakıxanovun əsərinin ikinci fəslində Azərbaycan və Dağıstanın ərəb xəlifəliyi tərəfindən işğal edilməsi, xəlifəliyin bu ölkələrdəki əsarəti təsvir edilir. Bu və digər fəsillərdə Bakıxanov Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsinin işıqlandırılmasına xüsusi yer verir, Babək üsyanının olduqca tarixi əhəmiyyətini xüsusi olaraq qeyd edir. Son dərəcə maraqlıdır ki, A.Bakıxanov “Azərbaycan” sözünün mənşəyi ilə Babək adı arasında əlaqə olduğunu ehtimal edir. A.Bakıxanov “Gülüstani-İrəm” də məşhur Azərbaycan coğrafiyaşünası Hacı Zeynalabdin Şirvaninin “Riyazüs-səyahə” əsərinə əsaslanaraq Azərbaycan sözünü Babəkin adı ilə əlaqələndirir [1, s.61].

Bakıxanov yazır : “Ehtimala görə, Azərbaycan sözü Azər–Babəkan sözünün ərəbləşdirilmiş şəklidir. Azərbaycan bunun və ya başqa bir Babəkin adından alınmışdır. Bu da qədim fars dilində atəşgah mənasındadır” [3, s.61].

Əsərin ikinci fəsli Azərbaycan və Dağıstan ölkələrinin ərəb işğalçıları tərəfindən istila olunması, ümumiyyətlə, ərəblərin bu ölkələrdəki hakimiyyəti dövrünün tarixinə həsr olunmuşdur. Həmin fəsildə ərəb xəlifələrinin buraya göndərdikləri hakimlər, ərəb-xəzər müharibələri, xarici işğalçılara qarşı Babəkin mübarizəsi, onun Samirədə vəhşiliklə edam olunması haqqında məlumat vardır. Xürrəmilər hərəkatı, Babək üsyanı haqqında verilən məlumat bir qədər müxtəsərdir [1, s.61].

A.Bakixanov Azərbaycan və Dağıstan xalqlarının öz istiqlaliyyəti və azadlığı uğrunda mübarizəsini bir vətənpərvər alim kimi təsvir edir. O, vətən müdafiəçilərinin göstərdikləri rəşadətə heyran qaldığını əsla gizlətmir. Bakıxanov öz vətənini, xalqını sevir və onunla fəxr edirdi. Heç də təsadüfi deyildi ki, o, deyirdi: “Əslimin bu ölkədən olması ilə fəxr edirəm” [2, s.58]. Müəllif həmin fəsildə digər məsələlərlə yanaşı olaraq Dərbəndin VII-IX əsrlərdəki

tarixini ətraflı surətdə təsvir edir, IX-XII əsrlərdəki Şirvan dövlətindən yazır, rusların Azərbaycana yürüşləri haqqında məlumat verir.

Dağıstan əhalisinin icra etdiyi mükəlləfiyyətlər haqqında Bakıxanovun verdiyi məlumatlar da çox maraqlıdır. Bu məlumatlar Azərbaycanın şimal rayonlarında da əhalini əzən vergilər haqqında təsəvvür yaratmağa kömək edir.

Müəllif səlcuqların Azərbaycandakı işğalları və Azərbaycan xalq kütlələrinin səlcuqlara qarşı mübarizəsini qısaca olaraq təsvir edir.

A.Bakıxanovun əsərinin üçüncü fəsli monqolların basqınından Səfəvilər dövlətinin yaradılmasınadək olan dövrdə Azərbaycan və Dağıstan tarixinə həsr edilmişdir. Bu fəsildə monqol işğalları təsvir edilir, Hülakülər, Şirvanşah – Kəsranilər, Qaraqoyunlu, Ağqoyunlu dövlətləri və digər dövlətlər haqqında qiymətli məlumatlar verilir. Fəsildə "Şirvanşahların səltənəti və nəsəbləri haqqında" xüsusi yarımbölmə verilir, burada Kəsranilər sülaləsinin hakimiyyəti dövründə Şirvan taxtındakı hökmranlıq ətraflı surətdə təsvir edilir, Dərbəndilər adlanan sülalənin hakimiyyət başına keçməsindən və s. danışılır Bu fəsildə hülakülərin və teymurilərin hakimiyyəti dövrü işıqlandırılır və Şirvanşahlar səltənətinə dair tarixi məlumat verilir. Bu fəsildə Ağqoyunluların və Qaraqoyunluların mənşəyi, habelə görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi haqqında da maraqlı məlumatlar vardır.

Əsərin ən geniş hissəsi olan dördüncü fəslində Səfəvilər dövlətinin tarixi, Şirvanda və Dağıstanda onun yeritdiyi siyasət işıqlandırılır. Müəllif türklərin Azərbaycana basqınlarından yazır, Səfəvilər dövləti ilə Sultan Türkiyəsi arasındakı müharibələrin tarixini təfsilatı ilə təsvir edir. Bakıxanov həmin dövrdəki Şərq tarixşünaslığının ənənələrinə riayət edərək, I Şah Abbası idealizə edir. O, yazır ki, "Şah Abbas məmləkəti abad etmək və rəiyyətin asayişinə baxmaq işlərində bütün dünyaya məşhurdur. Qoymuş olduğu bir çox mülki və əsgəri qanunlar İran şahları üçün rəhbər olmuşdur" [3, s.127]. Bakıxanov sübut etməyə çalışır ki, Şah Abbas elmlərə və incəsənətə himayə etdiyindən "Böyük" ləqəbini qazanmağa layiq olmuşdu, o, "ədalət və müdriklik idealı" idi [3, s.127]. Bununla bərabər kitabda Şah Abbasın Azərbaycan torpağında apardığı müharibələrin burada törətdiyi dağıntılar və vəhşətlər haqqında heç bir şey deyilmir.

Əsərin ən böyük hissəsini təşkil edən dördüncü fəsli Səfəvi padşahlarının və onların dövlətinin süqutundan sonra Azərbaycan dövlətçiliyinin dirçəldilib möhkəmləndirilməsində mühüm rol oynamış Nadir şah Əfşarın hakimiyyəti dövrünə həsr olunmuşdur. Müəllif "Fütuhati-Əmini", "Tarixi-aləm-arayi-Abbas", Qolikovun "Böyük Pyotrun fəaliyyəti", Ustryalovun "I Pyotrun səltənət tarixi" və s. rus, fars və osmanlı mənbələrindən istifadə edərək, I Şah İsmayıl, I Şah Abbas və Nadir şahın hərbi səfərləri, Rusiya və Osmanlı qoşunlarının Dağıstana və Azərbaycana hücumları, I Sultan Səlim Yavuzun

(1512-1520) qoşunları ilə I Şah İsmayılın (1501-1524) qoşunları arasında gedən məşhur Çaldıran döyüşü haqqında zəngin məlumat toplamışdır [1, s.62].

A.Bakıxanov XVIII əsrin əvvəllərində Azərbaycan və Dağıstanın Xəzər sahili vilayətlərinin rus qoşunları tərəfindən tutulması ilə əlaqədar olan hadisələr üzərində ətraflı dayanır. Bakıxanov həmin hadisələrin tədqiqatçısı olan rus tarixçisi Qolikova istinad edərək, I Pyotrun 1722-ci il iyunun 15-də Həştərxandan Xəzər sahili vilayətlərin əhalisinə göndəridiyi intibahnamənin mətnini verir. Bakıxanov həmin dövrdə İranın hərbi-siyasi vəziyyətini əsasən düzgün təsvir edir. I Pyotrun Dağıstana və Azərbaycana yürüşündən ətraflı danışır. Kitabda Rusiya ilə İran arasındakı 1723-cü il Peterburq müqaviləsi, 1725-ci ildə Rusiya ilə Türkiyə arasında bağlanılan müahidənamə, göstərilən dövrdə həmin dövlətlər arasındakı diplomatik danışıqlar haqqında məlumat verilir.

A.Bakıxanov I Pyotrun fəaliyyətinə müsbət qiymət verərək, onu güclü iradə sahibi, müharibədə və dövlətin idarə işlərində məharəti olan müdrik hökmdar adlandırır. Kitabda deyilir: "Dəfələrlə Avropaya səyahət edərək, kamalat kəsb edib öz şəxsi istedadını artırırdı. O, mülki qanunları və əsgəri intizamını yeni üsul üzrə qurdu. Sülh və müharibə işlərinə fikir verməklə, Rusiyanın qüdrət və şövkətinin artırdı. Məşhur Şved kralını (XII Karlı) məğlub edərək... Peterburq şəhərini bina etdi" [3, s.141-142]. Bu xarakteristikada mübaliğə ünsürləri olsa da, Bakıxanov I Pyotrun fəaliyyətinin mühüm cəhətlərini qısa, lakin obrazlı surətdə göstərə bilmişdir.

A.Bakıxanov Nadir şaha da müsbət münasibət bəsləyir. O, Nadirin yüksəlməsi tarixindən, bu fatehin Türkiyə ilə apardığı müharibələrdən ətraflı yazır. Ümumiyyətlə Nadir şahı idealizə edən Bakıxanov bununla belə qeyd edir ki, öz hökmranlığının son ilində "onun beyninə .... bədgümanlıq fikri və cürbəcür vəsvəsələr yol tapmışdı" [3, s.158]. Digər bir yerdə Nadir şahın hökmranlığının həmin dövrünü təsvir edərək Bakıxanov yazırdı: "Tərəfdarları ilə gözəl rəftarı tərk edərək, zülm və şiddət göstərməyə başladı. Fədakar əmirlər, xanlar və sədaqətli məmurlar səbəbsiz çək-çevirə salınırdılar, amansız cəlladların qılıncı ilə öldürülürdülər, iqtidarlarından artıq tələbat nəticəsində vergi toplayanların çubuğu altında can verirdilər... Nadir şahın abad etdiyi İran ölkəsi özünün zülmündən viranəliyə çevrildi" [3, s.158].

A.Bakıxanov Nadir şah dövlətinin dağılmasının Azərbaycan tarixi üçün mühüm nəticəsini Şirvanın tamamilə İrandan ayrılması və Azərbaycanda "hər bir diyarı müstəqil olaraq bir əmirin hökümət mərkəzinə" [3, s.158] çevrilən ayrı-ayrı xanlıqların meydana çıxmasında görürdü.

Gülüstani-İrəm"in beşinci və son fəsli 1747-ci ildə Nadir şahın ölümündən ta 1813-cü ildə Rusiya və Qacarlar arasında bağlanmış Gülüstan müqaviləsinə qədər olan 60 ildən artıq bir dövrü əhatə edir. Fikrimizcə, bu fəsil

"Gülüstani-İrəm"in ən orijinal hissəsidir. Xanlıqlar dövrünün işıqlandırılması nöqteyi-nəzərindən beşinci fəslin çox böyük elmi əhəmiyyəti vardır [1, s.62].

Bu fəsil Azərbaycan xanlıqlarının XVIII əsrin ikinci yarısındakı tarixinə və XIX əsrin əvvəllərində onların Rusiyaya birləşdirilməsinə həsr edilmişdi. Müəllif hadisələrin təsvirini birinci Rusiya-İran müharibəsinin qurtarmasınadək, yəni 1813-cü ilədək çatdırır. Həmin fəsildə Azərbaycan xanlıqlarının meydana gəlməsi və onlar arasındakı feodal müharibələri haqqında zəngin tarixi material toplamış, həmin dövr Azərbaycanın Qubalı Fətəli xan, Şəkili Hacı Çələbi xan, Məhəmmədəsən xan və başqaları kimi dövlət xadimləri xarakterizə edilmişdir. Fəsildə XVIII əsrdə Rusiya-Azərbaycan münasibətləri, Azərbaycanın Rusiyaya birləşdirilməsinin gedişi haqqında məlumat verilir. Müəllif yazır: "Fətəli xan Qafqaz tarixində diqqətəlayiq sima olaraq öz əqli, səxavəti və təşəbbüskar xarakteri sayəsində yüksəlmişdi. Fətəli xan tədbirli, mərhəmətli, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam idi. O, könülləri ələ almaq və düşməni aldatmaq kimi xüsusi bir məharətə malik idi" [3, s.176].

"Gülüstani-İrəm" əsərində qaniçici İran şahı Ağa Məhəmməd şah Qacarın Zaqafqaziyaya basqını, rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşü, XVIII əsrin son illərində Azərbaycan xanları arasında gedən daxili müharibələr təsvir edilir.

A.Bakıxanov Azərbaycanın Rusiyaya birləşdirilməsi tarixi hadisələrini təsvir etdiyi zaman azərbaycanlıların rus ordusuna göstərdikləri yardım və kömək haqqındakı faktları qeydə alır. Fəsil Gülüstan sülh müqaviləsinin əsas maddələrinin göstərilməsi ilə qurtarır.

A.Bakıxanov əsərinin əvvəlki fəsillərində əsasən Şərq və Avropa alimlərinin əsərlərinə istinad edirsə, beşinci fəsildə o özünün aşkara çıxardığı və ondan əvvəl kimsə tərəfindən istifadə olunmayan tarixi sənədlərə əsaslanır. Bu cəhət isə Bakıxanovun əsərinin elmi qiymətini daha da artırır.

Əsərə müəllifin "Şirvan və ona qonşu olan vilayətlərdən yetişmiş təlifat sahibi və ya başqa bir məziyyətə malik şəxslərin tərcümeyi – halları haqqında" adlandırdığı nəticə əlavə edilmişdir. Burada müəllif Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələri olan Nizami, Xaqani, Əbül Ula, Məhsəti xanım və başqaları haqqında qısa məlumatlar verir. Beləliklə, bu nəticə əsərdə deyilənlərə yekun vurmayıb, ona sanki bir əlavəni təşkil edir ki, burada müəllif təkcə görkəmli Azərbaycan və Dağıstan şair və alimləri haqqında deyil, hətta onların əsərləri haqqında da qısaca məlumat verir.

Gülüstani-İrəm "Nəticə" adlı sonluqla bitir. Nəticə əsərə, sadəcə əlavədir. Burada Azərbaycanın məşhur alimi, yazıçı və şairləri haqqında da qısa məlumat verilir.

A.Bakıxanovun əsərində gətirilən konkret faktik material zəngin Azərbaycan mədəniyyətinin orijinallığını sübut edir. Bununla bərabər Bakıxanov

yadelli işğalçıların basqınlarının mədəniyyətin inkişafına nə dərəcədə ağır təsir etdiyini göstərir. Bakıxanov xalq içərisində özünü böyük elmi əsərlərin yaradılmasında göstərə biləcək qüvvələr yetişməkdə olduğunu tədricən hiss edirdi. O yazırdı: "Əgər bu ölkə əhalisinin təbii istedadını inkişaf etdirmək üçün lazım gələn asayiş və tərbiyə üsulları yaradılsaydı, o zaman bunlar nə böyük tərəqqiyə nail olardılar! Çoxlu qoşunkeşlik və mütəmadi müharibələrin yaratdığı xarabalıqlara baxmayaraq, onlardan bir çoxu özünün elm və hünəri ilə bütün dünyada şöhrət qazanmışdır" [3, s.204].

A.Bakıxanov "Gülüstani- İrəm"də tarixi prosesin işıqlandırılmasında idealist mövqedə qalaraq, əsərdə başlıca yeri siyasi tarix məsələlərinə verir, müəllif tarixi hadisələri işıqlandırarkən əsas etibarilə şahların, xanların və digər hakimlərin fəaliyyətini təsvir edir və xalq kütlələrinin rolunu açıb göstərmir. Əsərdə mühüm önəm verilmiş problemlərdən biri də demoqrafiya, etnik tərkib, müxtəlif xalqların etnik mənşəyi məsələləridir.

Müəllif Azərbaycan xalqının etnogenezi məsələlərini daim diqqətdə saxlamış, türk xalqının təşəkkülündə yaxından iştirak etmiş türk qövm və tayfalarının tarixinə dair qiymətli məlumatlar vermişdir. Məsələn, o hunlar haqqında yazarkən qeyd edir ki, hun tayfası haman Gün adlanan tayfadır. Xəzər dənizinin qərb sahilində sakin imişlər. İndi məlum olmayan Varçan bunların ən böyük şəhəri olmuşdur [3, s.18].

Qədim türklərin tarixi məsələsinə böyük diqqət verən A.Bakıxanov alan tayfalarının massaget nəslindən olduğunu yazır, skiflərin cəsarətli qəbilələrdən ibarət olduğunu, sarmatların "skif gəncləri və Amazon qızlarının qarışmasından" meydana çıxdığını qeyd edir [1, s.62].

Qədim mənbələrdə adı çəkilən Alban şəhərini Dərbəndlə eyniləşdirən müəllif ulu babalarımızdan olan kaspilərin tarixinə ekskurs edərək yazır: "Qədim dövrlərdə Qaspi adlı tayfa dəniz kənarında və Kürün sağ sahilində sakin idi. Rumlular arasında bu dəniz həmin tayfanın adı ilə adlanmışdır. Sahilində olan vilayətlərlə nisbətdə, bu dəniz müsəlmanlar arasında Bəhri-Xəzər, Bəhri-Cürcan, Bəhri-Gilan və Bəhri-Şirvan adı ilə şöhrət tapmışdır". Xalqın etnik tarixinə yaxından bələd olan müəllif türk tayfalarının Azərbaycanda yayılma arealına xüsusi diqqətlə yanaşaraq yazırdı: "Quba və Şirvanda Zəngənə, Xəlilli və Kəngərli, Şirvanda Qaramanlı, Təkəli, Şamlı və Çakərli, Qubada Ocallı, Ərşəli, Ustaclı və Qacar tayfaları, Quba, Dərbənd və Şirvanda Bayat qəbiləsi, Şəkidə və Şirvanda Qaraqoyunlu, Xələc və bir çox tayfalar vardır. Bunlar İran və Rum ölkələrində sakin olan tərəkəmə və sair elat kimi, türk tayfalarındandır" [3, s.25].

A.Bakıxanov: "Təbəristandan tutmuş Azərbaycanın bütün vilayətlərində əhalinin dili türkcədir", - deyərək bu dilin İranda və Dağıstanda da geniş yayıldığını bildirir [1, s.63].

Türkün ən qədim tarixini əfsanəvi Yafəsin böyük oğlu Türkün adı ilə bağlamaqla bəşər sivilizasiyanın beşiyi başında duran ən qədim xalqlardan olduğumuzu yazan A.Bakıxanov Bizans elçisinə cavab verərək türk xaqanın dili ilə fəxrlə deyir: "Siz o rumlular deyilsiniz ki, on dildə danışıb hamısı ilə də insanları eyni dərəcədə aldadırsınız? Biz türkük, yalan və aldatmaq bilmərik" [1,s .63].

Kitabda orta əsrlərdəki Azərbaycan və Dağıstanın dövlət quruluşu, idarə forması məsələlərindən, ictimai – iqtisadi həyatından nisbətən az danışılır, orada sinfi mübarizə tarixi, demək olar, heç işıqlandırılmır.

Bütün bunlara baxmayaraq, o zamankı şəraitdə Bakıxanovun əsərinin meydana çıxması böyük elmi əhəmiyyətə malik idi, Azərbaycan tarixşünaslığının inkişafında yeni mərhələ demək idi. Bakıxanov özü kitabın əlyazmasına əlavə etdiyi müqəddimədə tarix elminin əhəmiyyəti haqqında belə yazırdı: "O (tarix elmi) bizi xalqların elmilik dərəcəsi və mənəviyyatı dərəcəsi ilə, ümumi yaşayış və siyasətin faydası ilə tanış edir, buna görə də onu ən yüksək mənəvi elmlərdən biri hesab etmək lazımdır. Tarix mürəbbidir və onun məktəbində bütün bəşər cinsi nümayəndələri onun dərslərindən istifadə edirlər. Yeni həyatverici olan bu elm qarşımızda minillik ölüləri dirildir. Saysız – hesabsız əsrlərin müxtəlif qəbilələri öz geyimləri, öz adətləri, düşmənçiliyi və dostluğu ilə onun tələbkar məhkəməsinə gəlir və hər biri öz fəaliyyətləri haqqında onun qaarşısında hesabat verirlər. Comərdlik və qəbahətin əvəzini o nəsillər məhkəməsi qarşısında lazımınca çıxarır. O vəsiyyətləri gələcək nəsillərə lazımi şəkildə və təfsilatla çatdıran dilsiz bir natiqdir, o varlılıq və yoxsulluğun, yüksəlmə və süqutun səbəblərini, həqiqət və səhvlərin nəticələrini izah edir. O gələcəyi keçmişin qiyafəsində bizə göstərir.

Keçmiş həyatını tarixin təsvir etdiyi xalq üçün tarixi öyrənmək xüsusilə əhəmiyyətlidir. Tarix həmin xalqı öz doğma torpağının keyfiyyətləri, orada yaşayan qəbilələrin xarakteri ilə tanış edərək, xalqların bütün münasibətlərinin nəticələrini aşkara çıxarır və bu münasibətlərin xeyrini, yaxud zərərini göstərir.

A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinə böyük rus şərqşünas alimləri akademik Brosse və akademik Dorn yüksək qiymət vermişdilər. Onlar həmin əsəri "elmi irəliyə doğru aparan" əsər adlandırmışdır. Brosse və Dornun əsər haqqındakı rəyində deyilirdi ki, Abbasqulu ağanın əsərində "Şərq mənbələrində indiyədək Avropa alimlərinə müyəssər olmayan və artıq, əldə olan məlumatları xeyli tamamlayan çoxlu məlumat vardır, əsər müxtəlif coğrafi yerlər barəsində qiymətli məlumat verir və ən qədim zamanlardan başlayaraq yeni dövrədək Şirvan və Dağıstanın elə diqqətəlayiq icmalını verir ki, biz onu Qafqaz ölkəsi torpaqları təsvirinin olduqca faydalı və mühüm əlavəsi hesab edirik və müəllifin səylərinə qiymət verərək, ondan tamamilə razı qaldığımızı izhar etməyə bilmərik" [2, s.161-162].

Bu yüksək əhəmiyyətinə baxmayaraq, A.Bakıxanovun əsəri mütləqiyyətin müstəmləkəçilik siyasəti mənafeyinə müvafiq olmadığından çar Rusiyasında nəşr edilməmişdi. Vaxtaşırı mətbuatda bu əsərdən yalnız ayrı-ayrı parçalar çap olunmuşdu [7].

A.Bakıxanovun "Gülüstani–İrəm" əsəri ilk dəfə bütöv şəkildə 1926-cı ildə Sovet Azərbaycanında rus dilində və 1951-ci ildə Azərbaycan dilində nəşr edilmişdir.

A.Bakıxanovun elmi yaradıcılığı və xüsusi tarixə dair onun "Gülüstani–İrəm" kimi görkəmli əsəri Azərbaycan xalqının mədəniyyət xəzinəsinə daxil olmuşdur.

## ƏDƏBİYYAT


1. Abbasqulu ağa Bakıxanov baxış müstəvisində. Bakı: Elm və təhsil, 2016, 184 səh.
2. Ağayan P. A.Bakıxanov. Bakı: 1948.
3. Bakıxanov A. Gülüstani–İrəm. Bakı: 1951, 252 s.
4. Гусейнов Г.Н. Из истории общественной и философской мысли в Азербайджане XX века, Баку: 1949.
5. Исторически Вестник. № 11-12, 1888.
6. «Qafqaz» qəzeti məcmuəsi,1846. I hissə
7. «Русский инвалид» jurnalı, 4 iyun 1846.
8. Yerevanlı Ə.Y. Erməni – Azərbaycan şifahi xalq ədəbiyyatı əlaqələri. Yerevan: 1958.

**UOT 94**

# I PYOTRUN XƏZƏR YÜRÜŞÜ

***Tofiq Teyyub oğlu Mustafazadə***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***tofiq.mustafazade@mail.ru***

**Açar sözlər:** *I Pyotr, Xəzər dənizi, Azərbaycan, İran yürüşü, Osmanlı imperiyası*

## КАСПИЙСКИЙ ПОХОД ПЕТРА I

***Тофик Мустафазаде***

**Ключевые слова:** *Петр I, Каспийское море, Азербайджан, Персидский поход, Османская империя*

*В статье освещается Каспийский поход Петра I, осуществленный в 1722 году, известный в исторической литературе как "Персидский поход". Отмечается, что Петр, стремившийся к завоеванию всего Прикаспийского региона, в том числе Азербайджана, хотел превратить это море во "внутреннее озеро" России. Только резкая реакция Османской империи, давней соперницы России, помешала Петру I полностью осуществить свое намерение, и он вынужден был довольствоваться присоединением лишь узкой прикаспийской полосы. Но и эту территорию Россия смогла удержать только до 1735 года. Таким образом, военная авантюра Петра I, обернувшаяся для России потерей больших людских сил и материальных ценностей, окончилась крахом.*

## PETER THE GREAT'S CASPIAN CAMPAIGN

***Tofig Mustafazade***

**Keywords:** *Peter the Great, Caspian Sea, Azerbaijan, Persian campaign, Ottoman Empire*

*This article examines Peter the Greats Caspian campaign that held in 1722 which received the name "Persian campaign" in historical literature. It is indicated, that Peter, who was striving to conquer the Caspian region, including Azerbaijan, wanted to turn this sea into the "inner lake" of Russia. However, a sharp reaction of the Ottoman Empire that was a long-standing rival of Russia prevented Peter from fully implementing his intention and he was forced to content with joining only a narrow Caspian strip. Russia was able to keep this territory until 1735. Thus, Peter's military adventure, which cost Russia a large human and material price, failed.*

Rusların ən tanınmış çarlarından biri olan I Pyotrun xarici siyasətinin əsas istiqamətini dənizlərə çıxış uğrunda mübarizə təşkil etmişdir. Onun Baltik dənizinə çıxış uğrunda mübarizəsinin geniş tədqiq olunmasını Xəzər dənizinə çıxışı uğrunda söyləmək olmaz. Buna görə də oxucuya bu barədə müəyyən məlumat vermək istərdik.

Rus çarı Pyotr Alekseeviçin (1682-1725) hələ uşaqlıqdan dənizçiliyə böyük həvəs göstərdiyi hamıya məlumdur. Uşaq ikən onun əsas əyləncələrindən biri məhz gəmiçiliklə bağlı olmuşdur. Çar taxtına oturduqdan sonra, o, Rusiyanı böyük dəniz dövlətinə çevirmək xəyalına düşür və bu xəyalını gerçəkləşdirmək üçün hər vasitədən istifadə edirdi. Hətta, Qərbi Avropaya gedib dənizçilik işini öyrənmək xatirinə, öz kimliyini gizlədərək, Hollandiyada bir dülgər sifətilə tərsanələrdə çalışmışdı.

Rusiyaya qayıdan kimi Pyotr Baltik dənizi sahilinə çıxış əldə etmək üçün İsveçlə "Şimal müharibəsi adını almış uzun sürən müharibəyə (1700-1721) başladı və Fin körfəzi sahilində azacıq ərazi ələ keçirincə burada gələcək paytaxtın" - Peterburqun əsasını qoydu və öz təbirincə desək, "Avropaya pəncərə" açdı.

Baltik dənizinə çıxış Pyotru qane etdimi? Yox! Axı o, donmayan dənizlərdə - Qara dənizdə və Xəzər dənizində hökmran olmaq istəyirdi. Çünki, merkantilist siyasət ("merkantilizm" - xaricə daha çox mal ixrac edib, ölkəyə daha çox pul gətirilməsinə nail olmaq deməkdir) yeridən çar bununla Şərqlə Qərb arasında tranzit ticarətə nəzarəti ələ keçirib, böyük gəlir mənbəyi əldə etmiş olurdu. Digər tərəfdən də, Rusiyanın əzəli rəqibi Osmanlı imperiyasına zərbə endirib, onun paytaxtını, o zaman "qızıl körpu" adlandırılan İstanbulu ələ keçirmək imkanı əldə edərdi.

**Türk halvası I Pyotrun boğazında qaldı və ya o, necə əsir düşməkdən xilas ola bildi?** Bu elə bir zaman idi ki, Osmanlı dövləti Avropa dövlətləri koalisiyası ilə qanlı müharibələrdən yorulmuş və məğlub duruma çıxmışdı. Rus çarı fikirləşirdi ki, indi Osmanlını asanlıqla məğlubiyyətə uğrada bilər. Buna görə də 1709-cu ildə Poltava döyüşündə sarsıdıcı məğlubiyyətə

uğratdığı Osmanlı ərazisinə sığınmış İsveç hökmdarı XII Karlı təqib etmək bəhanəsiylə Osmanlı mülklərinə soxuldu. Lakin özü tələyə düşdü və osmanlı baş vəziri Baltaçı Mehmet paşanın başçılıq etdiyi osmanlı qüvvələri tərəfindən mühasirəyə alındı. Vəziyyət çox böhranlı idi. Silah-sursat, ən başlıcası isə ərzaq çatışmırdı. Hətta bəzi rus zabitləri qarşı tərəfdə düran türk zabitlərindən xahiş edirdilər ki, onların nəzarəti altında olan çəmənliklərdən rus əsgərlərinə bişirib yemək üçün göy-göyərti və yaşıl ot yığmağa icazə versinlər. Çarın xilas olmaq ümidi tamamilə üzülmüşdü və o, hətta Senata yazırdı ki, taxta çıxarmaq üçün yeni namizəd tapsınlar. Lakin elə bu anda Pyotrun yaxınları, o cümlədən məşuqəsi (gələcək arvadı) Yekaterina çıxış yolu tapdılar: Yekaterina öz qızıllarını, eləcə də zabit arvadlarının bəzək və daş-qaşlarını toplayaraq, bir neçə zabitlə birlikdə Baltaçı Mehmet paşanın çatdırına gedib, çarı və onun ordusunu buraxmaq üçün yalvardı. Qızıldan və daş-qaşdan gözləri qamaşan, bəlkə də həm də Yekaterinanın gözəlliyi qarşısında özünü itirən vəzir güzəştə getdi. O, mühasirəni davam etdirib daha çox qan axıtmaqdansa, Osmanlı üçün əlverişli, rus çarı üçün isə çox ağır və təhqiramiz şərtlərlə barışığa imza atdı və beləliklə də Pyotr xilas oldu.

**Balaca erməni böyük Pyotru necə aldatdı?** Qara dənizə çıxış əldə edə bilməyib, başı daşa dəyən I Pyotr bütün diqqətini Xəzər dənizinə yönəltdi. Bir zamanlar dünyanın ən qüdrətli dövlətlərindən olan Səfəvi dövlətinin dərin iqtisadi və siyasi böhran keçirməsi onun ərazilərini, o cümlədən Xəzər dənizinin cənub-qərb və cənub sahillərini ələ keçirməyə ümid verirdi. Bu əraziləri ələ keçirməklə çar bir tərəfdən Volqa-Xəzər ticarət yolu üzərində ağalığa nail olar, digər tərəfdən də Şirvan və Gilan kimi zəngin ipək rayonlarını ələ keçirməklə rus manufakturaları üçün xammal mənbəyi əldə edər, həm də, Osmanlı imperiyasının sağ cinahında yerləşməklə onu təhdid etmək imkanı əldə etmiş olardı. Xəzər dənizi bir cəhətdən də çarın diqqətini cəlb edirdi. O zamanlar Rusiya da belə fərz edirdilər ki, mənsəbini Himalay dağlarından götürən Amu-Dərya və Sır-Dərya çayları Xəzər dənizinə tökülürlər (Bu fərziyyənin yaranmasına o səbəb olmuşdu ki, XVII yüzillikdə zəlzələ nəticəsində adı keçən çaylar məcrasını dəyişərək Xəzər dənizinə çıxmış, yalnız bir müddət sonra əvvəlki axarına qayıtmışdı).

Bu zaman, daha doğrusu 1703-cü ildə birtəhər rus sarayına yol tapan İsrail Ori adlı bir erməni də çarın işğalçılıq ehtiraslarını daha da alovlandırdı.

Ori Cənubi Qafqazda yaşayan azsaylı ermənilər və onların gücü haqqında şişirtmə məlumatlar verərək, iddia etdi ki, rus çarı bu bölgəyə yürüş edərsə, ermənlər yüz minlik ordunu ərzaqla təmin edə bilərlər; və ya cəmisi 10-25 minlik bir rus qoşunu Cənubi Qafqaza gələrsə 50 mindən çox erməni silahlısı rus bayrağı ətrafında toplaşar və Rusiya asanlıqla nəinki bütün Cənubi Qafqazı, hətta İranın xeyli hissəsini ələ keçirə bilər.

**“İran yürüşü”nə hazırlıq.** Az qüvvə ilə böyük və zəngin ərazilər tutmaq perspektivi I Pyotru həvəsə saldı və o, Səfəvi dövləti haqqında daha çox məlumat əldə etmək qərarına gəldi. 1716-cı ildə rəsmən ticarət müqaviləsi bağlanması üçün Səfəvi sarayına göndərilmiş A.P.Volınskiyə çarın verdiyi gizli təlimatda tapşırılırdı ki, keçdiyi yolları diqqətlə öyrənsin, qalaların yerlərini müəyyənləşdirsin, Xəzərə hansı çayların töküldüyünü və həmin çaylarla haralara kim üzməyin mümkünlüyünü, mənbəyini Hindistandan başlayan çayların olub olmadığını müəyyənləşdirsin. Volınski həm də osmanlı-səfəvi münasibətlərinin vəziyyətini öyrənmək səfəvilərə osmanlıların onların başlıca düşməni olması fikrini təlqin etməli idi [23, v.46; 2, s.19-20; 14, s.53-54]. Volınski çarın göstərişlərini yerinə yetirərək onu Səfəvi dövlətinin vəziyyəti ilə bağlı ətraflı məlumatlandırdı, bu dövlətin dərin böhran içərisində olduğunu bildirib, onun ərazilərini tutmaq üçün hərbi müdaxiləyə başlamağın məqamı olduğunu, nəinki bütöv ordu, hətta kiçik korpusla da uğur qazanmağın mümkünlüyünü bildirdi [29, s.167].

Nə qədər ki, Şimal müharibəsi davam edirdi, I Pyotr cənuba yürüşə başlaya bilmirdi. Lakin yürüşə hazırlıq üçün müəyyən tədbirlər görülürdü. 1719-cu ildə poruçik Fon Verden və leytenant Fyodr Soymonov Xəzər dənizinin cənub-qərb sahillərini tədqiq etmək üçün göndərildi [29, s.167-169]. Eyni zamanda Şamaxıya vitse-konsul göndərmək üçün adam seçmək məsələsi ilə əlaqədar I Pyotr göstəriş verdi ki, elə zabit seçilsin ki, Şamaxıya gedib, geriyə qayıdarkən yolu yaxşı-yaxşı öyrənsin, ərazinin qoşun keçməsi üçün su, at yemi və s. cəhətdən əlverişli olub-olmamasını müəyyənləşdirsin [2, s.19; 14, s.53-54; 29].

**Dağılmaqda olan dövlətə hücum.** 1721-ci ilin əvvəlində Şimal müharibəsi zəfərlə başa çatdıqdan sonra çar cənuba yürüşə səylə hazırlaşmağa başladı. Yürüş üçün əlverişli bəhanə də tapıldı. Məlumdur ki, 1721-ci ilin avqustunda Hacı Davudun başçılıq etdiyi Şirvan üsyançıları və müttəfiqləri Surxay xan Qazıqumuqlu Şamaxı şəhərini alarkən şəhərdə olan 5 rus taciri öldürülmüş və əmlakları qarət olunmuşdu [3, v.34-35]. Günahkarları cəzalandırmaq adı ilə yürüşə çıxmaq olardı.

I Pyotr yürüşü 1723-cü ildə başlamağı planlaşdırsa da, 1722-ci ilin martında qiyamçı əfqan tayfalarının Səfəvi şah qoşunlarını məğlubiyyətə uğradıb, paytaxt İsfahanı mühasirəyə alması xəbərini alıb, osmanlıların onu qabaqlayaraq Səfəvi ərazilərinə daxil olacağından ehtiyatlanmaqla, bir il öncə hərəkətə keçdi. 1722-ci ilin iyununda arvadı Yekaterina ilə birlikdə Həştərxana gələn Pyotr əvvəlcə yürüşün keçəcəyi yerlərdə əhalini sakitləşdirmək üçün tarixə “I Pyotrun Manifesti” adı ilə daxil olan türk və fars dilində bəyannamə çap etdirib yaydırdı. Bəyannamədə yürüşün həqiqi səbəbləri pərdələnərək elan olunurdu ki, guya yürüş səfəvi şahına yardım məqsədilə təşkil olunur, qiyamçılar cəzalandırıldıqdan və şah öz gücünü bərpa etdikdən sonra rus

qoşunları tutduqları əraziləri tərk edəcək. Eyni zamanda bildirilirdi ki, rus əsgərlərinin yerli əhaliyə qarşı hər hansı zorakılıq hərəkəti sərt şəkildə cəzalandırılacaq [4, v.4; 5, v.244; 25, v.3; 11, s.131].

Rus qoşunlarının cənuba yürüşü 1722-ci ilin iyulun 18-də göyərtəsində I Pyotrun başçılıq etdiyi piyada hissələrinin olduğu gəmilərin Həştərxandan üzməsi ilə başladı [4, v.44; 30, s.1]. Briqadir Veteraninin başçılıq etdiyi süvari hissələri quru yolu ilə hərəkət etdi. Bir sıra məlumatlara görə, yürüşdə iştirak edən döyüşçülərin ümumi sayı 106 mindən çox idi [9, s.65].

İyulun 28-də Aqraxan burnunda sahilə çıxan imperator bir həftəyə qədər süvari hissələri gözləməli oldu [4, v.45].

Bundan sonra hərəkət edən rus ordusu Azərbaycanın Dərbənd şəhərinə çatdı. Qeyd edək ki, rus ordusu dağılmaqda olan Səfəvi dövlətinin qoşunlarının ciddi müqavimətinə rast gəlmədi. Yalnız ayrı-ayrı şəhər qarnizonları müqavimət göstərməyə cəhd göstərirdilər. Bir sıra Səfəvi hərbi rəisləri qüvvəsi qat-qat üstün olan düşmənə itaət edib, onun xidmətinə daxil olmağı daha məqsədəuyğun hesab edirdilər. Hələ bundan əvvəl şəhəri taleyin öhdəsinə buraxaraq İrana gedən Alxas sultandan sonra rus ordusunun yaxınlaşması ilə əlaqədar Dərbənddə iki qruplaşma yaranmışdı. Nüfuzlu feodal Arslan bəyin başçılıq etdiyi qrup Qaytaq usmisi və Hacı Davudla birləşib, rus ordusuna müqavimət göstərməyi təklif etdiyi halda, şəhər naibi İmamqulu bəyin başçılıq etdiyi qrup üstün rus qüvvələri qarşısında duruş gətirməyi mümkünsüz sayaraq, müqavimətin mənasız olduğunu düşünür və şəhəri ruslara təslim etməyi təklif edirdi [20, s.14-15].

İkinci qruplaşma üstün gəldi və naib İmamqulu bəy əhali nümayəndələrinin müşayiəti ilə avqustun 23-də şəhər darvazalarının önündə I Protru qarşılayıb, darvazaların rəmzi açarlarını ona təqdim etdi [18, s.36; 26, s.92].

**I Pyotrun fiaskoya uğraması**. Avqustun sonunda Müşkür mahalı da rus ordusunun ön hissələri tərəfindən tutuldu [21, s.486]. Dərbənddə qısa istirahətdən sonra I Pyotr avqustun 30-da ordusu ilə birlikdə Dərbənddən Bakıya tərəf hərəkət etdi [4, vərəq 102, arxa üzü-103]. Lakin Milukənd çayı yanında I Pyotra xəbər çatdı ki, onun göndərdiyi poruçik Luninin şəhəri ruslara təslim etmək barədə təklifinə şəhər hakimi Məhəmmədhüseyn sultan rədd cavabı verib [4, v.102 a.ü.103]. Pyotr yürüşü davam etdirib silah gücünə Bakını zəbt etmək qərarına gəlsə də, bir sıra səbəblər üzündən səfərini yarımçıq dayandırıb, ordunun əsas hissəsi ilə geri dönməli oldu. Dərbənddə polkovnik Yungerin başçılığı ilə qarnizon saxlandı [12, s.79].

Rus tarixçiləri Pyotrun bu yürüşünün dayandırılmasının əsas səbəbi kimi aşağıdakıları görürlər: un gətirən gəmilərin qəzaya uğraması ilə əlaqədar ordunun təminatında çətinlik yaranması; uzun və çətin yürüşdən, üzücü istidən, alaf azlığından atların kütləvi surətdə tələf olmağa başlaması; adət olunmayan iqlimdən əsgərlər arasında xəstəlik hallarının artması; Peterburq əyanları

arasında ixtilafların başlaması və nəhayət imperatorun uzun müddət paytaxtdan uzaqda olması ilə əlaqədar İsveçdə Rusiyadan əvəz çıxmaq üçün müharibəyə meylin yaranması [10, s.30; 17, s.531; 16, s.124]. Lakin yürüşün dayandırılmasının bir sıra başqa səbəbləri də var idi: Osmanlı imperiyasının bu yürüşə kəskin mənfi reaksiyası, Pyotrdan ordusunu Səfəvi ərazilərindən dərhal çıxarılmasını tələb edərək, əks təqdirdə Ukraynaya qoşun yeritməklə hədələməsi [6, v.31. a.ü 32,62. a.ü]; Bakıdan mənfi cavab verilməsi ilə yanaşı, Hacı Davudun dağlarda qüvvə toplayaraq rus ordusunun əsas hissəsi Samuru keçəcəyi təqdirdə ona basqına hazırlaşması [7, v.67-68].

Hər bir halda Pyotrun illərlə hazırlaşdığı və uzağa gedən planlar qurduğu halda cüzi ərazi əldə etməklə geriyə dönməsi, əslində onun tədbirinin fiaskoya uğraması idi.

**Xəzər hövzəsində rus-osmanlı rəqabətinin kəskinləşməsi. Qərbi Avropa dövlətlərinin münasibəti.** Pyotrun yürüşü Osmanlı sarayının kəskin etirazına səbəb olduğundan iki dövlət arasında münasibətlər son dərəcə kəskinləşdi. I Pyotr Osmanlı sarayını aldatmağa çalışırdı ki, güya o, Səfəvi ərazilərini ilhaq etmək niyyətində deyil, yalnızca qiyamçıları cəzalandırmağa çalışır və hətta Osmanlı hökumətinə Xəzərsahili vilayətlərə öz müşahidəçisini göndərməyi təklif etdi [1,s.43; 27, s.6]. Osmanlı sarayı əvvəlcə Pyotrun sözlərinə inansa da, ancaq çarın özünün başçılığı ilə böyük ordunun Xəzərin cənub-qərb sahillərində peyda olması onu şübhəyə saldı. Rus çarının irəliləməsinə mane olmaq üçün Qars bəylərbəyi Mustafa paşaya Şamaxıya doğru hərəkət etmək əmr olundu [33, s.297].

Qeyd edək ki, bir sıra Qərbi Avropa ölkələri Osmanlı sarayının antirus ovqatını qızışdırırdılar. İngilis diplomatiyası daha çox canfəşanlıq edirdi. Birləşmiş krallığın dövlət katibi Karteret hesab edirdi ki, Rusiyanın cənub istiqamətində ekspansiyası onun Hindistandakı maraqlarına təhlükə törədir, Hindistanın Avropa ilə ticarəti Rusiya ərazisinə yönəldilə bilər (Pyotrun belə niyyəti doğrudan da vardı); Rusiya öz işğalçılıq planlarını genişləndirərək bilavasitə Osmanlı ərazilərini də tuta bilər. Karteretin göstərişi ilə İstanbuldakı ingilis səfiri S.Stenyan osmanlı–rus ixtilafını dərinləşdirmək üçün hər bir imkandan istifadə edirdi. Karteret 5 yanvar 1723-cü il tarixli məktubunda Stenyana məsləhət görürdü ki, osmanlılara təlqin etsin ki, əgər rus çarı nəzərdə tutduğu yerləri ələ keçirsə, Osmanlı dövlətinin Şərqlə Qərb arasında ticarət vasitəçiliyinə böyük zərbə dəyəcək [34, s.71-72].

1723-cü ilin avqustunda Osmanlı sədrəzəmi İbrahim paşa Nevşehirli İstanbuldakı Rusiya nümayəndəsi İ.Neplyuyevi yanına çağıraraq bildirdi ki, onun hökmdarı öz düşmənlərini izləyərək Osmanlıdan asılı olan vilayətlərə daxil olur. Bu iki ölkə arasındakı "əbədi sülhə zidd deyilmi? Belə kiçik işdən ötrü sənin hökmdarının şəxsən özünün böyük ordu ilə "ləzgilərə" qarşı hərəkət etməsinə lüzum yox idi, bizim vasitəmizlə əvəz ala bilərdi." [28, s.393-394].

Rus sarayı çıxış yolunu Səfəvi ərazilərini birləşdirmək barədə İstanbula təklif verməkdə gördü.

**Rusiyanın Xəzəryanı vilayətlərin işğalını davam etdirməsi: Osmanlı ordularının Səfəvi ərazilərinə daxil olması.** I Pyotr ordusunun əsas hissəsi ilə Rusiyaya qayıtsa da, işğalçılıq niyyətlərindən əl çəkməmişdi. Ancaq onu indi tədricən, böyük dövlətlərin diqqətini çox cəlb etmədən reallaşdırmaq qərarına gəldi. Paytaxta dönərək, 1722-ci ilin noyabrında Həştərxanda olarkən o, Gilanın Rəşt şəhərini tutmaq üçün hərbi-dəniz ekspedisiyası təşkil olunması barədə sərəncam verdi. Polkovnik Şipovun başçılıq etdiyi iki tabordan ibarət bir qüvvə cənuba üzdü və dekabr ayında Rəşt şəhəri ələ keçirildi [13, s.576-579].

Bakı Pyotrun planlarında daha önəmli yer tuturdu. General-mayor M.Matyuşkinə əmr verildi ki, yazda Volqa çayında buzlar açılan kimi əhəmiyyətli bir qüvvə ilə gəmilərdə Bakıya tərəf üzsün [13, s.599-601; 24, v.11 a.ü.].

1723-cü il iyulun ortalarında göyərtəsində piyadaların olduğu rus gəmiləri Bakıya yaxınlaşdılar [24, v.11 a.ü.]. Şəhər hakimi təslim olmaqdan imtina etdiyindən şəhər gəmilərdən top atəşinə tutuldu. Ümidsiz vəziyyətdə qalan müdafiəçilər dörd günlük müqavimətdən sonra, iyulun 21-də təslim oldular.

Rus çarı Bakının alınmasından çox sevindi və Matyuşkinə məktubunda yazdı: “Siz Bakını (heç şübhəsiz türklərdən) almısınız, buna görə də Sizin və bütün zəhmət çəkmiş adamların əməyini qiymətləndirir və Sizi general-leytenant rütbəsinə yüksəldirik.” [13, s.603; 22, s.259].

Bakı alındıqdan bir qədər sonra podpolkovnik Zimbulatovun başçılıq etdiyi 500 nəfərlik hərbi dəstə Salyana daxil olub, burada yerləşdi [10 ,s.20].

**Səfəvi əraziləri hesabına iki imperiya arasında sövdələşmə: 1724-cü il osmanlı-rus İstanbul müqaviləsi.** Osmanlı sarayı rusların Səfəvi ərazilərini tədriclə ələ keçirməsinə laqeyd qala bilməzdi və qalmadı da. Əvvəla, 1722-ci ilin sonunda sultan Şirvanın osmanlı himayəsinə qəbul olunması və onun hakimi Hacı Davuda xan rütbəsi verilməsi haqqında fərman verdi. İki imperiya ordularının eyni bölgədə əməliyyatlar aparması onların arasında hərbi toqquşma təhlükəsi yaradırdı.

I Pyotr cəmi 12 il əvvəl ağır zərbə aldığı Osmanlı dövləti ilə yeni hərbi toqquşmaya girməkdən qorxurdu və buna görə Fransa hökumətindən iki dövlət arasında vasitəçilik göstərməsini xahiş etdi. O zaman Fransa ilə Avstriya arasında müharibə təhlükəsi mövcud idi və fransız hökuməti Osmanlı dövlətini özünə müttəfiq etmək istəyirdi. Buna görə də Türkiyənin digər dövlətlə - Rusiya ilə müharibəyə cəlb olunmasında maraqlı deyildi. Məhz bu səbəbdən fransız hökuməti İstanbuldakı səfiri markiz de Bonaka Rusiya ilə Osmanlı arasında ixtilafın nizamlanmasında vasitəçilik göstərməsinə göstəriş verdi. De Bonakın səyləri ilə Rusiyanın İstanbuldakı rezidenti İ.Neplyuyevlə Osmanlı

sarayının rəis-ül-kittabı Mehmed Əfəndi arasında uzun sürən və gərgin danışıqlar başladı. Osmanlı tərəfi Rusiyanın ələ keçirdiyi ərazilərdə daxil olmaqla bütün səfəvi ərazilərini, Rusiya tərəfi isə və digər Səfəvi ərazilərindən çıxmasını tələb edirdi [19, s.68-69].

Nəhayət 1724-cü il iyulun 12 (23)-də tərəflər Səfəvi mülklərini bölmək haqqında razılığa gəldilər. Giriş, 6 maddə və nəticə hissəsindən ibarət müqavilədə Terekdən başlayaraq Astrabada qədər uzanan ensiz Xəzəryanı zolağın Rusiyaya, Şərqi Gürcüstanın, Səfəvilərə qalan Ərdəbil və ruslara keçən Xəzəryanı zolaq istisna olmaqla, bütün Azərbaycanın Türkiyəyə keçməsi haqqında razılıq əldə edildi. Tərəflər belə bir razılığa da gəldilər ki, əgər II Təhmasib bu müqaviləni tanımaqdan imtina etsə, onu devirib, daha itaətkar bir şəxsi taxta çıxarsınlar [8, v.3-7].

Beləliklə, Səfəvi əraziləri hesabına sövdələşmə iki imperiya arasında müharibə təhlükəsini aradan qaldırdı.

**Rusiya və Osmanlı imperiyası istədiklərinə nail oldularmı?** Rusiya və Osmanlı dövləti Səfəvi ərazilərini çox az müddət öz əllərində saxlaya bildilər. Çünki, 1726-cı ildən başlayaraq görkəmli sərkərdə Nadir Əfşar dövlətin qüdrətini və sərhədlərini bərpa etməyə başladı. 1730-cu ilə kimi əfqanları Səfəvi ərazilərindən qovmağa nail olan Nadir bundan sonra Osmanlılarla uzun sürən müharibələrə başladı və onları 1735-ci ildə yeni ələ keçirdikləri bütün Səfəvi ərazilərini tərk etməyə vadar etdi. Rusiya da 1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələri ilə yeni ələ keçirdiyi bütün Xəzəryanı əraziləri qaytarmağa məcbur oldu.

Bəs Rusiya və Osmanlı dövlətinin Səfəvi ərazilərini ələ keçirmək uğrunda mübarizələrinin onlara hansı zərəri və hansı faydası olmuşdu? Zərər bundan ibarət idi ki, iki dövlət xeyli insan itkisinə və məsrəflərə məruz qaldılar. Fayda isə bundan ibarət oldu ki, heç bir tərəf əsas rəqibinin onun sərhədləri yaxınlığında möhkəmlənməsinə yol vermədi.

## ƏDƏBİYYAT


1. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в первой трети XVIII века. Баку: Элм, 1975.
2. Алиев Ф.М. Миссия посланника русского государства А.П. Волынского в Азербайджан, Баку: Элм,1979.
3.Архив Внешней Политики Российской Империи, (АВПРИ) ф.77. Сношения России с Персией, опись 1, 1721 г., д.1.
4. АВПРИ, ф.77 (СРП), оп. 1, 1722 г., д.13
5. АВПРИ, ф.77 (СРП), оп.1, 1722 г., д.14
6. АВПРИ, ф. 77 (СРП), оп. 1,1722 г., д. 20
7. АВПРИ, ф. 77 (ССРП), оп. 1,1722 г., д. 24

8. АВПРИ, ф.89 (СРТ), оп. 8, 1721 г., д. 7
9. Бергман В. История Петра Великого, т.5 (пер. с немецкого Е.Аладыш) СПб, 1844.
10. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. ч.1, СПб, 1869.
11. Голиков И.И. Деяния Петра Великого, мудрого преобразителя России (собранныя из достоверных источников и расположенныя по годам), т. X, II изд., М., 1898.
12. Козубский Е.И. История города Дербента. Темирхан-Шура-1906.
13. Комаров В. Персидская война 1722-1725 (Материалы для истории царствования Петра Великого //Русский Вестник, т.68, №4, СПб, 1867
14. Корсаков Д.А. Артемий Петрович Волынский. Биографический очерк //Древняя и новая Россия, 1876.
15. Левиатов В.Н. Очерки из истории Азербайджана XVIII века. Баку, Изд. АН Азербайджана,1948.
16. Лысцов В.П. Персидский поход Петра I, 1722-1723 гг., М., 1951.
17. Материалы для истории русского флота, ч. IV, СПб, 1867.
18. Мельгунов Г.В. Поход Петра Великого в Персию //Русский Вестник, 1847, ч.110
19. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку:1993.
20. Неверовский А.А. Краткий исторический взгляд на Северный и Средний Дагестан до уничтожения влияния лезгинов на Закавказье. СПб., 1848.
21. О персидском походе Петра Великого // Русский архив, М., 1899.
22.Приказы и письма императора Петра Великого и императрицы Екатерины I к генералу Матюшкину во время войны с Персией // Отечественные записки, ч.XXXII.
23.Российский государственный Архив Древних Актов. ф.77 (СРП), 1715 г., д.1.
24. Российский Государственный Военно-Исторический Архив, ф.846, оп. 1, д.1539.
25. РГВИА, ф. 816, д.1540
26. Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний, яко часть истории государя императора Петра Великого, СПб, 1763.
27. Смирнов В.А. Политика России на Кавказе в XVI-XIX вв., Москва-1958.
28. Соловьев С.М. История России с древнейших времен, т.9 (кн.17-18) М., 1963

29. Соловьев С.М. Петр Великий на Каспийском море // Вестник Европы, 1868, т. т. 2-3
30. Туманский Ф., Описание похода государя Петра Великого в Персию// Русский Вестник, 1874, т.110
31. Ульяницкий В.А. Русские консульства за границею в XVIII веке, ч.1, Москва-1899.
32.Чулков М.Д. Историческое описание российской коммерции при всех портах и границах от древних времен до ныне настоящего и всех преимущественных узаконений по оной государя императора Петра Великого и ныне благополучно царствующей императрицы Екатерины Великой – т.2, кн. 2, СПб, 1785
33. J.Von Hammer-Purgstale. Wekke. I band 7. Geschite des Osmanischen Peicher. Gras (Austria), 1963.
34. Yacob J. Resichudgen Englands zu Rusland und sur Türkei in den jahren 1718-1717. Basel: 1945.

**УДК 94(47).(479.24).(479.25)**

# К ВОПРОСУ О РОЛИ АЗЕРБАЙДЖАНА В ПОЛИТИКЕ РОССИЙСКОГО ГОСУДАРСТВА В 20-30-е ГОДЫ XVIII ВЕКА

(на основе современной российской историографии)

***Марзия Сабир гызы Искендерова***
***Института истории им.А.А.Бакиханова НАНА***
***kazimovar@mail.ru***

**Ключевые слова:** *Южный Кавказ, Пётр I, прикаспийские области, российская историография, имперская политика*

# XVIII ƏSRİN 20-30-CU İLLƏRİNDƏ RUSİYA DÖVLƏTİNİN SİYASƏTİNDƏ AZƏRBAYCANIN ROLU HAQQINDA MƏSƏLƏYƏ DAİR

(müasir Rusiya tarixşünaslığı əsasıda)

***Mərziyə İskəndərova***

**Açar sözlər:** *Cənubi Qafqaz, I Pyotr, Xəzəryanı vilayətlər, Rusiya tarixşünaslığı, imperiya siyasəti*

*Məqalədə müasir Rusiya tarixşünaslığının nümayəndələrinin bəzi əsərlərində XVIII əsrin 20-30-cu illərində Rusiyanın Cənubi Qafqaz siyasətində Azərbaycanın yerinin tarixşünaslıq baxımından təhlilinə cəhd göstərilmişdir. Nəzərdən keçirilən əsərlərdə göstərilən dövrdə Rusiyanın məqsədyönlü işğalçılıq siyasətinin bir sıra məqamlarına tarixçilərin yeni və prinsipial yanaşmaları görünməkdədir.*

*Azərbaycanın geostrateji və geosiyasi vəziyyəti, Rusiyanın bu bölgədə hərbi-siyasi planlarının və hərəkətlərinin mühüm istiqamətləri haqqında Rusiya tədqiqatçılarının ümümi fikirlərinə münasibət bildirilir. Həmin müəlliflər tərəfindən Rusiyanın qeyd olunan dövrdə həyata keçirdiyi siyasətin işıqlandırılması Rusiyanın bütövlükdə regiona, o cümlədən Azərbaycana münasibətdə əsas dominant kimi öz maraqlarından çıxış etməsi haqqında əksər tədqiqatçıların obyektiv mövqeyini açıb göstərməyə imkan verir.*

# ON THE ROLE OF AZERBAIJAN IN THE POLICY OF THE RUSSIAN STATE IN THE 20-30s OF THE 18th CENTURY

(Based on modern Russian historiography)

***Marziya Iskenderova***

**Keywords:** *South Caucasus, Peter I, Caspian region, Russian historioqraphy, imperial policy*

*The article attempts to analyze the place of Azerbaijan in the South Caucasian policy of Russia in the 20-30s of the 18th century in some works of representatives of modern Russian historiography. In the works under consideration, new and fundamental approaches of historians to a number of issues of flexible and purposeful aggressive policy of Russia in the specified period re revealed.*

*The community of opinions of Russian researchers on the geostrategic and geopolitical position of Azerbaijan as the most important aspect in the military-political plans and actions of Russia in this region are revealed and is made an assessment. Illumination of the stages of the Russian policy during this period by the authors allows revealing the objective position of most researchers regarding the dominant policy of Russia of its own interests in the region as a whole and in Azerbaijan in particular.*

В сложившихся после распада СССР геополитических условиях Азербайджан, как и весь Южный Кавказ, продолжает иметь интеграционное и геостратегическое значение для России и находится в сфере её национальных интересов. Более того, Азербайджан был и остаётся ареной политического и экономического соперничества и ряда других держав, которые также имеют политические и экономические интересы в данном регионе.

А поскольку происходящие сегодня в регионе явления и процессы своими корнями уходят в период XVIII – начале XIX вв., изучение как политической ситуации в регионе, так и сущности политики вышеотмеченных государств, и, прежде всего, России в Азербайджане, а также факторов, влиявших на эти политические процессы в указанный период, является крайне актуальной темой.

Стратегическое значение Южного Кавказа в целом, и Азербайджана - в частности, в значительной степени обусловленное именно их географическим положением предопределило стремление России на разных этапах утвердить своё влияние в политической, торгово-экономической, военной и религиозной сферах жизни региона.

Осуществлялось это разными способами: от захвата территорий до осуществления «покровительства в различных формах, от союзничества до протекторатства» [1, с.23]. Именно политика России в XVIII – нач. XIX вв. оказала серьёзное влияние на дальнейшую судьбу народов данного региона. Поэтому данная тема привлекает внимание современных исследователей, занимающихся изучением содержания, сущности и особенностей российской политики в Азербайджане в указанный период. Получение Азербайджаном независимости, изменения в его геополитическом положении, появление историков-исследователей новой регенерации обусловили необходимость повторного анализа различных аспектов указанной проблемы. В современной российской историографии появился целый ряд работ, посвящённых данной тематике. А это, в свою очередь, делает актуальным объективный историографический анализ этих трудов, с рассмотрением и оценкой новых подходов к ряду вопросов внешней политики Российского государства в Южном Кавказе, в том числе в Азербайджане, в XVIII – нач. XIX вв.

С этой точки зрения определённый интерес вызывает публикация Сотавова Н. и Хадисовой С., которые, говоря о стратегической значимости и выгодном географическом расположении прикаспийских областей, этим объясняют, что регион являлся центром традиционного соперничества России с Ираном и Турцией, а также западными странами – Англией и Францией. Более того, авторы отмечают, что оказался вовлечённым в сферу проблем мировой политики, и делают особый акцент на период Петра I. Они утверждают, что именно в рамках этого периода «с наибольшей эффективностью проявились постоянно действующие региональные геополитические факторы, определяющие диалектику формирования и развития международных отношений на протяжении истории вплоть до наших дней» [2, с.57].

Сотавов, Хадисова отмечают актуальность изучения данного похода в современной историографии, подчёркивая его значимость, как не имевшего «аналога по своим масштабам, количеству задействованных сил, военно-политическим последствиям» [2, с.58].

В работах авторов верно и объективно определяется, что особое место в южнокавказской политике России, благодаря своему геополитическому и геостратегическому положению, занимал Азербайджан, представлявший собой естественный географический транзитный узел [7, с.4-6; 2, с.58].

Большинство авторов, посвятивших свои работы изучению политики России в рассматриваемый период, особое место отводят прикаспийскому походу Петра I. Именно он явился ярким отражением

реализации политических и экономических интересов России к территории Азербайджана.

Среди работ о прикаспийском походе Петра I хочется выделить книгу И.В.Курукина «Персидский поход Петра Великого». Если в ряде работ современных исследователей при изучении перипетий данного периода использовали, наряду с архивными материалами, в основном – литературу советского периода, то в монографии И.В.Курукина источником информации являлись обстоятельные работы современных историков, в которых разбирались различные аспекты пребывания российских войск в Прикаспии, что позволяет нагляднее и глубже интерпретировать значимость данной кампании. Автор исходит из справедливого признания прикаспийского похода масштабной попыткой реализации имперских задач внешней политики России на Востоке, подчёркивает, что он стал началом «длительного процесса присоединения Кавказа» [3, с.9,10].

В «Историческом сборнике» под редакцией В.В.Каллаша подчёркивается особая важность Кавказа для России и отмечается, что «этот поход (прикаспийский поход Петра I - М.И.) при всей своей эпизодичности, был в сущности попыткой разрешения крупного политического вопроса, который давно уже занимал Петра I» [5, с.178]. А в работе Я.Гордина, где можно встретить интересные и важные размышления по поводу политики России в Южном Кавказе в изучаемый период, автор отличает прикаспийский поход Петра I от ранних набегов русских тем, что, этот поход, по его мнению, явился составляющей «обширной и последовательной, хотя и вполне утопичной, завоевательной программы» [6, с.42].

Следует отметить, что красной нитью в работах современных исследователей проходит признание экспансионистского характера похода России в прикаспийские области. Большинство авторов верно представляют окончание Северной войны точкой «отсчёта»: победоносная война со Швецией «развязала руки» Российского государства и послужила фактором, ускорившим наступление на Южный Кавказ, в частности – в Азербайджан [4, с.39, 73; 1, с.24].

Исследователь И.В.Бочарников связывает этот момент ещё и с обретением Россией статуса империи (1721 г.) и с тем, что внешняя политика Петра I «наделена уже имперскими чертами» [7, с.16; 8, с.105]. Забегая вперёд отметим, что авторы, изучающие историю внешней политики Российского государства в начале XIX в., рассматривают как продолжение именно этой имперской политики стремление царизма не только к перераспределению сфер влияния в Европе, но и захвату новых земель на Востоке [9, с.18,20].

Геостратегическое положение Азербайджана, как и всего Кавказа, в работах исследователей уместно выставляется важнейшим аспектом, определившим характер политики России в данном регионе.

Авторы единодушны в определении целей политики России как в целом на Кавказе, так и в Азербайджане в частности, – овладение и контроль над важнейшими торговыми путями, соединявшими Европу с Азией [7, с.4]. Тем самым объективно показана мотивация вовлечения данного региона с начала XVIII в. в сферу российской политики.

Авторы твёрдо убеждены, что Петр I рассматривал данный регион в качестве плацдарма на пути к овладению богатствами Индии и Китая. Говоря конкретно о цели, которую Россия пыталась достичь в ходе XVIII столетия, начиная с Прикаспийского похода, авторы приоритетной считают установление торговли с Индией [4, с.39,45; 6, с.42].

Так, авторы обобщённого труда «История России XVIII-XIX веков» связывают начало Прикаспийского похода с открывшимися для России после заключения Ништадского мира,* возможностями стать страной транзитной торговли с Востоком, в частности – с Индией [8, с.105].

Следует отметить, что не только освещаемые в работах цели и задачи, но и рассматриваемые в них предпосылки похода также раскрывают определяющую роль территории Азербайджана в политике России. В ранее упомянутом труде Курукина обстоятельно освещена деятельность посольства А. Волынского, рассмотрены торговые интересы Петра I в Южном Кавказе, принятие им мер, направленных на изучение торговых путей на Каспии [4, с.23-40]; всё это помогло автору, обосновать предопределённость прикаспийского похода. В другой работе Курукина, специально посвящённой миссии А. Волынского, походный «Журнал» российского посланника назван важнейшим источником по истории Азербайджана начала XVIII века. Автор особое внимание уделил предписаниям Петра I Волынскому по сбору сведений об экономических и географических особенностях прикаспийских провинций, в том числе Азербайджана [4, с.43], так как именно в них кроется суть захватнической политики России в данном регионе.

В труды современных исследователей включён и вопрос об отношении Петра I к христианским народам – грузинам и армянам. Подчёркивая намерение последних соединиться с российскими войсками с целью овладеть азербайджанскими землями, Курукин указывает факторы, доказывающие нереальность их совместного выступления в этот

* Ништадский мир был заключён в 1721 г. после окончания Северной войны между Россией и Швецией.

период [3, с.69]. Однако в замыслы Петра I входило использование грузин и армян при осуществлении своей политики в Азербайджане [4, с.40].

В работе говорится о планах Петра I заменить коренных бакинских жителей «более лояльными подданными – христианами» – армянами и грузинами, рассматривая это, как единственную возможность с его стороны оказать помощь им против османского вторжения. Известная грамота Петра I армянскому народу от 10 ноября 1724 г. о создании условий для поселившихся армян [3, сс.130-131,294] является красноречивым свидетельством начала реализации Россией замысла создания христианской опоры в Южном Кавказе, в первую очередь в мусульманском Азербайджане, и обеспечения неуязвимости этого антитурецкого «буфера».

Раскрывая экономические и политические планы Петра I, авторы фактически обнажают экспансионистскую суть политики России в данном регионе.

Вместе с тем, они пытаются несколько завуалировать захватнический характер прикаспийского похода, указав на якобы добровольную уступку прикаспийских провинций шахским правительством, «не способным контролировать развитие ситуации в данных провинциях в целях недопущения турецкой оккупации» [7, с.16].

Следует отметить, что отказ шаха ратифицировать известный Петербургский договор (1723 г.), подписанный между Петром I и сефевидским посланником Исмаил беем о передаче России прикаспийских провинций отрицает элемент добровольности. Вместе с тем, можно согласиться с мнением историков Сотавова, Хадисовой, усматривавших за Петербургским договором стремление России не допустить османов к Каспию, и с этой целью – добиться от шаха добровольной уступки прикаспийских провинций [2, с.59].

С другой стороны, авторы объективно обосновывают главную доминанту в развитии южнокавказской политики России, а именно – предотвратить возможность прорыва османов к Каспию и обеспечить своё господство на Каспии для осуществления планов превращения России в страну транзитной торговли. При этом, выпячивается первостепенность геостратегического положения именно территории Азербайджана для контроля Российской империей прилегающих к региону территорий [7, с.3-4].

Авторы рассматривают факторы, обусловившие начало прикаспийского похода. Исследователей объединяет общность мнения о стремлении воспользоваться военно-политической нестабильностью в Сефевидском государстве, о чём свидетельствует антифеодальное и

антисефевидское движение во главе с Гаджи Давудом* [7, с.16; 3, с.42-43; 4, с.67-69; 1, с.24; 10,с.38-39]. Именно это восстание стало катализатором осуществления продвижения российских войск в прикаспийские области и дало повод для начала осуществления петровских планов относительно этих областей.

Неслучайно, в упоминаемом ранее сборнике кризисное состояние Сефевидского государства рассматривается как обстоятельство, сложившееся «очень благоприятно для политических видов Петра» [5, с.178-180]. Избранный Петром I повод** дал ему возможность оправдать вторжение якобы оказанием помощи шахскому правительству в восстановлении порядка, что авторы расценивают как метод, «который всегда был и остаётся шаблонным в предприятиях такого рода» [5, с.180].

Исследователь Курукин умело и глубоко раскрыл как имперские черты внешней политики России, так и кризис международных отношений в регионе [3, с.47].

Роль и место территории Азербайджана в геополитике России чётко определены в трудах современных исследователей. Так, в работе Бочарникова автор отмечает, что захват Россией прикаспийских областей выходит за рамки простой аннексии [7, с.16]. Здесь не только акцентируется на значимости овладения Россией таких крупных портов, как Дербент и Баку, но и делается исходящий из этого приобретения важный вывод о становлении Каспийского моря, практически, внутренним морем России, о его удельном весе «в целом для осуществления военно-политических акций в Закавказье» [7, с.17-18].

Более того, в рассматриваемых работах объективно территория Азербайджана, как и всего Южного Кавказа, представлена, как место соприкосновения интересов России, и прежде всего, Османской империи, являвшихся исторически традиционными соперниками. Совершенно правомерно авторы подчёркивают, что основной целью прикаспийского похода являлось стремление России предотвратить установление османами своего господства в данном регионе [7, с.13; 1, с.24; 8, с.105]. Через эту же призму исследователями разрабатывается и вопрос о религиозном факторе в геополитике России. Авторы верно отмечают, что именно Пётр I впервые обозначил большую значимость Кавказа в

---

* Известно, что в период захвата Шемахи – центра русской торговли восставшими в 1721 году были разграблены и убиты русские купцы. И.В.Бочарников. Указ. раб., с.16; И.В.Курукин. Персидский поход …, с.42-43; его же. Артемий Волынский, с.67-69; А.Куликов, В.Рунов. Указ.раб., с.24; «Северный Кавказ в составе Российской империи». Москва, 2007, с.38-39.

** Имеется в виду разгром и убийство русских купцов восставшими при взятии Шемахи (1721 г.).

соперничестве России с Османской империей. Рассматривая этот регион как объект российской военной экспансии, именно Пётр I был первым российским правителем, использовавшим в антитурецкой борьбе христианские народы [7, с.18].

Говоря о серьёзной угрозе интересам России на Южном Кавказе со стороны Османской империи, авторы ранее упоминаемого обобщающего труда «История России…» подчёркивают, что российскую помощь ожидали не только армяне и грузины, но и прикаспийское население [8, с.105]. Таким образом, как и в большинстве трудов российской историографии, авторы неверно распространяют отношение христианских народов Южного Кавказа к России на всё население указанного региона, в том числе и на мусульманское.

Авторы объективно отмечают, что Россия проводила политику в данном регионе исходя, прежде всего, из своих интересов, но, при этом, оказывала покровительство грузинам и армянам, обещавшим оказать помощь царизму в борьбе против мусульманских держав [7, с.19].

В работах историков новой регенерации даётся оценка Стамбульского договора, хотя в некоторых случаях эта оценка ограничивается лишь вопросами разграничения владений России, Турции и Ирана в Южном Кавказе [7, с.19; 3, сс.101-105, 112]. К сожалению, в этих работах не показан захватнический несправедливый характер этого договора для южнокавказских народов, в том числе азербайджанского [11, с.83-84]. Ряд авторов говорят об Армении [7, с.19; 2, сс.58,59,60, и др.], хотя известно, что в рассматриваемый период история армянского народа должна рассматриваться вне территории Южного Кавказа. Свою государственность на Южном Кавказе создали армяне, переселённые Россией сюда после подписания в 1828 году Туркменчайского договора. Это означает, что говорить об Армении относительно начала XVIII века не корректно.

Особую важность представляет признание исследователем Курукиным, того факта, что оккупация Россией прикаспийских областей привела к тому, что мусульманские земли Ширвана и Гиляна «представляли собой разрезанные «по-живому» части относительно единой и древней социо-культурной общности» [3, с.113].

Утверждая, что Стамбульский договор 1724 года отрицательно повлиял на положение армян и грузин, Курукин выходом из сложившейся в то время ситуации считал переселение их в завоеванные иранские провинции [4, с.83].

И.В.Бочарников указывает, будто Османская империя восприняла «аннексированные Россией территории как добровольно уступленные шахом», а также отмечает, что прикаспийские провинции являлись

плацдармом, «отводившим угрозу от собственно российских территорий» [7, с.19,20].

Рассматривая в Петербургском и Стамбульском договорах пути разрешения российско-османского противоборства, исследователи Сотавов, Хадисова раскрывают свою позицию в отношении последствий Стамбульского договора, утверждая, что российско-османские противоречия в данном регионе этот договор не разрешил и они продолжали сохраняться [2, с.60].

Вместе с тем, важно отметить, что в работах исследователей особо подчёркиваются не только усилия обеих сторон – России и Османской империи для разрешения их противостояния, но и усилия заинтересованных в мире Англии и Франции [3, сс.104,105,112].

Следует отдать должное исследователю И.В.Курукину: он усмотрел причину пограничных конфликтов именно в установлении по Стамбульскому договору границ «разрезавших» исторически сложившиеся области [3, с.251].

Авторы единодушны в том, что Пётр I рассматривал данный регион, как источник сырья для российских мануфактур, его привлекали природные богатства Азербайджана, Петр I вынашивал планы по их освоению. Но возникает вопрос: в чём причина провала планов Петра, российского управления в прикаспийских провинциях? Так, Курукин считает, что планы Петра I опережали своё время и утверждал, что Россия «ещё не располагала экономическими возможностями для масштабного освоения заморских территорий» [3, с.41].

По мнению автора «… Петербург так и не стал главным перевалочным пунктом на пути восточного шёлка в Европу …» [3, с.280], к неосуществлённым планам он относит и заселение «новополученных» провинций русскими и южнокавказскими христианами [3, с.302].

Курукин приводит также сведения об армянах и грузинах, указывая на то, что какая-то их часть (в том числе и освобождённые из плена в горах) оставались жить и служить в принадлежащих России прикаспийских провинциях, «но точное число таких поселенцев назвать вряд ли удастся – российское командование такого учёта не вело, тем более, что не все явившиеся в прикаспийские провинции там же и оставались …» [3, с.302].

Освещая в своих работах непосредственно послепетровский период (до середины XVIII века) истории Российского государства, авторы верно характеризуют его, как время сдерживания военно-политических устремлений России в данном регионе, прослеживается процесс возвращения завоеванных Россией провинций Сефевидскому государству [7, с.20; 5, с.180].

Работы исследователей позволяют проследить действия российского двора и рассуждать от убыточности для России содержания прикаспийских провинций, а также путь, ведущий к известному Рештскому договору [3, с.325,330]. Авторы приходят к выводу, что преемники Петра I не желали тратить силы и средства на удержание прикаспийских провинций, считая это серьёзным отягощением для казны [1, с.30].

В российской историографии бытует мнение о том, что захват Россией прикаспийских земель был продиктован российско-османским соперничеством. Вместе с тем, авторы отмечают непрочность российского завоевания, что подтверждается положением в регионе после Петра I, в частности, потерей Россией большей части захваченных земель. В частности, обоснованно звучит следующий вывод о прикаспийском походе: «Персидский* поход был первым приступом к утверждению владычества в бассейне Каспийского моря, но результат его оказался эфемерным» [5, с.180].

Следует отметить, что авторы упоминаемого обобщающего труда среди отошедших к Османской империи согласно Стамбульскому договору земель, наряду с Грузией, называют и не существовавшую Армению [8, с.106], хотя известно, что в тот период на Южном Кавказе не было территории, компактно населённой армянами. Они, как известно, были переселены на эту территорию после Туркменчайского договора 1828 года [12, сс.375-379, 382-391, 395, 396-403, 405, и др.]. Вместе с тем, верно и объективно констатируется, что на тот период присутствие России в регионе носило временный характер, так как у царизма не было достаточной мощи «для прочных успехов на южных границах» [8, с.106].

В работах современных исследователей описан поиск Россией путей разрешения российско-османских противоречий в последующий период, дана оценка навыкам царизма ориентироваться в сложившейся расстановке сил. Авторы подчёркивают, что Россия отнюдь не отказалась, после вывода своих войск из Прикаспия, от такого лакомого куска, каким являлся Азербайджан, овладение которым, как и всем Южным Кавказом, оставалось в захватнических планах Российской империи. Последующие события явились ярким тому подтверждением.

Рассматривая условия подписания Рештского договора (1732 г.), авторы подмечают, что Россия делала ставку на Надира Афшара в деле реализации антитурецкого заслона [2, с.60; 3, с.325-327].

* Ряд российских исследователей называли прикаспийский поход «персидским».

Подтверждением служат и размышления об известно Гянджинском договоре* (1735 г.). Чётко указав среди причин уступки Прикаспия Сефевидам и вывода российских войск опасения царизма по поводу заключения антироссийского ирано-турецкого союза на Востоке, авторы, вместе с тем, утверждают, что российский двор питал надежды превратить Сефевидское государство «из потенциального противника в своего союзника» [2, с.61]. В связи с этим историки делают акцент на обязательном условии Гянджинского договора о запрещении передачи прикаспийских провинций Османскому государству, что также является ярким показом вышесказанного [2, с.61; 8, с.206].

Особенную ценность представляет то, что они подвергли события, связанные с политикой России в Прикаспии в 20-30-е годы XVIII века, повторному анализу с учётом современных реалий. Вместе с тем, вызывает серьёзное сомнение верность их мнения о том, что Гянджинский договор представлял собой «отказ «онемеченных» бироновских правителей России от петровской политики покровительства народам Кавказа» [2, с.61; 8, с.206]. Здесь сталкиваешься с доминирующим ещё в советской историографии подходом к вопросу о, якобы, спасительной миссии России в отношении южнокавказских народов. Это особенно очевидно, если принять во внимание, что прикаспийские области были населены в основном мусульманами, что Россия преследовала здесь, прежде всего, свои собственные интересы, а её политика носила захватнический характер.

В целом, авторы признают правильность принятого российским двором решения о выводе войск из прикаспийских провинций, справедливо считая этот шаг избавлением от неоправданных затрат людских и денежных ресурсов, аргументированно обосновывают необходимость уступки территорий шаху захватническими устремлениями и действиями Османского государства в указанном регионе [3, с.355; 1, с.32]. Неоспоримо верным является утверждение, что возвращение Россией занятых территорий Сефевидскому государству, следует расценивать как «редко встречающийся в истории акт» [8, с.205-206]. При этом определённое место авторы уделили политике поощрения и поддержки Османской империи европейскими государствами – Англией и Францией [8, с.205-206]. Существует также мнение, что одной из причин возвращения прикаспийских земель является отсутствие равных Петру I государственных деятелей среди его преемников [13, сс.102-103,106].

* Согласно условиям Гянджинского договора, заключённого в 1735 г. между Сефевидским государством и Россией, российские войска полностью оставили захваченные прикаспийские земли.

## ЛИТЕРАТУРА


1. А.Куликов, В.Рунов. Все кавказские войны России. Самая полная энциклопедия. Яуза, Эксмо, Москва, 2013.
2. Н.Сотавов, С.Хадисова. Прикаспийские области в международной политике эпохи Петра I и Надир – шаха Афшара. – Вестник Института истории, археологии и этнографии, №2, 2005.
3. И.В.Курукин. Персидский поход Петра Великого. Низовой корпус на берегах Каспия (1722-1735 гг.). – Москва, Квадрига, Объединённая редакция МВД России, 2010.
4. Его же. Артемий Волынский. Москва. Молодая гвардия, 2011.
5. «Три века. Россия от смуты до нашего времени». – Исторический сборник под ред. В.В.Каллаша. Т.3. XVIII век. Первая половина. Москва. «Патриот», 1992.
6. Я.Гордин. Кавказ: земля и кровь. Россия в кавказской войне XIX века. Санкт-Петербург, 2000.
7. И.В.Бочарников. Кавказская политика России в X-XX веках. Москва. Экон-информ, 2013.
8. «История России XVIII-XIX веков». Под ред. Л.В.Милова. Москва. Эксмо, 2006.
9. «История внешней политики России. Первая половина XIX века (От войн России против Наполеона до Парижского мира 1856 г.)». Москва. Международные отношения, 1999.
10. «Северный Кавказ в составе Российской империи». – Москва, 2007.
11. Т.Т.Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, Элм. 1993.
12. «Ireванское ханство: российское завоевание и переселение армян на земли Северного Азербайджана». Коллективная монография под ред. проф. Я.Махмудова. – Баку, Şərq-Qərb, 2010.
13. А.В.Шишов. Схватка за Кавказ XVI-XX вв. Москва, 2005.

**UOT 94(479.24)**

# ERKƏN XİLAFƏT DÖVRÜNDƏ YAŞAMIŞ AZƏRBAYCANLI ALİMLƏR (VII-X ƏSRLƏR)

***Şahlar Şahbaz oğlu Şərifov***
***AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu***
***shahlarsharifov@gmail.com***

**Açar sözlər:** *əl-Azərbaycani, əl-Bərzəi, ət-Tiflisi, əl-Bərdici, əl-Varsani, əd-Dərbəndi, əd-Dəbili, əz-Zəncani*

## АЗЕРБАЙДЖАНСКИЕ УЧЕНЫЕ, КОТОРЫЕ ЖИЛИ ВО ВРЕМЯ РАННЕГО ХАЛИФАТА (VII-X ВВ.)

***Шахлар Шарифов***

**Ключевые слова:** *аль-Азербайджани, аль-Барзаи, аль-Тифлиси, аль-Бардиджи, аль-Варсани, ад-Дарбанди, ад-Дабили, аз-Занджани*

*Исламская наука прошла разные и очень сложные ступени развития. Одной из сложнейших ступеней являются средние века. Эта статья посвящена ученым хадисоведам Азербайджана. Они внесли огромный вклад в развитие науки о хадисах. В статье вы можете увидеть список этих ученых-хадисоведов. Также в статье приводятся данные об обменах ученых, их датах рождения и смерти, о местах их проживания, об их характерных чертах.*

*Таким образом, азербайджанские ученые внесли весомый вклад в развитие мусульманской культуры и религии, оставив наследие, не утратившее значение в мировой исторической науке до наших дней.*

## AZERBAIJANI SCHOLARS WHO LIVED DURING THE EARLY CALIPHATE (VII-X CENTURIES)

***Shahlar Sharifov***

**Keywords:** *al-Azerbaijani, al-Barzahi, at-Tiflisi, al-Bardiji, al-Warsani,*

*ad-Darbandi, ad-Dabili, az-Zanjani*

*If we analyze the development of Islamic sciences, one can see that they have passed various and very difficult steps of development. One was necessary to show the events objectively. This article about of Azerbaijan hadyth scientists. They described the hadyth terms in their scientific work. We can see from the title of this article it was written to acquaint the scientist of hafiz in branches hadis. Not with standing in this article name their date of birth and deaths place of residence, nature of scientists are given.*

*Thus, the Azerbaijan scientists played an important role to the Muslim culture and religion and left their heritage still preserving its great importance in the world historic science.*

Azərbaycan xilafət tərəfindən işğal olunduqdan sonra geniş coğrafiyada yayılan islam mədəniyyəti tərəqqi və inkişafda əsas rol oynadı, ticarət genişləndi, yeni şəhərlər yarandı. Bu şəhərlərdə mədəniyyətlə yanaşı maarif sahəsi də mühüm əhəmiyyət kəsb edirdi.

Ərəblərin hakim olduğu ərazilərdə İslam dini ilə birlikdə ərəb dili də dinin rəsmi dili kimi təbliğ olunurdu. Bütün mədrəsələrdə dərslərin ərəbcə keçirilməsi, dövlət idarələrində ərəblərin işləməsi, dini ayinlərin ərəbcə icra olunmasının qanuniləşdirilməsi və s. kimi mühüm amillərin təsiri altında bu dil İslam dininin yayıldığı ölkələrin, o cümlədən Azərbaycanın siyasi, ictimai və mədəni həyatında əsas yer tuturdu.

Məqalədə erkən xilafət dövründə (VII-X əsrlər) yaşamış azərbaycanlı alimlər haqqında məlumat verilir. Mənbələri araşdırdıqdan sonra aşağıdakı azərbaycanlı alimlərin adlarını ortaya qoymaq mümkün olmuşdur.

**a) Musa Şəhavat**

Musa Şəhavat haqqında orta əsr ərəb mənbələrində məlumat verilməsinə baxmayaraq, Azərbaycan ədəbiyyatı tarixində onun yalnız adı qeyd olunub. Atasının adı barədə müxtəlif fikirlər mövcud olsa da, Əbul-Fərəc əl-İsfəhaniyə görə, Bəşşar olmuşdur. Künyəsi isə Əbu Məhəmmədədir [8, III, s.229].

Mənbələrdə Musa Şəhavatın şeirlərindən gətirilən parçalardan və onlara yazılan izahlardan aydın olur ki, şair Mədinənin qazisi Əbu Bəkr ibn Əbdürrəhmanı həcv etmişdir. Əbu Bəkr ibn Əbdürrəhman xəlifə Hişam ibn Əbdülməlikin (724-743) zamanında Mədinənin valisi Xalid ibn Əbdülməlik (732-736) tərəfindən qazi təyin olunmuş, eyni zamanda, Əbu Bəkrdən sonra şəhərin qazisi seçilən Səid ibn Süleymanı öz şeirlərində tərifləmişdir [8, III, s.229, 236]. Qeyd edilənlər əsasında demək olar ki, şair VIII əsrin otuzuncu illərində sağ imiş və bədii yaradıcılığını davam etdirirmiş.

Əməvi xəlifəsi Süleyman ibn Əbdülməlikin (715-717) dövründə şöhrəti daha da artan Musa Şəhavat tez-tez xəlifə Süleymanın sarayına gedib, şeirlərini ona oxuyarmış [16, II, s.194].

Onun ən məşhur şeiri əmir Səid ibn Xalid ibn Abdullah ibn Xalid ibn Əsid haqqında yazdığı mədhdir. Bu şeir Yaqut əl-Həməvi tərəfindən qeyd edilmişdir [16, II, s.194].

Musa Şəhavatın həcvindən qəzəblənən Səid ibn Xalid əl-Osmani xəlifə Süleymana şikayət etdikdə şair öz şeirinin mənasını belə izah edir: "Onların həm adları, həm də atalarının adları eyni olduğu üçün, şeirimin düzgün başa düşülməyəcəyindən qorxaraq, analarına görə fərqləndirdim. Əmisi oğlunu mədh etməyim isə Səid əl-Osmanini qəzəbləndirmişdir". Verilən cavabdan heyrətlənən xəlifə Süleyman "Sənin onu həcv etməyin mənə aydın olsa da, bunun üçün bir dəlil tapa bilmirəm" – deyə şairi azad etmişdir [8, III, s.230-233].

Musa Şəhavatın əldə olunan şeirləri göstərir ki, o, öz dövrünün bir sıra aktual problemlərinə toxunmuş, xüsusən, ədalətsiz qazi və valilərə amansız düşmən olmuşdur. Bu səbəbdən də qazilər fürsət düşən kimi şairdən intiqam almağa çalışmışlar. Mədinənin hakimi Xalid ibn Əbdülməlik tərəfindən şəhərə qazi təyin edilən Əbu Bəkr ibn Əbdürrəhman, Musa Şəhavat haqqında əsassız hökm çıxardıqda, şair onu kəskin satira atəşinə tutaraq, onun timsalında bütün hakimləri tənqid etmişdir [8, III, s.236].

Şairlərə qarşı mənfi münasibət bəsləyən Mədinə valisi Səid ibn İbrahim də qəddarlığına görə Musa Şəhavat tərəfindən tənqid olunmuşdur [8, III, s.237]. Ədalətin, haqqın böyük gücünə inanan şair zülmkar şairlərə lənət yağdırdığı kimi, insaflı qaziləri də mədh etməkdən çəkinməmişdir [8, III, s.235].

**b) İsmayıl ibn Yəsar**

İsmayıl ibn Yəsar barəsində mənbələrdə ziddiyyətli fikirlər mövcuddur. Əbul-Fərəc əl-İsfəhani şairin atasının "igid bir əsir" olduğunu qeyd edir [8, IV, s.120]. Əl-Mərzubani isə İsmayıl ibn Yəsarın kufəli bir əsirin oğlu olduğunu yazır [10, s.50]. Məhəmməd ibn İmran əl-Mərzubanidən (890-988) və əl-İsfəhanidən (897-966) təxminən 70 il əvvəl Kufədə anadan olmuş İbn Quteybə isə (828-889) İsmayıl ibn Yəsarın əslən Azərbaycandan olduğunu söyləyir [9, s.481].

Doğum tarixi haqqında mənbələrdə heç bir məlumat verilməsə də, İbn Quteybə və əl-Mərzubani şairin Mədinə şəhərində doğulduğunu qeyd etmişdir [9, s.481; 10, 50]. Əbul-Fərəc İsfəhaniyə görə, Əbdülməlik ibn Mərvan (685-705) xəlifə olduqdan sonra İsmayıl ibn Yəsar Urvə ibn Zübeyr ilə birlikdə onun sarayına getmiş, ona və ondan sonrakı xəlifələrə mədhlər yazmışdır [8, IV, s.118]. Əl-İsfəhaninin qeydlərindən İsmayıl ibn Yəsarın artıq 685-ci ildə məşhur bir şair olduğu anlaşılır. İsmayılın atası qadınlar üçün bəzək şeyləri satdığına görə ona ən-Nisai künyəsi verilmişdir [8, IV, s.118]. Əl-Mərzubani

İsmayılın qardaşlarından Süleyman və Məhəmmədin adını çəkir [10, s.52]. Əbul-Fərəc isə şairin birinci qardaşının adının İbrahim olduğunu qeyd edir [8, IV, s.120]. İsmayılın oğluna gəldikdə isə, "Əğani"də İbrahim olaraq qeyd olunur [8, IV, s.126].

İsmayıl ibn Yəsar Əməvilərin sonuncu xəlifəsi II Mərvanın (744-749) hakimiyyətinin sonlarında vəfat etmişdir [8, IV, s.118, 124].

İsmayıl ibn Yəsarın yaradıcılıq istiqaməti onun siyasi fəaliyyəti, dünya görüşü ilə sıx əlaqəlidir. Musa Şəhavatdan fərqli olaraq, ömrü boyu ərəb hegomonluğuna qarşı çıxmış, qələmini əsarət altına alınmış xalqların mənlik heysiyyətinin qorunmasına sərf etmişdir.

İsmayıl ibn Yəsarın bizə gəlib çatan mərsiyyələrindən biri yaxın dostu və hamisi Urvə ibn Zübeyrin oğlu Məhəmmədə həsr edilmişdir [8, IV, s.123].

Xəlifə Əbdülməlik ona qarşı qiyam qaldırmış Abdullah ibn Zübeyri məğlub etdikdən sonra onun tərəfdarlarına amansız divan tutmağa başlayır. Əməvilərə qarşı vuruşmuş İsmayılı da ağır cəza gözləyirdi. İsmayıl xəlifənin ona qarşı olan qəzəbini aradan qaldırmaq məqsədilə kiçik bir mədhiyyə yazıb, saraya daxil olur. Şərəfinə yazılan mədhiyyəni dinləyən xəlifə yumşalır və ona xələt verilməsini əmr edir [8, IV, s.123-124].

İsmayıl ibn Yəsarın ikinci mədhiyyəsi isə onun qocalıq illərinə aiddir. Şair bu şeirini xəlifə II Vəlid ibn Yezidin (743-744) qardaşı Qəmrə həsr etmişdir. Mədhiyyə xəlifənin qardaşı üçün yazılsa da, şair ondan öz dostu kimi söhbət açır [8, IV, s.125].

İsmayıl ibn Yəsar Musa Şəhavata nisbətən daha mürəkkəb və zəngin bir yaradıcılıq yolu keçmişdir. Siyasi şeirin mükəmməl nümunələrini yaradan İsmayıl ibn Yəsar əsarət altına alınmış xalqların oyanmasında, öz azadlıları uğrunda mübarizəyə qalxmasında böyük rol oynamışdır.

**c) Əbul-Abbas əl-Əma**

Əbul-Abbas əl-Əma Bəni Leys qəbiləsinin, bir rəvayətə görə isə Cəzimə ibn Əli ibn əd-Deyl ibn Bəkr Əbd Mənat qəbiləsinin məvlası olmuşdur. Əli əl-Mədaini (752-840) və Əbu Abdullah Məhəmməd əl-Vaqidi (747-822) kimi etibarlı mənbə sahiblərinə istinad edən Əbul Fərəc ikinci rəvayətin düzgün olduğunu qeyd edir [8, IV, s.59].

Saib ibn Fərrux Əbul-Abbas əl-Əmanın anadan olma tarixi və yeri dəqiq məlum deyil. İbn Quteybə Əbul-Yəqzana əsaslanaraq, Əbul-Abbası Mədinə şairləri sırasına daxil etsə də [9, s.480-481], bu, həqiqətə uyğun deyil. Çünki şair ömrünün əsas hissəsini Məkkədə keçirmişdir [8, XV, s.62]. Ömər Fərrux Əbul-Abbasın Mədinədə anadan olduğunu göstərməklə yanaşı, onu Məkkə şairləri sırasına daxil etmişdir [10, s.65].

İbn Quteybə, Zəbihullah Səfa, Əhməd Əmin, Ömər Fərrux və Azərbaycan alimi Məhəmmədəli Tərbiyət Əbul-Abbasın nəslinin Azərbaycandan gəldiyini etiraf edir [10, s.65].

Abdullah ibn Zübeyr Hicazı tutduqdan sonra Əməvilərin tərəfdarı olan Əbul-Abbası Məkkədən Taifə sürgün etmişdir [8, XV, s.62]. Əbul Fərəc əl-İsfəhaninin məlumatına görə Əbul-Abbas xəlifə Mənsurun (754-775) xilafəti dövründə vəfat etmişdir [8, XV, s.60].

Əbul-Abbas elmi fəaliyyətinə görə Musa Şəhavat və İsmayıl ibn Yəsardan fərqlənirdi. İsmayıl ibn Yəsar Əməvi siyasətinə qarşı çıxırdı. Musa Şəhavat isə din xadimlərini və qaziləri tənqid edirdi. Əbul-Abbas onlardan fərqli olaraq, əməvilərin düşmənlərinə qarşı mübarizə aparırdı.

Əməvilər tərəfindən böyük ehtiram görən Əbul-Abbas, Bəni-Umeyyənin tanınmış, bütün varlığı ilə əməvilərə bağlı olan şairlərindən biri olmuşdur [8, XV, s.59]. Məkkədə yaşayan şairə, əməvi xəlifələri pul və hədiyyələr göndərərək yardım edirdilər.

Məkkə ziyarətində şair və natiqlərlə görüşən xəlifə Əbdülməlik ibn Mərvan, Əbul-Abbas əl-Əmanı görən kimi belə əmr etmişdi: "Burada olan hər bir Bəni-Umeyyə üzvündən, onların tərəfdarlarından və məvalilərindən, habelə burada oturan əyanlardan və tərəfdarlarından xahiş edirəm ki, Əbul-Abbasa xələt versinlər". Ona verilən xələtlərin çoxluğundan şair görünməz olmuşdu. Sonda xəlifə ona yüz min dirhəm pul da vermişdi" [8, s.62-63; 10, s.67].

Əməvilərin sadiq tərəfdarı olan Əbul-Abbas bu sülaləni Abbasi xəlifəsi Əbu Cəfər Mənsurun yanında da tərifləməkdən çəkinməmişdir. Xəlifə Mənsur ondan sonuncu əməvi xəlifəsi II Mərvanın (744-749) ona nə qədər bəxşiş verdiyini soruşduqda, şair qürurla demişdir: "O qədər pul verdi ki, ondan sonra heç kimə ağız açmayım" [8, XV, s.61].

Əbul-Abbas əl-Əma istər yaradıcılığı, istərsə də şəxsi həyatı baxımından fərqli biri olmuşdur. Əməvilərin siyasətini dəstəkləyən İsmayıl ibn Yəsar və Musa Şəhavat kimi həmvətənləri ilə birlikdə ərəbdilli poeziyanı zənginləşdirdiyi kimi, ictimai və siyasi həyata da fəal müdaxilə etmiş, dövrünün nüfuzlu şairləri arasında öz yerini tutmuşdur. Əbul-Abbasın yaradıcılığı ərəbdilli Azərbaycan poeziyasında orijinal xüsusiyyətləri ilə diqqəti cəlb edir.

**ç) Yəhya bin Malik əl-Marağİ**

Əbu Əyyub Yəhya bin Malik əl-Marağİ hicri I əsrdə (miladi VII) yaşamış ən görkəmli və hələlik təsbit olunmuş ilk Azərbaycan hədisşünas alimidir. Görkəmli ricalşünas alim Cəmaləddin əl-Mizzi "Təhzibul-kamal" adlı əsərində onun haqqında yazır: "O, Yəhya ibn Malikdir. Ona bəzən Həbib bin Malik əl-Əzdi də deyilir. O, Səmurə bin Cündəb, Abdullah bin Abbas, Abdullah bin Əmr bin As, Əbu Hüreyrə, Cüveyriyyə bint əl-Harisdən hədislər rəvayət etmişdir. Onun özündən isə Əl-Əcli, Sabit əl-Bənai, Əbul-Vasil Əbdülhəmid bin Vasil, Qətadə bin Diamə, Əbu İmran Əl-Cuni rəvayət etmişlər. O, Həccac ibn Yusifin (694-714) hakimiyyəti zamanı vəfat etmişdir. Tirmizidən başqa əksər hədisşünaslar ondan hədis nəql etmişlər" [2, XXXI, s.511].

Onun haqqında Əllamə Cəmaləddin əl-Hümeyri "Ən-Nəsibə" əsərində yazır: "Əl-Marağİ Azərbaycana məxsus məntəqə olan Marağadandır" [3, I, s.586].

**d) Hüseyn əl-Bərzəi**

IX əsrin görkəmli Azərbaycan alimlərindən biri Hüseyn əl-Bərzəidir. Onun doğum tarixi dəqiq bilinməsə də, vəfat tarixi haqqında mənbələrdə məlumatlar vardır. Ərəbdilli müəlliflərdən olan Xətib əl-Bağdadi "Tarixi-Bağdad" əsərində onun vəfat tarixini miladi 854, Zəhəbi isə "Tarixul-İslam" əsərində 894-cü il göstərmişdir [19, XXV, s.189]. Lakin Zəhəbinin göstərdiyi tarix çox zəif hesab olunur. Çünki, əl-Bərzəi 894-cü ildə vəfat edən İbn Əbi Dünyanın müəllimi olmuşdur.

Əl-Bərzəi "Əl-Fərəc bəd əş-şiddə", "Kitab istinail-məruf", "Əl-Mənamat", "Zəmmul-məlahi", "Kitab məqaiduş-şeytan", "Kitabul-uqubat" və digər əsərlərin müəllifidir.

**e) Əbu Məhəmməd ət-Tiflisi**

Orta əsr Azərbaycan alimlərindən biri də Əbu Məhəmməd ət-Tiflisidir. Onun VIII əsrin sonları və IX əsrin əvvəllərində yaşadığı ehtimal olunur. Bəzi alimlər onun İmam Rzanın səhabələrindən olduğunu, lakin hədis elmində məchul ravi kimi tanındığını qeyd etmişlər. Buna baxmayaraq, görkəmli rical alimi əl-Bərqi onu İmam Kazimin səhabələrindən saymışdır.

Əbu Məhəmməd ət-Tiflisi İmam Rzadan hədislər nəql etmişdir. Onun bu hədislərini Şeyx Tusi "Təhzibul-əhkam" və "əl-İstibsar" əsərlərində nəql etmişdir [5, I, hədis №286; 6, I, hədis №330]. Bundan başqa, digər görkəmli hədis alimi Şeyx Səduq "əl-Fəqih" əsərində onun İmam Rzadan nəql etdiyi hədisi qeyd etmişdir [14, III, hədis № 1390].

**ə) Əbu Bəkr Əhməd ibn Harun əl-Bərdici**

Orta əsr azərbaycanlı alimlərdən biri də Əhməd ibn Harun əl-Bərdici əl-Bərzəidir. Onun ehtimalən hicri 230-cu (m.845) ildə doğulduğu və 301-ci (m.914) ildə vəfat etdiyi bildirilir. O, elm öyrənmək üçün Bağdadda məskunlaşmış və burada hədisşünaslıqla yanaşı, digər islam elmləri sahəsində faydalı əsərlər yazmış, hədisşünaslığın mühüm sahəsi olan rical (hədis raviləri) elmi ilə məşğul olmuşdur. Onun yazdığı əsərlərdən "Təbəqatul-əsmaul-müfrədə minəs-səhabə vət-tabeun və əshabil-hədis" və Cuz fi mən rəva anin-Nəbi min əs-səhabə fil-kəbair" xüsusi önəm kəsb edir. Qeyd edilən əsərlər günümüzə qədər gəlib çatmışdır. Onun "Təbəqatul-əsma" əsəri 1987-ci ildə Dəməşqdə nəşr edilmişdir.

Curcani Dəraqutnidən onun haqqında soruşduqda belə cavab vermişdir: "O, güvənilən və əmanətdar biridir" [18, XIV, s.123].

Dövrünün görkəmli alimlərindən olan Əhməd Bərdici hədis elmində etibarlı bir ravi kimi tanınmışdır. Onun həyatı və yaradıcılığı haqqında Yaqut

əl-Həməvinin "Möcəmul-buldan" [15, I, s.378], Zəhəbinin "Siyaru aləmun-nübəla" [18, s.122) əsərində məlumat verilir.

**f) Məhəmməd ibn Musa əl-Mərəndi əl-Azərbaycani**

Orta əsr azərbaycanlı alimlərdən biri də Məhəmməd ibn Musa əl-Mərəndi olmuşdur. Doğum tarixi dəqiq bilinməsə də, Mərənddə dünyaya gəldiyi və Səmərqənddə yaşadığı məlumdur. Mənbələrə görə, o, Səmərqənddə yaşadığı müddətcə hədis nəql etmiş və xeyli tələbə yetişdirmişdir. Onun müəllimləri arasında Əli ibn Məhəmməd ibn Hatim ibn Dinar əl-Qəumisini xüsusilə qeyd etmək lazımdır. Tələbələri və ondan hədis nəql edənlər içində isə Həsən bin Məhəmməd bin Səhl əl-Farsini qeyd etmək olar.

Məhəmməd ibn Musanın ölüm tarixi təqribən miladi 937-ci illərə (h. 325) təsadüf edir. Görkəmli alimlərdən olan Səmani "Kitabul-ənsab" əsərində onun 940-cı illərdə vəfat etdiyini yazır [13, IV, s.253-254].

**g) Yusif ibn Qasim əl-Miyanəçi**

Orta əsr azərbaycanlı alimlərdən olan Yusif ibn Qasim əl-Miyanəçi 895-ci ildə Miyanədə anadan olmuşdur. Bir çox alimlərdən islami elmləri, xüsusilə, hədis elmini öyrənmişdir. O, Fəzl ibn Xubbab əl-Cumahi, Məhəmməd ibn Abdullah əs-Səmərqəndi, Əbu Yəla əl-Mousuli, Zəkəriyyə bin Yəhya əs-Saci, Məhəmməd ibn İshaq əs-Sərrac kimi ustadlardan hədis rəvayət etmişdir. Onun özündən isə Əbu Məsud Saleh bin Əhməd əl-Miyanəçi, Əbulhəsən Məhəmməd bin Ofv əd-Diməşqi, Əbu Süleyman ər-Razi və digərləri rəvayət etmişlər.

Ubeydilərin (910-1171) hakimiyyəti dövründə Dəməşqin qazısı olan Əbu Yusif Miyanəçi 985-ci ildə doxsan yaşında vəfat etmişdir. Onun "Amal fil-hədis" əsəri dövrümüzədək gəlib çatmışdır.

**ğ) Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Marağİ**

Dövrünün tanınmış alimlərindən olan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris Marağİ hədis dinləmək məqsədi ilə Bağdad, Nişapur, Bəsrə, Kufə, Hələb, Mosul və Məkkə şəhərlərinə səyahət etmişdir. Bağdadda Əbu Bəkr Cəfər ibn Məhəmməd əl-Fərabi, Abdulah ibn Məhəmməd ibn Naciyyə, Əbu Bəkr Məhəmməd ibn Yəhya əl-Mərvəzidən, Bəsrədə Əbu Xəlifə əl-Qazi, Zəkəriyyə ibn Yəhya əs-Sacidən, Kufədə Abdullah ibn Səvvad əl-Haşimidən, Əhvazda Abdullah ibn Əhməd əl-Cəvaliqidən, Məkkədə Müfəzzəl ibn Quteybədən, Mosulda Əbu Yəla Əhməd ibn Əli əl-Məvsilidən, Hələbdə Əbul-Həsən Əli Əbdülhəmid əl-Qəzairidən hədis dinləmişdi. Hafiz Əbu Əli, hafiz Əbu Abdullah əl-Hakim, Əbdürrəhman ibn Məhəmməd əs-Sərrac, hakim Əbu Əhməd ibn Məhəmməd və s. kimi tanınmış hədis raviləri də ondan hədis dinləmişlər. Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris Marağİ 967-ci ildə vəfat etmişdir [4, s.157].

**h) Əbu Bəkr Əhməd ibn Harun ibn Ruh Bərdici**

845-ci ildə Bağdadda anadan olan Əbu Bəkr Əhməd ibn Harun 914-cü ildə də Bağdadda vəfat etmişdir [17, s.746-747]. Hədis dinləmək üçün Beyrut,

Hələb, Homs, Dəməşq, Qahirə, Hərran, Kufə kimi məşhur İslam şəhərlərinə səfər edən Əbu Bəkr Əhməd Bərdici, bu şəhərlərdə Abbas ibn Vəlid əl-Uzri, Süleyman ibn Bəhr, Nəsr ibn Əli əl-Cəhzəmi, Əbu Zurə ər-Razi kimi mühəddislərdən hədis dinləmişdir. Nişapurda yaşadığı dövrlərdə Məhəmməd ibn Yəhya əz-Zihlinin tələbəsi olmuşdur. Sonralar Bağdadda məskunlaşan Əbu Bəkr Əhməd hədis elminin tədrisi ilə məşğul olmuşdur. Onun hədis elminə dair yazdığı "Təbəqatul-əsmail-mufrədə minəs-Səhabə vət-tabiin" və "Cuz fihə min Rəvayə anin-Nəbi min əs-Səhabə fil-Kəbair" adlı əsərləri məşhurdur. Birinci əsəri 1987 və 1990-cı illərdə Dəmşqdə, ikinci əsəri isə 2005-ci ildə Riyadda Məhəmməd ibn Türk ət-Türki tərəfindən nəşr olunmuşdur [4, s.85-86].

**x) Əbul-Həsən Əli ibn Sirri Səqr ibn Həmmad Varsani**

Əbul-Həsən Əli Varsani bir müddət Qəzvində təhsil almış, burada Əbu Hatim əs-Sicistani, Əbu Əli ət-Tusi kimi alimlərdən hədis dinləmişdir. İbn Bilal və İbn Bərkan kimi tanınmış mühəddislər Əbul-Həsən Əli Varsanidən hədis dinləmişlər [16, V, s.371]. Həyatı haqqında geniş məlumat olmayan alim VIII-X əsrlər arasında yaşamışdır.

Ərəbdilli müəlliflərdən olan əl-Bəlazuri "Fütuhul-buldan" əsərində "əl-Varsani" nisbəli bir şəxsin xəlifə Əbu Cəfər Məsur Dəvaniqinin (754-775) qızı Ummi Cəfər Zübeydənin məvlası olduğunu qeyd etmişdir. Əsərin naşiri Abdullah Ənis ət-Təbba "əl-Varsani" nisbəli bu şəxsin Əbul-Həsən Əli ibn Sirri olduğunu qeyd etmişdir [1, s.461; 4, s.358].

**ı) Hüseyn ibn İbrahim Dərbəndi**

Yaşadığı dövr VII-IX əsrləri əhatə edən Hüseyn ibn İbrahim təbəi-tabiundan olan ravilərdəndir. Hafiz Əbu Ubeydə Hümeyd ət-Təvil əl-Bəsridən (688-760) hədis dinləmişdir. Əbu Ubeydə Hümeyd isə Peyğəmbərin (s) səhabələrindən olan Ənəs ibn Maliklə görüşüb ondan hədis dinləmişdir. O, Dərbənddə hədis elminin tədrisi ilə məşğul olmuş, İsa ibn Məhəmməd əl-Bağdadi ondan hədis dinləmişdir [11, I, s.164; 4, s.96].

**i) Qazi Əbu Bəkr Məhəmməd ibn Xüzeymə Varsani**

Dövrünün tanınmış alimlərindən olan Əbu Bəkr Məhəmməd Varsan şəhərinin qazisi olmuşdur. Əbu Zərr Məhəmməd ibn Yusif ibn Məhəmməddən hədis elminin sirlərini öyrənmişdir. Əhməd ibn Əli ibn Lal Əbu Bəkr Məhəmməd isə Varsanidən hədis elmini öyrənməklə yanaşı, ondan hədis nəql etmişdir [13, IV, s.467]. Əhməd ibn Əli ibn Lal azərbaycanlı hədis hafizi Əbul-Qasim Həfs ibn Ömər Ərdəbilinin də tələbəsi olmuşdur [17, s.850-851]. Əbul-Qasim Həfs ibn Ömər Ərdəbili də 950-ci ildə vəfat etmişdir. Əbul-Qasim Həfs ibn Ömərin Əbu Bəkr Məhəmməd Varsaninin müasiri olduğunu nəzərə alaraq, alimin IX-X əsrlərdə yaşadığını söyləyə bilərik.

**j) Hafiz Əbul-Qasım Səd ibn Əli ibn Məhəmməd Zəncani**

990-cı ildə Zəncanda dünyaya gələn alim Məkkədə məskunlaşıb bu şəhərdə yaşamışdır. Daha çox Şeyxül-Həram adı ilə tanınır. Hədis elminin

sirlərini öyrənmək üçün bir çox ölkələrə səyahət etmişdir. Zəncanda Məhəmməd ibn Əbu Ubeyddən, Misirdə Əbu Abdullah Məhəmməd ibn Nəzif əl-Fərradan, Qəzzədə Əli ibn Səlamədən, Dəməşqdə Əbdürrəhman ibn Yasir əl-Cəvbəri və Əbul-Qasim ibn Tubeyyizdən hədis dinləmişdi. Əbul-Müzəffər Mənsur ibn Əbdülcabbar əs-Səmani, Əbu Bəkr əl-Xətib, Məkki ibn Əbdüs-səlam ər-Rumeyli, Hibətullah ibn Faxir, Əbul-Fəzl Məhəmməd ibn Tahir əl-Məqdisi, Əbu Cəfər Həmədani kimi alimlər ondan hədis dinləmiş və nəql etmişlər. Şeyxül-Həram Əbul-Qasım Səd ibn Əli ibn Məhəmməd Zəncani 1078-ci ildə Məkkədə vəfat etmişdir [12, II, s.328-329].

**k) Əbdüləziz ibn Həsən əl-Bərdəi**

Bir çox müsəlman şəhərlərinə səyahət edən Əbdüləziz əl-Bərdəi, Dəməşqdə Məhəmməd ibn əl-Abbas ibn əd-Dərafsdan, Misirdə Məhəmməd ibn Əhməd Əbu Yaqub İshaq ibn İbrahim əl-Bağdadi əl-Mancanikidən, Mosulda isə Əhməd ibn Ömər əl-Mavsilidən hədis dinləmişdir. “Hədis səyyahı” adı ilə tanınan alim sonralar təhsilini davam etdirmək üçün Nişapura getmişdir. Əbdüləziz 930-ci ildə Rabata gedərək orada hədis elmindən dərs deməyə başlamışdır. Bir müddət sonra o, Nissaya köçmüş və 936-cı ildə vəfat etmişdir [15, I, s.380-381].

**q) Məkki ibn Əhməd Sədəveyh əl-Bərdəi**

Dəməşq, Trablis, Bağdad və Misir kimi şəhərlərdə olan Məkki əl-Bərdəi məşhur alimlərdən elm öyrənmişdir. O, Dəməşqdə Əhməd bin Umeyr, Məhəmməd ibn Yusif əl-Həravi, Trablisda Əbdülqasım Abdullah ibn əl-Həsən Bəzzaz, Bağdadda Əbulqasım əl-Bağavi və başqalarından dərs almışdır.

941-ci ildə Nişapura gələn alim, iyirmi il burada qaldıqdan sonra Orta Asiyaya getmişdir. Əl-Bərdəi Səmərqənddə hədisdən dərs vermişdir. Əbu Səid əs-Səmani yazır ki, əl-Bərdəi “insanı heyrətləndirəcək dərəcədə əsər yazmışdır”. Əsərləri haqqında mənbələrdə başqa bir məlumat yoxdur. Məkki əl-Bərdəi 965-ci ildə Şamda vəfat etmişdir [7, s.216].

Beləliklə, mənbələrdən xeyli məlumat toplayaraq, yuxarıdakı siyahını tərtib etdik. Azərbaycanlı alimlərdən ibarət olan bu siyahı tam olmasa da, bu siyahıdan Azərbaycanın elm tarixinin öyrənilməsi üçün müəyyən əhəmiyyətli nəticələr əldə etmək olar. Bu siyahı Azərbaycanda erkən xilafət dövründə elmin inkişafı barəsində müəyyən təsəvvür yaradır. Siyahıdan aydın olur ki, azərbaycanlı alimlərin islam elmində böyük uğurları olmuşdur. Həmçinin, bu siyahi Azərbaycan ilə xilafətin digər bölgələri arasında yaranmış elmi-mədəni əlaqələrin tarixinin öyrənilməsi üçün də yararlıdır. Onların yaradıcılığı sübut edir ki, Azərbaycan xalqının həmin dövrdəki bədii təfəkkürü digər müsəlman xalqlarının mədəni səviyyəsindən heç də geri qalmamışdır.

## ƏDƏBİYYAT


1. Bəlazuri. Əhməd ibn Yəhya. Fütuhul-buldan (thq: Abdullah Ənis Təbba), Beyrut-Lübnan, h.1407/m.1987.
2. Cəmaləddin əl-Mizzi. Təhzibul-kamal fi əsmair-rical. XXXI cild. Beyrut. 1403/1983.
3. Cəmaləddin əl-Hümeyri. Ən-nəsibə. Beyrut-1979.
4. Elnur Nəsirov. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Bakı: 2011.
5. Əbu Cəfər Məhəmməd ibn Həsən ət-Tusi, Təhzibul-əhkam, Tehran nəşri.
6. Əbu Cəfər Məhəmməd ibn Həsən ət-Tusi, əl-İstibsar, Beyrut nəşri.
7. Əliyeva N. Azərbaycan Həməvinin əsərlərində Bakı : Çaşıoğlu, 1999.
8. Əl-İsfəhani. Əbul-Fərəc. Kitab əl-Əğani. Beyrut-1955.
9. İbn Quteybə Dinəvəri. Əbu Məhəmməd Abdullah bin Müslim. Kitabuş-şiir vəş-şüəra. I və II cildlər. Beyrut-1964. 680 s.
10. Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər), Şərq-Qərb, Bakı-2006. 192 s.
11. Səmani, Əbu Səid Əbdülkərim ibn Məhəmməd, Kitabul-ənsab, nəşr dərul-canan, C. I, Beyrut, h.1408/m.1988.
12. Səmani. Əbu Səid Əbdülkərim ibn Məhəmməd, Kitabul-ənsab, nəşr dərul-canan, C. II, Beyrut, h.1408/m.1988.
13. Səmani. Əbu Səid Əbdülkərim ibn Məhəmməd, Kitabul-ənsab, nəşr dərul-canan, C. IV, Beyrut, h.1408/m.1988.
14. Şeyx Səduq. Məhəmməd ibn Əli Hüseyn ibn Musa ibn Babuveyh. əl-Fəqih. C. III. Qum 1216.
15. Yaqut əl-Həməvi. Şihabəddin Əbu Abdullah. Möcəmul-buldan, C. I, Beyrut-1397/1977.
16. Yaqut əl-Həməvi. Şihabəddin Əbu Abdullah. Möcəmul-buldan, C.V. Beyrut-1397/1977.
17. Zəhəbi. Şəmsəddin Əbu Abdullah Məhəmməd bin Əhməd. Kitab Təzkirətul-Huffaz, Beyrut.
18. Zəhəbi. Şəmsəddin Əbu Abdullah Məhəmməd bin Əhməd. Siyəru ələmun-nübəla. C.XIV. Təhqiq: Xeyri Səid. 1417/1996.
19. Zəhəbi. Şəmsəddin Əbu Abdullah Məhəmməd bin Əhməd. Tarixul-İslam, Beyrut-1992.

**UOT 2**

# QƏDİM TÜRKLƏRİN İSLAMAQƏDƏRKİ DÜNYAGÖRÜŞÜ: TANRIÇILIQ (TENQRİZM) İNANCI

***Fəridə Səyədulla qızı Cəbrayılova***
***Sumqayıt Dövlət Universiteti***
***cebrayilova_fira@mail.ru***

**Açar sözlər:** *türk xalqları, tanrıçılıq, tenqri, islamaqədərki dünyagörüşü, qədim türklər*

*Tanrıçılıq (tenqrizm) qədim dövrdə, min illərlə təkamül nəticəsində formalaşan və inkişaf edən bir inancdır. Bu inanc Avrasiya çöllərində yaşamış prototürklərin fəthləri zamanı yaranmışdır. Məqalədə qədim türklərin, o cümlədən azərbaycanlıların islamaqədərki dünyagörüşü araşdırılır, tanrıçılıq (tenqrizm) haqqında məlumatlar verilir. Müəllif türk xalqlarının müasir mədəniyyətində, dini ideologiyasında və adət-ənənələrində tanrıçılığın yeri və rolundan bəhs edir. Burada, həmçinin XXI əsrdə, dünya dövlətlərinin qlobal mədəni məkana inteqrasiyası fonunda eyni dini inancın izlərini daşıyan türk xalqlarının vəhdətinin vacibliyi qeyd olunmuşdur.*

## ДОИСЛАМСКОЕ МИРОВОЗЗРЕНИЕ ДРЕВНИХ ТЮРКОВ: ТЕНГРИАНСТВО

***Фарида Джабраилова***

**Ключевые слова:** *тюркские народы, тенгрианство, тенгри, доисламское мировоззрение, древние тюрки*

*Тенгрианство является развитым верованием, сформировавшимся в вследствие многотысячелетней эволюции в глубочайшей древности. Оно было распространено в ходе завоеваний прототюркских выходцев из евразийских степей. В статье исследовано доисламское мировоззрение древних тюрков, в том числе азербайджанцев, была предоставлена информация о тенгрианстве (тенгри). Автор рассказывает о месте наследия тенгрианства в современной культуре, в религиозной идее и в традициях тюркских народов. В статье отмечается, что в XXI веке, на фоне интеграции мировых государств в глобальное культурное*

*пространство, необходимо единство тюркских народов, носящих следы одинаковой религиозной веры.*

## PRE-ISLAMIC WORDVIEW OF THE ANCIENT TURKS: TENGRİİSM

***Farida Jabrailova***

**Key words:** *Turkish nations, Tengriism, Tengri, pre-Islamic worldview, ancient Turks*

*Tengriism is a developed belief, formed in consequence of many thousands of years of evolution in the deepest antiquity. It was spread during the conquests of the proto-Turkic descendants from the Eurasian steppes. The article explores the pre-Islamic worldview of the ancient Turks, including Azerbaijanians, provided information about Tengriism (Tengri). The author tells about the place of Tengrian heritage in modern culture, in religious ideas and in Turkic people's tradition. It is noted that in the XXI century, against the background of the integration of world states into the global cultural space, the unity of the Turkic peoples bearing the same religious faith is necessary.*

Türk mədəniyyəti, fəlsəfəsi və dövlətçilik tarixi islama qədər böyük inkişaf yolu keçmişdir. Türklərin tarixdə şərəfli yer tutması yalnız hərblə əlaqəli deyil. Bunun çoxlu obyektiv və subyektiv səbəbləri vardır ki, onlardan ən ümdəsi türk dünyagörüşü, düşüncə tərzi ilə bağlıdır. Azərbaycan türklərinin islamaqədərki təsəvvürlərinin kökləri çox qədim dövrlərə gedib çıxır. Daima müxtəlif mədəniyyətlərin qaynayıb-qarışdığı ərazi olmuş Azərbaycan fərqli dinlərin formalaşdığı, çoxkonfessiyalı dövlətdir. Əslər boyu müxtəlif dinlər bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir.

Məlumdur ki, türk xalqları Altay dil qrupuna məxsus olub, dil və mənşə fərqinə görə bir neçə qola bölünürlər:

Oğuzlar - Anadolu türkləri, azərbaycanlılar, qaqauzlar, türkmənlər, axısqa türkləri, krım tatarları (türkləri), türkmanlar, Xorasan türkləri və s;

Uyğurlar – özbəklər, həzaralar,salarlar, uyğurlar, tuvalar, şorlar, komasin-tobollar, baraba tatarları, çulumlar və s;

Qıpçaqlar – qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar ;

Bulqarlar – tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər.

Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin mənəvi mədəniyyət sistemində islamaqədərki dünyagörüşü və əsasən də, qədim türklərin tanrlçılıq ideyası mühüm yer tutur. Güclü emossional enerjini özündə birləşdirən bu inanc insanların fəlsəfi və estetik görüşlərini, həyat haqqında təsəvvürlərini, xeyirlə şərin mübarizəsini, təbiətə, təbiət hadisələrinə və cəmiyyətə münasibətini əks etdirir. Tanrıçılıqdan qaynaqlanan müxtəlif inamlar tarixin ayrı-ayrı dövrlərində transformasiyaya və modernləşməyə məruz qalmasına baxmayaraq, arxaik, itirilmiş düşüncə tərzi olmayıb, real həyatda təsdiqini tapmış və bu gün də yaşamaqda olan hadisə kimi qavranılır.

Tanrıçılıq türk və monqol xalqlarının islamdan öncəki dini inancı olub, təxminən 7-8 min il əvvəl Altay xalqlarının yaşadığı geniş Asiya ərazisində yaranmışdır ki, mixi yazılar da bunu təsdiq edir. Tenqri – tanrı sözünün qədim türk dillərindəki deyiliş şəklidir.

Rusiyalı arxeoloq N.M.Yadrıntsev ilk dəfə olaraq 1889-cu ildə qədim türk abidələrini kəşf etdi. 1895-ci il noyabrın 25-də danimarkalı tarixçi Vilhelm Tomsen və alman əsilli rusiyalı türkoloq Vasili Radlov Orhon-Yenisey daş kitabələrindəki yazıları çözməyə müvəffəq oldular ki, ilk oxunan tenqri (tanrı) sözü idi. Daş kitabələrdəki yazılar türklərin qədim tarixə və yazı mədəniyyətinə malik olduqlarının əyani sübutudur.

Tenqri - göyü təcəssüm etdirən tanrıdır və bu sözə əksər türkdilli xalqlarda rast gəlmək mümkündür. Belə ki, tenqri altaylarda - tenqeri, yakutlarda – tanqara, tuvılarda - deer, çuvaşlarda – tura, buryatlarda - tenqeri, kalmıklarda – tenqer, xakaslarda – ter kimi səslənir.

"Tenqri" termini qədim türk mifologiyasına aiddir və güman edilir ki, e.ə. III minillikdə hun dilində mövcud olmuşdur [1, 52-53].

Əsasını tanrıçılıq (tenqrilik) təşkil edən türk mifologiyasının kökləri çox qədimdir. Mistisizm, kosmoqoniya, epik əfsanələrin ruhuna və məzmununa yaxınlıq, xalqın adət-ənənələrinin, mədəniyyətinin, xüsusilə qəhrəmanlığının əksi türk mıfologiyasının janr müxtəlifliyinin göstəricisidir.

Qazaxıstanın görkəmli ictimai-siyasi xadimi, şair, yazıçı-türkoloq Oljas Süleymenov özünün məhşur "Az-Ya" əsərində yazır: "İndiyə qədər elmi ədəbiyyatda "tenqrilik" termini işlədilməyib. Hind, İran və semit dinlərinin anası, fəlsəfi təlim kimi xristian allahından 4 min il əvvəl dünyaya gəlmiş, bəşər tarixinin ən qədim dini, əski Misir inanclarına güclü təsir göstərmiş *tenqrilik* çoxdandır ki, öz tədqiqatçılarını gözləyir. Materialla və idrakla zəngin "Tenqrilik" kitabı yazılmış olsaydı, arxeoloqlara saxsı qırıqlarından baş açmaq nə qədər də asan olardı" [2, 243].

Tenqriçilik - mədəni fenomen, dünyagörüşü və dini ideya kimi əcdadlarımızın bizə qoyduğu mirasdır. Onu bilməmək keçmiş və gələcək nəsillər qarşısında tarixi günahdır.

Dahi dilci, filoloq və ensiklopedist, turk ruhunun tərcumanı, türkçülüyün bayraqdarı Mahmud Kaşğari özünün fundamental "Divanu luğat-it-turk" əsərində min il bundan əvvəlki dilimizin, tarix və mədəniyyətimizin ən dəyərli, ən başlıca mənbəyi kimi elmdə tamamilə yeni üfüqlər acaraq türk xalqlarının həm islamaqədərki, həm də islam dövründə tenqri haqqındakı dünyagörüşlərindən bəhs etmişdir [3] .

Türkiyənin məşhur ictimai xadimi, şair Ziya Gökalp "Türkçülüyün əsasları" kitabında yazır: "Türklərin İslamdan öncəki dinində Gök Tanrı mükafat Tanrısıdır. Cəzalandırma işinə qarışmır. Cəza Tanrısı Ərlik xan adında başqa bir mifoloji varlıqdır. Tanrı (Allah) yalnız «cəmal» (gözəl üz, gözəllik) sifətiylə göründüyü üçün əski türklər onu sadəcə olaraq sevərdilər. Allaha qarşı qorxu duymazdılar. İslamdan sonra türklərdə Allah sevgisinin üstün olması bu əski gələnəyin - ənənənin davamından ibarətdir. Türklərdə Allah qorxusu çox seyrəkdir. Əski Türk dinində Türk Tanrısı barış və sağlamlıq ilahı idi" [4, 53].https://az.wikipedia.org/wiki/Tanr%C4%B1 - cite_note-1

Türkoloq Rafael Bezertinov tenqriliyi türk və monqol xalqlarının dini hesab edərək yazır: "Buddizmi, xristianlığı, islamı qəbul etməmişdən öncə, türklər daha qədim və özünəməxsus dinə malik idilər. Bu din kosmik Tanrı kultuna əsaslanırdı. Öz kökü etibarilə e.ə.V- IV minilliklərə gedib çıxan, Avroasiya ərazisində məskunlaşan türklərın və monqolların dini inancı hesab olunan tenqri haqqında təsəvvürlər fransız tədqiqatçısı Jan-Pol Runun bu təsəvvürləri ümumiləşdirilərək "tenqrizm" adlandırmasına əsas verdi" [5, 5-7].

Qədim türklər kainatın hakimi, tək və qüdrət sahibi Göy Tanrıya inanırdılar. Göy Tanrı kainatın, həyatın sahibi, ölüm və həyatın qaynağıdır, səadəti də, bədbəxtliyi də verən tək varlıqdır.

Tenqriçilik və ya Göy Tanrı dinində Göyün ulu ruhu Tanrıdır, Göy ata Tanrı, torpaq ana Ötükendir. Göy Tanrı inancına görə Tanrının bənzəri yoxdur və Tanrı insanlara doğru yolu göstərən, onları mükafatlandıran və cəzalandıran yaradıcıdır. Türklər bu inançlarına görə bütlərə tapınmamışlar. Qədim türklər Göyün və yeraltının yeddi qatı, hər qatda çeşidli ruhların mövcud olduğuna və təbiətə, tanrıya, digər insanlara hörmət etməklə dünyanı tarazlıqda saxlanmasına inanırdılar. Bu tarazlığın pozulması şamanların köməyi və tanrıya qurban kəsməklə nizama salınırdı. Tanrıya yalvaranda əlləri yuxarı tutar, diz çöküb səcdə edərdilər. Dilək tutub ağaca parça bağlamaq, yola çıxanın arxasından su atmaq və s. kimi adətlər tanrıçılıq inancında öz əksini tapmışdı. Qədim türk abidələrində xeyirin və şərin Tanrıdan gəlməsi, bütün məsələlərdə Tanrıya təvəkkül inancının – "İnsan övladının hamısı yaranıb ki, Göy tərəfindən qoyulmuş vaxtda ölsün" ("Bilgə Kağan" abidəsi), ölümdən sonrakı həyat, yəni Qiyamətdə dirilməyə inamın izlərinin - "Göylərdə diri edilənəcən..." (Kültigin, cənub-şərq tərəf, cümlə yarımçıq qalıb) olduğunu

görürük. Ümumiyyətlə, yeni dinlərin hansının olmasından asılı olmayaraq, bütün türk və monqol xalqlarında tenqriçiliyin izlərinə rast gəlmək mümkündür.

"Bugünkü Orta Asiya türk şivələrinin əksəriyyətində Tenqri "tanrı" və "göy" mənalarındadır. Türkiyə türkcəsində isə bu söz (olduqca qədimləşmiş) yalnız Allah mənasında işlənmişdir [6].

Göy Tanrısından sonra sakrallığına görə ikinci tanınmış yaradıcı Yer xandır. O, türklərin ən ibtidai ilahiləşdirilən qüvvələrindən biridir. Dünyanın əsas maddi, əks, qadın başlanğıcı kimi götürülən torpaq Yer xanın canıdır, bütün maddi varlıqlar və təbiət hadisələri onun qoynunda yaranıb məskunlaşmışdır. İkili xarakterə malikdir. Dünya xalqlarının mifologiyasında göy-yer qarşılaşmasına həsr olunan süjetlərdə yerdəyişmə hadisəsinə rast gəlirik. Göy kimi Yer də gah qadın, gah da kişi şəklində şərh olunur.

Bu inancın kökləri Hun Türklərinə dayanır. Belə ki, tenqriliyə görə hər şeyi görən və bilən məkanı göylər kimi tanınan Tanrıdır və Türk Xaqanlarına bu Tanrı tərəfindən səlahiyyət verilmişdir. Tanrının göydə olduğuna inanıldığı üçün bu tanrıya Göy Tanrı deyilmişdir. Göy Tanrı inancında təbiətlə iç-içə yaşayan türklər, təbiətdəki bəzi şeylərə də şərafət veriblər, ancaq bunları Tanrı kimi qiymətləndirməmişlər. Məsələn, günəş fiquru Türk Mədəniyyətində çox önəmli olsa da, bahar dövrü bozqurt fiquru müqəddəs sayılsa da, bunlar bütə çevrilməmiş, yalnız Göy Tanrı tərəfindən Türklərə göndərilən nemət kimi anılmışdır.

Qədim Türklərdə müqəddəslik "ıduk" anlayışı ilə ifadə edilmiş və təbiət ünsürü olan sular və dağlar "ıduk" sayılmışdır. Belə ki, hər bir boyun bir müqəddəs dağı olmuş və bu dağ sanki Tanrının bu boya hədiyyəsi, bu boy üçün ıduk kimi qəbul edilmişdir. Tək Tanrı ideyasına söykənən bu inanc sistemində insanların dünyadakı həyatlarına görə axirətdə yer alacaqlarına inanılmış, Allah adına qurbanlar (daha çox atlar) kəsilmiş, ölən insanlar əşyaları ilə birlikdə basdırılmış və onların ruhları narahat olmasın deyə, məzarlar çox ciddi qorunmuşdur. Belə ki, Attilanın sırf bəzi türklərin məzarları Margus keşişləri tərəfindən açıldığı üçün səfərə çıxdığı da rəvayət olunur.

Tanrıçılıq inancında axirət, cənnət və cəhənnəm anlayışlarına da rast gəlinir. Bu inanca görə ruh (ürək) ölümsüzdür. Belə ki, qədim türklər ölərkən yaxşı insanların *uçmağa* (cənnət anlayışının əvəzi), pislərin *tamuya* (cəhənnəm anlayışının əvəzi) - yeddi qat yerin dibinə gedəcəyinə və təbiətə hörmət göstərildiyi, adətlərə riayət edildiyi təqdirdə Tanrının onlardan razı olacağına inanırdılar.

Göytürklərin təsəvvüründə dünya yurt (çadır) şəklindədir. Kosmosdakı Ağ yol çadırın tikişləri, ulduzlar isə işıq üçün açılan dəliklərdir. Tanrılar hərdən çadırı açırlar ki, yerə tamaşa etsinlər. "Kitabi-Dədə Qorqud" eposunun finalında oğuz-türk elinin iki qanadı bir-birinə asi düşüb vuruşur, nəticədə şər məğlub olur. Qələbədən sonra elin başçısının gördüyü ilk iş bundan ibarətdər ki,

"Qazan gög alan çəmənə çadır dikdirdi" [7, 126]. Göründüyü kimi, burada qurulan çadır göylə əlaqələndirilir, dünyanın bütövlüyünə qarşı yönələn təhlükələr aradan qaldırılanda el Göy Tanrının şərəfinə göy altında mifik dünya modelini simvollaşdıran göy rəngli, başı göyə çatan çadır qurmalıdır.

Azərbaycan türklərinin tanrıçılıq görüşlərində bütöv kainat üç çadırdan ibarətdir: *ağ, qırmızı və qara.* Çadırların birincisində Günəş Tanrı, ikincisində insanlar – oğuz tayfaları, üçüncüsündə isə günaha batanlar məskunlaşırlar. "Kitabi-Dədə Qorqud"da həmin təsəvvürlərə söykənən mifik dünya modelinin tam təsvirinə rast gəlirik. Eyni zamanda Qorqud Dədənin ekzistensional problemləri əks etdirən həyat-ölüm-ölməzlik haqqında düşüncələri təkcə yazılı abidədə deyil, türk xalqlarının mənəvi ruhunda, dünyagörüşündə da qalmaqdadır.

"Şərq- həssas bir məsələdir" ifadəsi səbəbsiz deyil. O kiçik bir detalın son dərəcə böyük əhəmiyyətə malik olduğu adət və ənənələrin, sosial təsisatların mürəkkəbliyini və bir o qədər də incəliyini bildirir. Bütün bunlar şübhəsiz ki, qədim türklərin, o cümlədən Azərbaycan türklərinin islamaqədərki dünyagörüşündən də qaynaqlanır.

"Tenqriliyin əsas ideyası sonrakı dinlərin ideyasından nə ilə fərqlənir? - İnsanın öləndən sonra sözün əsil mənasında diriləcəyinə və öz əvvəlki qiyafətində yer üzərinə yaşayacağına əmin olan inamla. Yuxu mərhələsindən keçib oyanacaqsan: Baydaq və ot kimi (əgər Yer oğlusansa), Günəş kimi (əgər sən Göy oğlusansa)" [8, 243].

Türkoloq Murad Acı tenqriliyi tədqiq edən, türk dialektləri ilə araşdırmalar aparan alman alimi Gerhard Dörferin "... söhbət bəşəriyyətin ilk monoteist dinlərindən biri sayılan tenrililikdən gedir" fikrinə münasibət bildirərək qeyd edir ki, bu barədə Avropa kilsəsi rəsmi olaraq susur, lakin xristianlıq tenqriliyin transformasiyaya ugramış şəklidir, İsa isə Tanrı xanın oğludur" [9, 11].

Tanrıçılıq dünyagörüşü mədəniyyət və adət-ənənənin mənəvi mirası kimi türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin şüurunda qalmaqdadır. XXI əsrdə dünya mədəni məkanına inteqrasiya edilməsi, xalqlar və dövlətlərarası mənəvi böhranın aradan qaldırılması prosesində mənəvi-etik dəyərlərin, ideyaların, meyllərin vəhdəti ilə türk xalqlarını bir araya gətirən tanrıçılıq inancının rolu əhəmiyyətli ola bilər. Bu mənada xalqımızın əski inancı olan tanrıçılığın daha dərindən araşdırılması öz tədqiqatçılarını gözləyir. Milli kimliyinə, mənəvi irsinə sahib çıxmaq özünə türk deyən hər bir xalqın haqqıdır və bu yolda bütün səyləri birləşdirmək lazımdır.

## ƏDƏBİYYAT

1.Генишев Э.Р. Тюркские языки.-М.1997-с.52-53
2. Süleymenov Oljas. Az-Ya. Bakı, Şərq-Qərb, 2007.s.243
3. Mahmud Kaşğari. "Divanu Luğat-it-turk". Dörd cilddə. I cild. Bakı, "Ozan", 2006, 512 səh.
4. Gökalp Ziya. Türkçülüğün Esasları. Nşr: Alter yay. Ankara. Baskı, 2012. s. 53
5. Безертинов Р.Н. Тэнгрианство – религия тюрков и монголов: научно-популярное издан., 2-е изд., доп. – Н. Челны. Аяз, 200, Казань, Слово, 2004, с.5-7.
6. Bünyadov Ziya. Dinlər, təriqətlər, məzhəblər. Bakı, "Şərq-Qərb", 2007. 326 səh.
7. Kitabi-Dədə Qorqud. F.Zeynalov və S.Əlizadənin nəşri – B., Elm, 1988, s. 126.
8. Süleymenov Oljas. Az-Ya. Bakı , Şərq-Qərb, 2007.s.243
9. Аджи Мурад. Полынь половецкого поля. Москва. 1994, с.11.

**UOT 930.22**

# ABŞ VƏ BÖYÜK BRİTANİYADA DÖVLƏT İDARƏÇİLİYİ KADR HAZIRLIĞI

***Ramilə Bəhlul qızı Dadaşova***
***AMEA-nın Qafqazşünaslıq İnstitutu***

***Vahid Allahverdi oğlu Ömərov***
***AMEA-nın Qafqazşünaslıq İnstitutu***
***vahid-o@mail.ru***

**Açar sözlər:** *ABŞ, Böyük Britaniya, dövlət idarəçiliyi, kadr hazırlığı, magistr proqramı, dövlət qulluğunu, dövlət xidməti*

*Məqalədə ABŞ-da və Böyük Britaniyada dövlət idarəçiliyi kadr hazirliği tədqiq olunur. Tədqiqat zamanı məlum olmuşdur ki, dövlət idarəçiliyi kadrlarının hazırlığının modernləşməsi inzibati islahatlara uyğun olaraq yüksək tələblərə kifayət qədər cavab verir. Bu sahədə təkcə xarici təcrübədən istifadə etmək kifayət deyil, həm də beynəlxalq əməkdaşlığı gücləndirmək lazımdır. Dövlət xidmətinin "açıq" modeli əsasən anglo-sakson ölkələri üçün tipikdir. Bu model əsasən Böyük Britaniya və ABŞ-da tətbiq edilir. ABŞ-da dövlət qulluqçularının hazırlığında professional inkişaf əsas götürülür, öyrənmə tempi, öyrənilən materialın mənimsənilməsi, şəxsi peşə keyfiyyətlərinin təkmilləşdirilməsi, ünsiyyət bacarığı, nizam-intizam, özünüinkişaf keyfiyyətinin yüksək olması, peşəkar əhəmiyyətli qabiliyyətlər, mühüm bilik və bacarıqların uyğunlaşdırılması və s. əsasında həyata keçirilir. İxtisasartırmanın fasiləsiz olması mütəxəssislərin sistematik attestasiyasına stimul verir. ABŞ-da məmurların hazırlanması magistr proqramı ilə uzlaşan MPA və MPP proqramı əsasında həyata keçirilir. Xarici ölkələrin, xüsusilə ABŞ və Böyük Britaniya kimi ölkələrin təcrübəsi göstərir ki, insan resursları ilə işləmək dövlət idarəçiliyinin səmərililiyinin yüksəlişi üçün əsas amillərdən biridir. Bu, ilk növbədə dövlət qulluğuna aiddir. Buna görə də ABŞ və Böyük Britaniyanın dövlət qulluğunun təşkili və onun kadr təminatı kimi qabaqcıl təcrübəsindən istifadə edilməsi və tətbiqi bütün postsovet ölkələri - o cümlədən Azərbaycan üçün olduqca aktual əhəmiyyət kəsb edir.*

# ПОДГОТОВКА КАДРОВ ДЛЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ В США И ВЕЛИКОБРИТАНИИ

***Рамиля Дадашова***
***Вахид Омаров***

**Ключевые слова:** *США, Великобритания, государственное управление, подготовка кадров, магистерская программа, государственная служба*

*В статье рассматриваются государственные управленческие кадры в США и Великобритании. В ходе исследования было выявлено, что модернизация персонала государственного управления адекватно отвечает высоким требованиям в соответствии с административной реформой. Достаточно не только использовать зарубежный опыт в этой области, но и укреплять международное сотрудничество. «Открытая» модель государственной службы типична для англосаксонских стран. Эта модель в основном используется в Великобритании и США. Профессиональное развитие государственных служащих в США основывается на темпах обучения, усвоении учебного материала, повышении личных профессиональных навыков, навыков общения, дисциплины, высокого уровня самооценки, профессиональных навыков, умения адаптировать важные знания и навыки. Постоянное повышение квалификации стимулирует систематическую аттестацию специалистов. Подготовка кадров в Соединенных Штатах основана на программе MPA и MPP, соответствующей программе магистратуры. Опыт зарубежных стран, особенно США и Великобритании, показывает, что работа с человеческими ресурсами является одним из ключевых факторов эффективности государственного управления. Поэтому использование и применение передового опыта США и Великобритании в качестве организации государственной службы и ее кадрового обеспечения крайне актуально для всех постсоветских стран, включая Азербайджан.*

# TRAINING FOR PERSONNEL FOR PUBLIC ADMINISTRATION IN THE USA AND GREAT BRITAIN

***Ramila Dadashova***
***Vahid Omarov***

**Keywords:** *United States, United Kingdom, public administration, training, master's program, public service*

*The article discusses government management personnel in the United States and the United Kingdom. The study revealed that the modernization of public administration staff adequately meets the high requirements in accordance with the administrative reform. It is enough not only to use foreign experience in this area, but also to strengthen international cooperation. The "open" model of public service is typical for Anglo-Saxon countries. This model is mainly used in the UK and the USA. The professional development of civil servants in the United States is based on the pace of training, learning materials, improving personal skills, communication skills, discipline, high level of self-esteem, skills, adapting important knowledge and skills. Continuous professional development stimulates the systematic certification of specialists. Training in the United States is based on the MPA and MPP program corresponding to the master program. The experience of foreign countries, especially the USA and Great Britain, shows that working with human resources is one of the key factors for the effectiveness of public administration. Therefore, the use and application of best practices of the United States and Great Britain as a public service organization and its staffing is extremely important for all post-Soviet countries, including Azerbaijan.*

**Giriş.** Hər hansı bir dövlətin iqtisadi, sosial-siyasi inkişafı birbaşa kadrların idarə edilməsi keyfiyyətindən asılıdır. Dövlət qulluğu sisteminin formalaşması və inkişafında kadrların hazırlanmasının müxtəlif təhsil modellərinin xarici ölkələrin təcrübələrindən öyrənilməsi dünyada təhsil prosesinin əsas meyillərini, dövlət qulluğu sahəsində kadr hazırlığı problemlərində çatışmazlıqları və perspektivləri görməyə imkan verir. Dövlət qulluqçularının ixtisasartırması xarici ölkələrdə dövlət qulluğunun tərkib hissəsidir. Dövlət idarəçiliyi kadrlarının hazırlığının modernləşməsi inzibati islahatlara uyğun olaraq yüksək tələblərə kifayət qədər cavab verir. Bu sahədə təkcə xarici təcrübədən istifadə etmək kifayət deyil, həm də beynəlxalq əməkdaşlığı

gücləndirmək lazımdır. Müasir şəraitdə dövlət idarəçiliyi kadrlarının keyfiyyət göstəriciləri qərb ölkələrinin malik olduqları təcrübə ilə üst-üstə düşür.

ABŞ-da dövlət qulluqçularının hazırlığında professional inkişaf əsas götürülür, öyrənmə tempi, öyrənilən materialın mənimsənilməsi, şəxsi peşə keyfiyyətlərinin təkmilləşdirilməsi, ünsiyyət bacarığı, nizam-intizam, özünüinkişaf keyfiyyətinin yüksək olması, peşəkar əhəmiyyətli qabiliyyətlər, mühüm bilik və bacarıqların uyğunlaşdırılması və s. əsasında həyata keçirilir. İxtisasartırmanın fasiləsiz artması mütəxəssislərin sistematik attestasiyasına stimul verir. Təhsil prosesində sürətli iqtisadi dəyişiklik, informasiya texnologiyasına artan ehtiyac, yeni bacarıqların əldə edilməsi nəzərə alınır.

## DÖVLƏT XİDMƏTİNİN “AÇIQ” MODELİ

Dövlət xidmətinin “açıq” modeli əsasən anglo-sakson ölkələri üçün tipikdir. Bu model əsasən Böyük Britaniyada və ABŞ-da tətbiq edilir, aşağıdakı xüsusiyyətlərin mövcudluğu ilə xarakterizə olunur:

*xidməti normativ hüquqi nizama salınma sisteminin aydın şəkildə təşkil edilməməsi;

*dövlət qulluğuna müraciət edənlərin cəlb edilməsi üçün açıq rəqabət sistemi;

*əmək haqlarının və vəzifədə irəliləmənin dövlət qulluqçularının işinin nəticələrindən asılı olması;

*işdən azad edilmənin sadələşdirilmiş proseduru;

*ümumi humanitar sahə mütəxəssislərinin üstünlük təşkil etməsi [4].

## ABŞ-DA DÖVLƏT XİDMƏTİ MODELİ

ABŞ-da dövlət xidməti modelinin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

*Dövlət qulluğunda siyasi təyinatların yüksək rolu;

*"Ləyaqət sisteminin" mövcudluğu;

*Dövlət qulluqçularının vəzifədən azad edilməsi üçün sadələşdirilmiş prosedurlar;

*Dövlət qulluğunun yüksək səviyyədə mərkəzləşdirilməməsi;

*Dövlət qulluğunda fərqləndirmə: dövlət qulluqçuları - bütün ABŞ müəssisələrində işləyənlər, dövlət məmurları - ən yüksək siyasi təyinatlar, dövlət qulluqçuları – vəzifələri dəyişməyən məmurlar .

## ABŞ-DA DÖVLƏT İDARƏÇİLİYİ MAGİSTR PROQRAMI

ABŞ-da gələcək dövlət qulluqçusu tələbələri dövlət idarəçiliyi magistr proqramına yiyələnməklə aşağıdakıları etməlidirlər:

- təşkilatları idarə etməli və onlara rəhbərlik etməlidirlər;
- dövlət siyasətini dərk etməli və ona öz töhvələrini verməlidirlər;

- siyasəti, proqramları, problemləri tənqidi təhlil etməli və müvafiq təklif və tövsiyələr verməlidirlər;
- müxtəlif yönümlü ictimai qüvvələrlə səmərəli yazılı və şifahi ünsiyyət yaratmalıdırlar.

ABŞ-da məmurların hazırlanması magistr proqramı ilə uzlaşan MPA və MPP proqramı əsasında həyata keçirilir. Təhsil bir qayda olaraq tanınmış universitetlərin yanında olan ixtisaslaşmış hökumət kolleclərində, yaxud yerli hakimiyyət orqanlarının sifarişi ilə aparılır. MPA (Master of Public Administration) proqramı dövləti idarəedənlərin hazırlanmasına yönəldilmişdir. ABŞ-ın iri universitetləri bu proqram ilə təhsil verir. Əsil məmurlar Avropa universitetlərində, yaxud dövlət qulluqçusu hazırlayan kolleclərdə deyil, ABŞ-da yetişir.

MPA proqramının özünəməxsusluğu ondadır ki, təhsil alan insan üç istiqamətdə bilik əldə edir – iqtisadiyyat, hüquq, menecment. Bundan başqa psixologiya, sosiologiya, politologiya, dil dərsləri tədris edirlər. Kompüter texnikasına tam yiyələnirlər, təlimlərdə iştirak edirlər, virtual analiz edirlər və s.

Bu proqramın ikinci özünəməxsusluğu ondadır ki, proqram idarəetmə sahəsində 2-3 il iş təcrübəsi olan abituriyentlər, 7 ilə qədər iş təcrübəsi olan xarici vətəndaşlar üçündür. Xaricilər TOEFL (Test of English as a Foreign Language), yerlilər, yəni amerikalılar isə graduate test imtahanı verirlər. GRE (Graduate Record Examinations) proqramında ingilis dili, riyaziyyat, təhlil sahəsində bilik səviyyəsi yoxlanılır.

Proqramın özünəməxsusluğunu əsaslandıran üçüncü göstəricisi odur ki, bu proqram postgraduate proqramına yaxındır. Namizədlər ciddi yoxlanılır. Onların təşəbbüs göstərmə bacarığı, fəaliyyətləri, lider keyfiyyətləri, şəraiti qiymətləndirmə bacarıqları, əlverişli imkanı əldə etmək qabiliyyətləri yoxlanılır.

MPA proqramı müxtəlif diplomlar verir: hökumət idarələrində idarəetmə üzrə magistr (hökumət məmurları), dövlət siyasəti üzrə magistr, qeyri-kommersiya təşkilatlarında idarəetmə üzrə magistr.

MPA proqramının tədris prosesi sosial fənlərin öyrənilməsi fonunda təşkil edilir. Dövlət qulluğunun öyrənilməsi özündə aşağıdakı bölmələri və fənləri birləşdirir: idarəetmənin əsas konsepsiyası, təşkilatın nəzəriyyəsi, hazırlıq. Qərarın qəbul edilməsi, sosial proseslər və onların sistemli təhlili, statistika. Siyasi iqtisadiyyat və onun tədrisi.

MPA proqramını öyrənənlər idarəetmə aparatlarında idarəetmə proqramının menecmenti, həmçinin ekspert-analitiklər kimi çalışa bilərlər [2, 147-148].

## DÖVLƏT İDARƏÇİLİYİ MAGİSTR DƏRƏCƏSİ AŞAĞIDAKI SAHƏLƏRDƏ TƏMƏRKÜZLƏŞMƏNİ TƏLƏB EDİR:

- Dövlət idarəçiliyi;
- Səhiyyənin idarə olunması;
- Qeyri-kommersiya idarəçiliyi;
- Ekoloji siyasət və idarə etmə.

TƏTBİQİ PROSES

MPA proqramına namizədlər magistraturaya ərizə vermə prosesini başa çatdırmalı və iki zəmanət məktubu təqdim etməlidirlər. Ərizəyə 60 ABŞ dolları ödənilməlidir.

MPA PROQRAMININ TƏLƏBLƏRİ

1. 39 saatlıq məşğələ kursu və 3 saatlıq təcrübə keçrilməlidir

- 21 saat tədris proqramının əsas məcburi hissəsidir;
- Qalan hissə kurslarla birləşdiyi və məşvərətçilərin müəyyənləşdirdiyi fakultətiv kurslardır.

2. 3 saatlıq təcrübə dövlət qulluğunda təcrübə işlərinə malik tələblərlə əvəz oluna bilər. Zəruri 42 saatı keçmək üçün tələbələr hesabat təqdim etmək imkanına malikdirlər. Hesabatda dövlət idarəçiliyndəki iş təcrübələri və ya 3 saatlıq fakultətiv kurs haqqında məlumatlar öz əksini tapır. Xarici dili bilmək tələbi yoxdur.

3. MPA tələbələri MPA şöbəsi direktoru ilə məsləhətləşərək öz tədris kurslarını işləyib hazırlamalıdırlar.

4. MPA magistrləri öz tədris kurslarının bitməsi üzrə diplom işini başa çatdırmalı və təqdim etməlidirlər [8].

Əksəriyyət kurslar onlayn olur. Bəzi kurslar isə yerli kollec və ya unversitetlərdə keçirilir.

Texas Texniki Unversitetində politologiya sahəsində dövlət idarəçiliyi tələbələri humanitar elmlərin bakalavr səviyyəsində aşağıdakıları öyrənməlidirlər:

Amerika siyasəti

43 saatlıq C qiymətləndirməsi ilə aşağıda kurslar keçirilir:

- POLS 3317 Amerika siyasətində seçmə mövzular;
- POLS 3317 Kompaniyalar və seçkilər;
- POLS 3317 İctimai rəy;
- POLS 3319 Siyasi davranış;
- POLS 3323 Konqres;
- POLS 3325 Siyasi partiyalar;
- POLS 3327 Amerika Prezidentliyi;
- POLS 3351 Məhkəmə prosesi;
- POLS 3351 Konstitusiya hüququ;
- POLS 3351 Konstitusiya qanunvericiliyi məhdudlaşdırmaları.

Müqayisəli siyasət

42 saatlıq C qiymətləndirməsilə aşağıdakı kurslar keçirilir:

- POLS 3302 Müqayisəli siyasətdə seçmə mövzular;
- POLS 3303 Müqayisəli xarici siyasət;
- POLS 3304 Postkommunist siyasəti;
- POLS 3305 Qərbi Avropa hökumətləri
- POLS 3306 Cənubi Amerika hökumətləri;
- POLS 3307 Asiyada siyasət və hökumətlər.

Beynəlxalq münasibətlər

42 saatlıq C qiymətləndirməsilə aşağıdakı kurslar keçirilir:

- POLS 3301 Beynəlxalq münasibətlərdə seçmə mövzular;
- POLS 3309 ABŞ-ın xarici siyasəti;
- POLS 3310 Beynəlxalq təşkilatlar;
- POLS 3311 Müharibə və təhlükəsizlik;
- POLS 3312 Beynəlxalq ticarət və təhlükəsizlik;
- POLS 3313 Transmilli problemlər [9].

Minlərlə xarici tələbənin ABŞ-dakı MBA proqramını seçməsinin səbəblərindən biri seçim və konsentrasiyanın müxtəlifliyinin olmasıdır. Magistrantlar burada maliyyə, mühasibat, sahibkarlıq, marketinq, biznesin idarə edilməsi, tədarük zəncirinin idarə edilməsi, qlobal biznes və s. üzrə təhsil ala bilərlər [8]. Amerikanın təhsil sistemi hər səviyyədə fərqlənir. Əsas prinsiplər və nəzəriyyələr öyrədilərək praktikada tətbiq olunur.

## BÖYÜK BRİTANİYADA DÖVLƏT İDARƏÇİLİYİ KADR HAZIRLIĞI

Böyük Britaniyanın dövlət mülki xidmət institutu aşağıdakı növlərə bölünür:

1) rəhbər dövlət qulluqçuları;
2) icraçılar;
3) texniki mütəxəsisslər.

Böyük Britaniyada dövlət quluğunun ənənəvi sistemi bir sıra xüsusiyyətləri ilə fərqlənir:

*apolitik olmalı. Dövlət qulluqçusu dövlət qulluğunun bütün istiqamətlərində qərəzsiz olmalıdır;

*iyerarxik olmalı. İngilis sistemi üç mövqeyə malik olan bir struktur təsnifatına malikdir: dəftərxana, icra və inzibati;

*qeyri-bərabərlik. İmtiyazlı universitetlərdən dövlət qulluğuna qəbul edilərkən bərabərliyin olmaması;

*dəyişilməzlik. Mövcud hökumətin istefası halında dövlət məmurlarının müəyyən bir kontingenti öz mövqelərini qoruyur [3, 14].

Dövlət xidməti kadr hazırlığı Böyük Britaniyada uzun müddətli və çox pilləli prosesdir. Böyük Britaniyanın Parlament strukturunda Dövlət Qulluğu İşləri üzrə Nazirlik fəailiyyət göstərir ki, o dövlət qulluqçularının peşə hazırlığı və yenidən hazırlanmasına cavabdehdir. Adı çəkilən Nazirliyin strukturunda Dövlət Qulluqçularının Hazırlığı üzrə Kollec yaradılmışdır. Bu kollecdə icraçı və texniki mütəxəssis qulluqçuların hazırlığı üzrə tədris proqramları həyata keçirilir. Rəhbər kadrlar Böyük Britaniyanın Oksford və Kembric kimi aparıcı unversitetlərində yenidən hazırlanır.

Tədris proqramları əsasında həmin unversitetlərdə Dövlət Qulluğu İşləri üzrə Komissiya tərəfindən vəzifə tutmaq üçün dövlət qulluqçuları imtahan verirlər. Böyük Britaniyanın dövlət qulluqçuları sistemi siyasi cəhətdən neytraldırlar. Böyük Britaniyada dövlət qulluğunun aşağıdakı digər əlamətləri vardır:

- perarxiklik (dövlət sistemində siniflər sisteminin mövcudluğu);
- təbəqəçilik (dövlət qulluğu üzrə qəbul olunmuş aparıcı unversitetlərlə tələbələrinin üstünlüklərə malik olması);
- əvəzedilməzlik (dövlət qulluqçuları hökumətlər dəyişən zaman öz vəzifələrini saxlayırlar).

Böyük Britaniyada dövlət qulluqçularının hazırlığının mərkəzləşdirilmiş sxemi mövcud deyildir. MPA proqramı üzrə hazırlıqlar müxtəlif cür adlanırlar. Məsələn dövlət siyasəti, dövlət bölməsi idarəçiliyi və ya dövlət inzibatçılılığı və s.

Dövlət qulluqçuları kadrlarının hazırlığı Dövlət Qulluqçuları Kollecində (Sivil Servies College) gələcək rəhbərlərin hazırlanması proqramları üzrə keçirilir. Bu cür proqramlar 3 dərəcəyə qədər irəliləmək üçün zəruri olan ixtiaslaşma əldə etmək hüququ verir. Eyni zamanda 4-7 dərəcəli rəhbərlər üçün ixtisasartırmann xüsusi proqramları mövcuddur. 1-2 dərəcəli rəhbər vəzifələri tutan mütəxəssislər onlar üçün işlənib hazırlanmış "Master-klasslar" proqramlarına gedirlər.

Böyük Britaniyada kadrların hazırlığı prioritet istiqamət hesab olunur. Buna görə də müxtəlif nazirliklər və idarələr tərəfindən təşkil olunmuş geniş praktiki məşğələlər, təhsil kursları və konfranslar sistemləri mövcuddur. Həmin qurumların nizamnamələrində kadr tərkibinin hazırlanmasına görə məsuliyyət öz əksini tapmışdır. Bu ölkədə çoxlu seminarlar, kurslar, təhsil proqramları, fərdi yanaşmalar nəzərə alınmaqla kadrlar hazırlanır.

Böyük Britaniyada bakalavr səviyyəsində onlayn-mərkəzlərdə, magistr səviyyəsində 19 universitetdə dövlət idarəçiliyi kadrları hazırlanır. Kadrların hazırlığı üçün proqramlar dövlət idarəçiliyi konsepsiyasının həyata keçirilməsinə yönəldilmişdir. "Bu universitet proqramlarına daxil olmaq üçün vacib şərt politologiya, hüquq və sosiologiya üzrə təhsilin olması, ya da bu ixtisaslar üzrə dövlət strukturlarında təcrübənin olmasıdır" [2, 9]. 2012-ci ildən

Böyük Britaniyada Futurelearn kütləvi onlayn-kursu fəaliyyət göstərir. Hazırda özündə Böyük Britaniyanın 20-dən çox tanınmış ali məktəbini birləşdirir [1, 8]. Burada hüquq, iqtisadiyyat və texniki elmlər sahəsindəki mütəxəssislər hazırlanır. Dövlət idarəçiliyi kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlıq obyektiv prosesdir. Böyük Britaniyanın kadr dövlət idarəçiliyi hazırlığı sistemində Azərbaycan üçün faydalı ola biləcək bir çox amillər mövcuddur. Onun xüsusiyyətlərinin Azərbaycan üçün səmərəliliyi və optimallaşdırılmasının öyrənilməsi artıq obyektiv zərurətə çevrilmişdir.

Böyük Britaniyada dövlət quruculuğu sisteminin həyatiliyi monarxiya rejimi şəraitində hakim və müxalifət partiyaları arasında kəskin polemikanın aparılmasıdır. Bu ölkədə demokratiya mexanizmi ali cəmiyyətin elitar strukturlarının ciddi mühafizəkar ənənələrinin mövcudluğuna mane olmur. Burada praktikada "yeni idarəçilik modeli" (NPM) reallaşır.

## Nəticə

Xarici ölkələrin, xüsusilə ABŞ və Böyük Britaniya kimi ölkələrin təcrübəsi göstərir ki, insan resursları ilə işləmək dövlət idarəçiliyinin səmərililiyinin yüksəlişi üçün əsas amillərdən biridir. Bu ilk növbədə dövlət qulluğuna aiddir. Buna görə də ABŞ və Böyük Britaniyanın dövlət qulluğunun təşkili və onun kadr təminatı kimi qabaqcıl təcrübəsindən istifadə edilməsi və tətbiqi bütün postsovet ölkələri o cümlədən Azərbaycan üçün olduqca aktual əhəmiyyət kəsb edir.

ABŞ və Böyük Britaniyada dövlət qulluğu dövlət funksiyasını praktikada həyata keçirən dövlət aparatı kimi nəzərdən keçirilir. Belə ki, dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün dövlət qulluğu idarəçiliyi qanunun qüvvədə olması, demokratiya, mərkəzləşmə, peşəkarlıq, sabitlik prinsipləri əsasında fəailiyyət göstərir.

2016-2018-ci illərdə ABŞ və Böyük Britaniya ölkələrinin təcrübəsi göstərir ki, dövlət idarəçiliyi kadr hazırlığı yaxın perespektivdə prioritet istiqamətlərdən biri olaraq qalacaqdır.

*Bu iş Azərbaycan Respublikası*
*Prezidenti yanında Elmin İnkişafı Fondunun*
*maliyyə yardımı ilə yerinə yetirilmişdir.*
*Qrant № EİF (MON),*
*Elm – Təhsil – 1 – 2016 -1 (26) – 7110615*

## ƏDƏBİYYAT


1. Апон М.Е. Государственная служба в зарубежных странах: учебное пособие. / М.Е. Апон – Санкт-Петербург: НОИР, 2016. – 73 с.
2. Бакушев В.В., Литвинцева Е.А., Турчинов А. И. Государственная служба США, Германии, Франции, Великобритании (организация и регулирование). Москва, 2001. 232 с.
3. Марголин А.М. Мировой опыт государственного управления // Государственная служба, 2000, №1, с.12-19
4. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2028-ci illər üçün strategiya//23.11.2018 https:/ /azertag.az/ xeber/ Azerbaycan_Respublikasinda_dovlet_qullugunun_inkisafina_dair_20192025_ci_iller_uchun_Strategiya-1217750
5. 2017 Training Industry report /27.02.2019/. Principles and general objectives of education /27.02.2019 National training surveys 2018: Initial findings report /03.03.2019/ https: //www. gmc-uk.org/-/media/documents/dc11391-nts-2018
6. MBA Programs in the USA /01.03.2019/https: //www. studyusa. Com /en/ a/155/mba-programs-in-the-usa
7. Master of Public Administration / USA / Texas Tech University at Wacohttps://wwwmasterstudies.com Master-of-PublicAdministration / USA / Texas-Tech- University-at-nWaco/

**UOT 94(479.24)**

# BORÇALI AZƏRBAYCANLILARININ ƏNƏNƏVİ TOY ADƏTLƏRİ

***Cəlal Əbdürəhman oğlu Novruzov***
***AMEA Arxeologiya və Etnoqrafiya Institutu***
***shovgihasanov@gmail.com***

**Açar sözlər:** *etnoqrafiya, toy mərasimi, doğum adətləri*

*Yaşadığı dövrün, zamanın tələbinə uyğun olaraq hər bir xalq özünəməxsus milli adət-ənənələrini yaradır, nəsildən-nəsilə ötürərək yaşamını təmin edir. Adət-ənənə xalq bayramlarında ailə-məişət münasibətlərində, təsərrüfat həyatında, eləcə də maddi mədəniyyətin bəzi ünsürlərində özünü daha qabarıq göstərir.*

*Borçalıda, həmçinin Gürgüstan azərbaycanlıları yaşayan digər bölgələrdə ailə məişətinin ən gözəl və təmtəraqlı keçirilən mərasimlərdən biri də toydur. Toy özlüyündə bir neçə mərhələni, onunla bağlı adətləri birləşdirir. Eyni zamanda tədqiqatçıların yazdığı kimi Toy qədimdən xalqımız, o cümlədən dünya xalqları arasında xoş əhval-ruhiyyə yaradan, insanları daxilən saflaşdıran, zahirən gözəlləşdirən, təzələyən bir mərasim olmuş və bu gündə olmaqdadır. Məqalədə bu məsələlərə hərtərəfli münasibət bildirilir.*

## ТРАДИЦИОННЫЕ СВАДЕБНЫЕ ОБРЯДЫ АЗЕРБАЙДЖАНЦЕВ БОРЧАЛЫ

***Джалал Новрузов***

**Ключевые слова:** *этнография, свадебный обряды, родилъные обряды*

*В статье рассматриваются традиционные свадебные обряды борчалинских азербайджанцев, что является одной из актуальных и неразработанных проблем отечественной этнографии. На большом литературном и богатом этнографическом материале широко освещаются свадебный обряд, его этапы и ритуалы, которые совершаются азербайджанцами, проживающими в Борчалы и других регионах Грузии.*

*В работе автор удачно проводит исследование, применяя сравнительно-исторический метод. Автор, в частности, сравнивает обряды, исполняемые азербайджанцами Борчалы, с аналогичными ритуалами, проводимыми в других районах Грузии, а также Азербайджана. Разрабатывая данную тему, автор отмечает, что свадьба с древнейших времён является одним из интереснейших и важнейших обрядов, украшающих повседневную жизнь, как азербайджанцев, так и других народов мира.*

## TRADITIONAL WEDDING CUSTOMS OF BORCHALI AZERBAIJANIS

***Jalal Novruzov***

**Key words:** *Ethpography, wedding ceremony, puerporal rites*

*According to period each nation creates its own national traditions, and providing his life with transfering these traditions to other generation. Tradition shows itself in holidays, in the household relations, in the economic life, as well as in some elements of material culture.*

*Wedding is one of the most beautiful and festive occasions of family life In Borchali, as well as in other regions which Georgian Azerbaijanis lived. The wedding combines a few stages and customs associated with it. At the same time, as researchers say, from the ancient times wedding has been a purely purifying, beautifying seemingly and refreshing ceremony for our nation, as well as other world nations.*

Yaşadığı dövrün, zamanın tələbinə uyğun olaraq hər bir xalq özünəməxsus milli adət-ənənələrini yaradır, nəsildən-nəsilə ötürərək onun yaşamını təmin edir. Adət-ənənə xalq bayramlarında, ailə-məişət münasibətlərində, dəfn-yas mərasimlərində, təsərrüfat həyatında, eləcə də maddi mədəniyyətin sahələrində özünü daha qabarıq göstərir. Bu bir həqiqətdir ki, "adətsiz, ənənəsiz, bayramsız, matəmsiz insan yoxdur. Ona görə ki, sevincsiz və kədərsiz insan təsəvvür etmək mümkün deyil, insan sevinirsə gülür, kədərlənirsə ağlayır. Bu əzəli bir xüsusiyyətdir. Bütün adət və ənənələr-bayramlar, matəmlər, mərasimlər, ayinlər də insanın bu xüsusiyyətləri ilə bağlı olaraq yaranmışdır" [1, 77]. Müxtəlif hadisələrlə, ictimai-iqtisadi, siyasi proseslərlə ilişkili olaraq bu adət-ənənələrin müəyyən hissəsi unudulsa da, onun əsas məzmunu zənginləşmiş formada bu günümüzə gəlib çatmış və yaşamını davam etdirir. Hər bir xalqın adət-

ənənəsinə xas olan bu cəhət Borçalıda yaşayan Azərbaycan türkləri üçün də səciyyəvidir.

Borçalıda, həmçinin Gürcüstan azərbaycanlıları yaşayan digər bölgələrdə ailə məişətinin ən gözəl və təmtəraqlı keçirilən mərasimlərindən biri də toydur. Toy özlüyündə bir neçə mərhələni, onunla bağlı adətləri əhatə edir. Bu adət-ənənələrədən biri də toy öncəsi keçirilən qız seçmə adətidir. Adətə uyğun olaraq Borçalının kəndlərində, eləcə də Gürcüstanda soydaşlarımızın yaşadığı digər ərazilərdə qız seçimi oğlanın valideynlərinin, böyük bacılarının işi idi. El içərisində deyildiyi kimi, "ağır oturub, batman gələn" qadınların, nüfuzlu kişilərin qızlarını seçməyə çalışardılar. Bölgənin əhalisi arasında dolaşan "qırağına bax bezini al, anasına bax qızını" məsəli çox güman ki, bu münasibətlə yaranmışdır [2, 179]. Qız seçimindən sonra elçilik mərhələsi gəlirdi. Bununla əlaqədar olaraq oğlan atası evinə nəslin nüfüzlü ağsaqqal və ağbirçəyini dəvət edərək fikrini onlara bildirərdi. Onlarla məsləhətdən sonra qız haqqında məlumat toplanardı. Adətə görə, bu işdə "ara adamı"ndan istifadə edilərdi. "Ara adamı"nı dillər-dilavər, sözü ötkəm qadınlardan seçərdilər. O, qızgilin evinə gedib-gələr, onun bacarığına, iş qabiliyyətinə diqqət yetirərdi. Mövcud qayda gürcülər arasında da var idi [3, 127].

Qız seçimindən sonra elçi gedilərdi. Adətə görə birinci və ikinci elçilikdə oğlan evinin adamlarına "hə" cavabı verilməzdi. Oğlan və onun ailəsi qız evinin xoşuna gələrdisə, üçüncü elçilikdə ona "hə" deyilərdi. Eyni zamanda qız evi "hə" cavabı verməmişdən qabaq oğlanın ailəsinin nəslinin yaxşı və pis xüsusiyyətlərini müəyyən yollarla öyrənirdilər. Bu xoş cavabdan sonra qızın bibisi və ya xalası süfrəyə şirin çay gətirərdi. Bununla da elçilik mərhələsi başa çatır, eşidən-bilən qızın və oğlanın valideynlərini təbrik edirdi. Oğlan adamlarına "yox" cavabı verilərdisə, qızgildə nə çay içilməz, nə də papiros belə çəkmək olmazdı [4, 257].

Borçalıda, eləcə də Gürcüstan azərbaycanlıları yaşayan digər bölgələrdə qız veriləcək oğlanı sınamaq adəti vardı. Hətta bu haqda xalq arasında belə bir rəvayət də mövcuddur: "Deyirlər evlənmək istəyən şəxsi sınamaq üçün onun qarşısına düyünlü bir kötük qoyurlar ki, bunu yara bilsən, qız sənindi. Qız anası da bu icdivacın baş tutmasını çox istəyirmiş. Lakin oğlan nə illah edir kötüyü yara bilmir. Bu zaman qızın atası başını bulayır ki, bir kötüyü yara bilməyən oğlan nə arvad saxlayacaq. İşə göz qoyan qız anası tez tərpənib həyəti yad ünsürlərdən qoruyan qapı heyvanına yal çalır və isti-isti onun qabağına qoyaraq deyir: Ay allahın hürən heyvanı, dilini bişirmə, üzündən ye. Bunu eşidən görən oğlan başa düşür ki, gələcək qayınanası ona kötüyü düyünlü yerindən yox, kənarlarından, özü də üzündən yarmağı tövsiyə edir. Oğlan göstərilən yolla kötüyü yararaq istəyinə nail olur.

Elçilik mərhələsindən sonra “bəlgə” və ya “nişan” mərasimi keçirilərdi. Adətə görə, nişan üçün nəzərdə tutulan məhsulların və ətliyin xərcini oğlan evi çəkərdi.

Nişan mərasimindən müəyyən müddət keçdikdən sonra toy çalınardı. Tədqiqatçıların yazdığı kimi, “toy qədimdən xalqımız, o cümlədən dünya xalqları arasında xoş əhval-ruhiyyə yaradan, insanları daxilən saflaşdıran, zahirən gözəlləşdirən,təzələyən bir mərasim olmuş və bu gün də olmaqdadır. Toy nəinki iki gəncin bir-birinə qovuşması, vüsala yetişməsi, ailə-ocaq qurması şənliyidi”, həm də “digər ictimai hadisələrdən zənginliyi ilə fərqlənən” [5, 88] bir mərasimdir. Ən əsasıda odur ki, insanlar arasında, başqa-başqa nəsillər arasında qohumluq əlaqəsi yaradırdı.

Adətə görə, toy ərəfəsində başlamazdan əvvəl oğlan evinin adamları qızgilə gedər və toy gününün vaxtını, işlənəcək ərzaq məhsullarının, həmçinin ödəniləcək “başlığ”ın miqdarını müəyyənləşdirərdilər.

Borçalıların, həmçinin Gürcüstan azərbaycanlılarının yaşadıqları digər bölgələrin adətinə görə qıza cehizlə bərabər mal-qara verilərdi. Bunu M.Süleymanlının “Köç” romanındakı bir epizod bir daha təsdiqləyir: “Atı sənə murad verirəm, inəyi bərəkət, qoyunları damazlıq. Muradın yeyin, bərəkətin bol, damazlığın artıq olsun”.

Borçalıda mövcud olan “şaxçıxartma” adətinə həm qız, həm də oğlan evində xüsusi diqqət yetirilərdi. Etnoqrafik və ədəbiyyat materialları göstərir ki, qızın oğlan evinə köçürülməsinə bir neçə saat qalmış “qız şaxı”nı çıxarmağa gedərdilər. “Qız şaxı qızın sağdış-solduşunun, bəzən isə qohumlarının və ya rəfiqələrindən birinin evindən çıxardı. Şax bar verən ağacdan 1-1,5 m uzunluğunda kəsilmiş və eyni ölçüdə dörd ağac parçasından hazırlanmış oturacağa keçirilən qalın bir budaqdan ibarət idi. Şaxı qırmızı alma, armud və şirniyyatlarla bəzəyirdilər. Xoşbəxtlik, yeni həyat, bar-bərəkət, artım rəmzi sayılan şaxı qız oğlan evinə gətirərdi”. Mərasim şər qarışan vaxtına təsadüf etdiyindən, qabaqda lopa yandırıb aparardılar. Lopa 5-6 m uzunluğu olan düz ağacın ucuna əskiləri dolayıb bağlamaqla, yaxud gərmə keçirməklə düzəldilib hazırlanırdı [6, 56].

Gəlin köçən zaman onun ayaqqabısının içərisinə xırda metal pul qoymaq adətinə də diqqət yetirilərdi. Düşünülərdi ki, onda gəlin köçdüyü ev ruzi-bərəkətli, var-dövlətli olur. Həm də pul metal əşya olduğuna görə şər qüvvələr ondan qorxur və gəlinə toxuna bilməzdi.

Borçalının bəzi kəndlərində yayqın olan bir adətə görə son illərədək gəlini oğlan evinə köçürməzdən öncə bəyin anası yaşmanaraq bir əlində yanar lampa, o biri əlində güzgü və gül qız evinə gedərdi. Qız evində anaya şirin çay verilirdi. O, çayı içərək stəkanı və qaşıqı evə gətirərdi. Bu müddət ərzində ana yolda və evdə danışmırdı. Xalq arasında lampa işıqlı həyat, güzgü aydınlıq, gül

isə sevimli gəlin mənasında, kimsə ilə danışmamaq isə gəlinin gəldiyi evdə sakit təbiətli və üzüyola olması kimi başa düşülürdü [7, 206].

Borçalıda, eləcə də ətraf bölgələrdə yaşayan azərbaycanlılar arasında gəlin köçən zaman onun yolunu kəsmək adəti də var idi. Bu adət bugunədək əməl edilməkdədir. Gəlinin yolunu açdırmaq üçün oğlan tərəfdən olan cavanlar ya güləşər, ya da yolu kəsənə nəmər verərdi. Hətta "Yeni köçən gəlinin qabağını kəsib nəmər almayanda, toy sahibi kəndin cayıl-cuyulundan inciyərdi". Gəlin evə daxil olan zaman onun ayağının altında qurban kəsmək adəti də geniş yayılmışdı. Qaydaya görə "kəsilən qurbanın qanından qızın alnına sürtərək:- "bizim diləyimiz qəbul oldu, sənin də diləyin qəbul olsun", - deyərdilər. Bu ətdən qohum-qonşuya da paylanardı.

Borçalının kəndlərində yeni gəlin köçən qızın vaxtında uşağa qalması, dünyaya yeni uşaq gətirməsi ilə bağlı da bir sıra adətlərə və ayinlərə xüsusi önəm verilmişdir. Məlumdur ki, lap qədim zamanlardan hər bir azərbaycanlı-türk ailəsində nəslin, soyun davamçısı, yaşadıcısı və qoruyucusu kimi dünyaya uşaq gətirilməsi ən vacib şərtlərdən sayılırdı. Bu şərtə uyğun gəlməyən ailələrə münasibət soyuq olmuş və onlar hər addımda mənsub olduqları tayfanın, eləcə də el-obanın soyuq nəzərlərinə tuş gəlmişlər. Ona görə də hər iki gəncin valideynləri gəlinin vaxtında uşağa qalmasını arzulayardılar.

Adətə görə gəlinin uşağa qalmasını qırx gün gözləyərdilər, əks halda onun çilləyə düşdüyünü düşünərdilər. Bu zaman onun ocağa, pirə aparar və müəyyən ayın icra edərdilər. Adət halını almış ayinlərdən biri də gəlinin bar gətirən ağacının başına dolandırmaq idi: "Ey yerin-göyün yiyəsi, bu ağacı barsız qoymadığın kimi bu gəlini də barsız qoyma" – sayaq sözlərlə Yaradana müraciət formasında göyə əl açardılar.

Borçalıda, Gürcüstan azərbaycanlıları yaşayan başqa bölgələrdə, həmçinin Azərbaycan və digər türk xalqlarında bir neçə qızdan sonra doğulmuş oğlan uşağını "heydəri etmək" adəti vardı [8, 34]. Adətə görə 1-2 yaşlı oğlan uşağının sağ qulağına sırğa taxar və başının ortasında kəkil saxlayardılar. 10-12 yaşına qədər uşağın nə sırğası çıxarılmaz, nə də kəklini qırxmazdılar. Əhalinin inamına görə "guya şər qüvvələr heydəri" edilən oğlan uşaqlarını qız bilərək onlara yaxın gəlməzdi. Magik təsəvvürlərlə ilişkili olan bu adət XX əsrin 60-70-ci illərinədək əhalinin məişətində saxlanılmışdır.

Bölgə əhalisi arasında, həmçinin soydaşlarımız yaşayan digər yerlərdə doğumdan qırx gün keçdikdən sonra uşağı çillədən çıxarma adətinin icrasına xüsusi diqqət yetirilərdi. Bu məqsədlə uşağı ılıq su ilə çimdirdikdən sonra götürülmüş qırx qaşıq suyu onun çiyinlərindən axıdaraq "Ağırlığın-uğurluğun, dərdin-bəlan bu su ilə getsin" deyərdilər. Həmin gün uşağın papaq, köynək və bələk əskilərinin də çilləsi götürülərdi. Bu köynəkləri bir daha uşağa geyindirməz, kəsib ona əski düzəldərdilər. Papağı isə büküb növbəti uşaq üçün saxlayardılar. Yuxarıdakı qayda ilə ana da çillədən çıxarılardı. Çillə çıxarma

adəti Azərbaycanda yaşayan xristian ingiloylar arasında da mövcud olmuşdur [9, 192]. Xatırladaq ki, çilləli uşağın üstünə üstü metal əşyalı kimsənin gəlməsinə yol verilməzdi. Təsadüfən uşağın yatağına üstü üzərində metal əşyalı, boynu muncuqlu və ya gözü nəzərli qadın gələrdisə,çağanın halı pisləşərdi. Bu zaman nəzəri, muncuğu və ya metal əşyaları kəsərdən salmaq üçün torpağı körpü şəklində 40-50 sm dərinliyində qazıb körpəni oradan keçirərdilər. Borçalıda, elcə də Gürcüstan azərbaycanlıları yaşayan qonşu bölgələrdə mövcud olan "torpaqdan keçirmə" adətinə Azərbaycanda rast gəlmirik.

Sözügedən bölgə əhalisi arasında mövcud olan adətə görə ilk uşağı dünyaya gələn ailələrdə çağanın bütün yataq dəsti və bələk dəstlərini onun ana nənəsi hazırlayardı. Bu adət Azərbaycanın Lənkəran bölgəsində də mövcud idi.

Müsəlman xalqlarında olduğu kimi, bölgə əhalisi oğlan uşağı müəyyən yaşa çatdıqda onu sünnət elətdirərdilər. Mövcud adət dünyanın başqa xalqları arasında da yayılmışdır.

Tədqiqatçılara görə, bu mərasimin islam dini ilə heç bir əlaqəsi yoxdur və ondan çox-çox əvvəllərin adətidir. Yalnız sonralar şəriət tərəfindən islamlaşdırılmışdır [10, 90-91].

Adətə görə, uşaq sünnət yaşına çatanadək ona kirvə tutardılar və bu qayda hazırda da davam edir. Etnoqraf Ə.Əliyevin fikrincə, sünnət mərasimində ən əziz qonaq, sevimli insan, ali şəxs kirvə sayılır. Çünki, sünnəti olan uşağın qanı məhz kirvənin dizinin üstə tökülür. Bu isə uşağın valideynləri, qohum-əqrəbası üçün dəyəri heç bir şeylə ölçülməyən, iki ailə arasında ən əziz qohumluq əlaqəsi yaradan qan hesab olunur.

Yaşlı adamların söyləməsinə və etnoqrafik ədəbiyyatda yer olan fikrə görə "tək sözü" qorxulu hesab edildiyindən, uşaqları cüt sünnət edərdilər. Uşaq tək olardısa, sünnət edilərkən allaha dua edib bir xoruz da kəsərdilər. İnama əsasən cütlüyün birini xoruz əvəz etməklə xətərdən sovuşulurdu. Adətən kəsilən xoruz dəlləyə çatardı. Mövcud adət qaşqaylar (İran türkləri) arasında və Anadolunun bəzi bölgələrində də mövcud idi.

Sünnət mərasimindən bir neçə gün sonra kirvə uşağı qaldırıb yeritməyə gəlirdi. Borçalının kəndlərində bu, "küldən çıxartma" adlanırdı. Bununla əlaqədar olaraq yenə də şadlıq süfrəsi açılar və məclisə aşıq çağrılardı.

Adət-ənənəyə uyğun olaraq kirvə ilə digər yöndən qohum olmaq-qız alıb, qız vermək eyib sayılmışdır. Təsadüfi deyil ki, xalq arasında "kirvə kirvənin damına çıxmır ki, torpaq tökülər" kimi deyim də formalaşmışdır.

## ƏDƏBİYYAT

1. Təhmasib M. Məqalələr. Bakı; Elm, 2005.
2. Əliyev Ə.T. XIX-XX yüzilliyin əvvəlləri. "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı, №-2, Bakı: Nafla-Press, 2006.
3. Волкова Н.Г., Джавахашвили Н.Г. Бытовая культура Грузии XIX-XX веков. Традиции и иновации. М; Наука, 1982.
4. Kalafat V. Balkanlardan Uluğ Türküstana. Türk Halk İnancları, II Bakı (Türkiyə türkcəsində), Ankara: 2006.
5. Abdullayev B. Haqqın səsi, Bakı: Azərnəşr, 1989.
6. Məmədli H.M. Görüm Faxralının biri olsun beş... Bakı: Ağrı Dağ, 2002.
7. Sarvan M. Ulu Borçalı. Bakı: Elm, 1998.
8. Əliyev Ə.T. Gürcüstan azərbaycanlıları arasında doğumla bağlı adətlər, ayinlər və inamlar (XIX əsrin sonu XX əsrin əvvəli) "Qarapapaqlar" jurnalı, № 7, iyul, 2010.
9. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr. Bakı: Azərnəşr, 2008.
10. Kərimov Q.M. Şəriət və onun sosial mahiyyəti. Bakı: Azərnəşr, 1987.

**UOT 323+94(479.24)**

# ERMƏNİSTAN – AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN CƏNUBİ AZƏRBAYCANLILARIN MİLLİ ŞÜURUNUN İNKİŞAFINA TƏSİRİ

***Şahnisə Tahir qızı Rüstəmova***
***AMEA Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutu***
***shahniserustamova@gmail.com***

**Açar sözlər:** *Cənubi azərbaycanlılar, milli ruh, milli şüur, Dağlıq Qarabağ, İranın siyasəti*

*Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanmasının hər iki Azərbaycan arasında milli duyğulara və milli şüurun oyanışına təsiri, cənubi azərbaycanlı ziyalıların şimalı qardaşlarını dəstəkləməsi və bu istiqamətdə fəaliyyətinin araşdırılmasından bəhs olunur.*

## ВЛИЯНИЕ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО КОНФЛИКТА К РАЗВИТИЮ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ ЮЖНОГО АЗЕРБАЙДЖАНА

***Шахниса Рустамова***

***Ключевые слова:*** *Южные азербайджанцы, национальный дух, национальная самосознания, Нагорный Карабах, Иранская политика*

*В статье рассматривается влияние начала армяно-азербайджанского нагорно-карабахского конфликта на национальные чувства и повышение национального самосознания, поддержка северных братьев на юге Азербайджана и исследование их деятельности в этом направлении.*

## ARMENIAN - AZERBAIJANI CONFLICT SETTLEMENT OF NAGORNO-KARABAKH CONFLICT TO DEVELOPMENT OF NATIONAL IDENTITY OF SOUTH AZERBAIJANI

***Shahnisa Rustamova***

**Keywords:** *the South azerbaijanians, national spirit, national identity, the Nagorno-Karabakh, the Iranian politics*

*The article discusses the impact of the beginning of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict on national feelings and raising national identity, supporting northern brothers in the south of Azerbaijan and studying their activities in this direction.*

XX əsrin 90-cı illərinin əvvəllərində dünyada baş verən siyasi hadisələr, SSRİ-nin dağılması və müstəqil Azərbaycan Respublikasının yaranmasının Cənubi Azərbaycan milli hərəkatında yeni bir canlanma yaratması danılmaz faktdır. Hələ XX əsrin 80-ci illərinin sonlarından Sovet Azərbaycanında baş verən siyasi oyanış və Azərbaycan xalqının özünün siyasi müqəddəratını təyin etmək uğrunda apardıqları milli-azadlıq mübarizəsi, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya olunmaları Cənubi Azərbaycan ziyalılarının bütün diqqətini Şimala yönəltdi. Sovet ordusunun Bakıya hərbi təcavüzü və 20 Yanvar faciəsinin törədilməsi təkcə Şimalda deyil, Cənubi Azərbaycanda da azərbaycançılıq ideologiyasının ictimai şüurda möhkəmlənməsinə təkan verdi. Milli məsələyə münasibət daha da dərinləşdi və milli hərəkatda yaranan canlanma sayəsində cənubi azərbaycanlılar radikal tələblərlə çıxış etməyə başladılar.

Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması hər iki Azərbaycan arasında milli ruhu daha da gücləndirdi. İrandakı azərbaycanlılar Ermənistan Respublikasının tarixi Azərbaycan torpaqlarına olan təcavüzünə qarşı çıxır, bir çox azərbaycanlı gənclər Qarabağ döyüşlərində iştirak etmək üçün müraciətlər edir, Qarabağ şəhidlərinə yas mərasimləri keçirir, öz doğma ocaqlarından didərgin düşmüş qaçqınlara və yaralılara yardım göstərilməsi üçün fəaliyyətlərini artırmaqla yanaşı, İran hökumətindən Ermənistan-Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsində ədalətli davranmağı, müsəlman-şiələrin qətl edilməsinə göz yummamağı tələb edirdilər. Belə ki, Cənubi Azərbaycan ziyalıları istər ədəbi-bədii nümunələrlə, istərsə də elmi yazılarla birlik nümayiş etdirir, nümayişlər keçirir, qəbul etdikləri qətnamələrdə Ermənistanı və onun havadarlarını qınayaraq, azərbaycanlıların haqlı olduğunu və İran hökumətindən təkcə sözdə yox, əməli olaraq da müsəlman qardaşlarını dəstəkləmələrini tələb edirdilər.

İran hökuməti isə bir yandan Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsini, digər yandan isə müharibənin davam etməsini özünə təhlükə kimi görürdü. Ərazi bütövlüyünü təmin edən Azərbaycan Respublikası güclü təsir mərkəzi kimi, müharibə isə Azərbaycan türklərinin milli ruhunu qabardan, onları hərəkətə keçirən və onların rejim ilə bağlarını qoparan amil kimi İranı narahat edirdi [10].

Qarabağ məsələsində İranı narahat edən ən başlıca məsələlər bunlar idi:

- Xarici müdaxiləyə (Qərbin) səbəb olma ehtimalı;

- Münaqişənin İran sərhədinə yaxın bölgədə yaşanması ilə istəmədiyi halda İranın döyüşə cəlb olunması ehtimalı;
- miqrasiya problemi ilə qarşılaşma ehtimalı;
- Azərbaycanın Qarabağda müvəffəqiyyət əldə etdiyi təqdirdə, onun təsirinin Cənubi Azərbaycana yönəlmək qorxusu;
- Cənubi Azərbaycan cəmiyyətinin Tehran-İrəvan münasibətlərindən rahatsızlıq duyması və bununla bağlı müxtəlif nümayişlərin təşkil edilməsi [4, s.255].

1992-ci ilin fevralında Tehranda Azərbaycan-Ermənistan prezidentlərinin saziş haqqında danışıqlarından sonra Xocalı faciəsi baş verdi. Həmin ilin may ayının əvvəlində Tehranda Azərbaycan-Ermənistan danışıqları getdiyi zaman Azərbaycan Respublikası üçün mühüm strateji əhəmiyyətə malik Şuşa şəhəri işğal edildi [2, s.325].

İran Ermənistanla 1992-ci ilin fevral ayında, yəni Xocalı faciəsinin törədildiyi ayda diplomatik əlaqə qurmuş, çox sayda iqtisadi müqavilə imzalamışdı.

Yenə eyni ilin aprel ayında İran Ermənistanı təbii qazla təmin etməyi və nəqliyyat imkanlarını genişləndirməyi qəbul etmişdi.

İran Ermənistanın təcavüzkar möveyini davam etdirməsinə baxmayaraq, İrəvana iqtisadi blokadanı aşmaq imkanı vermişdi [4, s.250].

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində rəsmi Tehranın əməli olaraq Ermənistanın yanında olması cənubi azərbaycanlıların hökumətdən narazılığına səbəb oldu. Azərbaycanlılardan bir çoxu Qarabağ məsələsində Tehranı siyasətini dəyişdirib Azərbaycanı dəstəkləməsi üçün hökumətə təzyiq etdilər.

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü, ermənilərin Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, İran radio-televiziyası və mətbuatının bu barədə susması azərbaycanlı tələbələrin fəallaşmasına bilavasitə təkan verdi. Belə şəraitdə tələbələr Azərbaycan Respublikasının haqlı mövqeyini müdafiə üçün ayağa qalxmağı özlərinin milli və vicdani borcları hesab edərək, müxtəlif etiraz aksiyaları keçirməyə başladılar [1, s.29].

1992-ci ilin 25 mayında Təbriz Universitetində oturaq aksiya keçirən 200 tələbə Ermənistana qarşı ölüm sloqanları ataraq, müsəlmanların, xüsusilə Tehranın ermənilərin cinayətləri qarşısında susmasını "Quran"a xəyanət adlandırdılar [5].

Tehrandakı azərbaycanlılar 24 aprel 1993-cü il tarixində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, Kəlbəcərin işğalına (2 aprel 1993) qarşı Ermənistan Respublikası səfirliyi qarşısında geniş miqyaslı etiraz mitinqlərinə başladılar [7, s.202].

1993-cü ilin noyabrında Urmiya Universitetinin tələbələri bəyanatla çıxış edərək, Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünü pislədilər. Bəyanatda deyilirdi ki, erməni təcavüzkarları dərhal işğal edilmiş Azərbaycan torpaqlarını heç bir qeyd-şərt olmadan boşaltmalıdırlar. Tələbələr, həmçinin öz dövlətlərindən təcavüzkar Ermənistan dövləti ilə siyasi, iqtisadi və mədəni əlaqələri kəsməyi tələb etdilər [7, s.186].

Hətta İran Məclisinin azərbaycanlı deputatları da Qarabağ siyasətinin dəyişməsinin zəruriliyini vurğulayaraq, bir bəyannamə hazırlayıb, onu parlament deputatlarının əksəriyyətinə imzalatdılar. 1993-cü ilin 6 aprelində bütün azərbaycanlı deputatlar adından oxunan qətnamədə ermənilərin azərbaycanlılar əleyhinə gördükləri işlər pisləndi və hökumətdən Azərbaycan Respublikasını müdafiə etməsi tələb olundu. 1993-cü ilin 13 aprelində isə Xoydan seçilmiş deputat Kamal Abidinzadə Məclisdəki çıxışını Azərbaycan dilində etdi və ermənilərin Azərbaycana qarşı təcavüzünü pislədi [5]. Həmçinin, o, bu mövzuyla əlaqədar "Həmşəhri" və başqa qəzetlərdə məqalələr nəşr etdirdi [5].

Təbrizin deputatı Məhəmmədəli Nejatzadə 1993-cü ilin 6 aprelində bütün azərbaycanlı deputatlar adından bir qətnamə oxudu. Bu qətnamədə ermənilərin azərbaycanlılar əleyhinə gördükləri işlər pislənir və hökumətdən Azərbaycan Respublikasını müdafiə etməsi istənirdi. Azərbaycanın adi insanları da Qarabağ məsələsində Azərbaycanı müdafiə edir və Tehranı Ermənistanı himayə etdiyi üçün tənqid edirdilər [5].

Ayətullah Musəvi Ərdəbili Cümə namazı danışıqlarında dəfələrlə Qarabağ məsələsinə işarə edir və başqa rühanilərlə müqayisədə Azərbaycanı daha çox müdafiə edirdi. Bir çox cümə namazında Ayətullah Musəvi Ərdəbili farsca nitqindən (xütbəsindən) sonra ərəbcə yerinə azərbaycanca danışacağını elan edir, Cümə namazında Azərbaycan dilində danışaraq o tay azərbaycanlılarına xitab edir, onların dərdinə ortaq olduğunu bildirirdi [5].

Bundan başqa, İran azərbaycanlıları Azərbaycan Respublikasındakı soydaşlarına kömək etmək üçün hərəkətə keçdilər. Qarabağ şəhidlərinə yas mərasimləri təşkil olunur, İİR-dən Qarabağ müsəlmanları üçün yardım tələb edilir, hətta könüllü əsgər olaraq, erməni işğalçılara qarşı döyüşə hazır olduqlarını İran dövlət adamlarına yazılı məktublarla bildirirdilər [4, s.253].

1992-1993-cü illərdə İran tərəfindən Azərbaycan qaçqınlarına çatdırılan humanitar yardımlar birbaşa İrandakı azərbaycanlılar tərəfindən idi. Fikrimizcə, bu, bir yandan etnik bağlılıqdan irəli gəlirdisə, digər yandan azərbaycanlılar arasında azərbaycanlı-müsəlman (dini) kimliyinin olduğunu göstərirdi [3, s.245].

1993-cü ildə Dr. Cavad Heyət və "Varlıq" dərgisi yazarlarının təşəbbüsü ilə onlarca elm və iş adamı, həkim və yazıçıların imzasıyla İİR-n dini lideri Ayətullah Xamneyiyə bir açıq məktub göndərildi. Məktubda ...dünya müsəlmanlarına qarşı başladılan yeni Xaç yürüşlərini xatırladaraq, Bosniya

müsəlmanlarına olduğu kimi, Qarabağ müsəlmanlarına da yardım məqsədilə "Azərbaycan həftəsi" elan edilməsi istənildi [4, s.253].

Eyni ildə Dr. C.Heyət tələbəlik illərindən tanıdığı Türkiyənin prezidenti olmuş Süleyman Dəmirələ Qarabağ probleminin bir an əvvəl həll edilməsi, Azərbaycan torpaqlarının işğalçı ermənilərdən qurtarlımasına yardım etməsi üçün məktubla müraciət etdi. "Varlıq" dərgisində yayımlanan bu məktubun bir surətinin də İranın xarici işlər naziri Əli Əkbər Vilayətiyə göndərildiyi bildirilmişdir [4, s.254].

Göstərilən bu təzyiqlər az olsa da, hökumətin Qarabağ məsələsinin həllinə münasibətdə mövqeyinin dəyişməsinə təsir etdi.

İranda azərbaycanca yayılan qəzetlər, jurnallar Qarabağ məsələsində Azərbaycan Respublikasının xalqını müdafiə edir, onlarla etnik cəhətdən bağlılıqlarını bildirirdilər [5].

"Varlıq" dərgisi Qarabağ hadisələrinin ictimaiyyətin diqqətinə çatdırlması ilə kifayətlənmir, mövzunun elmi cəhətdən də işıqlandırılmasına səy göstərirdi.*

Dərgidə Araz Təbrizi adlı müəllifin ermənilərin Qarabağla bağlı iddialarına cavab olaraq yazdığı "Qarabağ dadeqahe ensaniyyət ("Qarabağ insanlıq məhkəməsi")" adlı məqalə (Ara Şirvaniyə cavab olaraq yazılıb) diqqət çəkir: "Siz ki, Qarabağı Artsax, Xankəndi Stepanakert, Təbrizi Davreş adlandırırsınız, siz niyə qələmə əl atmısınız. Ən azından icazə verərdiniz Qarabağda şiələrin dərisini soyan Fransa, Suriya və ya Livan ermənilərindən biri o məktubu yazardı... Siz ki, əksəriyyətiniz şiə Azərbaycanında yaşayırsınız və Qarabağda daşnakların qəddar cinayətlərinə baxmayaraq, Təbriz və Urmiyada bir adam sizə "qaşınız üstə gözünüz var" demir, insafdırmı ki, müsəlmanların tolerantlığından sui-istifadə edib dostlarınızın əməllərini ört-basdır etmək üçün belə timsah göz yaşları tökəsiniz?" [9,s.118].

Bundan başqa, jurnalda Qarabağ komitəsinin Xocalı faciəsi ilə bağlı yer alan bildirişində deyilir: "26 fevral 1992-ci ildə Qarabağın məzlum Xocalı müsəlmanlarının islam düşmənləri və təcavüzkar daşnak cəlladları əli ilə

---

*"Varlıq",Qış 1368, say:75-4,s.19; s.31, "Varlıq", Bahar 1369, say: 76-1, s.121 (S.Sərdariniya. "Sərzəmine Qarabağ"), "Varlıq" Yay 1369, say: 77-2, "Varlıq" Mehr-Aban 1369, say: 78-3, s.81, "Varlıq" Qış 1369, say: 79-4, "Varlıq" Payız 1370, say: 82-3, s.134, "Varlıq" Qış 1370, say: 83-4, s.120 ("Acı xəbər: Təbriz Rzanın şəhadəti"), "Varlıq" Bahar 1371, say: 84-1, s.5, s.9, s.34, s.36, s.40 (C.Heyət "Qarabağ faciəsi", Qolpayeganinin Qarabağ barədə bildirişinin türkcə tərcüməsi, s.9, "Xocalı şəhidlərinin xatirəsi əbədilədiriləcək", B. Rəsulvənd . "Xocalı faciəsinin dünyadakı əks-sədası", B. Rəsulvənd. "Qarabağ mərsiyəsi oğlum Səlcuq üçün"), "Varlıq" Qış 1371, say: 87-4, s.28; s.122; s.140 (H.Məcidzadə Savalan. "Qarabağ=Allahu Əkbər", S.Sərdariniyə . Ziyaəddin Sultanovun "Qarabağ gündəliyi" kitabının bir hissəsinin tərcüməsi), "Varlıq" Yay 1371, say: 85-2, s.22 ( "Qanlı Qarabağ" şeiri),"Varlıq" Payız 1371, say:86-3, s.85;s.118 (Nahid Hacızadə. "Xocalıda ərik ağacı" şeiri, Araz Təbrizi. "Qarabağ dadiqahe ensaniyyət").

qətliam edilməsi münasibəti ilə bütün dünya müsəlmanlarına, xüsusilə, zülmə məruz qalmış Azərbaycan Cümhuriyyəti xəlqina başsağlığı verib, ayıq vicdanları bütün ölkələrdə bu kimi cinayətlərin davam edilməsinə cəlb edib, Qarabağ və Bosniya Hersoqovina müsəlmanlarının qırğınının dayandırılmasını tələb edirik" [8, s.28].

"Varlıq"la yanaşı, "Dilmac", "Haray", "Yol", "Öyrənci", "Körpü", "Azərbaycan səsi", "Tribun", "Azər-Türk İnternational", "Azərbaycan", "Aftab-e Azərbaycan", "Xudafərin" kimi jurnalların, "Comhuri-ye Eslami", "Fəcr-e Azərbaycan", "Ağrı", "Şəms-e Təbriz", "Əhrar", "Ava-ye Ərdəbil", "Omid-e Zəncan" və s. kimi qəzetlərin səhifələrində çap olunmuş məqalələrdə Dağlıq Qarabağda baş vermiş və günümüzə qədər davam edən hadisələrə obyektiv münasibətlərin bildirilməsi, eləcə də Qarabağ tarixi ilə bağlı həqiqətlərin söylənilməsi elmi və siyasi baxımdan çox önəmlidir [7, s.248].

Azərbaycanlı Biliyurdlular Toplumu Araşdırma Mərkəzi ("ABTAM") nəşr etdirdikləri sonuncu özəl saylarını "Azərbaycan və bir əsr erməni cinayətləri" adlandırdılar. Bu özəl say son yüz il müddətində müsəlmanların soyqırıma məruz qalmaları və Qarabağ, Xocalının məzlum xalqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə soyqırıma uğramalarını araşdırmaqla bu hadisələrin tanınması üçün önəmli təsir göstərdi. Bu cür yanaşmalar, eyni zamanda onu göstərirdi ki, tələbə nəşriyyatı Cənubi Azərbaycan məsələlərindən başqa, Azərbaycan Respublikasındakı məsələlərə də ciddi şəkildə və incəliklə diqqət yetirirlər [6].

Dövri mətbuat səhifələrində, ayrı-ayrı kitablarda Dr. Cavad Heyət, Səməd Sərdariniya, İsmayıl Hadi, Əlirza Ərdəbili, Həsən Raşidi, Böyük Rəsuloğlu, Mənuçöhr Əzizi, Tohid Məlikzadə, Camal Ayrumlu, Həsən Azərbaycanlı, Maşallah Rəzmi, Səməd Niknam və Səlcuq Kamal kimi azərbaycanlı müəlliflərin kəsərli məqalələri onların haqlı mövqelərini əks etdirməklə yanaşı, baş vermiş hadisələrə düzgün və ədalətli yanaşmağa imkan verir [7, s.248].

Xüsusilə, S.Sərdariniyanın "Arazın hər iki sahilində müsəlman qətliamı" və "İrəvan müsəlman sakinli vilayət olmuşdur" adlı əsərlərində ermənilərin Qafqaz, İran, Türkiyəyə qarşı rusların işğalçılıq siyasətində "katalizator" rolunu oynamaları, xəyanətkar və alçaq əməlləri, "Böyük Ermənistan" yaratmaq kimi əsassız xülyaları göstərilmiş [7, s.216], tarixi sənədlər əsasında ermənilərin bu xislətləri əsaslı şəkildə və ətraflı açıqlanmış, eyni zamanda onların şovinist-millətçi mövqeyini dəstəkləyən İranın ermənipərəst tarixçilərinə tutarlı cavablar verilmişdir. Belə ki, zəngin tarixi materiallara istinad edən S.Sərdariniya adıgedən əsərində göstərir ki, ermənilərin türklərə qarşı Rusiyada çarizm dövründən başlamış və bu günədək davam edən xəyanətlə dolu xidmətləri həmişə hakim dairələr tərəfindən dəstəklənmiş və layiqincə qiymətləndirilmişdir [7, s.221].

Qarabağ məsələsi bu gün də İran azərbaycanlılarını düşündürən və həssaslıqla yanaşdıqları ən önəmli məsələdir. Onlar İranın Qərbi Azərbaycan ostandarındakı kürd problemini Qarabağla qarşılaşdırır və xalqımızın ürəyində ikinci bir Qarabağ yarası açılmasına imkan verməmək üçün mübarizə aparırlar. Bu gün də azərbaycanlı ziyalılar hökumətdən Qarabağa münasibətində ədalətli davranmağı və Ermənistanla münasibətlərində bu məsələni yaddan çıxartmamağı tələb edir və İran-Ermənistan münasibətlərini daim diqqət mərkəzində saxlayırlar.

İran və Ermənistan prezidentlərinin qarşılıqlı səfərləri Təbrizdə, Ərdəbildə, Urmiyada, azərbaycanlıların yaşadıqları digər şəhərlərdə azərbaycanlılar arasında hər dəfə çox pis qarşılanır.... İranda yaşayan hər bir azərbaycanlının mövqeyi və istəyi Azərbaycan Respublikasının öz ərazisini işğaldan azad etmək üçün ədalətli mübarizəsinə tərəfdir [13].

2016-cı ildə baş verən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi[1] Cənubi Azərbaycanda böyük ruh yüksəkliyi yaratdı.

Həmin il Dağlıq Qarabağı erməni təcavüzkarlarından və işğalçılarından azad etmək üçün Təbrizdə, Ərdəbildə, Urmiyada, Kərəcdə, Məşhəddə 9 min azərbaycanlı müharibəyə getməyə hazır idi [13]. Bu qələbəyə həsr olunmuş çoxlu sayda yazılar istər mətbuatda, istərsə də müxtəlif xəbər saytlarında, sosial şəbəkələrdə yer aldı. İranda yaşayan bütün azərbaycanlılar “Teleqram” və “Twitter” səhifələrində paylaşaraq Azərbaycan Respublikası ilə həmrəy olduqlarını bəyan etdilər.

Eləcə də 2017-ci ilin iyul ayının 4-də erməni silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndinin atəşə tutulması nəticəsində Azərbaycan Respublikasının iki vətəndaşının - Quliyeva Sahibə İdris qızı və onun iki yaşlı nəvəsi Quliyeva Zəhra Elnur qızının şəhid olması cənubi azərbaycanlıların böyük ürək yanğısı ilə qarşıladıqları xəbər oldu.

Urmiyada fəaliyyət göstərən internet portalı “Yolpress” öz “Teleqram” səhifəsindən “PrayForZahra” (“Zəhraya dua edin”) adlı imza kampaniyası başlatdı. Kampaniyaya 72 saat ərzində 20161 insan qoşuldu. “Zəhraya dua edin” kampaniyasnda toplanan imzalar İranın Xarici İşlər Nazirliyinə göndərildi.

İmza kampaniyası ilə əlaqəli hazırlanmış müraciət mətnində “beynəlxalq ictimaiyyət və ayıq vicdanların baş verən cinayət qarşısında səssiz qalmamaları” tələb edildi [12].

[1] Məlumdur ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq, Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş şiddətli döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmişdir. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklilkər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lalə təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

Maraqlı cəhət odur ki, bu məsələ təkcə sıravi vətəndaşların deyil, dövlət strukturlarında çalışan azərbaycanlıların da etirazına səbəb oldu. Urmiya şəhərinin millət vəkilləri Nadir Qazipur, Hadi Bahaduri və Ruhulla Həzrətpur bu imza kampaniyasına qoşularaq, həmrəyliklərini bildirdilər. Eyni zamanda İİR XİN-i Ermənistan cinayətinə qarşı ciddi mövqe tutmadığı üçün tənqid etdilər.

N.Qazipur məsələ ilə bağlıXarici İşlər naziri Məhəmməd Cavad Zərifə məktub ünvanlayaraq Xarici İşçlər Nazirliyindən Ermənistanın son günlərdə törətdiyi cinayətə qarşı reaksiya verməsini, bu barədə lazımi tədbirlərin görülməsini istədi[2][10].

Bundan başqa, Urmiyanın digər millət vəkilləri Hadi Bahaduri və Ruhulla Həzrətpur imza kampaniyasına qoşularaq İran Xarici İşlər Nazirliyini Ermənistanın bu cinayətinə qarşı ciddi mövqe tutmadığı üçün tənqid etdilər. Urmiyalı deputat Ruhulla Həzrətpur xarici işlər nazirindən "Ermənistanın cinayətlərinə" rəsmi etiraz bildirilməsini tələb etmiş [12] və "Yolpress"-ə verdiyi müsahibəsində qeyd edir ki, təəccüb edirəm ki, İİR-in XİN-i inqilab rəhbərinin Qarabağın işğalı ilə bağlı təkidləri və açıq fikrinə baxmayaraq, hələ də bu cinayət haqqında rəsmi açıqlama verməmişdir. Fikrimcə, bu məsələ beynəlxalq və hüquqi qurumlar, xüsusiləmüsəlman ölkələri üçün bir sınaqdır. Mən hesab edirəm ki, məhkəmə sistemi (Qovve-ye Qəzaiyye) bu qeyri-insani hərəkət qarşısında beynəlxalq cinayət işi qaldırmalıdır"[11].

Bu qanlı hadisə İranda milli fəallar tərəfindən "Twitter" səhifəsindən "PrayforZəhra" (Zəhra üçün dua edin), "JasticeforZəhra" (Zəhra üçün ədalət) ünvanında paylaşılaraq dünya ictimaiyyətinin, eləcə də başda İİR olmaqla Ermənistan havadarlarının diqqətinin erməni təcavüzünə yönəlməsinə çalışıldı.

Son olaraq qeyd etmək olar ki, İİR-in Cənubi Qafqaz siyasətində Dağlıq Qarabağ probleminə münasibətdə tutduğu mövqe azərbaycanlıların İran

---

[2]"Əziz qardaş, cənab Ağa-ye Doktor Zərif! İİR-in hörmətli xarici işlər naziri
Salam!
Göndərilən sənədə əlavədə əziz Azərbaycan xalqının Ermənistan hərbiçiləri tərəfindən qətl edilməsi ilə bağlı toplanmış imzalar siyahısı hörmətlə hüzurunuza təqdim edilir. Bildiyimiz kimi, illərdir ki, bölgədəki müharibələrin, o cümlədən Yəmən, Fələstin, İraq və Suriya qurbanlarının çoxu məzlum uşaqlardır və onların məzlumluq səsi dəfələrlə islami İranın sülhsevər və insanpərvər xalqı tərəfindən dünya əhalisinə çatdırılmışdır. 13.04.1396-cı il tarixində Zəhra Quliyeva adlı azərbaycanlı uşaq Ermənistan hərbçilərinin bombardmanı nəticəsində həlak olmuşdur. Bütün dünyadakı sülhsevər islami İran xalqının 20162 imzasını əks etdirən bu məktub Sizin və XİN-dəki əməkdaşların beynəlxalq təşkilatlarda faydalanması üçün hüzurunuza göndərilir. Ümid edirik ki, regiondakı oyaq vicdanlara dayanaraq, istismarçıların macəraçılıqlarının qarşısının alınması və dünya məzlumlarının haqqının qorunmasının, beynəlxalq sülh və sabitliyin artmasının şahidi olarıq.
Nadir Qazipur,
Şərəfli Urmiya xalqının deputatı
20.04.1396 (10.07.2017)" [10].

dövlətinə qarşı kəskin etirazına səbəb olduğu kimi, iki Azərbaycan arasında etnik bağlılığı daha da gücləndirmiş və gücləndirməkdədir.

Bütün bunlar Cənubi Azərbaycanda və bütün İrandakı azərbaycanlıların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycan Respublikasını dəstəklədiklərini və bu münaqişənin başlandığı gündən bu günədək onların milli şüurunun inkişafında və milli birlik nümayiş etdirmələrində önəmli faktor olduğunun göstəricisidir. Beləliklə, müstəqil Azərbaycan Respublikasının yaranması və Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi hər iki Azərbaycan arasında ictimai, siyasi və mədəni əlaqələri bərpa etdiyi kimi, Cənubda da milli mübarizənin yüksəlişində təkanverici qüvvəyə çevrildi, ona yeni forma və məzmun qazandırdı.

## ƏDƏBİYYAT

1. Mustafayev V. Cənubi azərbaycanlıların milli hərəkatı (I. Tələbə hərəkatı). //Bakı-Təbriz (Dünya azərbaycanlılarının dərgisi), Bakı-2007, N8

2. Piriyev A. “Siyasi strategiya və milli təhlükəsizlik” (Yenidən işlənmiş nəşr), BDU nəşriyyatı, Bakı-2005, 544 səh.

3. Rüstəmova Ş. Cənubi azərbaycanlıların milli şüurunun inkişaf xüsusiyyətləri (İran İslam inqilabından XX yüzilliyin sonlarınadək).Tarix və onun roblemləri, Bakı-2016, N3, s.239-249, 376 səh.

4.Sarıkaya Y. İranda milliyetçilik ve bölgeye yansımaları //https://klekitaplar.files.wordpress.com/2017/11/tarihi-ve-jeopolitik-boyutlariyla-iranda-milliyetcilik.pdfPdf254

5.Şaffer B. Şeklgiriye hoviyyəte cəmi dər Azərbaycane İran // tərcüməçi:AydınRəhimi//http://www.tribun.com/Tribun%20New/Kitab/IndexKitab.htm

6.Şükri Ü. “Neqahi Nəşriyyate danuşcuyiye Azərbaycan”// (www.kar-online.com/node/5415)

7.Talıblı S. İran Respublikasının Qafqaz siyasətində Dalıq Qarabağ problemi (1991-2005-ci illər), “Elm və təhsil” nəşr., Bakı-2016, 362 s.

8. “Varlıq”, Qış 1371, say 87-4

9. “Varlıq”, Payız 1371, say 86-3

10.https://www.gunaz.tv/az/meqaleler/azerbaycan-iran-munasibetleri-m10271

11.http://yolpress.ir/?p=41890

12.https://www.gunaz.tv/az/xeberler/guneyazerbaycan-1/guneyde-zehranin-oldurulmesi-ile-bagli-kecirilen-kampaniyada-toplanan-imzalar-iranin-xarici-isler-nazirine-gonderilib-96805

13.https://www.gunaz.tv/az/meqaleler/guney-azerbaycanlilarin-iir-er-munasibetlerine-baxisi-iir-in-ermenistandan-oz-siyasi-meqsedleri-ucun-istifade-etmesi-m93845

**UOT 324+329**

# TÜRKİYƏDƏ AKP-NİN QURULMASI, İDEOLOGİYASI VƏ HAKİMİYYƏTƏ GƏLMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Namiq Eldar oğlu Məmmədov***
***AMEA Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutu***
***mammadov.namig@yahoo.com***

**Açar sözlər:** *Türkiyədə seçkilər, AKP, 2002-ci il seçkiləri, parlament, parlament seçkiləri, koalisiya, partiya, inflyasiya, R.T.Ərdoğan*

*Məqalə Türkiyədə AKP-nin qurulması, ideologiyası və 2002-ci ildə ilk dəfə hakimiyyətə gəlməsindən bəhs edir. Məqalədə müxtəlif mənbə və ədəbiyyatların araşdırılması və təhlili nəticəsində dövrün hərtərəfli mənzərəsinin yaradılmasına çalışılmışdır. Eyni zamanda AKP-nin yaradıldığı tarixi şərait təhlil edilmiş və həmin şəraitin AKP-nin ideologiyasına və əhali içərisində nüfuz qazanmasına təsir göstərdiyi vurğulanmışdır. AKP-nin hakimiyyətə gəlməsinə şərait yaradan amillərin siyasi, iqtisadi və ölkənin seçki sisteminin olması müəyyən edilmiş və onların hər biri ayrılıqda təhlil edilmişdir. Qeyd edilmişdir ki, 1989-1999-cu illəri əhatə edən on illik müddətdə müxtəlif siyasi partiyalardan ibarət 12 koalisiyalı hökumət kabinetinin təşkili ölkədə qeyri-müəyyən siyasi vəziyyətin yaranmasına gətirib çıxarmışdı. Tez-tez baş verən iqtisadi böhranlar, xüsusilə 2001-ci ilin fevral ayında baş vermiş böhran bu vəziyyəti daha da gərginləşdirmişdi. Bu amillər isə ölkədə AKP-nin nümunəsində yeni qurulan dini yönümlü siyasi partiyaya marağın artmasına və əhali təbəqələri içərisində nüfuz qazanmasına şərait yaratmışdır. Bütün bunlar, eyni zamanda 10 faizlik baryerin müəyyən olunduğu seçki sistemi AKP-nin 2002-ci ilin noyabr ayında qatıldığı ilk seçkidə uğur qazanaraq təkpartiyalı hökumət qurmasına şərait yaratmışdır.*

## ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ СОЗДАНИЮ, ИДЕОЛОГИИ И ПЕРВИЧНОМУ ПРИХОДУ К ВЛАСТИ ПСР В ТУРЦИИ

***Намиг Маммедов***

**Ключевые слова:** *Выборы в Турции, ПСР, 2002-ые выборы, парламент, парламентские выборы, коалиция, партия, инфляция, Р.Т.Эрдоган*

*В статье повествуется о создании ПСР, её идеологии и о первичном приходе к власти в Турции в 2002-ом году. В результате исследования различных источников, литературы и анализа создаётся всесторонняя картина той эпохи. В то же время исследуются исторические условия, при которых была создана ПСР, отмечено влияние этих условий на идеологию ПСР и завоевание ею популярности среди народа. Были выявлены факторы, которые способствовали приходу ПСР к власти, её влияние на политическую, экономическую систему в стране, на систему выборов в стране, и каждый фактор был отдельно проанализирован. Также было отмечено, что в 1989-1999-е годы создание в стране 12 коалиционных правительственных кабинетов привело к образованию в стране нестабильных политических условий. В стране часто происходили экономические кризисы, особенно в феврале 2001-го года, которые ещё больше обострили ситуацию. Эти факторы привели к росту интереса к созданной в стране новой партии с религиозным направлением и создали условия для завоевания ею популярности среди различных слоёв населения. Всё это, в то же время выявление 10 процентного барьера в избирательной системе, создало условия для участия в первых выборах и прихода к власти ПСР в ноябре 2002-го года.*

## ESTABLISHMENT OF THE JDP IN TURKEY, THE IDEOLOGY AND THE FACTORS THAT LED TO THE COMING TO POWER

***Namig Mammadov***

**Keywords:** *Elections in Turkey, JDP, elections of 2002, parliament, parliamentary elections, coalition, party, inflation, R. T. Erdogan*

*The article deals with the establishment, the ideology and the first coming of the JDP to power in Turkey in 2002. In the article, it has been attempted to create a comprehensive view of the period as a result of research and analysis of various sources and literature. At the same time, the history of the JDP was analyzed and it was emphasized that this condition influenced the JDP's ideology and gained popularity to it among the population. It was noted that the organization of the 12-coalition cabinet consisting of different political parties during the ten-year period covering the period of 1989-1999 led to an indefinite political situation in the country. The frequent economic crises, especially the February 2001 crisis, have further aggravated this situation. These factors have led to the growing interest in the newly established*

*religious-oriented political party in the country, as well as the domination of the JDP among the population. All these, as well as the electoral system, where the 10 percent barrier was identified, has succeeded in building a single-party government by winning in the first election of the JDP in November 2002.*

## Giriş

Türkiyədə çoxpartiyalı sistemə keçilməsi ölkə tarixində mühüm əhəmiyyət kəsb edən tarixi dönüş nöqtələrindən hesab edilir. Bu sistemin təşkili və həyata keçirilməsi mühüm demokratik addımlardan olsa da, özü ilə bir sıra siyasi və sosial – iqtisadi problemlər də gətirmişdir. Siyasi problemlər koalisiya hökumətləri və siyasi sistemin qeyri-sabitliyi, mütəmadi baş verən hərbi çevrilişlər ilə, sosial-iqtisadi problemlər isə ölkənin xarici bazara və dünya iqtisadiyyatına inteqrasiyasındakı çətinliklər, inflyasiya və iqtisadi böhranların əhalinin yaşayış səviyyəsinə mənfi təsirləri ilə əlaqədardır. Ümumilikdə Türkiyədə AKP-nin (Adalet ve Kalkınma Partisi- Ədalət və İnkişaf Partiyası) hakimiyyətə gəldiyi 2002-ci ildən əvvəlki onillik ölkə tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biridir. Məhz bu dövrdə yuxarıda qeyd etdiyimiz məsələlər özünün ən yüksək inkişaf mərhələsinə çatmışdı. 1989-1999-cu illəri əhatə edən onillikdə ölkədə 12 hökumət kabineti hakimiyyətdə olmuş, 1997-ci ildə postmodern çevriliş həyata keçirilmiş, 2001-ci ildə Türkiyə tarixinin ən ağır iqtisadi böhranı baş vermiş və bunun nəticəsində yüz minlərlə insan işsiz qalmış, ölkənin valyuta ehtiyatı qısa müddətdə kəskin şəkildə azalmış, bank sektorundakı zərər milli gəlirin 32 faizinə çatmış, ölkənin xarici borcu 120 milyard dollardan artıq olmuşdu və s. Bütün bunlar dövrün siyasi və sosial-iqtisadi mənzərəsinin nə dərəcədə gərgin və mürəkkəb olduğunu bir daha göz önündə canlandırır. Bu vəziyyət əhalinin ölkədəki mövcud siyasi partiyalara olan etibarına da ciddi təsir göstərirdi. AKP məhz belə bir tarixi şəraitdə təşkil edildi və 2002-ci ildə qatıldığı ilk seçkidə qələbə qazandı. Bu məqalədə Türkiyədə AKP-nin qurulması, ideologiyası və 2002-ci ildə hakimiyyətə gəlməsini şərtləndirən amillərə diqqət çəkilərək təhlillər aparılır.

### AKP-nin ideologiyası

AKP ilk əvvəl yeni qurulan partiya kimi öz idealogiyasını müəyyən edərkən ayrıldığı və kadrlarının da çoxunu cəlb etdiyi Milli Görüş partiyaları ilə (Refah, Səadət, Fəzilət partiyaları) öz arasında müəyyən fərqli ideologiya irəli sürdü. Bu, həmçinin partiyanın mövcud sistemlə barışmaq yönündəki ideyasının və dinlə siyasətin ayrılmasının vacibliyinin ifadəsi olmalı idi. Beləliklə də, yeni qurulan partiya mərkəzdə cəmlənmiş bütün seçicilərə xitab edərək seçici kütləsini genişləndirməyə çalışırdı. Buna görə də cəmiyyətin əsas təşkilatlanma formasının islami yaşayış tərzinin vacibliyi ilə müəyyən olunması tələbi

üzərində qurulan bir siyasət anlayışını qəbul etməməkdə idi. R.T.Ərdoğanın müşaviri və partiyanın ideoloqu kimi tanınan Yalçın Akdoğan bildirmişdir ki, hərəkatın mərkəzində tək bir dini anlayışı, məzhəbi və ya etnik xüsusiyyəti yerləşdirərək "biz və digərləri" ayrılığı müəyyən edən siyasət tərzi Türkiyə şərtlərində qütbləşməyə səbəb olduğu üçün bundan imtina etmək vacib idi [3, s.68].

Öz proqramında da partiyanın müqəddəs dini dəyərlərin və etnosların istismar edilərək siyasət aləti halına salınmasının əleyhinə çıxdığı bildirilir, dini siyasi, iqtisadi və ya başqa mənfəətlərə alət etmək və ya dindən istifadə edərək fərqli düşünən və yaşayan insanlar üzərində təzyiq formalaşdırmağın qəbuledilməz olduğu qeyd edilir. Beləliklə, AKP bir tərəfdən müəyyənləşdirdiyi dini əsaslı müxalifətin qoşulması ilə mərkəzdəki digər partiyalardan fərqini üzə çıxarır, digər tərəfdən isə, dünyəvi seçici çoxluğunun etibarını qazanaraq uğur şansını artırmaq istəyir və öz ideologiyasını mühafizəkar-demokrat kimi müəyyən edirdi. Proqramda bununla əlaqədar bildirilir: "Davamlılıq içərisində dəyişiklik axtaran, ümumilik içərisində fərqlilikləri qoruyan, cəmiyyətin dinamizminə güvənən, dünyadakı inkişaf və yeniliklərə açıq olan siyasət anlayışını hakim mövqeyə gətirmək istəyən AKP demokrat, mühafizəkar, yenilikçi və müasir bir partiyadır" [1, s.2].

Bu ideologiya ətrafında - mühafizəkar düşüncənin tarixi inkişafı içərisində mühüm rol oynayan din, dövlət, hakimiyyət, camaat, adət - ənənə və tarixin xüsusi yeri var. Lakin bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, mühafizəkarlığın bir termin kimi qəbul edilməsi də müəyyən siyasi mahiyyət daşıyırdı. Yaxın keçmişdə baş verən hadisələr də, xüsusilə, "postmodern çevriliş" ideologiyanın qeyd edilən şəkildə müəyyən olunmasında xüsusi rol oynamışdı. AKP liderləri yaxşı başa düşürdülər ki, dinin açıq şəkildə siyasətə gətirilməsi, dini ideologiyanın açıq şəkildə ifadəsi Türkiyə cəmiyyətində böyük təzyiqlərə, hətta partiyanın tezliklə bağlanmasına da gətirib çıxara bilərdi. Ona görə də mühafizəkarlıq eyni zamanda partiyanı açıq təhdidlərdən qorumaq mahiyyəti də daşımalı idi. Lakin bu vurğu, dəyişikliyin tamamilə inkar edilməsi mənasını daşımır. Mühafizəkarlıq keçmişlə vasitəli bir münasibət qurur. AKP liderləri bir tərəfdən ənənəvi mədəniyyət və dəyərləri qorumağa xüsusi diqqət yetirir, digər tərəfdən Qərb demokratiyasının əsas ünsürlərini, elm və texnologiyanın mənimsənilməsinin vacibliyi üzərində də dururlar [3, s.70]. Beləliklə, AKP-nin mühafizəkar ideologiyası müasirləşən və ənənəvi Türkiyə arasında körpü yaratmaq, orta yol tutmaq iddiası ilə formalaşdırılmışdır. Mərkəz sağın çətiri altında həm mühafizəkar - demokrat ənənəsini, həm də siyasi islamçı ənənənin dəyərlərini mənimsəyərək seçici kütləsini geniş şəkildə müəyyən edən AKP bu müvazinət və şüarları vasitəsilə siyasət həyata keçirən və proqram hazırlayan partiyadır [7, s.84].

Ümumilikdə, 2002-ci ildə Türkiyədə AKP-nin hakimiyyətə gəlməsini

şərtləndirən bir sıra amillər vardır. Bunların içərisində ən mühüm yeri ölkənin seçki sistemi, habelə siyasi və iqtisadi amillər tutur. İlk olaraq siyasi amillərə diqqət yetirək.

**Siyasi amillər**

XX əsrin 90-cı illərində və XXI əsrin başlanğıcında Türkiyə çox gərgin siyasi atmosferə malik idi. Ölkədəki siyasi gərginliyin ilk göstəricisi kimi tez-tez baş verən hökumət böhranları əyani sübut ola bilər. Ümumiyyətlə, 1989-1999-cu illəri əhatə edən 10 il müddətində ölkədə 12 hökumət kabinetinin hakimiyyətdə olduğunu nəzərə alsaq, dövrün mənzərəsi tam şəkildə aydın olar. Belə bir vəziyyət əhali arasında mövcud siyasi partiya və hərəkatlara olan etibara ciddi ziyan vurmaqla yeni, həmçinin əhalinin böyük əksəriyyətinin maraqlarını ifadə edəcək siyasi partiyaya maraq yaratmış olur.

Əvvəla qeyd etmək lazımdır ki, 1980-ci il hərbi çevrilişi ilə Türkiyədə siyasi hərəkat və partiyalar qadağan edildi və onların fəaliyyətinə ciddi zərbə endirildi. Bu proses 1987-ci ilədək davam etdi və həmin ildə həyata keçirilən referendumla siyasi qadağalar aradan qaldırıldı. Bunun nəticəsində Bülənt Ecevit, Alparslan Türkeş, Süleyman Dəmirəl, Nəcməddin Ərbakan yenidən siyasi arenaya qayıtdılar. B.Ecevit Demokratik Sol Partiyanın (DSP), A.Türkeş Milliyetçi Çalışma Partiyasının (MÇP), S.Dəmirəl Doğru Yol Partiyasının (DYP) N.Ərbakan isə Refah Partiyasının (RP) rəhbərləri oldular.

90-cı illərin əvvəllərində Türkiyə siyasi həyatında gərgin mübarizə dövrü yenidən başlandı. 1991-ci il parlament seçkilərində DYP 27 faiz səslə (178 deputat) birinci yerə, ANAP (Anavatan Partisi) isə 115 deputat yeri ilə ikinci yerə çıxa bildi [13]. DYP, 20 faiz səs toplamış (88 deputat) SHP (Sosyaldemokrat Halkçı Parti) ilə koalisiyalı hökumət təşkil etdi və DYP rəhbəri S.Dəmirəl baş nazir oldu. 1992-ci ilin iyununda, hələ 12 sentyabr dövründə qəbul olunan, bağlanmış siyasi partiyaların əvvəlki adları ilə bərpa edilməsini qadağan edən qərar ləğv edildi. Bunun nəticəsində SHP sıralarında yer alan Dəniz Baykal və tərəfdarları bu partiyadan ayrılaraq, 1992-ci ilin sentyabrında CHP-ni (Cümhuriyet Halk Partisi) yenidən bərpa etdilər.

T.Özal vəfat etdikdən sonra, 1993-cü ilin mayında S.Dəmirəl Prezident, onun yerinə isə Tansu Çillər partiya rəhbəri seçildi. 1993-cü ilin iyununda S.Dəmirəl 50-ci hökumətin təşkilini T.Çillərə həvalə etdi. Bu hökumət 1995-ci ilin oktyabr ayınadək mövcud oldu. 1995-ci ilin oktyabrında DYP və CHP koalisiya hökuməti qurdu. Lakin bu hökumət elə həmin ilin dekabr ayındakı seçkilərin nəticəsinə uyğun olaraq istefa verdi. Həmin seçkilərdə N.Ərbakanın başçılıq etdiyi Refah Partiyası 21.3 faiz səslə 158 deputat yeri əldə edərək, birinci yerə çıxdı. İkinci yerə çıxan DYP 135, ANAP 132, DSP 76, CHP isə 49 deputat yeri qazandı [14;19]. Seçkilərdən sonra DYP - ANAP koalisiyasının qurulmağına baxmayaraq, bu hökumətin də ömrü uzun olmadı. Bunun ardından

RP, DYP ilə 54-cü hökuməti (1996, 28 iyun – 1997, 30 iyun) təşkil etdi.

Siyasi mənzərəni qeyd edərkən "postmodern çevrilişi" də xüsusi qeyd etmək lazımdır. Bu çevriliş 1996-cı ildə hakimiyyətə gələn Refah-Yol koalisiyasının devrilməsi ilə nəticələnən Milli Təhlükəsizlik Şurasında (MTŞ-Milli Güvenlik Kurulu) qəbul edilən "28 fevral" qərarları ilə başlayır [6, s.672]. Hərbi bürokratiyanın yüksək dairələrinin "irtica ilə mübarizə" səbəbi ilə hazırlayıb Şuranın sivil üzvlərinə qəbul etdirdiyi qərarlar Refah-Yol koalisiyasının devrilməsinə gətirib çıxardı. Ordunun açıq şəkildə iqtidarı ələ keçirmə təhdidləri ilə siyasi prosesi müəyyənləşdirməsi və çevrilişin "sivillər"in əli ilə edilməsi mənasında "postmodern çevriliş" adlandırılan 28 fevral müdaxiləsi Türkiyədə iqtisadi və siyasi baxımdan ciddi sarsıntı ilə nəticələndi. Bundan sonra, 1997-ci ilin iyulunda Prezident S. Dəmirəl 55-ci hökuməti təşkil etməyi ANAP rəhbəri Məsud Yılmaza həvalə etdi. İyulun 12-də M.Yılmazın baş nazir olduğu ANAP-DSP- DTP (Demokrat Türkiye Partisi) koalisiyalı hökuməti təşkil olundu. Bu hökumət 1999-cu ilin yanvarına qədər hakimiyyətdə oldu. 1999-cu ilin yanvarından may ayına qədər hakimiyyətdə olan 56-cı hökumətə DSP baş katibi Bülənt Ecevit rəhbərlik etdi [20].

1999-cu ilin aprelində keçirilmiş parlament seçkilərinin nəticəsində DSP təkbaşına hökumət təşkil edəcək çoxluğu qazana bilmədi [15]. Buna görə də DSP, ANAP və MHP ilə birlikdə koalisiyalı hökumət təşkil etdi. Bu hökumətə də B.Ecevit rəhbərlik etdi və 2002-ci ilədək hakimiyyətdə oldu. Müxtəlif siyasi və ideoloji baxışları olan partiyalardan ibarət olan koalisiyanın hakimiyyətə gəlməsi ölkədəki vəziyyətin dramatik şəkil almasının göstəricisi idi. Daxili çəkişmələr nəticəsində DSP deputatlarının xeyli hissəsi digər partiyalara keçdi və bu partiya parlamentdəki deputat sayına görə dördüncü yerə keçdi. Bütün bunlar 2002-ci ilin iyulun 31-də həmin ilin noyabrın 3-nə parlamentə yeni seçkilərin təyin edilməsi ilə nəticələndi. Həmin seçkilərdə isə AKP qalib gələrək təkbaşına hökumət təşkil etdi.

Qeyd edilənlərdən də göründüyü kimi, XX əsrin 90-cı illərində Türkiyədə mövcud olan partiyalardan heç biri təkbaşına hökumət təşkil edə bilmirdilər. Koalisiya hökumətləri isə hakimiyyətdə uzun müddət qala bilmirdilər.

**İqtisadi amillər**

AKP-nin iqtidara gəlməsində iqtisadi amillər də həlledici rola malikdir. Ümumiyyətlə, ötən əsrin sonları Türkiyə iqtisadiyyatının vəziyyəti, yüksək inflyasiyanın hökm sürməsi və hökumətlərin bu sahədəki uğursuz siyasəti ilə xarakterizə oluna bilər. 1990-cı illərin sonlarında Türkiyə iqtisadiyyatında inflyasiya özünün ən yüksək həddinə çatmışdı. Belə ki, 70-ci illərdə illik 20 faiz həcmində olan inflyasiya, 80-ci illərin əvvəllərində 35-40 faizə, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində 60-65 faizə, 1998-ci ildə isə 80 faizə yüksəlmişdi [4, s.1].

Ümumilikdə, Türkiyə iqtisadiyyatında meydana gələn iqtisadi böhranlar xüsusiyyətlərinə görə 2 dövrə ayrıla bilər [5, s.24-25; 11, s-312-313]:

1) 1980-ci ilədək baş verən böhranlar,
2) 1980-ci ildən sonra baş verən böhranlar.

1980-ci ilədək baş verən böhranlar daha çox ölkənin daxili inkişafından qaynaqlanırdı və təşkilati-struktur xüsusiyyətləri daşıyırdı. Bunlar ödəmə balansı, qıtlıq, çatışmazlıq, qara bazar böhranları şəklində meydana çıxmış, bank sektoru və sərmayə axınlarının rolu yox deyiləcək qədər azlıq təşkil etmişdir.

1980-ci ildən sonra baş verən böhranlar daha çox xarici faktorların təsirindən qaynaqlanan maliyyə böhranları şəklinə düşmüş, likvidlik və ya valyuta böhranları şəklində ortaya çıxmışdır. Müqayisə edildikdə, bu böhranların təsir dairəsinin daha geniş olduğu və iqtisadiyyata daha dərindən təsir etdiyi görünür. Böhranın əsas səbəbləri sırasında sərmayə axınları və bank sektoru aparıcı rol oynayır və bu proses xarici faktorların nəzarətində inkişaf edir. Daxili borclar əvvəlki dövrdə idarə oluna biləcək səviyyə və inkişaf planları çərçivəsində idarə olunurdusa, sonrakı dövrdə idarəolunmaz səviyyəyədək yüksəlmişdir. Türkiyənin xarici ticarət kəsiri hər iki dövrdə mövcud olsa da, I dövrdə bu, təşkilati-struktur səbəblərindən, II dövrdə isə xarici təsirlər səbəbindən meydana çıxmışdır.

1999-cu ilin mayında 57-ci hökumət DSP, MHP və ANAP-ın koalisiyası olmaqla, DSP deputatı və keçmiş rəhbəri Bülənt Ecevitin Baş nazir təyin edilməsilə quruldu və 2002-ci ilin noyabr ayının 18-dək hakimiyyətdə oldu. "Anasol-M hökuməti" adlandırılan bu hökumətin dövründə 1999 və 2001-ci illərdə Türkiyəni ciddi şəkildə sarsıdan iki böyük iqtisadi böhran koalisiya hökumətinin bacarıqsızlığını ortaya çıxardı. 2001-ci il böhranının MGK iclasında Prezident Ə.Sezər ilə baş nazir B.Ecevit arasındakı ciddi mübahisədən ("anayasa fırlatma" hadisəsindən) qaynaqlandığı qeyd edilir [10, s.27]. Bu böhran tarixə "Qara çərşənbə" adı ilə daxil olmuş və Türkiyə tarixinin ən böyük iqtisadi böhranıdır. 25 fevral 2001-ci ildə birjada bir gecədə 7500 faiz enmə oldu. ABŞ dolları 695 min lirədən 900 min lirəyədək yüksəldi, 10 gün ərzində məzənnə 40 %-ə çatdı, 18 min bank işcisi, ümumilikdə isə 1 milyonadək insan işsiz qaldı [2, s.749]. Valyuta ehtiyatı 16-23 fevral arasındakı müddətdə 5.36 milyard dollar azaldı. Bank sektorunda zərər 47.2 milyard dollar olmaqla, 2001-ci il milli gəlirinin 32 %-nə çatdı [17, s.732]. Bütün bunlar isə həm əhalinin, həm də şirkətlərin vəziyyətinə mənfi təsir göstərdi. Siyasi baxımdan ciddi məhdudiyyətləri ifadə edən 28 fevral prosesini tətbiq etməyin yaratdığı ictimai narazılığa, böyük iqtisadi sarsıntı və yoxsulluğun da əlavə olunması koalisiya hökumətinin süqutunu labüd etdi. Bu prosesdə B.Ecevitin 3 Mart 2001-ci ildə Dünya Bankı prezidentinin köməkçisi vəzifəsində çalışan Kamal Dərvişi ölkəyə çağırması və İqtisadiyyat naziri olaraq vəzifələndirməsi böhrandan çıxış yolları

axtarmaq baxımından mühüm addım sayıla bilərdi. Lakin "Dərviş islahatları" da dramatik bir şəkildə pozulmuş iqtisadi və siyasi sabitliyi bərqərar etmək üçün yetərli olmadı.

**Seçki sistemi**

Türkiyənin seçki sistemi də AKP-nin hakimiyyətə gəlməsinə ciddi təsir göstərmişdir. Türkiyədə 1961-ci ildən tətbiq edilən və D'Hondt adlandırılan bu sistemə görə hər partiyanın topladığı səs sayı növbə ilə ardıcıl olaraq 1, 2, 3 və s. bölünür. Bu proses həmin bölgədən çıxacaq deputataların ümumi sayı müəyyənləşənə qədər davam etdirilir [12, s.16; 8, s.17; 18, s.112]**.** Məsələn, 7 deputat yeri olan seçki bölgəsində A partiyası 60 000, B partiyası 25 000, C partiyası 14 000 səs almışsa, bunun partiyalar arasında mandat bölgüsünə diqqət yetirək.

| Deputatlar / Səs | A partiyası | B partiyası | C partiyası |
|---|---|---|---|
| | 60 000 | 25 000 | 14 000 |
| 1- ci deputat | 60 000 | 25 000 | 14 000 |
| 2- ci deputat | 30 000 | 25 000 | 14 000 |
| 3- cü deputat | 20 000 | 25 000 | 14 000 |
| 4- cü deputat | 20 000 | 12 500 | 14 000 |
| 5- ci deputat | 15 000 | 12 500 | 14 000 |
| 6- cı deputat | 12 000 | 12 500 | 14 000 |
| 7- ci deputat | 12 000 | 12 500 | 7 000 |
| | | | |
| Partiyanın mandat sayı | 4 | 2 | 1 |
| Hər deputat sayına düşən səs | 15 000 | 12 500 | 14 000 |

A partiyasına 1-ci olduğu üçün bir mandat verilir. A partiyasının səsi 2-yə bölünür. A partiyasının səsi hələ də ən çox olduğu üçün, onun səsi bu dəfə 3-ə bölünür (60000/3=20000). Bundan sonra ən çox səs B partiyasında olduğu üçün B-yə bir mandat verilir və səsi 2-yə bölünür (25000/2=12500). Qalan saylar arasında ən böyük A olduğu üçün ona daha bir mandat verilir və səsi bu dəfə 4-ə bölünür (60000/4=15000). Alınan saylar arasında ən çox səs yenə A-nın olduğundan ona daha bir mandat verilir və bu dəfə səsləri 5-ə bölünür (60000/5=12000). Bundan sonra ən çox səs C-yə aid olur və C-nin xanasına 1 mandat əlavə olunur; C-nin səsləri 2-yə bölünür (14000/2=7000). Bu 7-ci və son hesab nəticəsində ən çox say B-yə aid olduğu üçün son mandatı B partiyası alır. Nəticədə bu bölgədən A partiyası 4, B partiyası 2, C partiyası da 1 deputat yeri əldə etmiş olur.

Bundan əlavə, ölkədə 10 faizlik baryerin müəyyən olunması (1995-dən bəri tətbiq edilir) aşağı səs faizi toplayan partiyaların kənarda qalmasına və çoxluq qazanan partiyaların deputat sayının artmasına təsir göstərir. 2002-ci il noyabrın 3-də təşkil olunmuş parlament seçkilərində [16], ümumilikdə 41.4 mln. nəfərlik seçicinin səsvermədə iştirak göstəricisi 79.1 faiz təşkil etmiş, bunlardan 31.5 milyonunun səsi etibarlı sayılmışdır. Seçkinin nəticələrinə görə birincilik qazanan AK Parti 10.8 milyon seçicinin səsini almaqla (34.3 faiz) 363 deputat yeri əldə etdi. Məclisdə təmsil olunan ikinci partiya CHP oldu və 6.1 milyon seçicinin səsini qazanmaqla (19.4 faiz) parlamentdə 178 deputat yeri əldə etdi. Digər partiyalar isə 10 faizlik baryeri keçə bilmədiklərinə görə parlamentdə təmsil olunmadılar. Beləliklə, 2002-ci il seçkilərində parlamentdə təmsil olunmayan partiyaların cəmi səsi 45.3 faiz oldu. Başqa sözlə ifadə etsək, ümumiyyətlə, səsləri etibarlı hesab olunmuş seçicilərdən 14.292.951 nəfəri parlamentə deputat seçə bilmədi.

**AKP-nin hakimiyyətə gəlməsi**

2001-ci il iyunun 22-də Konistitutsiya Məhkəməsinin Fəzilət Partiyasını (FP) bağlamaq qərarı siyasi iqtidarsızlığı zirvəyə çatdırdı. İqtidarın böyük ortağı DSP içində də çalxalanma və problemlər davam edirdi. Belə bir vəziyyətdə FP-nin ”yenilikçi” qanadını təşkil edən Tayyib Ərdoğan və tərəfdarlarının yeni bir siyasi təşkilatlanmaya getməsi qısa müddət sonra ölkə siyasətinə damğasını vuracaq siyasi bir alternativin yaradılması ilə nəticələndi. AKP 14 Avqust 2001-ci il tarixində təşkil edildi. AKP-nin müstəqil və güclü siyasi alternativ kimi ortaya çıxması FP içindəki parçalanma ilə əlaqədar idi. Bu partiya daxilindəki ”yenilikçi axın”, “əhali içərisini” təmsil edən sinfi və siyasi xətdən gəlir və 28 fevral prosesində “millətin hüququnu qoruya bilməyən” N.Ərbakan və onun ətrafındakı “ağ saçlılar”dan fəlsəfi və siyasi mənada bir “ayrılmanı” ifadə ediridi. R.T.Ərdoğan xarizmatik şəxsiyyəti, bələdiyyə işi və siyasi şüar söyləmək bacarığı ilə də siyasi alternativ olaraq diqqətə çarpırdı. Bu alternativ hər çevriliş və memorandum sonrası ictimaiyyətdə hərbi bürokratiya və siyasiləşən məhkəməyə qarşı diqqətə çarpan etirazların artmasının da yönəldiyi bir güc olaraq ilk seçkilərdə iqtidar olmağa namizəd görünürdü. 2002-ci seçkiləri Türkiyədə 28 Fevral hadisələrinin nəticəsi olan siyasi gərginlik və onu izləyən iqtisadi böhran şəraitində həyata keçirildi. Bu seçkilərdə DSP əvvəlki seçkiylə müqayisədə 20 faiz səs itirərək yalnız 1.22 faiz səs alıb. MHP isə 10 faiz səs itirərək yalnız 8.36 faiz səs ala bildi [16]. Ali Seçki Komissiyası tərəfindən (YSK) R.T.Ərdoğanın namizədliyi qəbul edilmədiyinə görə AKP hökuməti Abdulla Gülün başçılığı ilə quruldu. Lakin bundan qısa müddət sonra CHP-nin dəstəyi ilə həyata keçirilən konistutsiya dəyişikliyi və bunun ardınca Siirt bölgəsində keçirilən seçki ilə R.T.Ərdoğan deputat seçildi və Baş nazir olaraq yeni hökuməti qurdu. 2002-ci il seçkilərindən sonrakı dövrdə Türkiyə siyasi həyatında AKP ilə yanaşı parlamentdə təmsil olunan siyasi partiyalar

CHP, MHP və HDP olmuşdur. Digər müxalifət partiyaları isə heç bir seçkidə 10%-lik baryeri keçə bilməmişdir. Bu da onların əhali içərisindəki nüfuzunun kəskin şəkildə aşağı düşdüyünün bariz nümunəsidir. 2002-ci ildən sonra Türkiyədə həyata keçirilən bütün parlament və bələdiyyə seçkilərinin, demək olar ki, hamısında AKP 40%-dən yuxarı səs toplayaraq indiyədək ölkəni təkbaşına idarə etməkdədir.

## Nəticə

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək qeyd etmək olar ki, 2002-ci il müasir Türkiyə tarixində AKP-nin təkpartiyalı hakimiyyətinin bünövrəsinin qoyulması baxımından yeni və mühüm mərhələnin başlanğıcı kimi xarakterizə oluna bilər. Həmin tarixdən başlayaraq Türkiyədə həyata keçirilən bütün parlament və bələdiyyə seçkilərinin demək olar hamısında AKP 40 faizdən yuxarı səs toplayaraq, indiyədək ölkəni təkbaşına idarə etməkdədir. AKP-nin Türkiyədə ilk dəfə hakimiyyətə gəlməsini şərtləndirən əsas amillər siyasi, iqtisadi problemlər və ölkənin seçki sistemi ilə əlaqədar olmuşdur. Belə ki, ötən əsrin 90-cı illərində Türkiyədə hakimiyyətdə olan bütün hökumətlər müxtəlif siyasi partiyaların koalisiyası əsasında yaradılmışdı. Həmin koalisiyalar qısamüddətli olduğuna və tez-tez parçalandığına görə əhali içərisində kifayət qədər nüfuz qazana bilmirdilər. Siyasi gərginliyi artıran digər faktor isə mütəmadi baş verən maliyyə-iqtisadi böhranlar olmuşdu. Bunların içərisində 2001-ci ildə baş verən böhran Türkiyəni daha çox sarsıtmış və maliyyə sahəsində böyük itkilərin olmasına gətirib çıxarmışdı. Bütün bunlar isə AKP-nin hakimiyyətə gəlməsinə əlverişli zəmin hazırlamışdı. Belə bir şəraitdə təşkil edilən seçkidə AKP-nin qələbəsini müəyyənləşdirən ən mühüm faktorlardan biri kimi ölkənin seçki sistemi də əhəmiyyətli rola malik olmuşdu. D'Hondt seçki sistemi və ölkə üzrə 10 faizlik baryerin müəyyən olunması nəticəsində AKP 34.3 faiz səs toplayaraq birinci yerə çıxdı. Səsvermədə iştirak edən 45 faizdən çox seçici isə parlamentə deputat seçə bilmədi. Başqa sözlə ifadə etsək, AKP 41.4 milyon səsvermə hüququ olan vətəndaşın 10.8 milyonunun səsi ilə 363 deputat yeri əldə edərək mütləq çoxluq qazandı və hakimiyyətə gəldi.

## ƏDƏBİYYAT

**1.** AKP_2002.pdf (AK Parti Seçim Bildirgesi)//belgenet.com/ secim/bildirge/akp2002-1.html
**2.** Dikkaya M., Özyakışır D. Türkiye ekonomisinde kayıp yıllar (1991-2001) // Türkiye'nin politik tarihi, 5-ci baskı, Ankara, 2014, s. 743-754
**3.** Doğanay Ü. AKP-nin Demokrasi söylemi ve Muhafazakarlık: Muhafazakar Demokrasiye eleştirel bir bakış. Ankara Universitesi SBF Dergisi 62-1
**4.** Ertuğrul A., Selçuk F. A brief account of the Turkish economy: 1980-2000 // http://www.econ.boun.edu.tr/content/old_files/ec47001/9239.pdf
**5.** İbiş E. 2001 Krizi:Türk bankacılık sektörü üzerine etkileri.Yüksek Lisans Tezi. Ankara, 2013
**6.** Özipek B. Adalet ve Kalkınma Partisi dönemi iç ve dış politika // Türkiye'nin politik tarihi, 5-ci baskı, Ankara, 2014, s. 671-692
**7.** Göksu V. Siyasal kimlikler ve merkez-çevre dikotomisi bağlamında Türkiye'de merkez sağ ve merkez sol// Akademik İncelemeler Dergisi(Journal of Academic Inquiries) cilt-8, sayı-2, 2013
**8.** Gürbüz Ö.Dünyada ve Türkiyede uygulanan seçim sistemleri ve ideal seçim sistemi için öneriler/ Ankara Barosu Dergisi, 1997, N-1, s.14-29
**9.** Gürsel S. Türkiye için yeni seçim sistemi önerisi, 2013//betam. bahcesehir.edu.tr/wp-content/uploads/2013/01/Türkiye-için-yeni-seçim-sistemi-önerisi.pdf
**10.** Rakamlarla 28 Şubat raporu. Ankara, 2014 // www.ebs.org.tr/ebs_ files/files/.../28_subat_rapor_web.pdf
**11.** Türkiye'nin Dış Borçlarının Analizi (1980–2012) //www.avekon. org/papers/483.pdf
**12.** Türk H. S. Seçim, Seçim Sistemleri ve Anayasal Tercih. Ankara, 1999 //www.anayasa.gov.tr/files/pdf/anayasa_yargisi/anyarg23/turk.pdf
**13.** T.C. Resmi Gazete, 17 Kasım 1991, sayı-21054
**14**. T.C. Resmi Gazete, 3 Ocak 1996, sayı-22512 (Mükerrer)
**15**. T.C. Resmi Gazete, 27 nisan 1999, sayı-23678
**16**. T.C. Resmi Gazete, 10 Kasım 2002, sayı-24932
**17**. Üzümcü A., Dikkaya M., Özyakışır D. Türkiye'de iktisadi dönüşümler ve politik yansımaları // Türkiye'nin politik tarihi, 5-ci baskı, Ankara, 2014, s. 695-742
**18**. Yüzbaşıoğlu N. Türkiye'de uygulanan seçim sistemleri ve bunlara ilişkin Anayasa mahkemesi kararlarına göre nasıl bir seçki sistemi, İUHFM, c-55, sayı- 1-2, s. 103-150
**19.** 1995 Türkiye genel seçimleri // tr.wikipedia.org/wiki/ 1995_Türkiye_genel_seçimleri [aprel-2019]
**20.** 56. Türkiye hükumeti//tr.wikipedia.org/wiki/56._Türkiye_Hükûmeti [aprel-2019]

**UOT 94(479.24)**

# ÇAR RUSİYASININ AZƏRBAYCANDA "ERMƏNİ DÖVLƏTİ" YARATMAQ PLANLARI VƏ ONUN NƏTİCƏLƏRİ

***Əzizə Firidun qızı Ağayeva***
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***aziza.lv@yahoo.com***

**Açar sözlər:** *deportasiya, işğal, erməniləşdirmə, köçürmə, erməni faktoru, kilsə, imperiya, müstəmləkəçi siyasət, mütləqiyyət, muxtariyyət, ərazi, təxribat*

*İki əsr ərzində Rusiya Zaqafqaziya regionununda bu ərazilərdə "yad və gəlmə" olan ermənilərin maraqlarının müdafiəçisi olmuşdur. Qafqazın işğalından sonra Rusiya regionda sabitlik qazanmaq, Osmanlı Türkiyəsi hesabına öz ərazisini genişləndirmək üçün ermənilərdən geniş istifadə etdi. Bu vəziyyətdən bəhrələnən ermənilər müsəlman türklərini məhv edir və onları tarixi vətənlərindən didərgin salırdılar. Bu gün Rusiyanın, Avropanın və ABŞ-ın bəzi elmi dairələrində, eləcə də erməni araşdırmaçılarının özləri, Cənubi Qafqazda Azərbaycan və ona aid olan dövlət quruluşlarının mövcud olmadığını sübut etmək üçün var gücləri ilə çalışırlar.*

*Ermənilərin Cənubi Qafqaza köçürülməsi onların zehnlərində Böyük Ermənistan mifinin yenidən canlanmasına səbəb oldu. Buna görə ermənilər əldə etdikləri nailiyyətlər ilə kifayətlənmiyəcəklər. Nəticə olaraq, bu münaqişə davam edəcək. Onların böyük arzusu gerçəkləşdi - erməni dövləti yaradıldı. Onların iştahları getdikcə artacaq. Buna görə də, bu münaqişə hələ uzun müddət Qafqazın barıt çəlləyində "tüstüləyən fitil" olacaq.*

## ПЛАНЫ ЦАРСКОЙ РОССИИ ПО СОЗДАНИЮ В АЗЕРБАЙДЖАНЕ АРМЯНСКОГО ГОСУДАРСТВА И ЕГО РЕЗУЛЬТАТЫ

***Азиза Агаева***

**Ключевые слова:** *депортация, оккупация, арменизация, переселение, армянский фактор, церковь, империя, колонизатроская политика, самодержавие, автономия, территория, провокация*

*В течение двух веков Россия является самым большим в Закавказском регионе покровителем и защитником интересов армян, - "пришлых и чужеродных" в этих краях. Россия после оккупации Кавказа широко использовала армян, чтобы закрепиться в регионе, расширить свои территории за счет Османской Турции, а армяне, пользуясь ситуацией уничтожали тюрков-мусульман и вытесняли их с исторической родины любыми средствами. Сегодня в некоторых научных кругах России, Европы и США, а также сами армянские исследователи всеми силами пытаются доказать, что Азербайджана и его государственных образований на Южном Кавказе не существовало.*

*Переселение армян на Южный Кавказ способствовало реанимации в их умах мифологемы "Великая Армения", поэтому армяне не остановятся на достигнутом. Судя по обстоятельствам этот конфликт еще будет продолжатся. Сбылась их вековая мечта - создание армянского государства. Их аппетиты будут расти. Поэтому этот конфликт будет еще долго тлеть, как фитиль к Кавказской пороховой бочке.*

## TSARIST RUSSIA'S PLANS TO CREATE AN ARMENIAN STATE IN AZERBAIJAN AND ITS RESULTS

***Aziza Agayeva***

**Keywords:** *deportation, occupation, armenization, resettlement, Armenian factor, church, empire, colonialist politics, autocracy, autonomy, territory, provocation*

*For two centuries, Russia has been the biggest patron in the Transcaucasian region and defender of the interests of Armenians, "complete stranger and alien" in these regions. After the occupation of the Caucasus, Russia used Armenians extensively to gain a foothold in the region, expand its territory at the expense of Ottoman Turkey, and the Armenians, taking advantage of the situation, destroyed the Muslim Turks and ousted them from their historic homeland by any means. Today, in some scientific circles of Russia, Europe and the United States, as well as the Armenian researchers themselves, they are trying with all their might to prove that Azerbaijan and its state formations did not exist in the South Caucasus.*

*The resettlement of Armenians to the South Caucasus contributed to the reanimation of the Great Armenia mythology in their minds, so the Armenians will not stop at what has been achieved. Judging by the circumstances, this conflict will continue. Their age-old dream has come true - the creation of the*

*Armenian state. Their appetites will grow. Therefore, this conflict will still fester for a long time, like a wick to the Caucasian powder keg.*

Bir çox əsrlər ərzində ermənilər Avropadan (*Balkanlar*) Kiçik Asiyaya, daha sonra isə Qafqaza gəlmişlər. Bu hadisələr Roma, Bizans, Fars, Ərəb, Səlcuq, Monqol və Osmanlı imperiyaları dövründə olmuşdur. Buna görə də, erməni tarixçiləri Ermənistanın deyil, məhz erməni xalqının tarixindən yazırlar. Bu gün təxminən 26 qondarma "Ermənistan" məlumdur. Lakin, 1-ci (28 may 1918-ci il), 2-ci (29 noyabr 1920-ci il) və 3-cü (21 sentyabr 1991-ci il) Ermənistan respublikaları, tarixi Azərbaycan əyaləti olan, Çuxursəəd bəylərbəyliyində bəyan edilib.

Ermənilərin uzun müddətli və ya ömürlük, müəyyən ərazidə kök salmaq və öz dövlətlərini yaratmaq iddiaları həmişə uğursuzluqla nəticələnib. Belə ki, onlar hər yerdə etnik azlıq təşkil edirdilər. Ermənilərin öz dövlətlərini yaratmaqla bağlı son ümidləri Rusiya və Qafqazla əlaqəli idi. Bu ümidlərin nəticələri bu gün hamıya çox yaxşı məlumdur.

Rusiyada ermənilər haqqında ilk məlumatlar XIII əsrə təsadüf edir. Həmin vaxt knyaz Daniil Romanoviç (1238-1264-cü illər) erməniləri öz imarətinə dəvət edir. Erməni müəllifi Simeon Lexatsi isə (XVII əsr) öz "Səfər qeydlərində" ermənilərin Osmanlı imperiyasında firavan və rahat həyatını təsvir edir.

Çar Aleksey Mixayloviçin (1645-1676) hökmdarlığı dövründə Rusiyada ermənilərin yeni dalğası yarandı. Lakin, "imperator Böyük Pyotr (1682-1725) ermənilərin Rusiyada yerləşdirilməsinin əsas təşəbbüskarı olub və onlara müxtəlif müstəsna hüquqlar bəxş edib" [4, s.8]. 1722-ci ildə Xəzər sahilini ələ keçirəndən sonra o, erməniləri bu torpaqlara, məhz müsəlmanların yaşadığı Dağıstana və Azərbaycana yerləşdirməyə çalışırdı. Bu məqsədlə I Pyotr İstanbuldakı elçisi A.Rumyantsevə Osmanlı imperiyasında ermənilərin Rusiya imperiyasının Xəzər əyalətinə (bura Dərbənddən cənubda Rəştə qədər Azərbaycan torpaqları daxil idi) köç etməsinə razı salmağı tapşırdı. Köç edənlərə söz verirdilər ki, yerli əhali "sürgün ediləcək, ermənilərə isə onların torpaqları veriləcək". Bu, Qafqazın, ilk növbədə isə Azərbaycanın "erməniləşdirilməsinin" başlanğıcı idi.

Qafqazın tam xristianlaşdırılması üçün planını həyata keçirən Rusiya İmperiyası ermənilərin bunun üçün çox uyğun olduğunu düşünürdü. Birincisi, müsəlman ölkələrində digər Şərqi xristianlara nisbətən ermənilərin sayı daha çox idi. İkincisi, onlar Rusiyanın Qafqaz uğrunda mübarizəsində əsas rəqibləri olan - Osmanlı və İran monarxiyalarında məskunlaşmışdılar. Üçüncüsü, ermənilər Rusiyanın rəqiblərinin güclü və zəif tərəflərini bilirdilər. Dördüncüsü, ermənilər, onlar üçün sərfəli olduğu yerlərə asanlıqla köçməyə hazır idilər (harada yaşayış rahatdırsa, ora vətəndir). Beşinci, Rusiya hökuməti bilirdi ki

ermənilər artıq 500 ilə yaxın idi ki öz dövlətçiliyinə malik deyildilər. Bundan əlavə, bu ermənilər düşmən ölkəsində "beşinci sütun" rolunu oynaya bilərdi. Nəhayət, erməniləri Qafqaza köçürməklə I Pyotr yerli müsəlman dünyasında ona dayaq ola bilən xristianların "nisbi çəkisini" artırırdı.

Rusiyanın himayəsi altında erməni çarlığının bərpasına öz razılığını verən II Yekaterina (1762-1796) I Pyotrun Qafqazdakı siyasətini davam etdirdi. Rusiyanın geosiyasətində cənub istiqamətində erməni amilindən istifadə etmək planlaşdırılırdı və Dərbənddə mövqeyi möhkəmləndirmək, Şamaxı, Gəncə, Qarabağ, Siqnaxi, habelə İrəvanı ələ keçirmək bu planın tərkib hissəsi idi. Bu isə o deməkdi ki, Rusiya, Qafqazda strateji məsələləri Azərbaycanın hesabına həll etmək niyyətində idi.

Qeyd etmək vacibdir ki, rəsmi Rusiya erməni dövlətçiliyinin heç vaxt mövcud olmadığı yerdə "erməni dövləti" yaratmağı düşünmürdü. Tanınmış rus qafqazşünası, nasir, jurnalist V.L. Veliçko XX əsrin əvvəlində yazırdı: "II Yekaterinanın favoritlərindən biri, knyaz Q.A.Potyomkin heç şübhəsiz ki, geniş fantaziyası olan bir insan idi və erməni yaylasında xristian çarlığının yaradılması ilə bağlı fikirlər onun xoşuna gəlirdi. Bu fikir gerçəkləşə bilərdi; belə ki, II Yekaterinanın ermənilərə qarşı lütfkarlığı ən yüksək hədlərə gəlib çatmışdır" [1, s.77]. II Yekaterina, regionda xristian elementinin gücləndirilməsinə xüsusi diqqət ayırırdı. O, ermənilərə Azərbaycan torpaqlarında Rusiyanın himayəsi altında Ermənistan çarlığı yaradacağını vəd edirdi. Buna görə də, Naxçıvan na-Donu (Rusiya, Rostov vilayəti) şəhərinin minnətdar erməniləri II Yekaterinaya abidə ucaltdılar. Bu abidə SSRİ dövründə dağıdıldı, postsovet dövründə isə ermənilər onu yenidən bərpa etdilər.

Regionda baş verən hərbi-siyasi proseslər, o cümlədən Rusiya-Osmanlı müharibələri, Ağa Məhəmməd şah Qacar və digərlərinin fəaliyyəti, eləcə də Qarabağlı İbrahimxəlil xanın diplomatik çevikliyi rus-erməni planlarının gerçəkləşməsinə imkan vermədi. XVIII əsrin sonunda ruslar daha böyük qüvvə ilə Cənubi Qafqaza hücum etməyə başladılar və onlara dəstək olan ermənilər xanların hakimiyyətini daxildən zəiflətmək üçün qiyamlar qaldırırdılar.

I Aleksandrın dövründə (1801–1825-ci illər) ermənilərə qarşı lütfkarlıq qorunub saxlanılmışdı. Ermənilərin Dərbəndin ətrafına köçməklə bağlı arzularına, o, "ən yüksək icazəni" verdi və "erməni xalqına onun əcdadları tərəfindən bəxş edilən hüquq və üstünlüklərini tam olaraq qüvvədə olduğunu" 21 dekabr 1802-ci il tarixli fərmanla təsdiqlədi" [4, s.10].

XIX əsrdə Rusiya imperiyası faktiki olaraq Xəzər, Azov, Qara dənizlərinə sahiblik edirdi. Bunun sayəsində, imperiya Bosfor və Dardanel boğazlarına, habelə Aralıq dənizinə çıxış əldə etdi. Eyni zamanda, Rus imperiyası Qafqazı, Krımı ələ keçirdi və Balkan yarımadasında öz mövqeyini qurdu. Bununla bağlı V.L. Veliçko, osmanlı ermənilərini nəzərdə tutaraq, bunları qeyd edirdi: "Ermənilərin tarixi boyunca çox zəif, güclə sezilən, amma heç vaxt

bitib-tükənməyən ümidləri var; bu, erməni xalqının və dövlətinin dirçəlişi ilə bağlıdır... Tamamilə səciyyəvidir ki, Rusiyanın ərazisi artdıqca, Ön Asiyaya “qələbə bayrağı” yaxınlaşdıqca, bu ümid daha da alovlanırdı...” [1, s.76-77].

1826-1828-ci illərdə Rusiya-İran müharibəsi Türkmənçay sülh müqaviləsi ilə bitəndən sonra, imperator I Nikolay (1825-1855) Senata ünvanladığı 21 mart 1828-ci il tarixli “ali fərmanında” bunları buyururdu: “10 fevral 1828-ci il tarixində İranla bağlanmış müqaviləni rəhbər tutaraq, Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra bütün işlərdə “Ermənistan vilayəti” adlandırmağı hökm edirik” [4, s.11-12].

Ermənilərin Cənubi Qafqaza köçürülməsi dövründə erməni kilsəsinin rolu çox yüksək idi. Uzun müddət dövlətləri olmadığı halda erməni xalqının başında duran və ona yol göstərən erməni kilsəsi olmuşdur. Kilsənin rəhbərliyi rus qoşunlarının gəlib onları müsəlmanların əsarətindən xilas etmələri və onların müstəqilliyini təmin etmələri ilə bağlı bəyanətlər verirdi. Beləliklə, erməni kilsəsi dini fəaliyyətdən çox siyasi işlərlə məşğul idi.

İstanbulla bağlanmış Ədirnə və Tehranla bağlanmış Türkmənçay sülh müqavilələrinə əsasən, Osmanlı və İran ermənilərinin xüsusi olaraq Rusiya hüdudlarına köçürülməsi üçün əlverişli köç imtiyazları nəzərdə tutulmuşdu. İrəvan və Naxçıvan xanlıqlarından savayı, erməniləri Qarabağ xanlığının ərazisinə də yerləşdirirdilər. Ermənilərin Cənubi Qafqaza əlverişli şəkildə köçürülməsi üçün, Rusiya hökuməti köçürülmə üzrə xüsusi komitələr yaratmışdı. Bu komitələr köçürülənləri lazımi vasitələr, o cümlədən nəqliyyat və yolda konvoy ilə təmin edirdi. Ermənilərin köçürülməsi prosesi davamlı və mərhələli şəkildə aparılırdı. Burada Rusiyanın rəsmi simaları – səlahiyyətli nazir, diplomat və şair A.S.Qriboyedov ilə yanaşı, Rusiyada yüksək vəzifələr tutan ermənilər də çox mühüm rol oynayırdılar. Ermənilərin köçürülməsində ən fəal iştirakçılardan biri də polkovnik X. Lazarev idi. O, öz soydaşlarına erməni dilində xüsusi məktubla müraciət etmişdi. Məktubda deyilirdi: “Xristianlar! Sizə bəyan edirəm ki, mərhəmətli Rusiya Monarxı bütün arzu edənlərə onun dövlətində - İrəvanda, Naxçıvanda və Qarabağda etibarlı, sakit və xoşbəxt sığınacağa köçmək imkanı verir. Siz növbəti altı il ərzində bütün növ vergilərdən azad edilirsiniz. Rusiyada siz özünüzə xristianlar arasinda yeni vətən tapacaq və bundan sonra, bu müqəddəs inancın basqılarını görməyəcəksiniz! Siz orada qanunların himayəsi altında yaşayacaq və onların xeyirli təsirini hiss edəcəksiniz. Nəhayət, siz orada öz güzəranınızı yaxşılaşdıracaqsınız” [3, s.107-108].

Ermənilərin köçürülməsində imperiyanın yüksək vəzifəli şəxslərinin iştirak etməsi bir daha sübut edir ki, Rusiya ilk növbədə məhz ermənilərin Qafqaza köçürülməsində maraqlı olmuşdur. Belə ki, bütün bunların arxasında Qafqazda “rus işinin” və “rus yolunun” təmin edilməsi dayanırdı. İran ermənilərinin Qafqaza köçürülməsi prosesi tamamlandıqdan sonra, X.Lazarev

İrəvan qrafı Paskeviçə bu hesabatı təqdim etdi: "Təbriz şəhərinin komendant vəzifəsini yerinə yetirməklə, bildirirəm ki, mən sizin göstərişinizə əsasən, erməni xalqının köçürülməsinə hazırlıq işləri ilə məşğul olmuşam. 1828-ci ildə İran ilə Rusiya üçün son dərəcə əhəmiyyətli sülh razılaşmasının imzalanması, Ali-həzrətin mənə verdiyi və Vətən üçün faydalı olan göstərişlərdən birinin, İran torpaqlarından xristianların Rusiya tərəfindən yenicə əldə edilmiş əyalətlərə, hazırda Monarxın mərhəməti ilə "Ermənistan vilayəti" adlanan Naxçıvana və İrəvana köçürülüməsinin icracısı olmaq şərəfini bəxş etmişdir.

Ermənilər və onların kilsəsi üzərində dörd əsrdən çox davam edən asılılıq və əsarətdən sonra, öz millətinin qüdrətli Rusiyanın və onun mülayim və müdrik qanunlarının müdafiəsi altında birləşdirilməsinə doğru ilk qətiyyətli addım – böyük bir işin başlanğıcıdır! Bu iş məhz Sizə məxsusdur! Bu isə mənə bir rus zabiti kimi, böyük şərəf və bir erməni kimi hədsiz xoşbəxtlik bəxş edir. Köçürülmə üçün Naxçıvan xanlığında dövlət torpaqlarının olmadığı üçün, mən bir çox erməniləri İrəvan və Qarabağ xanlıqlarında yerləşməyə inandırdım" [3, s.112].

Beləliklə, Qafqazın etnik-siyasi xəritəsində "erməni amili" yarandı. Bundan əlavə, Rusiya ilk olaraq erməniləri Şimali Azərbaycan torpaqlarına köçürməyi planlaşdırırdı. Belə ki, əgər Rusiya Qafqazın mənimsənilməsində ermənilərə "mühüm element" kimi maraq göstərməsəydi, şübhəsiz ki, ermənilərə bu dərəcədə iltifat göstərməzdi.

Qafqazda "erməni amilinin" yaranmasını, inkişafını və təsirini qafqazşünaslar birmənalı olaraq həm siyasi, həm etnik, həm konfessional, həm torpaq-coğrafi, həm də iqtisadi sahələrdə son dərəcə mənfi hal kimi qiymətləndirdilər. Bununla bağlı V.L.Veliçko qeyd edirdi ki, Zaqafqaziya erməniləri birmənalı olaraq Türkiyə ermənilərinin gəlişini böyük faciə hesab edirlər. Çünki onlar demək olar ki, istisnasız olaraq hamısı avaralığa, yoluxucu xəstəliklərə və vəhşi cinayət əməllərinə meyllidirlər. Rus tarixçisi N.N.Savrov isə ermənilərin Zaqafqaziyaya köçürülməsinin nəticəsi haqqında belə yazırdı: "Torpaq sahələrinin demək olar ki, hamısı ermənilər tərəfindən havayı alınıb... Zaqafqaziyada iqtisadi hökmranlıq ermənilərin əlindədir və hal-hazırda onlar bu diyarın sahibləri sayılırlar. Bizim Zaqafqaziyada kolonizasiya siyasətimizin nəticələri çox acınacaqlı oldu" [8, s.61].

Artıq XX əsrin əvvəlində erməni amili Rus mütləqiyyətinin diqqətini cəlb etməyə başlamışdı. Belə ki, Rusiya iqtisadiyyatı üçün son dərəcə vacib xammal mənbəyi sayılan və Rusiyanın Cənub istiqamətində inkişaf etməsi üçün mühüm olan regionda "rus işi" və "rus yolu" üçün təhlükə yaranmışdı. Ermənilər Qafqaz həyatının bütün sahələrinə daxil olurdular. Qafqaz uğrunda mübarizədə Rusiyanın rəqibləri olan Osmanlı, Britaniya, Fransa, İran dövlətlərinin provokasiyası nəticəsində ermənilər dəfələrlə Rusiya hökümətinə qarşı çıxışlar etmişdilər. Rus qafqazşünası İ.N.Kanadeyev qeyd edirdi ki, "erməni

separatizmi ermənilərin Qafqazda muxtarlaşmasına və ya hətta burada heç vaxt mövcud olmamış erməni dövlətçiliyinin yaranmasına gətirib çıxarır. Özgə torpaqlarının işğal edilməsi və erməni dövlətçiliyinin yaradılması üçün Qafqaz erməniləri əllərinə silah da götürməyə hazır idilər" [4, s.16-17].

Ermənilər Bakının neft sənayesində çox möhkəm bərqərar oldular. Onların neft sənayesində sayı ruslardan daha çox idi. Bu isə ermənilərin Qafkazın iqtisadi və siyasi həyatında rolunun artmasına gətirib çıxardı. Bundan əlavə, onlar bütün Zaqafqaziyanın ticarətini də ələ keçirdilər. V.L.Veliçko qeyd edirdi ki, Rusiyanın şərq qonşuları ilə hər bir müharibəsi ermənilərin Rusiya hüdudlarında sayının artması, onların son dərəcə zənginləşməsinə səbəb olurdu. Bakının ən varlı neft sənayeçilərinin siyahısına erməni A.Mantaşev və A.Qukasov da daxil idilər.

Zaqafqaziyanın bankları erməni zənginlərinin təsiri altında idi. Qafqazın çap-nəşriyyat işi də onların əllərində idi. Ən əsası isə, erməni kilsəsi və "Daşnaksütyun" partiyasının təsiri altında Cənubi Qafqaza köçürülmüş ermənilər yenidən "Böyük Ermənistan" xülyasını bərpa edirdilər. Bu, Eçmiədzinin "gizli siyası məqsədi" idi.

Tanınmış rus qafqazşünası M.O.Menşikov o vaxtlar yazırdı ki, "ermənilər torpaqları, kapitalları, sənayeləri, ticarəti ələ keçirməklə və yerli administrasiyaya təsir göstərməklə, yavaş-yavaş Zaqafqaziyanın sahiblərinə çevrilirdilər və öz yekun hədəflərinə - erməni dövlətçiliyinin yaradılmasına yaxınlaşırdılar" [5, s.200-201].

Knyaz N.S.Trubetskoy, XX əsrin əvvəllərində erməniləri təsvir edərək belə yazırdı: "İqtisadi baxımdan güclü, eyni zamanda həm parazit, həm də kölə olan xalqın bütün xüsusiyyətlərinə malik olan ermənilər hamının antipatiyasını qazanıblar və bu, antipatiya onların qonşularında nifrət dərəcəsinə qədər yüksəkdir. Onlarla həmrəy olmaq özünə qarşı bu antipatiya və nifrəti oyatmaq deməkdir. İnqilabdan əvvəlki dövrün (*XX əsrin əvvəlləri*) siyasətinin nümunəsi Zaqafqaziyanın bütün digər millətlərinin ruslara qarşı çıxmasına səbəb olub və bu, bizə bir dərs olmalıdır" [7, s.22].

Amma son dərəcə inadlı ermənilər heç nəyə baxmayaraq, öz siyasətlərini yürüdürdülər: onlar gürcü knyazlarından, Azərbaycan ağalarından torpaqları alır, dövlət mülklərini işğal edirdilər. Bu işdə onlara erməni kilsəsi çox köməklik göstərirdi. Erməni dövlətçiliyinin olmadığı dövrdə Qafqazda erməni amilini erməni kilsəsi dəstəkləyir və istiqamətləndirirdi. Kilsə üçün siyasi tapşırığın icrası, dini öhdəliklərdən qat-qat üstün idi. Erməniçilik təkcə Qafqazda deyil, bütövlükdə Rusiya imperiyasında özünə nüfuz qazanmağa başladı. Qafqazın sonuncu canişini, böyük knyaz Nikolay Nikolayeviç Romanov İmperator II Nikolaya yazdığı hesabatda qeyd edirdi ki, "Rusiya erməniləri" siyasi baxımdan ölkə hakimiyyəti üçün çox böyük çətinliklər yaradırlar. Son dərəcə güclü milliyyətçi olan bu adamlar heç vaxt muxtariyyətlə

bağlı siyasi arzularından əl çəkmirlər və onların bu siyasi arzularını Avropa və Amerikada yerləşən erməni komitələri dəstəkləyirlər.

Rusiyada da bu ideya müəyyən şəxslər tərəfindən dəstəklənirdi. 1879-cu ildə Rusiyanın Hələbdəki konsulluğunun katibi Lundekvist yazırdı: "Rusiyanın qonşuluqda müsəlman türk dövləti əvəzinə, xristian erməni dövləti olması daha sərfəlidir. Öz xeyrimiz naminə, biz öz sərhədlərimizdə erməni dövlətinin yaradılmasına köməklik göstərməyə çalışmalıyıq" [9, s.85-86]. Amma rus siyasi elitasının arasında erməni dövlətinin yaradılmasına qarşı çıxanlar da var idi. Onlar bu addımın bütünlükdə Qafqazda narahatlıq yarada biləcəyini və nəticə etibarilə Rusiyanın Qafqazdakı təsiri və hakimiyyətini ləğv etmək məqsədilə, Avropa dövlətlərinin bu regiona müdaxilə edəcəyini hesab edirdilər.

Ermənilərin deyil, məhz Rusiyanın maraqlarını ön plana çəkən rus diplomatı İvanov hesab edirdi ki, erməni dövlətinin yaradılması Osmanlı imperiyasında yaşayan kürdlər, ərəblər və yunanların da analoji tələblərinə gətirib çıxaracaq ki, bu da öz növbəsində xalqlar arasında gərginliyi gücləndirəcək və Qərbin bu regiona müdaxilə etməsinə imkan verəcəkdir.

Rusiya ilə yanaşı İngiltərə də "Şərq məsələsini" öz xeyrinə həll etmək, Türkiyənin şərq sərhədlərində öz nəzarəti altında erməni muxtariyyətini yaratmaq üçün "erməni məsələsindən" istifadə etmək istəyirdi. İngiltərənin bu planı Rusiyanı çox narahat edirdi; belə ki, bu, Rusiyanın Kiçik Asiyaya doğru hərəkət etməsinə mane ola bilərdi.

XIX əsrin 90-cı illərinin ortaları – XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza intensiv şəkildə köçürülməsi regionda demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişməklə yanaşı, digər tərəfdən, Azərbaycanın bu gün məruz qaldığı erməni separatizminin yaranması üçün əlverişli zəmin yaratdı.

Əgər 1896-cı ildə Cənubi Qafqazda təxminən 900 min erməni yaşayırdısa, 1908-ci ildə bu rəqəm 1 milyon 300 minə çatdı. N.N.Şavrovun hesablamalarına görə, "hal-hazırda Zarafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu ərazinin yerli əhalisinin sayına aid deyil və bizim tərəfimizdən (Rusiya hökümətı tərəfindən) yerləşdiriliblər" [8, s.64].

Rusiya uydurma "Böyük Ermənistan" ideyasını əməldə yox, məhz sözdə dəstəkləməkdən imtina etmirdi, amma bunun gerçəkləşməsi üçün heç bir səy göstərmirdi. Rusların xristian əhalisinin köçürülməsi ilə bağlı fəal səyləri imperiyanın maraqlarından irəli gəlirdi. Qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda yaşayan ermənilərin arasında Rusiyanın hakimiyyəti altına keçmək istəməyənlər də var idi. Amma rus hakimiyyəti onlara müxtəlif vədlər verməklə, tərəddüd edənləri cəlb edirdi. On minlərlə kifayət qədər zəngin erməninin köçürülməsi ilə çar Rusiyası bir tərəfdən İran iqtisadiyyatına zərbə vurmaq, onların işçi qüvvəsinin sayını əhəmiyyətlə dərəcədə azaltmaq, digər tərəfdən isə Cənubi Qafqaza köçürülmüş erməniləri yerli əhalinin hesabına torpaqlar ilə təmin etmək, regionda özü üçün sosial-iqtisadi baza yaratmaq idi.

Türkmənçay müqaviləsindən sonra Türkmənçaya yaxın olan müxtəlif kəndlərdən ermənilər Qarabağa üz tutmağa başladılar. Bu, irimiqyaslı köçün sadəcə başlanğıcı idi. Bütövlükdə Cənubi Azərbaycandan 40 min erməni köçürüldü ki, bu da İrana təxminən 32 milyon rubl ziyan vurdu. "1829-cu ildə Türkiyə ilə müqavilə imzalandıqdan sonra 100 min erməni Cənubi Qafqaza köçdü," deyə, V.L.Veliçko qeyd edirdi.

Nəticədə, 1828-ci ildə əgər Ermənistan vilayətində Azərbaycan türklərinin ümumi sayı 73,8% təşkil edirdisə, 1834-1835-ci illərdə bu rəqəm 46,2%-ə qədər azaldı. N.N.Şavrov qeyd edirdi ki, rəsmi olaraq köçürülmüş 124 min ermənidən savayı, on minlərlə erməni qeyri-rəsmi şəkildə köçürüldü ki, bu da ümumi rəqəmin 200 min nəfərdən çox olması deməkdir.

Ermənilərin böyük kütləsinin Cənubi Qafqaza köçürülməsi, onların şüurunda "Böyük Ermənistan" və ya "Dənizdən-dənizədək Ermənistan" mifologiyasının dirçəlməsinə səbəb oldu. Ermənilərin həmişə ən ağrılı yerlərindən biri orta əsrlərdən başlayaraq 1918-ci ilə qədər (təxminən 500 il) onların öz müstəqil dövlətlərinin olmaması faktı ilə bağlıdır. Onlar bu arzunun gerçəkləşməsini Rusiya ilə əlaqələndirdilər. Ermənilərin ruspərəstliyi həm də son dərəcə güclü müsəlman qonşularının qarşısında tək qalmaq qorxusunun nəticəsi kimi yarandı.

Ermənilərin tarixi Azərbaycan torpaqları, İrəvan və Naxçıvan xanlıqlarına köçürülməsi nəticəsində 21 mart 1828-ci il Rusiya tərəfindən "Ermənistan vilayəti" yaradıldı. Ermənilər bu vilayətin yalnız 5,5% kəndlərində yaşayırdılar. Tezliklə bu torpaqlara Qarabağ da qatıldı. Yerli əhalinin öz doğma yurd-yuvalarından məcburi şəkildə köçürülməsi başlandı ki, bu da erməni və azərbaycanlı əhalisi arasında ilk əvvəl etnik toqquşmalara, daha sonra isə silahlı qarşıdurmalara gətirib çıxardı. 1849-cu ildə bu ərazi İrəvan quberniyası adlandırıldı.

XX əsrin əvvəllərindən başlayaraq ermənilər Qafqazda və ona qonşu olan ərazilərdə "Böyük Ermənistan" yaratmağa çalışırdı. 1918-1920-ci illərdə həmin ərazidə Ararat Respublikası yaradıldı. Bu respublikaya "Daşnaksütyun" partiyası rəhbərlik edirdi. Qarabağ, Naxçıvan, habelə Zəngəzura görə xaricdən dəstəklənən Ermənistan-Azərbaycan qarşıdurması başladı. Eyni zamanda Gürcüstan ilə Cavaxeti və Borçalı, Türkiyə ilə isə "Türkiyə Ermənistanı" uğrunda münaqişələr baş verdi. Ararat Respublikasından azərbaycanlıların ilk kütləvi deportasiyası təşkil olundu. Bu da ermənilərin Azərbaycan Demokratik Respublikasına (ADR) qarşı geniş fəaliyyətin və qlobal antiazərbaycan təbliğatının həyata keçirilməsi idi.

Erməni rəhbərliyinin müharibəyə son qoyacağına ümid edərək 29 may 1918-ci ildə, Azərbaycan Milli Şurası Ermənistana "şah hədiyyəsi" etdi - İrəvan bəxşiş olundu. Belə ki, erməni tərəfi ADR-in onlara qarşı bu humanitar addımını qiymətləndirmədi.

7 iyul 1923-cü ildə ermənilər və azərbaycanlılar arasında "milli razılığın və sülhün" qorunub saxlanılması naminə faktiki olaraq, Azərbaycan torpağında ikinci erməni dövləti – Dağlıq Qarabağ Muxtar Respublikası (DQMR) yaradıldı. Bu isə, tarixin göstərdiyi kimi, təhlükəli bir addım idi. Belə ki, ermənilərin kələyi bununla bitmədi. Sovet dövründə ermənilər DQMR-ın Ermənistan SSR-in tərkibinə keçməsi ilə bağlı dəfələrlə təkliflər irəli sürdülər. Lakin 10 dekabr 1945-ci ildə Mircəfər Bağırov bununla bağlı Moskvaya cavabında belə qeyd etdi: "Dağlıq Qarabağın erməniləşdirilməsi, Rusiya imperiyasının XIX əsrin ilk iyirmi beş illiyində Azərbaycanı işğal etməsindən sonra başlandı. Hazırkı DQMR, paytaxtı Şuşada olan Qarabağ xanlığının bir hissəsi sayılır. Bakı DQMR-in Ermənistanın tərkibinə daxil edilməsinə etiraz etmir; amma, bununla yanaşı, Ermənistanda əhalisi əsasən azərbaycanlılardan ibarət olan Əzizbəyov, Vedinski, Qarabağlar rayonları da Azərbaycanın tərkibinə daxil edilməlidir" [2 ,s.374]. 1948-ci ildə, Moskva, bu imtinaya görə cəza qismində Ermənistandan azərbaycanlıların deportasiyasına başladı.

İngilis eksperti Tomas de Vaal yazırdı: "....münaqişə qaçılmaz idi... sadəcə öz vaxtını-vədəsini gözləyirdi. Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə, qeyri-stabil siyasi mexanizm quruldu ki, bu da mərkəzləşdirilmiş sovet hakimiyyəti sisteminin zəifləməsi ilə problemlərə səbəb olmaya bilməzdi" [6, s.7-8].

1988-ci ildə Azərbaycan və Ermənistan arasında başlanan müharibə Ermənistanın himayəsi altında qondarma Dağlıq Qarabağ Muxtar Respublikası kimi elan edilməklə və Azərbaycanın yeddi inzibati rayonunun işğalı ilə 1994-cü ildə dayandırıldı. Eyni zamanda Ermənistan Respublikası büsbütün azərbaycanlılardan "təmizləndi". Azərbaycanlıların öz doğma yurd-yuvalarından, Ermənistan və Dağlıq Qarabağ, qərb və cənub sərhəd rayonlarından qovulması faciəli miqyaslara çatdı və 1 milyondan artıq insanın didərgin düşməsinə səbəb oldu. Bütün bunlar Qafqazda öz məqsədlərini həyata keçirməyə çalışan iri dövlətlərin gözləri qarşısında baş verdi. Qarabağ problemi Rusiya, Türkiyə, İran, ABŞ və s. kimi bir çox dövlətlərin Qafqazla bağlı, həmçinin qlobal maraqlarına toxundu. Lakin Qarabağ münaqişəsinin təkcə həlli deyil, onun tamamilə ləğv edilməsi əsas etibarilə Rusiyadan asılıdır. Mövcud vəziyyətləri nəzərə alsaq, münaqişənin uzadılması əsas fiqurantlara "sərf edir". Buna görə də bu münaqişə Qafqazın barıt çəlləyində "tüstüləyən fitil" kimi hələ çox davam edəcək.

## ƏDƏBİYYAT


1. Величко В.Л. "Кавказ. Русское дело и междуплеменные вопросы" Баку: Элм 1990 г.
2. Гасанлы Дж. "СССР-Турция: полигон холодной войны", Баку: 2005 г.
3. Глинка С.Н. "Описание переселения армян аддербиджанских в пределы России", Баку: Элм, 1990 г.
4. Марджанлы М. "Армянскво Россия Кавказ", М.: Изд. "Флинта", 2010.
5. Меньшиков М.О. "Национальная империя", М.: Имперская традиция, 2004.
6. Томас де Ваал "Черный сад. Армения и Азербайджан между миром и войной", М.: 2005.
7. Трубецкой Н.С. "О народах Кавказа" // IRS- наследие (Москва), 2003, № 7.
8. Шавров Н.Н. "Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани инородцам" Баку: Элм, 1990 г.
9. Шахмурадов А. "Армяне на Южном Кавказе" (из истории заселения) Баку: 2015.

**UOT 339.94**

# AZƏRBAYCAN İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ KİMİ

***Şəhla Rafiq qızı Məmmədli***
***AMEA A.A.Bakıxanov adına Tarix Institutu***
***shahla.mamedli@mail.ru***

**Açar sözlər:** *İslam Əməkdaşlıq Təşkilatı, beynəlxalq təşkilatlar, İƏT sammitləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, müsəlman dövlətlər*

*Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının mühüm beynəlxalq təşkilat İƏT ilə müəyyən əlaqələri yarandı. Məqalədə İslam Əməkdaşlıq təşkilatının rolu və yeri öyrənilir, təşkilat fəaliyyətinin əsas istiqamətləri, qəbul olunan qərarlar araşdırılır, eyni zamanda islam ölkələrinin problemlərinin həllində Azərbaycanın iştirakı müəyyən edilir.*

# АЗЕРБАЙДЖАН-ЧЛЕН ОРГАНИЗАЦИИ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА

***Шахла Маммедли***

**Ключевые слова:** *Организация Исламского Сотрудничества, международные организации, саммиты ОИС, армяно-азербайджанский конфликт, мусульманские государства.*

*В период государственного суверенитета современного Азербайджана наметились определенные связи Азербайджанской Республики с организаций ОИС. В статье автор изучает место и роль Организации Исламского Сотрудничества (ОИС), анализирует основные направления деятельности и принятые решения стран-участниц ОИС, также определяет роль Азербайджана в поиске проблем исламских стран.*

# AZERBAIJAN IS A MEMBER OF THE ORGANIZATION OF ISLAMIC COOPERATION

***Shahla Mammadli***

**Keywords:** *Islamic Cooperation Organization, international organizations, ICO summits, Armenian-Azerbaijani conflict, Muslim states*

*During the period of state sovereignty of modern Azerbaijan, certain relations of the Azerbaijan Republic with OIC organizations were outlined. In the article, the author studies the place and role of the Organization of Islamic Cooperation (OIC), analyzes the main activities and decisions taken by the OIC member countries, and also defines the role of Azerbaijan in the search for problems of Islamic countries.*

Ölkəmizin islam dünyası ilə qarşılıqlı münasibətlərində mühüm halqa olan İslam Konfransı Təşkilatı (İKT) müsəlman dövlətlərinin nisbətən iri və nüfuzlu beynəlxalq təşkilatı olaraq 1969-cu ildə Səudiyyə Ərəbistanının təşəbbüsü ilə yaradılmışdır [2, s.56 ]. Bu Təşkilatla ilk əlaqələr hələ sovet hakimiyyəti dövründə Qafqaz müsəlmanları ruhani idarəsinin sədri Şeyx-ül-islam A.Paşazadənin fəal iştirakı ilə qurulmuşdur. BMT-nin 42-ci sessiyasında (1987-1988) İslam Konfransı Təşkilatı ilə birgə hərəkət haqqında qətnamənin səsverməyə qoyulmadan qəbul edilməsi İKT - nın mühüm beynəlxalq statusunun təsdiqi demək idi [9]. 1991-ci ildə Sovetlər birliyinin dağılmasından sonra yaranan Azərbaycan Respublikası İKT üzvü statusu əldə etmiş oldu. Azərbaycan Respublikası İKT-yə dövlət başçıları və təşkilat rəhbərlərinin 1991-ci ildə Dakarda keçirilən Sammitində qəbul olunmuşdur. Qeyd edək ki, bu təşkilat Azərbaycanın üzv olduğu birinci beynəlxalq təşkilat kimi yadda qaldı. İKT nümayəndələri 1991-ci ildə Azərbaycanda olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini araşdıraraq, problemlə bağlı BMT, Ermənistan, Türkiyə və Rusiya nümayəndələri ilə müzakirələr aparmışlar. 1993-cü ildə İKT-nin xarici işlər nazirlərinin Karaçidə (Pakistan) keçirilən XXI toplantısında Ermənistana qarşı qətnamə qəbul olundu. 1994-cü ildən başlayaraq Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT-nin Baş katibliyi yanında Daimi nümayəndə səlahiyyətləri verildi. Beləliklə, Ər-Riyad vasitəçiliyi ilə Ciddə şəhərində yerləşən (Səudiyyə Ərəbistanı) İKT-ın Baş katiblik iqamətgahı, təşkilatın müxtəlif strukturları, o cümlədən İslam İnkişaf bankı arasında məhsuldar iş dövrü başladı.

1994-cü ilin dekabr ayında Mərakeşdə İKT-nın VII sammiti baş tutdu. Bu məqsədlə Kasablanka şəhərində olan H.Əliyev sammitdə çıxış edərək işğal

olunmuş ərazilərimizdə erməni silahlı qüvvələrinin maddi-mədəniyyət abidələrimizi məhv etmələrini iştirakçıların diqqətinə çatdırdı. Sözügüdən sammitdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan Respublikasına iqtisadi yardım barədə qətnamə qəbul olundu. "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlı qətnamə qəbul olunduqdan sonra İKT–nıi 1996-cı ilin dekabr ayında xarici işlər nazirləri səviyyəsində Cakartada (İndoneziya) və 1997-ci ilin dekabrında ölkə başçılarının Tehranda keçirilən VIII sammitində bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. 1997-ci il dekabrın 8-də Tehran səfəri çərçivəsində H.Əliyev İKT–nin Baş katibi İzzəddin Laraki ilə görüşdü. Görüş zamanı Laraki ərazi işğalının dözülməz hal olduğunu söyləyərək, "İKT şübhəsiz, sizin tərəfinizdədir" fikrini dilə gətirdi. Sammitdə çıxışı zamanı 1993-1996-cı illər ərzində Rusiyanın Ermənistana bir milyon məbləğində qanunsuz silah və hərbi texnika göndərməsini vurğulayan ölkə rəhbəri, diqqəti Rusiya ilə Ermənistan arasında 29 avqustda imzalanan hərbi əməkdaşlıq müqaviləsinə yönəltdi.

İKT–nın üzvlüyünə daxilolma və bu təşkilatla əlaqələrin möhkəmləndirilməsi ölkəmizin xarici siyasətində islam xəttinin gücləndirilməsi ehtiyacından irəli gəlirdi. Münasibətlərin rəsmiləşdirilməsinə qədər artıq bəzi müsəlman dövlətləri, həmçinin islam maliyyə və xeyriyyə təşkilatları ilə əlaqələr yaradılaraq, inkişaf mərhələsinə qədəm qoymuşdu. Azərbaycanın bu istiqamətdə əlaqələrinin genişləndirilməsinə ehtiyacı vardı və İKT üzvlüyü məqsəd və planların həyata keçirilməsi üçün əlavə imkanlar yaradırdı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müsəlman birliyində ictimai rəyin ölkəmizə münasibətdə müsbət müəyyən edilməsi zərurəti də vacib məsələ olaraq qalırdı. Belə ki, Ermənistan, Yaxın Şərq ölkələrində mövcud diasporun yardımına və müxtəlif imkanlara əl ataraq, islam ölkələri ilə münasibətlərini nizama salmağa səy göstərirdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində İKT münasibətinin dəyişdirilməsinə Ermənistan tərəfindən edilən çoxsaylı cəhdlər bizim tərəfdən də ciddi addımlar atılması tələblərini önə çıxarırdı. İKT 1976-cı ildən BMT-də müşahidəçi statusuna malikdir. Təşkilat ATƏT, Avropa İttifaqı və digər Avropa strukturları ilə münasibətlərini nizama salmağa müvəffəq olaraq, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, Qoşulmamaq hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, həmçinin digər beynəlxalq və regional təşkilatlarla sıx əməkdaşlıq mərhələsinə qədəm qoydu [8, s.18].

Son illər bütün dünyada İKT-nin fəaliyyətinin izlənilməsinə maraq artıb. Rusiyanın sözügedən təşkilatda müşahidəçi statusunu almağa can atması, ABŞ rəhbərliyinin İKT-da xüsusi nümayəndə təyinetmə qərarı da məhz bununla bağlıdır. Təşkilatın daxilində onun fəaliyyətinin təkmilləşdirilməsi (maliyyə təminatının yaxşılaşdırılması, struktur dəyişikliklərinin keçirilməsi, iş üsullarının təkmilləşdirilməsi, rəhbər işçilərin seçilməsi istiqamətində demokratikləşmə), üzv-ölkələr arasında münasibətlərin zənginləşdirilməsi, müsəlman

ictimaiyyətin mövqelərinin möhkəmləndirilməsi sahəsində bir çox işlər həyata keçirilir. 2005-ci ildə Məkkədə baş tutan növbədənkənar sammitdə yeni vəzifələrin həyata keçirilməsi məqsədi ilə İKT-nin onillik planı qəbul olundu, Dakar (Seneqal, 2008) toplantısı isə təşkilatın yeni Nizamnaməsini təsdiq etdi. İKT –də təşkilatın fəaliyyətinin təmin edilməsinə yönəldilmiş xüsusi qurumlar şəbəkəsi mövcuddur: islam həmrəylik fondu, islam təhsil-elm və mədəniyyət fondu, elmi-mədəni tədqiqatlar mərkəzi, islam tarixi, mədəniyyət və incəsənəti mərkəzi, islam fikha (islam hüququ) akademiyası, iqtisadi tədqiqatlar mərkəzi, ticarətin inkişafı islam mərkəzi, Beynəlxalq İslam İnformasiya agentliyi, radio yayımı islam təşkilatı və s. [3, s.173]. Bunlardan başqa İKT–nin bilavasitə əlaqəli olduğu bir çox qeyri-hökümət təşkilatları da mövcuddur. Onların siyahısına BMT–də məsləhətçi statusuna malik olan Ümumdünya İslam Konqresini (ÜİK), BMT-nin iqtisadi və sosial şurasında birinci dərəcəli müşahidəçi statusunu əldə etmiş, həmçinin YUNESCO və YUNİSEF tərkibinə daxil olan Ümumdünya İslam Birliyini, Islam Gəncləri Ümumdünya Təşkilatını da aid etmək olar [7, s.2-4;5 ]. Bu strukturlar islam dünyasında ictimai fikrin formalaşmasına mühüm təsir göstərərək, qərb ölkələrinin ictimai dairələrinə çıxış imkanına da malik idi.

İKT ilə əməkdaşlığın Azərbaycan üçün əhəmiyyəti ilk növbədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin bu təşkilat tərəfindən müdafiə olunmasıdır ki, həmin münaqişənin nizama salınması Azərbaycan Respublikasının xarici siyasətində əsas məsələlərdən biridir. Bununla əlaqədar qeyd etmək yerinə düşər ki, Azərbaycan diplomatiyası İKT çərçivəsində bu münaqişəyə münasibətdə yetərli qədər vahid yanaşmanın qəbul edilməsinə nail ola bilmişdir. Xarici işlər nazirlərinin sammit və konfranslarında, həmçinin təşkilatın digər forumlarında bununla əlaqədar üç fundamental qətnamə qəbul edilmişdir: “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü”, “Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində tarixi və mədəni abidələrin məhv edilməsi” və Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi”. İKT Ermənistanı təcavüzkar hesab edərək, işğal olunmuş Azərbaycan torpaqlarının dərhal və şərtsiz azad edilməsini, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsini tələb edir [1, s.302 ]. İKT Baş Katibliyi mütəmadi olaraq ölkəmizin hüquqlarını müdafiə edən və ermənilərin işğal olunmuş ərazilərimizdə qanunsuz fəaliyyətini ifşa edən siyasi bəyanatlarla çıxış edir. Zəruri olan hallarda İKT-nin Baş Katbliyi təşkilat üzvlərinə müraciət edir və BMT–dəki nümayəndəsinə tapşırıq verərək, Ali Assambleyanın sessiyalarında, həmçinin beynəlxalq birliyin digər forumlarında Azərbaycanın təşəbbüslərinin müdafiə olunması istiqamətində işlər aparılması tədbirlərini həyata keçirir. Bu cür təşəbbüslərin effektivliyi BMT-nin Baş Assambleyasında “İşğal olunmuş

Azərbaycan ərazilərində vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı bir daha təsdiqləndi.

Məlum olduğu kimi, ölkəmizin təşəbbüsünü müdafiə edən ölkələrin çoxu İKT–nın üzvləridir. İslam informasiya agentliyi Dağlıq Qarabağ məsələsi üzrə informasiya-təbliğat materiallarının yayılması yönümündə daim iş aparır. Ölkəmizin İKT ilə əməkdaşlığının tərkib hissəsinə islam dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana maliyyə və humanitar yardımın göstərilməsi də daxildir. Uzun illər ölkəmiz İslam İnkişaf Bankı, Ərəb İnkişaf Fondları və islam ölkələrinin digər maliyyə strukturları ilə fəal əlaqələrə malikdir və onlar bizim sosial-iqtisadi inkişaf layihələrimizdə iştirak edirlər. İslam xeyriyyə təşkilatlarının məcburi köçkünlərə humanitar yardımını da xüsusi olaraq qeyd etmək lazımdır. Yardımın siyasi və hüquqi əsasını İKT-nin "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi" barədə qətnaməsi təşkil edir.

İKT-ni aztəsirli, sırf dini təşkilat hesab edənlərin yanlış qənaətinə diqqəti cəlb etmək istərdik. Təəssüf ki, bu, doğru olmayan rəy mətbuatımızın bəzi nəşrlərində arabir əks olunur [6, s.17]. Bununla əlaqədar olaraq bir daha izah etmək istərdik ki, İKT hökumətlərarası təşkilat hesab olunur. Bu səbəbdən də onun fəaliyyəti rəsmi yanaşmalarla nizamlanır ki, burada da dövlət praqmatizmi konfessional düşüncələr üzərində üstünlüyə malikdir. Prinsipial olaraq qeyd etmək lazımdır ki, bu beynəlxalq təşkilatın islama bağlılığı olsa da, müsəlman dünyasının praqmatik tərəfi onun dünyəvi xüsusiyyətini önə çıxara bilmişdir (İKT-yə daxil olan ölkələrin üçdə bir hissəsinin dünyəvi olduğunu qeyd etmək yetərlidir). Belə ki, təşkilatın fəaliyyəti qarşı dünyaya münasibətdə dar dini-siyasi cəbhədə deyil, inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiə olunması istiqamətində davam edir. Bu gün islam həmrəyliyi müsbət enerji daşıyıcısıdır. Təşkilat dünya ictimaiyyətinin qeyri-müsəlman hissəsinə qarşı istiqamət almır və dini konfessional əsaslarla həmrəyliyi nəzərdə tutur, qlobal səviyyədə xeyirxah nəticələrə nail olmaq məqsədlərinə xidmət edir [10, s.23].

Son illər ərzində Azərbaycan İKT ilə əlaqələrini, əməkdaşlıq çərçivəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Ölkə rəhbəri İKT-nin 2005-ci ildə Məkkədə keçirilən növbədənkənar sammitində iştirak etmiş, ali katib İ.Ehsanoğlu ilə dəfələrlə görüşmüşdür. Ölkəmiz İKT-nin işinin yenidən qurulması istiqamətində bütün təşəbbüslərini dəstəkləyərək, təşkilatın fəaliyyətinin aktivləşdirilməsi ilə bağlı bir sıra təkliflərlə çıxış etmişdir. 2006-cı ilin 19-21 iyununda Bakıda İKT üzvü olan ölkələrin xarici işlər nazirlərinin 33-cü konfransını da qeyd etmək yerinə düşərdi. Həmin sessiyada ölkə Prezidenti çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün Ermənistan istisna olmaqla bütün dünya ölkələri tərəfindən tanındığını, bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatında dörd Qətnamə qəbul olunduğunu qeyd etmişdir. Həmçinin, bu Qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal altında olan

ərazilərini qeyd-şərtsiz tərk etmələri tələb olunsa da, həmin şərtlərə riayət edilmədiyi sessiya iştirakçılarının diqqətinə çatdırılmışdır. Sessiyada Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzkar mövqeyi tənqid olunaraq, qətnamə qəbul edilmişdir. Son illər Azərbaycanda islam ölkələrinin mədəniyyət və turizm nazirlərinin konfransları keçirilmişdir. 2009-cu ildə Bakı İslam mədəniyyətinin mərkəzi elan edilmişdir. Bu tədbir çərçivəsində ölkəmizdə Mərakeş, İordaniya və Misir mədəniyyəti günləri və həftəsi təşkil olunmuş, islam mədəniyyəti, incəsənəti və digər mövzularda elmi simpoziumlar keçirilmişdir [1, s.129].

2009-cu ilin dövlət səviyyəli tədbirləri içərisində İKT üzvü ölkələrinin Bakıda keçirilən VI konfransı oldu. Tədbirdə 45 ölkənin 200-dən çox nümayəndəsi iştirak edirdi. Təşkilatın (İSESCO) baş direktoru Əbdül Əziz bin Osman əl Tüveyci öz çıxışında müxtəlif mədəniyyətlərin qovşağında yerləşən Azərbaycanın sivilizasiyalar arasındakı dialoqa müsbət təsirini qeyd etdi. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Ə.Qarayev Avropa, eləcə də, islam ölkələrinin qabaqcıl təcrübəsindən istifadə edərək, ölkəmizdə mədəniyyət sahəsində aparılan müxtəlif islahat və proqramlardan bəhs etdi. Konfransda Naxçıvan şəhərinin 2018-ci il islam mədəniyyətinin paytaxtı seçilməsi təsdiq edilmişdi. Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda abidələrimizin dağıdılması faktı İSESCO-nun qətnaməsində əksini tapır. Konfransda Dağlıq Qarabağda dağıdılmış abidələrlə bağlı İSESCO–nun xüsusi istintaq komitəsinin yaradılması, 2011-ci ildə Klemsan (Əlcəzairdə) şəhərində islam ölkələri mədəniyyət nazirlərinin 7-ci konfransının çağrılması qərarı mühüm əhəmiyyət kəsb edir.

İKT üzvü olan ölkələrin xarici işlər nazirlərinin Astanada keçirilən 38-ci sessiyasında (iyun, 2011) "müsəlman dünyası inkişafın yeni erası astanasındadır" yekdil rəyi irəli sürülür. Şimali Afrika və Yaxın Şərqdə baş verən dramatik hadisələrin, fundamental sosial-iqtisadi islahatların, həmçinin modernləşmənin zəruriliyinin təzahür etdirməsi diqqət mərkəzində saxlanılır. Siyasi komitə çərçivəsində Fələstin, ərəb-İsrail münaqişəsi, eləcə də müsəlman dünyasının müxtəlif regionlarında baş verən siyasi problemlər müzakirə olunur. Sessiyada Azərbaycan tərəfin nümayəndəsi E.İsgəndərov iştirakçıların diqqətini bir daha "Xocalı həqiqəti" beynəlxalq kompaniyasına yönəldir. O, çıxışında qeyd edir ki, kompaniya Xocalıda baş verənlərin bütün dünya dövlətləri tərəfindən insanlığa qarşı cinayət olması qəbul edilənədək davam edəcək. Bu toplantının mühüm nəticələrindən biri insan hüquqları üzrə müstəqil Daimi Komissiyanın yaradılması oldu. Qazaxıstanın sədrlik etdiyi və 57 üzv–ölkənin iştirakı ilə baş tutan Astana zirvə toplantısında bütün üzv ölkələrin razılığı əsasında Təşkilatın adının dəyişdirilib İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adlandırılması qərara alınır [12, s.34-39].

Azərbaycanın İƏT çərçivəsində fəaliyyəti növbəti illərdə də davam etmişdir. Belə ki, 2013-cü ilin aprel ayında Bakıda əmək nazirlərinin konfransında üzv-ölkələr arasında gələcək prioritetləri müəyyənləşdirən əmək, miqrasiya, işçi qüvvəsi və təcrübə mübadiləsi, eləcə də sosial müdafiə "Çərçivə sənədi"nin hazırlanması İƏT ölkələri münasibətlərinin daha da yaxınlaşması istiqamətində mühüm addım idi. Həmin konfransın nəticəsi olaraq Azərbaycan tərəfin təşəbbüsü ilə İƏT-in Əmək mərkəzi (OIC Labour Center) yaradılır. 2014-cü ilin oktyabr ayında Bakıda "İslam Əməkdaşlıq Təşkilatı üzv ölkələrinin inkişafında qadınların rolu" adlı V beynəlxalq konfransının işə başlaması bir daha dünya ictimaiyyətinin diqqətini ölkəmizə yönəltmiş oldu. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti İƏK-in 2015-cı ilin mayında Küveytdə keçirilən 42-ci və 2016-ci ilin oktyabrında Daşkənddə baş tutan 43-cü sessiyalarında da diqqət mərkəzində saxlanılmışdı. Bu sessiyalarda Ermənistandan BMT–nin Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrinə qeyd-şərtsiz və tam əməl etmək tələb olunmuşdu [13].

2018-ci ilin may ayında Banqladeşin paytaxtı Dakkada İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin 45-ci sessiyasında Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğal olunmuş ərazilərdə maddi-mədəniyyət abidələrinin məhv edilməsinin dayandırılması istiqamətində bir neçə mühüm qətnamə qəbul olunmuşdur. Dakka deklarasiyasının 18-ci maddəsində İƏT ölkələrində mövcud münaqişə və böhranların beynəlxalq hüquq normaları əsasında, BMT və İƏT nizamnamələrinə uyğun şəkildə həll edilməsinin vacibliyi əksini tapmışdır. Əsas qərarları üç ildən bir zirvə toplantılarında verilən İƏT bu illər ərzində 1,5 milyard əhalinin daxil olduğu 57 ölkəni əhatə edir. Bundan əlavə təşkilata 11 dövlət və siyasi hərəkat müşahidəçi qismində daxildir. İƏT-in beynəlxalq terrorizmə qarşı mübarizə, insan hüquqlarına riayət, demokratik dəyişikliklər keçirilməsi və s. bu kimi ictimaiyyəti narahat edən qlobal problemlərin həllində fəal iştirakı təşkilatın məqsəd və vəzifələrinin əhəmiyyətli dərəcədə dəyişilməsinə səbəb oldu.

Bir çox tədqiqatçı təsdiq edir ki, islam dünyası qloballaşmaya və insan cəmiyyəti qarşısında duran qlobal problemlərin həllinə dəyərsiz töhfə vermək iqtidarındadır [8, s.98] İslam Əməkdaşlıq Təşkilatı BMT-dən sonra dünyada ikinci mühüm beynəlxalq təşkilat rolunu sübut etməkdə davam edir və getdikcə daha çox problemin həllində sözünü deyir [11, s.32]. Təşkilat çərçivəsində görülən tədbirlər və həyata keçirilən proqramlar yoxsulluğun azaldılmasına, məşğulluğun dəstəklənməsinə təsir edəcək, müsəman həmrəyliyini aşılayacaqdır.

# ƏDƏBİYYAT

1. Араслы Э. Полвека на ближнем востоке. Б.: “Элм”, 2012. 631 с.
2. Аминуддин М. Организация Исламская Конференция: Международно- правовой аспект. Диссерт. СПБ, 1998, 168 с.
3. Ближний Восток и международное право. М., 1991, 245 с.
4. Гусев М. Организация Исламская конференция на перепутье.электронная версия книги http://www.iimes.ru/rus/stat/2007/06–03–07.htm
5. Моральное и политическое видение ислама. ЮНЕСКО. Париж, 7-ое декабря 1982 г
6. Масалиев А.М. Критика идеализации отношения ислама к науке и культуре в современном мусульманском модернизме. Ташкент.1993.159 с.
7. Наджип Э.Э. Международные мусульманские организации. Автореферат, М., 1983.
8. Попов В. Исламский фактор в мировой политике. Азия и Африка сегодня, № 1, 2004,124 с.
9. Резолюция 42-й сессии Генеральной ассамблеи ООН//Международная жизнь, № 3,1988.
10. Сидорова Е.В. Организация Исламская конференция: потенциал развития и технологии политической деятельности в процессах институционализации нового мирового порядка. Диссертация на соискание ученой степени кандидата политических наук. Нижний Новгород,. 2009, 174 с.
11. Хасанов Р. Организация Исламская конференция и мусульманские государства СНГ Центральная Азия и Кавказ,№ 11, стр. 1997, с. 32
12. Шерьязданова К.Г. От организации исламской конференции к организации исламского сотрудничества, Credo New » №2, 2013, 34-39
13. https://anhor.uz/news/43-sessiya-smid-ois-so-stoitsya-v-tashkente-v-oktyabre

**UOT 2**

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINDA ANQLİKANİZM, METODİZM VƏ PRESVETERYANLIĞIN YARANMA TARİXİ VƏ TƏMƏL PRİNSİPLƏRİ

***Ülviyyə Yadulla qızı Hüseynova***
***Azərbaycan Dillər Universiteti***
***u.huseynova@adu.edu.az***

**Açar sözlər:** *anqlikanizm, baş yepiskop, kalvinizm, presveteryanlıq*

# ИСТОРИЯ И ОСНОВОПОЛОГАЮЩИЕ ПРИНЦИПЫ АНКЛИКАНИЗМА, МЕТОДИЗМА И ПРЕСВИТАРИАНСТВА В СОЕДИНЕННОМ КОРОЛЕВСТВЕ ВЕЛИКОБРИТАНИИ И СЕВЕРНОЙ ИРЛАНДИИ

***Ульвия Гусейнова***

**Ключевые слова:** *англиканство, архиепископ, кальвинизм, пресвитерианство*

*Статья посвящена распространению и формированию англиканства, пресвитерианства и методизма. Исследована борьба между Английской и Римско-Католической Церковью, а также сходства и различия в структуре управления и религиозной доктрине. В статье также упоминаются отношения церкви и короны в Англии. Кроме того, в статье сообщается о таких религиозных конфессиях как пресвитерианство и методизм, а также про их историю, религиозную доктрину, священные книги и структуру церкви. Также были показаны различия и особенности церкви. Исследование сравнения религиозных идеологий является основной целью в статье, как и их истории.*

# THE HISTORY AND BASIC PRINCIPLES OF ANQLICANISM, METHODISM AND PRESBYTERIANISM IN THE UNITED KINGDOM OF GREAT BRITAIN AND NORTHERN IRELAND

***Ulviyya Huseynova***

**Key words:** *anglicanism, archibishop, calvinism, Presbyterianism*

*The article is dedicated to the spreading and formation of anglicanism, presbyterianism and methodism. The struggle between English Church and Roman Catholic Church, as well as similarities and differences in management structure and religious doctrine have been researched. English Church-Crown relations are also mentioned in the article. Besides, about other religious ideologies like presbyterianism and methodism and their history, religious doctrine, saint books, church structure are informed in the article. The differences and special characteristics of churches have been shown too. The research of comparision among religious ideologies is the main target in the article like their histories.*

İngiltərədə meydana gələn anqlikanizm və ya Anqlikan kilsəsi islahatların keçirilməsi uğrunda uzun müddətli mübarizə nəticəsində yaranmış və İngiltərənin rəsmi kilsəsi statusu almışdır. Kanterberi (Canterbery) baş yepiskopluğunun rəhbərlik etdiyi çoxlu sayda kilsələri olan anqlikanizm özündə həm katolisizmin, həm də protestantlığın xüsusiyyətlərini daşıyır.

Anqlikanizmdən əvvəl katolisizmə ibadət edən İngiltərə hələ Lüterdən yüz əlli il əvvəl Con Viklif (John Wycliffe) sayəsində islahatlarla tanış olmuşdu. Viklif "Müqəddəs kitaba yenidən qayıdış" yönümündəki fikirləri ilə kilsəni zənginliyinə, papanı isə mütləq hakimiyyətinə görə tənqid etmiş və İncili ilk dəfə ingilis dilinə tərcümə etmişdir [8, s.17-19]. Kral III Edvardın köməyi ilə kilsə təqiblərindən sağ qalmağa çalışan Viklifin ölümündən sonra islahatçı ideyalar lollardlar tərəfindən davam etdirilərək, XVI əsr islahatına yol açmışdır [3, s.7-9]. XVI əsrdə İngiltərədə islahatın əsas 3 səbəbi — lüteran-çılığın ölkədə yayılması, əhalinin katolik kilsəsi ruhanilərinin fəaliyyətindən narazı olması və kralın həyat yoldaşı Katerinadan boşanıb Anne Boleyn ilə evlənmək istəməsi, papanın isə buna icazə verməməsi var idi. Anne Boleynlə evlənə bilmək üçün kral papanın hakimiyyətini saymadan 1532-ci ildə islahatçı Tomas Kromveli (Thomas Cromwel) siyasi idarəçilikdə özündən sonra ən səlahiyyətli şəxs etməklə yanaşı, islahatçı Tomas Krenmeri (Thomas Cranmer) hələ ki, katolik kilsəsinə tabe olan ən üst dini qurumun — Kanterberi yepiskop-luğunun başına gətirdi [3, s.27-31]. Hər iki islahatçı dini və siyasi vəziyyəti kralın xeyrinə dəyişməyə can atırdı.

VIII Henri (VIII Henry) 1534-cü ildə Anqlikan kilsəsini (English Church) yaratdı [7, s.42]. Bununla da papanın İngiltərədəki hakimiyyəti sona çatdı. Artıq kral papadan icazəyə ehtiyac duymadan arvadını boşayıb, yenidən evlənmiş və digər islahatçıların da təsiri ilə 1536-cı ildə lüteran ideyaların geniş əks olunduğu "On maddə"ni təsdiq etmiş, kilsədə şəkil və ikonaların qoyulmasını qadağan etmiş, kilsə dualarının ana dilində yerinə yerilməsini və ingils dilinə tərcümə olunmuş müqəddəs kitabın bütün kilsələrə göndərilməsini əmr etmişdi [8, s.68-91]. Bu islahatların VIII Henrinin xələfi VI Edvardın hakimiyyəti dövründə davam etməsinə baxmayaraq, 1554-cü ildə hakimiyyətə gələn Merinin (Mary) (Tüdorlar sülaləsindən) dövründə islahatçılar təqiblərə məruz qalmışlar. VIII Henrinin Katerinadan olan qızı Meri protestantlara nifrət edir, onlara təzyiq göstərir, edam etdirirdi. Katolikliyi dəstəkləyən kraliça tarixdə "Qanlı Meri" kimi qalmışdır [8, s.97-113].

1558-ci ildə hakimiyyətə gələn Yelizavetanın (Elisabeth) dövründə isə protestantlıq yenidən yüksəlməyə başlamışdır. Anqlikan kilsəsi islahatçılıq yönündə gördüyü işlərə görə kraliça Yelizavetanı ən böyük şəxsiyyət elan etmişdir. Hakimiyyəti dövründə Yelizaveta anqlikanizmin təməlini qoymuş, müqəddəs kitabı, dini doğmaları və katolik təhsili saxlamış, müqəddəs kitabın tək və mütləq hakim olduğunu elan etmiş, katolik ibadət qaydalarının ana dilində sadə formada yenidən yazdıraraq, xalqı müqəddəs kitabı oxumağa təşviq etmiş, katolik kilsə idarəçiliyini ləğv edərək yepiskop idarə sitemınə keçmiş, papanın dini və siyasi üstünlüyünü, qayıdış doktrinasını, arafı, indulgensiyaları, keşişlərin evlənməsinə qoyulmuş qadağanı və müqəddəslərə təzim edilməsini ləğv etmişdir [3, s.132-141].

Xristianlığın protestantlıq qoluna aid olan anqlikanizmin inanc və təlimləri VIII Henrinin hakimiyyəti illərində müəyyənləşsə də, Yelizavetanın (Elizabeth) dövründə dua kitablarında əks olunmuşdur. 1536-cı ildə qəbul edilən "on maddə"nin ardınca VI Edvardın ( Edward) dövründə "on üç maddə"lik toplu hazırlanmışdır. Bu toplu əsasında isə 1553-cü ildə "qırx iki maddə"lik başqa bir toplu hazırlanmışdır. Yelizavetanın dövründə - 1553-cü ildə hazırlanan toplu gözdən keçirilmiş, Lüter və Kalvinin ideyalarının təsiri altında "otuz doqquz maddə"dən ibarət toplu hazırlanmışdır. Bugün də mövcud olan "otuz doqquz maddə"də ikona və şəkillərə ibadət, məhşərin mövcudluğu, "çörək və şərabdadma" ayinin icrası zamanı çörəyin İsa Məsihin bədəninə, şərabın isə İsa Məsihin qanına çevrilməsi fikrini özündə daşıyan katolik inanclar qəbul edilmədi. Eyni zamanda papanın toxunulmazlığı qəbul edilmir və kilsələrin, konsosiumların Bibliya əsasında idarə olunması tələb olunurdu. Eyni zamanda, "otuz doqquz maddə"də günahların bağışlanmasının iman ilə mümkünlüyü və ana dilində ibadətin vacibliyi göstərilmiş, katolik kilsəsinin 7 ayinindən yalnız "vəftiz," "çörəkbölmə və şərabdadma" ayini saxlanmışdı.

"Kiçik ayinlər" adı ilə digər ayinlər də saxlanıldı [7,s.130-143; 3,s.105-127]. Bu xüsusiyyət anqlikanizmi protestantlığın digər məzhəblərindən ayırır.

Anqlikanizmi katolisizmə yaxınlaşdıran digər bir xüsusiyyət isə, kilsədə, əsas olaraq müqəddəs kitabla yanaşı, kilsə ənənəsinin nəzərə alınmasıdır. Anqlikanizmdə ibadətlə bağlı təlimlər Dua Kitabında (Prayer Book) əks olunmuşdur. VI Edvardın (VI Edward) hakimiyyəti illərində -1549-cu ildə Ümumi Dua Kitabı (Common Prayer Book) hazırlandı. Bundan üç il sonra protestant ünsürlərinin çoxluq təşkil etdiyi ikinci bir dua kitabı hazırlandı. 1559-cu ildə Yelizavetanın (Elizabeth) zamanında mövcud hər iki kitab gözdən keçirərək, yenidən nəşr edildi. 1662-ci ildə bir daha gözdən keçirilən, anqlikanların rəsmi sənədlərindən sayılan bu kitab 1645-1660-cı illər istisna olmaqla, müasir dövrə kimi İngiltərədə fasiləsiz istifadə olunur. Ayinlər, kilsə idarəsi və rituallar kitabın əsas məzmununu təşkil edir. Kitabın sonuna "39 maddə" əlavə olunmuşdur [3, s.167-171; 7, s.181-189].

Kilsə dövlətin himayəsində və nəzarətində olduğundan, parlamentin razılığı olmadan dua kitabında dəyişiklik edilə bilməz. İbadətlər digər protestant kilsələrində olduğu kimi ana dilində yerinə yetirilir. Qurtuluş yalnız imanla mümkündür. İmanın yalnız Tanrının mərhəməti ilə insana gəldiyinə inanılır. Bu isə anqlikanizmə lüteranlığın təsiri olduğunu göstərir. "Vəftiz" və "çörəkbölmə və şərabdadma" ayini qurtuluş üçün mütləqdir.

Anqlikanizmdə körpəlikdə xaç suyuna salınanlar yeniyetmə dövründə yenidən xaç suyuna salınır. Anqlikan kilsələri çox dəbdəbəlidir. Kilsələrdə çörəkbölmə və şərabdadma ayininin icra olunduğu dəbdəbəli stol, kilsənin simvolu olan böyük bir xaç, Məsihin xatirəsinə yandırılan şamlar, şəkil və ikonalar diqqəti çəkir. Kilsə ibadətləri kütləvi şəkildə icra olunur. Bazar günü ibadətinin əsas sayılmasına baxmayaraq, səhər-axşam ibadətləri də vacibdir. İbadət zamanı müqəddəs kitabdan dualar oxunur [8, s.140-171]. Qeyd etmək lazımdır ki, kralın kilsənin ali hakimi olmasına baxmayarq, Kanterberi kilsəsinin baş yepiskopu ən yüksək səviyyəli dini ruhani hesab edilir. Hal-hazırda Böyük Britaniyadakı Anqlikan kilsəsi Beynəlxalq Anglikan Birliyinin əsas kilsəsi hesab edilir. Kilsələrə rəhbərliyi baş yepiskop və yepiskoplar həyata keçirir. Kilsə tədbirləri parlamentin hər iki palatası tərəfindən təsdiq edilməlidir [3, s.182-193].

Anqlikan kilsəsi dünya miqyasında fəaliyyət göstərən xristianların böyük bir dini təşkilatıdır. Anqlikan kilsəsinin idarəçilik strukturunda əsas yeri yepiskop, keşiş və diakon tutur. Yepiskopun səlahiyyətinə kilsə idarəçiliyi ilə bağlı bütün işlər, o cümlədən yepiskopluq yığıncağının işinə nəzarət etməkdir. Yepiskoplar ruhani, keşiş, diakon və bir sıra bu kimi rütbələrə təyin olunmaya nəzarət edir. Keşiş Müqəddəs Birliyin yığıncaqlarına sədrlik etmək və insanların Tanrı tərəfindən bağışlanmasını təmin etmək üçün vəzifələndirilmişdir. Diakon kilsədə mühüm dini ayinlər həyata keçirilərkən köməkçi funksiyasını

həyata keçirən kilsə ruhanilərinin bir üzvüdür. Diakonlar kilsənin fəaliyyətinin vacib bir istiqaməti olan xidmət və müalicə şöbəsinin fəaliyyətinə kömək etməlidirlər. Eyni zamanda, onlar möminlər üçün nümunə vermək, ayinlərin düzgün keçirilməsinə nəzarət etmək səlahiyyətinə malikdirlər [3, s.187-190].

Metodist Kilsəsi Anqlikan kilsəsinin (Anqlikanizm) cəmiyyətdəki rolunu yenidən canlandırmaq məqsədilə, XVIII əsrdə Con Veslinin (John Wesley) (1703-1791) rəhbərliyi ilə başladılan hərəkatın nəticəsi olaraq, qurulmuş bir protestant kilsəsidir. Con Vesli 1730-cu illərin əvvəllərində Oksfordda (Oxford) təhsil aldığı müddətdə qardaşı Çarlz (Charles) ilə birlikdə müntəzəm olaraq "Müqəddəs Klub" adlanan tələbə klubuna qatılmışdır. Klub üzvləri tez-tez cəmiyyətin sosial həyatında iştirak edir, yeni dostlar qazanaraq, əhatəsini genişləndirir, xeyriyyə tədbirlərində iştirak edir və xəstəxanaları ziyarət edirdilər. Klub üzvlərini fəaliyyətlərindəki metodik yönəmə görə bəzi insanlar məsxərə ilə "metodistlər" adlandırmağa başladılar [4, s.10-21]. Sonradan bu, kilsənin adına çevrildi. Con Vesli Anqlikan kilsəsinin keşişi olduğu zamanlar, 1736-cı ildə missionerlik məqsədilə Corciya ştatına (Georgia) getmiş, ancaq müvəffəqiyyət qazana bilmədiyi üçün bir il sonra geri qayıtmışdır. Səyahət etdiyi vaxtda moravianlarla (Çexiyada, Mərkəzi Avropanın tarixi bölgələrindən biri olan Moraviyada yaşayan qərbi slavyan xalqıdır) qarşılaşmış və onların dindarlıq, iman ilə paklanma, güvən, etibar və qurtuluşla bağlı fikirlərindən təsirlənmişdir. Lakin 24 May 1738-ci ildə Londonda keçirilən tədbirdə Martin Lüterin (Martin Luther) "Romalılara Məktub"da yazdığı ön sözü dinlərkən daha çox təsirlənərək, qurtuluşu fərdi şəkildə yaşadığını bildirir və deyirdi: "Qəlbimin çox qəribə bir şəkildə isindiyini hiss etdim. İsa Məsihə güvəndiyimi, onun qurtuluş üçün yeganə çıxış yolu olduğunu anladım. Mənə Məsihin günahlarımı məndən almasına dair bir güvən hissi gəldi". Bundan sonra o, əvvəllər müdafiə etdiyi qurtuluş ideyasının yanlış olduğuna qərar vermiş, iman ilə paklanma və fərdi təcrübəni önə çıxaran yeni təlimlər yayaraq, öz əhatəsini formalaşdırmağa başlamışdır. Qardaşı da yazdığı ilahilərdə Vesliyə dəstək olmuşdur [6, s.17-25].

Veslinin təlimi ilə formalaşan metodizmə Böyük Britaniyada presveteryan, ABŞ-da isə anqlikanizmin təsiri daha güclü olmuşdur. İngiltərədə əhalinin məsuliyyətini üstünə götürən müəyyən "birliklər" yaradılmışdır və bu cəmiyyətlər isə insanların bir-birilə daha yaxın əlaqədə olub, dini ibadətlərini gücləndirmək məqsədilə kiçik qruplara bölünmüşdülər. 1742-ci ildə Vesli bu birliklərdə qadın, kişi və hər yaşdan olan insanı öz ətrafında birləşdirməyə nail olmuşdur. Yəni bu birliklərdə cinsindən və yaşından asılı olmayan bütün insanlar var idi. Veslinin bütün təlimlərinə sadiq qalacaq olan hər kəs bu birliklərə üzv ola bilərdi. Vesli xalqın çox hissəsini keşiş etmişdi və bunlardan bəziləri "səyyah keşişlər" mərtəbəsinə belə yüksələ bilmişdi [5, s.45-56].

1744-cü ildə Vesli "konfrans" adlı illik iclaslara başlamış və özü də bu iclaslara rəhbərlik edən komitənin rəhbəri olmuşdur. O, heç vaxt Anqlikan kilsəsindən ayrılıb yeni kilsə qurmağı düşünməmişdi. Metodizm insanları anqlikanizmdən uzaqlaşdırsa da, 1791-ci ildə Vesli vəfat edəndə 135.000-dən çox metodistin böyük bir hissəsi özünü hələ də anqlikan olaraq görürdü. Lakin 1795-ci il konfransında "əhalini ancaq konfransın seçdiyi bir şəxsin idarə edə bilməsi" ilə bağlı qərar veriləndə, artıq metodizmin anqlikanizmdən ayrılma prosesi yekunlaşdı və birlik Metodist kilsəsi adını aldı [4, s.45-61].

Bu prosesdən sonra müstəqil şəkildə öz fəaliyyətlərinə davam edən metodistlər yerli təşkilatlarla sıx əlaqədə olan güclü bir mərkəz yaratdılar. Sadə yaşayışı, mötədillik və iqtisadi çətinlik olduğunda mənəviyyatı daha üstün tutan bu hərəkat sürətlə inkişaf etdi. XIX əsrin I yarısı ingilis metodizmi üçün inkişaf və parçalanma dövrü olmuşdur. Keşişlərin mütləq hakimiyyəti, açıq havada keçirilən yığıncaqların qapalı yerlərdə keçirilən yığıncaqlarla əvəz olunması və kilsələrə musiqi aləti yerləşdirmək kimi məsələlər parçalanmada böyük rol oynamışdır. Bu parçalanmalar XIX əsrin II yarısında birləşmələr ilə müşayiət olunmuşdur. 1857 və 1907-ci ildəki birləşmələrin ardınca 1932-ci ildə Metodist kilsəsi qurulmusdur [10, s.57-75]. Bu gün Britaniyada Metodist kilsəsinin üzvlərinin sayı təxminən 18 milyondur. Vesli ilə başlayan və onun təyin etdiyi Frensiz Ozbırının (Francis Asbury) təməlini qoyduğu Amerika metodizmi isə yepiskopal quruluşda inkişaf etmişdir.

İngiltərədən 1771-ci ildən gələn Ozbırı, Veslidən fərqli olaraq, özünü yepiskop adlandırmış və Amerika metodizminin ilk yepiskopu olmuşdur. Vesli 1784-cü ildə Tomas Kouku (Dr. Thomas Coke) ABŞ üçün "məsləhətçi" olaraq təyin etmişdir. Həmin il Ozbırı və Koukun rəhbərliyi ilə Metodist Yepiskop Kilsəsi qurulmuşdur. Veslinin ölümündən sonra Kouk da özünü yepiskop elan etdi, anqlikanizmə aid "Ümumi Dua Kitabı"nın fərqli versiyası olan "Bazar İbadəti"ni tətbiq etməyə başladı və İngiltərədəki Veslinin yaratdığı sistem yerinə anqlikanizmin üç pilləli kilsə sistemini (yepiskop, keşiş, diakon) tətbiq etməyə başladı. Tək fərq o idi ki, anqlikan yepiskoplar vəzifəyə təyin olunur, metodist yepiskoplar isə vəzifəyə seçimlə keçirdi. Amerikan metodizminin doktrina və təşkilati strukturunu özündə əks etdirən "Tərbiyə kitabı", Veslinin nəsihət və əsərlərinə əsaslanırdı. Yepiskopların vəzifəsi Tərbiyə kitabındakı qaydaları şərh etmək idi. Ölkə bölgələrə ayrılmış və hər bölgənin rəhbərliyinə yepiskoplar təyin olunmuşdu. Həmin yepiskoplar 1908-ci ildən sonra "bölgə məsləhətçiləri" adını aldı. Amerikalı metodistlər də XVIII və XIX əsrlərdə kilsədaxili parçalanmalar yaşamışdır. İlk mübahisə 1830-cu ildə kilsə hakimiyyəti ilə bağlı olmuş və Metodist protestant kilsəsi qurulmuşdur. Metodist yepiskop kilsəsi isə 1844-cü ildə quldarlıq mövzusu ilə bağlı yaranan mübahisələrə görə şimal və cənub metodistlərinə bölünmüşdür [4, s.89-103; 5 s.97-114].

Vesli azad iradəni müdafiə etdiyi üçün presveteryanların dini ideologiyasından uzaqlaşmışdır. Vesli dində ilahi məqsədin insanlığı xilas etmək olduğunu düşünürdü. İnsanlığın xilasının isə sadəcə ilahi lütf ilə mümkün olduğunu bildirən Vesli bununçün İsa Məsihə inanmağı, günahlardan azad olmağı arzulamağı və bunu həyat tərzi ilə sübut etməyi əsas sayırdı. Onun fikrincə, hər kəs imanla yanaşı Müqəddəs Ruh və xristianlığa ibadət etməklə ilk günahlarından azad ola bilər. Belə ki, xristian təlimində Adəm və Həvva qadağan olunmuş ağacdan meyvə yedikləri üçün, günaha batdıqlarından sonra cənnətdən qovuldular və bu səbəbdən onlardan törəyən bütün bəşəriyyət, əcdadlarının bu ilkin günahına görə məsuliyyət daşıyır. Buna görə də insanlar bu dünyada günahkar doğulurlar. Ancaq xristian ilahiyyatında ilk günahdan azad olmaq da mümkündür. Bunun üçün İsanı Tanrının oğlu kimi qəbul etmək lazımdır. Çünki onun simasında Tanrı dünyaya insan obrazında gəlmiş, insanlığın günahlarını öz üzərinə götürmüş və könüllü olaraq insanlar naminə ölümü qəbul etmişdir. Bu səbəbdən ona iman edənlər ilk günahdan azad olurlar, öz həyatını Tanrıya ibadətlərdə keçirirlər, xeyirxahlıq edirlər, şər əməllərdən uzaq dururlar. Buna görə də metodistlər yaşam tərzinə və yaxşı davranışa xüsusi fikir verir. Isanın dirilməsi, Allahın 3 sifəti və Adəm və Həvvanın günahından sonra insanların doğulandan təbiətən günahkar olması metodist təliminin əsasını təşkil edir. Əsas sakramentləri xaç suyuna salma və çörək və şərabdadmadır. Çörək və şərabdadma Məsihin ölümünün xatirəsi kimi dəyərləndirilir. Müqəddəslərə dua, ikonalara hörmət rədd edilir [10, s.45-67; 6, s.43-76].

Britaniya metodistlərinin doktrinalarda tarixi xristian əqidələri, Amerikan metodistlərinin doktrinalarında isə Veslinin anqlikanizmə aid 39 maddəni qısaldaraq yaratdığı “Dinin 25 maddəsi”ni əsas götürülmüşdür.

Metodizmin bir başqa özəlliyi qəlblərə xitab etməsidir. Bu da missionerliyin şövqlə icra olunmasına, ibadətlərə ciddi və səmimi yanaşmaya gətirib çıxarmışdır. Vesli “Tanrı sevgisi qonşunu sevməklə göstərilməlidir” fikrini bildirmiş, xəstələri ziyarət edən bir qrup yaratmış, "təmizlik dindarlıqdan dərhal sonra gəlir" şüarı ilə Londonda bir dispanser qurmuş, dullara ev vermiş, kasıb şagirdlərə məktəb açmış, darda qalanlara borc vermişdir. Veslinin içki və qumara mənfi baxışına görə bir çox metodistlər bu gün belə spirtli içkilərdən uzaqdırlar. Vesli moravianların təsiri ilə ilahilərə əhəmiyyət vermiş, şəxsən özü bəzi alman ilahilərini tərcümə etmişdir. Qardaşı Çarlz (Charles) da yazdığı 9.000 ilahi ilə camaata şövq vermişdir. İbadətin əhəmiyyətinin, vacibliyinin vurğulandığı bu ilahilərlə insanların mənəvi aləmləri gücləndirilmişdir. Metodizmin xristian ibadətinə ən böyük qatqısı zəngin ilahi külliyyatı və bu ilahilərlə insanlarda şövq və enerjini artırmaq gücünün olmasıdır. Metodizmin özündə Veslinin təlimlərinin bütün dünyaya yayılması əsas məqsədlərdən biri

hesab edilir [4, s.45-51]. Vesli fikirlərini "Bütün dünyanı kahinlik ərazim olaraq görürəm" deyərək yekunlaşdırmışdır.

Səyyah keşişlər sayəsində sürətlə inkişaf edən metodizm XIX əsrin ortasında ABŞ-ın ən əhəmiyyətli dini qruplarından birinə çevrilmişdir. Müasir dövrdə metodistlər ABŞ, Kanada, Hindistan, Avstraliya, Cənubi Afrika, Yaponiya, Koreya, Çin, Meksika, Braziliya, Almaniya, İsveçrə, Belçika, Seylan və xüsusilə Britaniyada yayılmışlar. Ümumiyyətlə, bu gün dünyada yüzdən çox ölkədə qırx milyon metodist var [10,s.97-113].

Presveteryan kilsəsi XVI əsrdə islahatların aparılması uğrunda mübarizə prosesində yaranan mühafizəkar yönümlü protestan kilsələrindən biridir. XVI əsrin əvvəllərində Con Kalvinin (John Calvin) (1509-1564) Cenevrədə Lüter və xüsusilə də Çvinqlinin (Huldrych Zwingli) teologiyasına əlavələr edərək islahatlar həyata keçirməsi protestantlığın inkişafına böyük təsir göstərdi. Katolik kilsəsinə qarşı çıxdığı üçün sürgündə olan vaxt Kalvın ilə yaxın münasibətdə olan və ondan təsirlənən şotlandiyalı islahatçı Con Noks (John Knox) (1505-1572) ölkəsinə qayıdaraq digər islahatçılara qoşuldu və 1560-cı ildə ölkənin daxili və xarici vəziyyətini nəzərə alaraq, islahat təlimini ölkənin rəsmi din anlayışı halına gətirdi. Onun Şotlandiyaya gətirdiyi kalvinist təlimini sonralar Şotlandiyada islahatçılara rəhbərlik edən Andre Melville (Andrew Melville) daha da inkişaf etdirdi və 1592-ci ildə bugünkü kilsə idarəsinə və təlimlərinə sahib olan Presveteryan kilsəsini qurdu [9, s.16-58; 1, s.11-34]. Başqa sözlə Presveteryan kilsəsi kalvinçi təliminin Noks və Melville vasitəsilə Şotlandiyaya uyğunlaşdırılmış formasıdır.

Qeyd etmək lazımdır ki, 1690-cı ilədək Şotlandiya hakimiyyəti və katolik/anglikan kilsələrinin nümayəndələri presveteryanları anglikanizmə qaytarmağa çalışsalar da, 1690-cı ildən presveteryan məzhəbi Şotlandiya rəsmi kilsəsi statusu aldı və bu günədək də öz fəaliyyətini davam etdirir. Şotlandiyada yaranan presveteryan kilsəsi bu ölkədəki tarixi inkişaf prosesində dini və siyasi səbəblər üzündən bir neçə yerə parçalanmışdır. Kilsə-iqtidar münasibətləri və presveteryanların daxili doktrinaları ilə bağlı narazılıqları XVIII əsrdə Şotland presveteryanlarının bölünməsinə və ortaya müxtəlif kilsələrin çıxmasına səbəb olmuşdur.

Bənzər vəziyyət hələ presveteryanlığın yayıldığı erkən dövrdən başlayaraq iqtisadi, siyasi və dini səbəblərdən İrlandiyaya gedib yerləşən, İngiltərə və Şotlandiyadan köçüb gələn presveteryanlarla güclənən İrlandiya presveteryanlarının da başına gəlmişdir. Kilsə-iqtidar münasibətləri presveteryanları "ilk dövr xristianlığına yenidən dönüş" fəlsəfəsində fundamentalist fikirlərdən nə qədər uzaqlaşdırsa da, baş verənlər ortaya fərqli dini anlayışa sahib Presveteryan kilsəsinin yaranmasına gətirib çıxarmışdı. Şotlandiya və İrlandiyada XVIII əsrdə yaşanan parçalanmaları XIX və XX əsrdə yeni birləşmələrlə əvəz etmişdir. Nəticədə hər iki ölkədəki presveteryanlar birləşə bildilər. Şotland

kilsəsi ölkədəki presveteryanların böyük bir hissəsini özündə birləşdirir və digər presveteryan kilsələrə görə daha liberal bir mövqedə durur [2, s.45-61].

Bugün Şimali İrlandiyada Olster bölgəsində məskulaşan İrlandiya presveteryanlarının çoxu əsas mərkəz və eyni zamanda ölkənin rəsmi kilsəsi İrlandiya Presveteryan kilsəsinə bağlıdır. Şotlandiyada yaranan, daha sonra İngiltərəyə yayılan, krallığın qərb və cənubunda yaşayan presveteryanlar isə İngiltərə və Uels yevangelist presveteryan kilsəsinə toplanırlar [9, s.49-61]. Presveteryanların əsas köçü isə XVII əsrin sonunda iqtisadi və dini təzyiqlərə məruz qaldıqlarına görə Şimali Amerikaya getməsi olmuşdur. Şotlandiyadan və İrlandiyadan Amerikaya gələn çoxlu sayda presveteryan qısa bir zaman kəsiyində qitədə ikinci böyük dini qrup halına gəlmiş, azadlıq uğrunda mübarizədə (1783) və vətəndaş müharibəsində (1861-65) ABŞ-a dəstək olaraq, mövqelərini daha da möhkəmləndirmişlər. Ölkə idarəçiliyndə aktiv rol oynayan presveteryanlar Şotlandiya və İrlandiyada olduğu kimi ABŞ-da da liberal-mühafizəkar qruplarına bölünmüşlər. Onların bölünməsinin digər səbəbi isə quldarlığa münasibətdə fərqli yanaşmalarının olması idi. Xüsusilə, ölkənin şimalında yaşayan liberal yönümlü presveteryanların çoxu quldarlığın ləğv edilməsini istəyirdi. Daha çox cənubda məskunlaşan mühafizəkar yönümlü presveteryanlar isə sahib olduqları böyük plantasiyalarda çoxlu qul işlətdikləri üçün iqtisadi maraqlarını əsas tutub quldarlıq sistemini dini cəhətdən qanuniləşdirməyə çalışırdılar. XIX əsri ABŞ-da presveteryanlığın çiçəkləndiyi dövr də hesab etmək olar. Sonralar artıq baptistlərin və metodistlərin cəmiyyətin və dövlətin həyatında rolu daha çox olmuşdur [2, s.89-119].

Presveteryan kilsələrində təməl inanclar kalvinizm əsasında formalaşdırılan dua kitabında əks olunmuşdur. Bütün presveteryan kilsələrində qəbul edilmiş əsas kitab 1643-48-ci illərdə İngiltərədə hazırlanan və bundan sonra istisnasız bütün presveteryanlar tərəfindən qəbul edilən "Vestminister inanc toplusu"dur. Xristianlığın təməl təlimlərindən çox uzaqlaşmayaraq, xristianligin ana xəttinə dayanan bu kitabda təməl xristianlıqdan fərqli olaraq presveteryanlar kimin qurtulub, kimin cəhənnəmə gedəcəyini insan yaradılmadan öncə Tanrı tərəfindən müəyyənləşdirildiyi və insanın bunu dəyiştirməyə gücünün olmaması göstərilmişdir. Başqa sözlə, presveteryanlıqda günahların təmizlənməsi (paklanma) və ya qurtuluş Tanrı tərəfindən seçilmiş şəxslərə verilən bir lütfdür.

Katolik inancının əksinə yaxşı əməllərə ehtiyac yoxdur. Presveteryan kilsələrində ibadətlə bağlı usul və qaydalar dua kitablarında göstərilmişdir. İbadət qaydalarında Kalvinin təsirləri var [1, s.95-117]. Digər kilsələrdən fərqli olaraq presveteryan kilsələrində uşaqların xac suyuna çəkilməsi qəbul olunmuşdur. Xac suyuna çəkmə prosesi suya batırma ilə yanaşı, su səpmə yolu ilə də olacağı ifadə olunmuşdur. Katoliklər və lüteranların əksinə çörək və şərabın İsanın əti və qanına çevrilməsi fikri qəbul olunmamışdır.

Günlük ibadətlərin ən önəmlisi digər xritianların da icra etdiyi kimi səhər-axşam ibadətidir. Liberal presveteryanlar ilahilərin icrası zamanı kilsəyə musiqi alətlərinin gətrilməsinə icazə versələr də, mühafizəkar presveteryanlar hələ də buna qarşıdırlar. Kilsə quruluşlarına görə presveteryan kilsələri özünəməxsusluğu ilə digər kilsələrdən fərqlənir. Məhəlli kilsələrdə presviter və diyakonlar var. Presviterlər təlimçi və idarəedici presviterlər olmaqla 2 yerə ayrılır. Təlimçi presviterlər lazimi rahiblik dərsləri almış, təyin edilən ən üst dərəcə dini ruhanidir. İdarəedici presviterlər isə ruhanilərdən deyil, camaat içindən layiq olan adamlardan seçilir. Onların vəzifəsi dini təlimlərin icrası və təbliği ilə bağlı təlimçi presviterlərə kömək etməkdir. Kilsədə fəaliyyət göstərən diyakonlar isə kilsənin gəlir və çıxarlarına nəzarət edir, xəstə və yoxsulları ziyarət edir və onların problemləri ilə maraqlanır. Bir kilsədə ən az bir təlimçi presviter və ehtiyac olan sayda isə idarəedici presviter var.

İdarəedicilər eyni zamanda kilsənin keşişi funksiyasını da icra edirlər. Presveteryanlıqda pilləli şəkildə kilsə qurumları mövcuddur. Ən aşağı pillədə məhəlli kilsələrin hər birinin presviterlərinin birgə toplaşdığı kilsə qurumlarıdır. Ondan yuxarıkı pillədə isə ən azı iki mahalın kilsə qurumlarının presviterlərinin birgə toplaşdığı presviterliklər durur. Presviterliklərə rəhbərliyi isə presviterliyə daxil olan ən azı üç ərazidən seçilmiş presviterlərdən ibarət sinodlar həyata keçirir. Ən yuxarı pillədə isə Presveteryan kilsəsini təmsil edən ümumi qurum durur. Əgər problemlər kilsə qurumlarında öz həllini tapmazsa, ümumi qurum da müzakirəyə çıxarıla bilər [9, s.76-95; 1, s.76-93].

Əvvəllər presveteryan kilsələrində qadınlar yalnız diakon vəzifəsini tuta bilirdisə, hal-hazırda qadınlar kilsədə hər bir vəzifəni tuta bilər, hətta ümumi quruma belə rəhbərlik edə bilərlər [5, s.91-95].

Beləliklə, anqlikanizm, metodizm və presveteryanlığın dünyanın bir çox ölkələrində yayılmasına baxmayaraq, Britaniyada tarixi, ictimai və siyasi inkişaf prosesində meydana gəlməsi bu cərəyan (anqlikanizm) və məzhəblərin (metodizm və presveteryanlıq) digər məzhəb və cərəyanlardan özünəməxsusluğu ilə fərqlənməsinə gətirib çıxarmışdır.

## ƏDƏBİYYAT


1. Alexander Hugh Bruce “An Historical Account of the Rise and Development of Presbyterianism in Scotland” , Forgotten Books 2018
2. Alistair Mutch “Religion and National Identity: Governing Scottish Presbyterianism in the Eighteenth Century”, Edinburgh University Press 2015
3. Jeremy Morris “The High Church Revival in the Church of England: Arguments and Identities (Anglican-Episcopal Theology and History)”, Oxford Press 2016

4. John A. Vickers “A Dictionary of Metodism in Britain and Ireland”, Epworth Press 2012
5. Kenneth J. Kollins “The Theology of John Wesley: Holy Love and the Shape of Grace”, Abingdon Press 2003
6. Kenneth Wilson “Methodist Theology” , T&T Clark International 2011
7. Rex. R “Henry VIII and The English Reformation” .St. Martin's Press, New York 1993.
8. Rowan Strong “Anglicanism and The British Empire c. 1700-1850”, Oxford University press 2007. (313 s.)
9. Thomas Hamilton “ A History of Presbyterianism in Ireland”, Ambassador Publications 1992
10. William Abraham “The Oxford Handbook of Methodist Studies”, Oxford University Press 2011

**UOT 37**

# BALASAQUNLU YUSİF XAS HACİBİN "QUTADĞU BİLİG" ƏSƏRİNDƏ AİLƏ QURMAQ VƏ AİLƏ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

***Kamal Həsən oğlu Camalov***
***Naxçıvan Dövlət Universiteti***
***kamal.camalov@gmail.com***

**Açar sözlər:** *Balasaqunlu Yusif Xas Hacib, "Qutadğu bilik" və yaxud "Xoşbəxtliyə aparan elm", valideyn-övlad, ailə qurmaq və şərtləri, övlad tərbiyəsi*

*Məqalədə Balasaqunlu Yusifin əxlaqi-didaktik mahiyyət daşıyan "Qutadğu bilik" əsərində ailə qurmaq, övlad tərbiyə etməklə bağlı fikirlər təhlil obyektinə çevrilmişdir. Qeyd olunur ki, gənclər evlənərkən kökü, nəsəbi yaxşı olan və ya iffətli, namuslu, təmiz ailədən qız alsa xoşbəxt olar. Var-dövlət sahibi olan qız alsa ömrünə yara vurmuş olar. Bu yaranın da yeri həmişə göynəyər. Məqalədə qeyd olunur ki, Balasaqunlu Yusif valideynlərə həyatlarının hər bir anında övladlarına yaxşı nümunə olmalarını tələb edir. Çünki uşaq valideynin həyatında baş verən ən kiçik dəyişikliyi görür, hiss edir, hətta valideynin fikrində olan bütün dönüşlər gözə görünməyən yollarla uşağa çatır. Məhz buna görə də hər bir valideyn özünə qarşı tələbkar olmalıdır kimi fikirlər işıqlandırılır.*

# PROBLEMS OF MARRIAGE AND FAMILY EDUCATION IN "KUTADGU BILIG" WORK OF YUSUF KHASS HAJIB BALASAGUNI

***Kamal Jamalov***

**Keywords:** *Yusuf Khass Hajib Balasaguni, Kutadgu bilig or science leading to happiness, parent – child, marriage and conditions, child education*

*In the article, Balasaguni Yusuf's moral and didactic essay, "Kutadgu Bilig", views about marriage, education of children have become the objekt of analysis. It is noted that, if young people marry with girls whose background, ancestry is good or they are decent, honest and are from wellbred family, when they get married, they will be happier. But to marry with wealthy girls, it means to damage own life, which is incurable lifelong. It is also concluded in the*

*article that, Balasaguni Yusuf requires parent s to be good examples for their children at every moment. Because the child sees, feels the little changes in the parent's life and even in the parent's mind all turns reach the child by invisible ways. And that's why views such as each parent should be self demander are inlighted.*

## ВОПРОСЫ О СОЗДАНИИ СЕМЬИ И СЕМЕЙННОМ ВОСПИТАНИИ В СОЧИНЕНИИ "КУТАДГУ БИЛИГ" ("БЛАГОДАТНОЕ ЗНАНИЕ") ЮСУФА ХАС ХАДЖИБА БАЛАСАГУНИ

***Кямал Джамалов***

**Ключевые слова:** *Юсуф Хас-Хаджиб Баласагунский, «Благодатное знание» или «Наука быть счастливым», родитель-ребенок, брак и его условия, воспитание ребенка*

*В статье стали объектом анализа вопросы о браке и воспитании детей в морально-дидактическом сочинении «Благодатное знание» Юсуфа Баласагунского. Отмечается, что молодые люди становятся счастливыми, когда берут в жены девушек, имеющих хорошую репутацию или хорошую, благородную, чистую семью. Семейная жизнь молодого человека с девушкой, которая лишь владеет богатством, будет несчастливой. В статье указывается, что Юсуф Баласагунский требователен в том, чтобы родители были хорошим примером во всей повседневной жизни. Потому что ребенок видит малейшее изменение в жизни родителя, и даже разум родителя обращается к ребенку невидимыми путями. Именно по этой причине каждый родитель должен быть требовательным к себе.*

Azərbaycan məktəb və pedaqoji fikir tarixinə, eləcə də türk təhsilinə "Qutadğu bilig" poeması ilə əxlaqi-didaktik mahiyyət gətirənləndən biri də alim və mütəfəkkir Balasaqunlu Yusifdir (1017-1077). Türkdilli xalqların poeziyasına əruz vəznini ilk dəfə Balasaqunlu Yusif gətirmişdir. Türk xalqları ədəbiyyatında ilk poema adlanan "Qutadğu bilig" əsəri mütəqarib bəhrində, məsnəvi formasında yazılmışdır.

"Qutadğu bilig" əsərinin sətri tərcüməsi müxtəlif ədəbiyyatlarda müxtəlif şəkildə izah edilir. Məsələn, mötəbər ədəbiyyat sayılan ASE-nin I cildində "Kutadqu biliq" (Xoşbəxtlik bəxş edən elm) [2, 582], "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə (Toplayanı və tərtib edəni Əziz Mirəhmədov) "Kutadqu biliq" (Xoşbəxtlik bağışlayan kitab) [3, 33], Akademik Hüseyn Əhmədovun

"Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər" adlı dərsliyində "Qutadqu bilik" ("Xoşbəxtlik verən elm) [4, 343], Rüfət Hüseynzadənin "Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir" dərsliyində "Kutadqu bilik" ("Xoşbəxtlik verən bilik" və ya "Xoşbəxtliyə aparan elm") [5, 217], Fərrux Rüstəmovun "Pedaqogika tarixi" dərsliyində isə "Kutadqu bilik" ("Xoşbəxtliyə, səadətə aparan elm") [6, 192] kimi tərcümə edilmişdir.

Bütün bunlara rəğmən orta məxrəclə adlandıracağımız "Qutadğu bilig" ("Xoşbəxtliyə aparan elm") adlı bu əsəri Balasaqunlu Yusif 1068-69-cu illərdə qələmə almışdır. Şair qeyd edir ki, "Əlvan çiçək kimi ətri müşkə bənzər... bu sözləri tam on səkkiz ayda söylədim" [1, 435]. 85 bölmə və 6645 beytdən ibarət olan "Qutadğu bilig" əsəri Qaraxani hökmdarlarından olan "Süleyman Arslan Qaraxana həsr edilmiş və Xaqan da bu əsəri yüksək qiymətləndirərək onun müəllifinə "Xas Hacib" fəxri adı vermişdir" [7, 24].

Əsər əxlaqi saflıq, mənəvi dəyər, humanizm, ədalət, şərəf və ləyaqət, sadəlik və təvazökarlıq, vicdanlılıq, əməksevərlik, qəhrəmanlıq, mərdlik, qocalıq, alicənablıq, sədaqət və səmimiyyət, dostluq və yoldaşlıq, dəyanət və ehtiram, vədəyə əməl etmək, dar gündə başqalarına kömək etmək, vətənpərvərlik, özündən böyüklərə, valideynlərə hörmək etmək, özündən kiçiklərə qayğıyla yanaşmaq, ağlın gücü, alimlərə hörmət və s. kimi görüşlər üzərində qurulmuşdur.

85 bölmədən ibarət olan "Qutadğu bilig" əsərində biz əsasən ailə tərbiyəsi münasibətlərində valideynlərə hörmət, uşaq tərbiyəsinə diqqət, sonsuzluğa münasibət kimi görüşlərə toxunmaq istərdik.

Balasaqunlu Yusif ailə qurmaq fikrində olan gənclərə birinci evlənməməyi təklif edir. Yox əgər evlənərsən "öz babınla evlən" [1, 302] – deyir. Evlənərkən kökü, nəsəbi yaxşı olan və ya iffətli, namuslu, təmiz ailədən qız almasını məsləhət edir. Ər üzü görməmiş olsun. Beləsi səni sevər, səndən başqasını tanımaz, yaramaz hərəkətə yol verməz. Qeyd edir ki, evlənən zaman özündən aşağı təbəqədən qız al. Onda ömrün şad-xürrəm içərisində keçər. Var-dövlət sahibi olan qız alsan ömrünə yara vurmuş olarsan. Bu yaranın da yeri həmişə göynəyər. Müdriklər müdriki yazır:

Evlənmək istəsən mənə qulaq ver.
Varlı qızla evlənməyi arzu edib,
Ona əsir olma, ey bilikli və seçkin insan.
O, malına güvənərək dilini uzadar,
Çox şey istər, sən nə edərsən?
Nəcabətlilər yüksəkdən danışırlar,
Sən qadın əsiri olma [1, 303].

Ölkəmizdə "Ər" ailə başçısı funksiyasını daşıyır. Bununla da, münasibətlərin mənəvi xarakteri müəyyənləşir. Ər – mənəvi anlayışdır. Ər o

ərdir ki, öz halal zəhmətilə yaşamağa üstünlük verir. Təbii ki, "ər" ailəni məhəbbət yox, mənafe üzərində qurarsa o ailə firavan ömür sürə bilməyəcəkdir. Balasaqunlu Yusif yazır ki, ailə qurmaq istəyən gənclərdən biri varlı ailədən evlənmək istər və onun nəcabətilə fəxr edər, biri əsil-nəcabətli qadın istər, onun nəcabətilə fəxr edər. Bir başqası da namuslu birisiylə evlənib özünü ona qapdırmaq istər. Şair belə birisini "mərd igid" adlandırır.

Yaxşı və namuslu bir qadın tapsan,
Dərhal evlən, ey gözəl insan.
Var istəsən, o, qənaət edər,
Səni varlandırar, üzünü güldürər.
Əxlaqı dürüst olan adam gözəl görünür,
Qadının gözəlliyi hərəkətindədir, bunu bilən bilir.
Belə bir qadın tapsan,
Fürsəti qaçırma, ey mərd igid [1, 303].

Bir gün gənc ana məşhur filosof və pedaqoq Aristotelə müraciət edərək ondan öz uşağını düzgün tərbiyə etməklə bağlı məsləhət istəyir. Aristotel anadan uşağın yaşını soruşur. Ana isə uşağın üç günlük olduğunu bildirdikdə filosof başını bulayaraq "Siz artıq çox gecikmisiniz. Gərək uşağın tərbiyəsinə o, anadan olduğu saatdan başlayardınız!" – deyir.

Balasaqunlu Yusif isə əksinə, uşağın hələ ana bətnində olan zamandan tərbiyə olunmasının zəruri olduğunu bildirərək yazır:

Ana qarnında yaranan tərbiyə
Ancaq qara yer altında insanı tərk edər, ey müdrik insan [1, 83].

Mütəfəkkir alim dünyanın qanunu sayılan ailə tərbiyəsinə diqqət yetirərkən onu tərbiyənin mühüm amili kimi çox yüksək qiymətləndirir. Yusif Xas Hacib valideynin uşaq tərbiyə etməsi işini xalq qarşısında xidməti borc hesab edir. Oğulu, qızı gözün nuru hesab edən şair, həmçinin oğul-qız üzərində olan diqqət və məsuliyyəti də dibsiz dənizə bənzədir. Sual edir ki, arvad, oğul-qız sahibi olan kişinin yuxusu gələrmi? Belə məsuliyyət sahibi olan kişinin al bənizi sarı olmazmı? Aydoldunun oğlu Öydülmüşə verdiyi boyda oxuyuruq:

Oğul-qız doğrudan da gözün nurudur.
Oğul-qız dərdi dibsiz bir dənizdir,
Oğul-qız al bənizi sarı edər.
Kimin arvadı, oğlu-qızı varsa,
O kişinin necə yuxusu gələr?
Oğul-qızdan ötrü ata əziyyət çəkər [1, 102, 103].

Balasaqunlu Yusif valideynlərə həyatlarının hər bir anında övladlarına yaxşı nümunə olmalarını tələb edir. Çünki uşaq valideynin həyatında baş verən ən kiçik dəyişikliyi görür, hiss edir, hətta valideyn fikrinin bütün dönüşləri gözə görünməyən yollarla uşağa çatır. Məhz buna görə də hər bir valideyn özünə qarşı tələbkar olmalıdır fikrinə gəlir.

Balasaqunlu Yusif müəyyənləşdirir ki, hər bir valideyn övladlarının kiçik yaşlarından tərbiyəsi qeydinə qalmalıdır. Öz əxlaqi keyfiyyətləri ilə uşağına gözəl nümunələr göstərməlidir. Bu mənada ki, onun hərəkəti uşağa əyani tərbiyə olsun. Çünki bütün doğulmuşların tərbiyəyə ehtiyacı var. Əgər uşaq kiçiklikdən tərbiyə görməsə, günah artıq uşağın deyil, valideynindir. Ər ata ərköyünlüyü uşaqdan birdəfəlik uzaq tutmağı məsləhət bilir. Əgər "oğulun atası alim adamsa, oğlunu yaxşı tərbiyə etməlidir. Kimin oğlu-qızı ərköyün olsa, onun payına ağlamaq düşər. Oğul-qızın xasiyyəti, əməli pis olsa, bu atanın pisliyidir, uşağın deyil" [1, 106] – deyir. Həmçinin, əsərdə vurğulanır ki, ata oğluna sərt tərbiyə verməlidir. Balasaqunlu Yusifin sərt tərbiyə ifadəsini biz belə anlayaq: at çapmaq, kaman çəkmək, kəmənd atmaq, güləşmək, şahmat oynamaq, üzgüçülük və sair öyrətməklə yanaşı, oğluna (oğlanlarına) kişi qeyrəti, dəyanəti, cəsurluq, alicənablıq, igidlik, mərdlik, çətinliklərə sinə gərə bilmək, iradə gücü, özünə sahib olma gücü, sözübütövlük və s. kimi nəcib sifətlər üzərində tərbiyə edilməli, bu kimi keyfiyyətlər aşılanmalıdır.

Atanın oğlu üzərində əməyi olsa,
O ata tərbiyəsi ilə yaxşı yetişər.
Ata uşağı tərbiyə edib hər şeyi öyrədəndə,
Uşaq yetişib böyüyəndə o sevinər.
Ey ata olan, uşağa sərt tərbiyə ver ki,
Arxadan gələnlər sənə gülməsinlər.
Oğula, qıza bilik və mərifət öyrət,
Bu mərifətlə onlar təmiz əxlaqlı olsunlar [1, 106].

Əsərdə Öydülmüş Odqurmuşa "İnsanlar insandan bir fayda görməsə, onun yaşadığı nədən bəlli olar?" verdiyi maraqlı, düşündürücü bir sualla qarşılaşırıq. Öydülmüşə görə, "insan evlənməli və oğul-uşaq sahibi olmalıdır" [1, 235]. Ailə qurmaq, evlənmək həm insan nəslinin davamını təmin edir, həm də ocaq sahibi olur. Bu, dünyanın əbədi təkrarlanan qanunudur. "Övladsızdır" sözü insana söyüşdən də ağır gəlir. Sonsuz adamı ölüm haqlayanda həyatının mənasız keçdiyini gec də olsa anlayaraq belə demişdir: "Ey məndən sonra gələn, oğul-uşaq sahibi ol" [1, 235]. Kimin ki, öləndən sonra oğlu qalıb, ona "yaşamayır" demək olmaz. Çünki övladsız ölənin nəsli kəsilər, dünyada adı itər, yeri boş qalar.

Odqurmuş Öydülmüşün fikriylə razılaşır. Qeyd edir ki, övladın olması sadəcə nəsil artımı üçün olmamalıdır. "Oğul-qız yaxşı olarsa, bu iş sən deyən kimidir" [1, 235] – deyir. Vay o gündən ki, övlad naxələf, nacins, yaramaz, vecsiz, ləyaqətsiz ola. Bu, valideynə dərd olar, qəm olar. Xalq içində özünü rüsvay bilmiş olar. Yağıya, düşmənə nə gərək, düşməni öz ocağındadır sanar. Valideyn ölüb getdikdən sonra xalq üçün, cəmiyyət üçün zərərli qüvvəyə çevrilən belə bədəsil övlada görə atanın goruna söyəcəklərini nəzm dili ilə Öydülmüşə belə bəyan edir:

Xeyirsiz olarsa, uladar səni,
Öldünmü, o saat unudar səni.
Pis olsa adına qarğış edərlər,
Yabançılar goruna söyüş edərlər.
Oğul-qız yağıdır, yağı nə gərək,
Yağısız yaşamaq daha yaxşıdır.
Xeyirsiz oğul-qız atadan sonra
Ata-anasının adını anmaz.
Belə bir uşaqdan gəl gözlə vəfa,
Onun işi pislik, əməli cəfa [1, 235].

Əxlaqi keyfiyyətlər carçısı Balasaqunlu Yusif yazır ki, oğul-qız həddi-buluğa çatdıqdan sonra onları min bir nəvazişlə böyüdən valideynlərinə daim məhəbbətlə itaət etməli, onların qayğısına qalmalıdırlar. Yox, əyər övlad xeyirsizdirsə, onda ata-anaya məhəbbət hissi yoxdursa, belə adam ən əxlaqsız, tərbiyəsiz adamdır. Belə adam üçün müqəddəs olan heç bir şey yoxdur. Tərbiyəli insan həmişə ata-anasına itaət edər, məhəbbət göstərər, qədir-qiymətini bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, mütəfəkkir alim uşaqların yaxşı və ya pis olmalarının səbəbini ata və anada axtarır. Valideynin yadigarı sayılan uşağı çox da sərbəst, özbaşına buraxmamağı, möhkəm tutmağı vəsiyyət edir. "Möhkəm tutulan uşaq səadət tapar" [1, 121] – deyir. Kiçik yaşlarında öyrənən elmi daş üzərində yazılan yazıya, ahıllıqda öyrənən elmi su üzərində yazılan yazıya bənzədən Balasaqunlu Yusif yazır:

Uşağa biliyi kiçikkən öyrət,
Kiçiklikdən bilik öyrənən həyatda müvəffəq olar.
Oğul-qız kiçiklikdə nə öyrənsə,
Qocalıb ölənədək onu yaddan çıxarmaz [1, 121].

Yusif Xas Hacib əsərin 63-cü bölməsində də "Uşaqların necə tərbiyə ediləcəyini bəyan edir". Yazır ki, oğlun və ya qızın doğularsa uşağını ikinçi dərəcəli şəxslərə tapşırma, yalnız özün tərbiyə et. Vəzifəsindən asılı olmayaraq valideynin bütün səyi övlad tərbiyəsinə sərf olunmalıdır. Gənc ailəyə ilk növbədə yaxşı və təmiz bir süd anası tapmağı məsləhət edir. Onda uşaqlar sağlam böyüyər, uzun ömürlü olarlar qənaətinə gəlir. Şair yazır ki, hər iki dün-yanın oğluna və qızına xeyrinin dəyməsini istəyirsənsə onlara bilik ver, ədəb öyrət, ləyaqətlə tərbiyə et. Daha sonra oxuyuruq:

Oğluna qız al, qızını ərə ver,
Ömrünü dərdsiz keçir, ey xoşbəxt ər.
Oğluna bütün ərdəmləri öyrət,
Gələcəkdə bu ərdəmlər sayəsində varlı olsun.
Oğulu avara gəzməyə qoyma,
Avara hər yana gedər, yazıq olar.

Qızı evdə uzun zaman saxlama,
Yoxsa peşmançılıq səni öldürər [1, 304].

Göründüyü kimi, şair atadan oğulu avara gəzməyə qoymamağı məsləhət edir. Əgər oğul elmin dalınca getmirsə, onu bir sənətə, peşəyə yiyələndirməyi atadan arzu edir. Müdrik alim sənətkarı minnətsiz, öz əlinin əməyi ilə çörək qazanan, öz zəhməti sayəsində məişət keçirən zümrəyə bənzədir. Sənətin minnətsiz bir iş olduğunu və bununla da oğulun yaxşı güzəran sahibi olacağını bildirir. Çünki sənətkar həm öz əlinin zəhmətiylə yaşayır, həm də özgələr onun işindən faydalanır. Sənət insanın başını qatır, o, dedi-qoduçuluq, vasvasalıq etməkdən uzaq olur.

Ata nəsihətini sən möhkəm tut,
Günün uğurlu olar, sənə sevinc gətirər.
Atanı, ananı sevindir, onlara xidmət et,
Bu xidmətin əvəzində minlərcə xeyir görərsən [1, 126].

Yekun olaraq qeyd edək ki, "Qutadğu bilig" əsərindəki müdrik fikir və nəsihətlər böyük arzu və imkanlarla fəaliyyətə başlayan, lakin həyatın sirlərinə bələd olmayan gənc nəslin etibarlı bələdçisidir desək yanılmarıq. "Qutadğu bilig" gənc nəslə bəşəriyyətin yaratdığı ən gözəl mənəvi sərvətləri bəxş etməklə birlikdə, insana insanlığın sirlərini öyrədir, onun valideyn-övlad qarşısındakı borcunu və vəzifələrini yada salır.

## ƏDƏBİYYAT


1. Balasaqunlu Y. Qutadğu bilig. Bakı: Avrasiya press, 2006, 440 səh.
2. Azərbaycan Sovet Ensiklopediyası. Bakı: Qızıl Şərq, 1976, 592 səh.
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti (Toplayanı və tərtib edəni Əziz Mirəhmədov). Bakı: Maarif, 1978, 200 səh.
4. Əhmədov H. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı: Maarif, 2012, 544 səh.
5. Hüseynzadə R. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: Elm, 2005, 272 səh.
6. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 750 səh.
7. Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 388 səh.

**UOT 37**

# TƏLİM PROSESİNİN İNSANŞÜNASLIQ ARXİTEKTONİKASI

***Mələk Əlislam qızı Zamanova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***zamanovamelek71@gmail.com***

**Açar sözlər:** *təlim, sinergetizm, arxitektonika, özünütəkmilləşdirmə, özünüinkişaf*

*Məqalədə təlimin mahiyyətinə müxtəlif yanaşmalar nəzərdən keçirilir. İnsanı şəxsiyyət kimi yetişdirməyin ən başlıca məsələ olduğunu qəbul etməklə məktəbin və pedaqoqun başlıca vəzifəsi onların fəaliyyətinin insanşünaslıq mahiyyəti vurğulanır. "Arxitektonika" anlayışı nəyinsə harmonik şəkildə qurulumasını bildirir. Pedaqoji arxitektonika tərkib hissəsi tədris prosesinin arxitektonikası olduğu pedaqoji sistemlərin harmonik şəkildə qurulması qeyd olunur.*

## ЧЕЛОВЕДЧЕСКАЯ АРХИТЕХТОНИКА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Мяляк Заманова***

**Ключевые слова:** *обучение, синергетика, архитектоника, саморазвитие самосовершенствование*

*Суть статьи заключается в рассмотрении различных подходов в процессе обучения. Признание важности совершенствования личности как личности является первостепенной задачей школы и педагога, важность человеческой деятельности в их работе. Понятие «архитектоника» означает, что оно построено гармонично. Упоминается гармоничное построение педагогических систем, где педагогический компонент архитектоники является архитектурой учебного процесса.*

## THE HUMAN ARCHITECTONIC OF THE TRAINING PROCESS

***Melek Zamanova***

**Key words:** *training, synergy, architectonics, self-development, self-improvement*

*In the article the different approaches to the essence of training are looked through. Accepting that training the human as the personality is the most important issue, the essence of human studies of the school and pedagogue is mentioned as the main task of their activities. The concept of "architectonics" means being established of something in the harmonic form. It is noted that as the content part of the educational process is architectonic in the pedagogical architectonics, the pedagogical systems are formed harmonically.*

Təlimin mahiyyəti məhz ondan ibarətdir ki, o öz başlıca təyinatına görə həyatın bir tərəfinə - biliklərin, bacarıqların və vərdişlərin mənimsənilməsinə bərabərləşdirilmir, insanın şəxsiyyət kimi formalaşmasını təmin etməyə xidmət edir. Tərbiyə kimi təlimin də bütünlükdə tam şəkildə, lakin təkcə spesifik sahədə - tədris fəaliyyəti sahəsində sosial rollar sistemini yerinə yetirməyə hazır və qadir olan harmonik inkişaf etmiş şəxsiyyətin formalaşması məqsədi vardır.

Tədris prosesini nə üçün dəyişmək lazımdır? Təlimin hazırki şəkildə qeyri – effektiv olması barədə bizim özümüzə hesabat verməyimiz zəruridir. Uşaqların böyük hissəsi pis oxuyurlar, səthi biliklərə malikdir, tədrisə maraqları itir, deqradasiya edirlər və "çətin şagirdlərə" çevrilirlər. Yaranmış böhrandan çıxış təkcə təlimin köhnə mexanzminin təkmilləşdirilməsinin didaktik və metodiki üsullarından deyil, həm də tədris prosesinin taktika və strategiyasının dəyişməsindən ibarətdir. Bu yolu sistemli sinergetik pedaqoji paradiqma göstərir, o obyektiv inkişaf qanunlarını – sistem sinergetizmi qanunlarını mənimsəyərək şəxsiyyətin və tədris prosesinin inkişafının şəxsiyyətin sinergetizmi ilə bağlı olan həqiqi hərəkətverici qüvvələrini kəşf etdi. Başa düşmək vaxtıdır ki, təlimdə ayrılıqda götürülmüş əl, göz, şüur, hisslər deyil, şəxsiyyət sistem kimi hərəkət edir. Bu sistem də hər hansı digər sistem kimi öz fəaliyyət ifadəsində sistemli sinergetik xarakterə malikdir. Bu kontekstdə sistemli sinergetik pedaqoji paradiqma homosentrik strategiyanı elan etdi, bu strategiyaya əsasən şəxsiyyət istənilən pedaqoji sistemin nüvəsi olmalı ali dəyərdir. İctimai inkişafın mərkəzi kimi insana, şəxsiyyətin sosial fəaliyyət qabiliyyətinin asılı olduğu obyektiv sosial rollar sistemini tam yerinə yetirməyə hazır və qadir olan harmonik şəxsiyyətin tərbiyəsinə yönəlməklə biz tədris prosesinin taktikasının da dəyişməsinin zəruri olduğu barədə nəticəyə gələ bilmərik. İnsanı şəxsiyyət kimi yetişdirməyin ən başlıca məsələ olduğunu qəbul etməklə biz labüd olaraq bu nəticəyə gəlirik ki, məktəbin və pedaqoqun başlıca vəzifəsi onların fəaliyyətinin insanşünaslıq mahiyyətidir. Bu ilk növbədə, tədris prosesinə aiddir, bu prosesə vaxtın böyük hissəsi ayrılır və şəxsiyyətin formalaşmasında potensial olaraq daha çox imkanlara malikdir.

Çoxdan sübut edilmişdir ki, uşaqlar bacarmadıqları üçün pis oxumur, ona görə pis oxuyurlar ki, oxumaq istəmirlər və belə istək bütünlüklə onların

şəxsiyyət kimi, bu prosesin özünütəkmilləşdirmə, özünüinkişaf vəzifələrini həll etməyə qadir olan subyektləri kimi formalaşma dərəcəsi ilə təyin edilir. Bütün bunlar o deməkdir ki, təlimin insanşünaslıq taktikasına keçidi məktəb böhranını tamamilə və təlim böhranı problemini isə qismən həll etməyə imkan verən yoldur. Lakin belə keçidi həyata keçirməyə imkan vermək üçün təlimi harmonik sistem kimi yaradaraq yeni şəkildə qurmaq lazımdır. Bu tələbi tədris prosesinin insanşünaslıq arxitektonikası daha çox ödəyir. "Arxitektonika" anlayışı nəyinsə harmonik şəkildə qurulumasını bildirir. Pedaqoji arxitektonika tərkib hissəsi tədris prosesinin arxitektonikası olduğu pedaqoji sistemlərin harmonik şəkildə qurulmasıdır Biz obyektiv inkişaf qanunlarından bilirik ki, pedaqoji sistemlər istənilən digər sistemlər kimi onları təşkil edən elementlərin sinergetizmi sayəsində mövcuddur və inkişaf edir. Bu sinergetizmin və sistemin mövcudluğunun zəruri şərti onun harmoniyasıdır (onun elementlərinin tək vahid halında onların sistemli qarşılıqlı fəaliyyətində birləşməsi, uyğunluğu, qarşılıqlı tamamlaması, yanaşı olması, birləşməsi). Təlimi insanşünaslıq prosesi kimi qurmaq üçün onu harmoniya qanununa əsasən qurmaq, yəni arxitektonik sistem formalaşdırmaq lazımdır. Tədris prosesinin insanşünaslıq arxitektoni-kasına ən vacib tələbləri sadalayaq, bu zaman nəzərə almaq lazımdır ki, bir çox məsələlər artıq pedaqoqun və şagirdlərin fəaliyyət nəzəriyyəsində şərh edilmişdir. [2.,245-247]

Bu tələb, şübhəsiz ki, təlimin ən əsas məqsədinə aid edilir. Belə məqsəd (yuxarıda ifadə edilən) texnokrat, yalnız şagirdlərin biliklərinin, bacarıqlarının və vərdişlərinin formalaşmasına yönlənmiş deyil, sistemli rollu olmalıdır. Əgər təlimin məqsədini son dərəcə sadə dillə ifadə etsək, şəxsiyyəti spesifik tədris fəaliyyətində obyektiv sosial rollar sisteminin yerinə yetirilməsinə hazırlıqdır, onun törəmə və aralıq nəticəsi şagirdlərin davranış və fəaliyyətinin istiqamət-lənmə əsasıdır. Məqsədin spesifik nəticəsi tədrisin istiqamətlənmə əsasının, yəni tədrisin subyekti kimi formalaşmasıdır, yekun nəticə isə biliklər, bacarıqlar və vərdişlər sisteminin mənimsənilməsidir. Belə ifadə edildiyi zaman təlimin məqsədi insanşünaslıqdır. O pedaqoqa strateji istiqamət verir ki, bu da onun fəaliyyətində başlıca vəzifədir, yəni şəxsiyyətin həyat fəaliyyətinin, onun hər zaman sistemli sinergetik olmağa çalışan vacib qüvvələrinin subyekti kimi formalaaşmasıdır.

Belə yönlənmə məqsədin fəaliyyətin son (gözlənilən) nəticəsinin obyektiv başa düşülməsi ilə uyğunlaşır, çünki şübhə etmək olmaz ki, pedaqoji məqsəd şəxsiyyətin ayrı – ayrı keyfiyyətləri deyil, məhz fəaliyyət qabiliyyətli və harmonik şəxsiyyətdir. Yalnız belə şəxsiyyət bilik daşıyıcısı olmağa və onu təcrübədə tətbiq etməyə qadirdir. Tədris prosesinin belə yönləndirilməsi həddən artıq qeyri – adidir, çünki əsrlərlə iddia edilirdi ki, təlimin məqsədi şagirdlərdə biliklərin formalaşmasıdır, lakin bu stereotipi dəf etmək zəruridir, çünki o şəxsiyyətin inkişaf məntiqinə ziddir. Bu ziddiyyət ondan ibarət deyil ki, bu

biliklər birinci yerdədir (onlar bu yerdə olub və olacaq), ondan ibarətdir ki, hansı biliklər, hansı tərkibdə və birləşmədə, hansı digər komponentlərlə şəxsiyyəti inkişaf edən sistem kimi təmin edir.

Pedaqoq üçün əsas məqsəd ümumi yönlənmədir. Onun üçün daha yaxın və aydın olan məqsəd şagirdlərin konkret mövzunu öyrəndiyi, konkret elmi bilikləri mənimsədiyi konkret məşğələdir. Bu məqsəd necə olmalıdır? Əgər nəzərə alsaq ki, konkret məşğələ də insanşünaslıq prosesi olmaldır və onun məqsədi əsas məqsədlə uyğunlaşmalıdır, o zaman onu necə ifadə etmək lazımdır?

Təlim prosesini mürəkkəbləşdirməmək üçün, lakin eyni zamanda da onun mahiyyətini təhrif edərək onu sadələşdirməmək üçün prinsip etibarilə, operativ məqsəd (və ya konkret məşğələnin məqsədi) də insanşünas olmalıdır, yəni şagirdlərin sosial rolları mənimsəməsinə yönlənməli, onlarda davranış və fəaliyyətin istiqamətlənmə əsasının formalaşmasınını təmin etməlidir. Lakin təlimin operativ məqsədi öz təbiətinə görə binardır, yəni bir – birindən ayrılmayan iki hissədən – pedaqoqun fəaliyyətinin məqsədi və şagirdlərin fəaliyyətinin məqsədindən ibarətdir. Təlim və biliklərin mənimsənilmə prosesinin məhsuldar olması üçün bu məqsədlər harmonik olmalıdır, yəni bir – birinə uyğun olmalı, qarşılıqlı birləşməli, bir – birlərini qarşılıqlı tamamlamalıdır. Belə harmoniklik nəticəsində tədris prosesində, yəni onun tədris fəaliyyətində tərbiyəvi qarşılıqlı təsirin sinergetizmi və şəxsiyyətin sinergetizmi yaranır.

Tədris fəaliyyəti anlayışına dərketmə və praktik fəaliyyət daxildir (məsələn, şagirdlərin əmək fəaliyyəti). Bir çoxları belə fikirləşməyə meyllidir ki, buna öz - özünə nail olunur. Lakin real gerçəklik isə bizə sübut edir ki, bu belə deyil. xüsusi hazırlıq işi – tədris fəaliyyətində şagirdlərdə dispozisiyanın formlaşması, yəni biliklərin mənimsənilməsi, bacarıq və vərdişlərə yiylənməsi qabiliyyəti olmadan onlarda zəruri fəallıq yaranmır. Bu fəallığın yaranması üçün hər dəfə şagirdlərin vacib qüvvələrinin sinergetikləşdirilməsi baş verməlidir, maraqlar, tələbatlar, borc, iradə vəhdət halında birləşir, qoyulmuş məqsədə çatmaq cəhdində təzahür edir.

Müəyyən inkişaf pilləsində (davranış və fəaliyyətin istiqamətlənmə əsasının formalaşması dərəcəsinə əsasən) şagirdlər özləri özlərində zəruri sinergetik vəziyyət formalaşdırırlar, lakin burada pedaqoqun köməyi həmişə zəruridir. Bütün bunlar sübut edir ki, pedaqoq qarşısında (tədris vəzifələrinin təmin edilməsindən başqa) həmişə insanşünaslıq vəzifələri durur, onları həll etmədən tədris prosesi tam həyata keçirilə bilməz. Əlbəttə ki, söhbət təkcə şagirdlərin tədris fəaliyyətinə daxil edilməsi zəruri olan müvəqqəti vəziyyətləri haqqında getmir, həm də daha geniş vəzifə barədə - şəxsiyyətin davranış və fəaliyyətinin istiqamətlənmə əsasının formalaşmasından gedir. Beləliklə, şagirdlər üçün istənilən məşğələnin məqsədi biliklər sisteminin mənimsənilməsi, praktik bacarıqlara və vərdişlərə yiyələnməkdir. Pedaqoq üçün bu

məqsəd binardır, çünki ona şəxsiyyətin davranış və fəaliyyətinin istiqamətlənmə əsasının formalaşması və şagirdlərin tədris – idrak və praktik fəaliyyətinin tənzimlənməsi daxildir. Bu halda istiqamətlənmə əsası anlayışına operativ istiqamətlənmə (şəxsiyyətin fəaliyyətə psixoloji hazırlığının situativ vəzifələri) və sosial rolların, o cümlədən, tədrisin subyekti kimi belə rolun yerinə yetirilməsi üçün zəruri olan dəyərlər, biliklər və bacarıqlar sistemi ilə bağlı olan perspektivli istiqamətlənmə daxil edilir. Yalnız bu məqsədlərin eyni zamanda həll edilməsi zamanı pedaqoqun özü tərəfindən onun fəaliyyətinin məqsədi və şagirdlərin fəaliyyətinin məqsədi harmonikləşdirilə bilər.

Pedaqoji fəaliyyət nəzəriyyəsindən bilirik ki, pedaqoji fəaliyyətöz təbiətinə görə sistemli funskionaldır, çünki sistemli funskional qanunauyğunluğa tabe olur Pedaqoji fəaliyyət öz sistemli funskional quruluşunda və ölçülməsində harmonikdir (elementləri qarşılıqlı şəkildə birləşən, tamamlanan harmonik sisstem kimi qurulur) və öz xarakterinə görə ənənəvi didaktikada olduğu kimi texnokrat deyil, insanşünasdır. Pedaqoji fəaliyyətin sistemli funskional nəzəriyyəsində bu məsələlərin ətraflı şəkildə nəzərdən keçirildiyi üçün bu halda biz bu nəzəriyyənin bütün başlanğıc müddəaları təlimdə də etibarlı olduğu ilə məhdudlaşırıq.

Pedaqoqun təlimdə ən üstün məqsədinin biliklərin və bacarıqların formalaşması, yəni bu prosesin ayrı funksiya ilə (formalaşdırıcı) məhdudlaşdırılması faktı da bununla izah edilirdi və ya bu zaman qeyd edilirdi ki, digər vacib funksiyalar da həyata keçirilir. Lakin onların sistemi və harmonik birləşməsi təyin edilmirdi və bu müəllimin təlimdə insanşünaslıq vəzifələrini həll etmək imkanlarında birbaşa özünü göstərirdi.

Tədrisin sistemli funksional qurulması zamanı vəziyyət prinsipial olaraq dəyişəcək, çünki pedaqoq insanşünaslıq komponentləri sistemində öz fəaliyyətinin obyektiv strukturunu görərək və başa düşərək öz həqiqi istiqamətlər sistemini və qoyulmuş məqsədlərə nail olmaq şərtlərini yeni tərzdə başa düşür. Pedaqoji fəaliyyətin sistemli funskional istiqamətlənmə əsası onun həqiqi mənasında eyni zamanda müəllimin və şagirdlərin qarşılıqlı fəaliyyətinin ən mürəkkəb dinamikasını və onun şərtlərini əks etdirən insanşünaslıq fəaliyyətidir. Bu mənada tədrisin sistemli funksional qurulmasına keçid tədris prosesinin insanşünaslıq arxitektonikasının əsas tələblərindən biridir.

Biz özünütərbiyə fəaliyyəti nəzəriyyəsindən bilirik ki, şagirdlərin tədris – tərbiyə prosesində bütün fəaliyyət növləri sistemli – funksional təbiətə və struktura malikdir, çünki sistemli – funksional qanunauyğunluqlara tabe olur [3. S. 87-93].Bütün bunlar o deməkdir ki, şagirdlərin tədrisi də sistemli funksional proses kimi həyata keçirilməlidir: şagirdlər istənilən məsələni (dərketmə, praktik) həll edərkən obyektiv funksiyalar sistemini həyata keirməlidir, bu funksiyalar prosedur kimi yalnız elmi biliklərin izahı və ya interpretasiyası çərçivəsində tədris vəzifəsinin üsullarına və qaydalarına yiyələnməyə bərabər

edilmir. Bu funksiyalar fəaliyyətin bütünlükdə genişləndirilməsini və fəaliyyətin istiqamətlənmə əsasına yiyələnməsini nəzərdə tutur. Bu halda tədris şagird üçün insanşünaslıq prosesinə çevrilir, bu prosesdə şəxsiyyətin bütün vacib qüvvələri iştirak edir və bu prosesin tam dəyərli subyektinə çevrilir.

Son zamanlar didaktikada təlimin texnokrat sistemini sındırmaq üçün çox işlər görülmüşdür. Belə ki, xüsusən, Y. K. Babanskinin səyləri sayəsində şagirdlərin tədris prosesinin qurulmasına çox funksiyalı yanaşmadan faktiki olaraq imtina baş verdi. N. V. Kuzminanın psixoloji tədqiqatlarının məlumatlarını istifadə edərək o ilk dəfə tədrisin polifunksional sistemini nəzəriyyə və təcrübəyə tətbiq etməyə başladı [1.s-11, 12]. Şagirdlərin fəaliyyəti sırf tədris məsələlərinin həll edilmə qaydalarına və üsullarına yiyələnməyə nisbətən daha geniş izah edilməyə başladı. Onun strukturuna fəaliyyətin vəzifələrinin qurulması təcrübəsinə yiyələnmək, özünənəzarət, özünüqiymətləndirmə kimi komponentlər tətbiq edildi və bununla da şagirdlərin tədris fəaliyyəti sisteminin formalaşmasına istiqamət yaranmağa başladı. Lakin sonrakı təcrübədə köhnə texnokrat mövqelər və çoxfunksiyalı yanaşma yenidən bərpa edildi, lakin yeni "qablaşdırmada" və şəxsiyyətin inkişafının idarə edilmə konsepsiyası şəklində. Bununla belə, didaktikada yeni istiqamətlər dönməzdir.

Tez və ya gec təlimin insanşünaslıq taktikası hər yerdə qəbul ediləcək. Bunu hazırda xarici pedaqogikada toplanmış nailiyyətlər də sübut edir. Belə ki, xüsusən, Almaniyada "kommunikativ didaktika" adlanan didaktika, ABŞ-da təlim və tədrisin sosial – psixoloji konsepsiyası, Yaponiyada təlimin humanist əsasları ideyası, bir sıra ölkələrdə (o cümlədən, Rusiyada da) təlimdə şəxsiyyət istiqamətləri ideyası çox geniş inkişaf etmişdir. Baxmayaraq ki, ayrılıqda götürülmüş bütün bu ideyalar təlimi ayrı – ayrı mövqelərdən innovasiya etmək cəhdini əks etdirir, lakin ümumi tendensiya tədris fəaliyyətinə sistem kimi yiyələnməkdir. Bu kontekstdə didaktikanın və təlimin təcrübəsinin, ilk növbədə, sistemli funksional yanaşma əsasında sistemli sinergetik pedaqoji paradiqmanın təşəbbüs göstərdiyi tədris prosesinin innovasiya edilməsi aydın olur. Biz ənənəvi və yeni yanaşma imkanlarını müqayisə etdikdə onun zəruriliyi xüsusilə nəzərə çarpır. Şagirdlərin idrakı onun qurulmasının mövcud sistemində bu qədər qeyri – effektiv olması xüsusi sübutlar olmadan da görünür. O tədris prosedurlarına bərabərləşdirilir, şəxsiyyətin vacib qüvvələri iştirak etmir, fəaliyyətin inkişaf etmiş istiqamətlənmə əsası ilə təmin edilməmişdir və şəxsiyyətin birbaşa idarə edilməsinə əsaslanır. Şagird öz fəaliyyəti sisteminə, onun istiqamətlənmə əsasına yiyələndikdə özütənzimlənən, özüidarə edilən sistemə çevrilir.

Mübaliğəsiz qəbul etmək olar ki, belə harmonikləşdirmə tədris prosesinin insanşünaslıq arxitektonikasında mərkəzi halqadır, çünki təlim iki növ fəaliyyətdən ibarətdir, tədrisdən, yəni şagirdləri öyrədən və tərbiyə edən pedaqoqun fəaliyyəti və öyrənməkdən, yəni pedaqoqun köməyi ilə özüöyrənən,

özünütəkmilləşdirən şagirdlərin fəaliyyəti. Lakin bu fəaliyyətlərin vahid və fəaliyyət qabiliyyətli sistem yaratması üçün onlar (harmoniya qanununa görə) harmonik münasibətdə olmalıdır, yəni qarşılıqlı birləşməli, qarşılıqlı uyğun olmalı və bir – birlərinə məhsuldar şəkildə qarşılıqlı kömək etməli, bir – birlərini qarşılıqlı tamamlamalı və təmin etməlidir. Harmoniya prinsipi bu prosesin sistemlik dərəcəsini də, onun sinergetizm dərəcəsini də, onun effektivlik dərəcəsini də təyin edir. Lakin təlim prosesi harmonik olmaqla eyni zamanda təbii insanşünaslıq prosesinə çevrilir. Bu nəticənin dərinliyini başa düşmək üçün şəxsiyyətin formalaşma prosesinin cəmiyyətin və ya konkret cəmiyyətin sosial – pedaqoji infrastrukturundan, yəni bu prosesin yerinə yetirildiyi şərtlərin sistemindən asılılığı haqqında ən vacib müddəanı yada salmaq zəruridir [2.S.94-104]. Tədris – tərbiyə prosesinin infrastrukturu təkcə bizim sosial – pedaqoji adlandırdığımız və demək olar ki, görünməz şəkildə (infrastruktur olaraq) şəxsiyyətin formalaşmasına və onun davranışına təsir edən ictimai şərtlər deyil. Bu həm də infrastruktur xarakterə malik olan tədris – tərbiyə prosesinin özünün konkret şərtləridir. Onlar sanki bu prosesin mahiyyətinin özündə gizlənmişdir, latentdir. Pedaqoq hər hansı dəyəri, münasibətlər sistemini, davranış və fəaliyyət prinsiplərini, bu fəaliyyətin normalarını xüsusi olaraq izah etməyə bilər, lakin həyat tərzi vasitəsilə bu dəyərlər, normalar, prinsiplər təbii şəkildə tərbiyə edilənlər tərəfindən hop-durulur. Belə gözəgörünməz tərbiyəvi təsirlər daha effektiv olur. Bu da tədris prosesinin şəxsiyyətin yaradıcı sinergetizmini yaradan daxili harmoniyasıdır. Bu harmoniyaya çatmaq təbii insanşünaslıq prosesinə keçiddir, bu zaman tədris prosesi süni qaydalara və reqlamentlərə deyil, təbii münasibətlərə, qanunauyğun əsaslara əsaslanır. Pedaqoqun hərəkətlərində belə təbiilik insanın həyat fəaliyyətinin harmoniyasının canlı təzahürüdür. O həmişə bütün yaşda olan şagirdlər tərəfindən yüksək qiymətləndirilir və onlar üçün etalon, nümunə kimi xidmət edir. Əlbəttə ki, bu pedaqoji sənətkarlığın zirvəsidir, pedaqoji işdə "aktyor" deyil, əsil tərbiyəçi olan hər bir müəllim bu zirvəyə çatmağa can atır. Bu harmoniyaya yol pedaqoq və şagirdlərin fəaliyyətinin təbii harmoniyasından keçir. Ona nail olmaq imkanını tədris – tərbiyə prosesində pedaqoqun və şagirdlərin fəaliyyətinin sistemli funksional nəzəriyyəsi açır, bu nəzəriyyə yeni pedaqoji paradiqmanın və yeni didaktikanın nüvəsidir.

## ƏDƏBİYYAT

1. Komenski Y.A. Böyük didaktika. (Elmi redaktoru, nəşrə hazırlayanı və "Ön sözün" müəllifi prof. F.A.Rüstəmov) Bakı, "Elm və Təhsil", 2012, 388 s.
2. Таланчук Н.М. Архитектоника образовательного процесса. Т.2, Казань, 1990, 111с.
3. Таланчук Н.М. Архитектоника образовательного процесса. Т.1, Казань, 1990, 97 с.

UOT 371

# TƏHSİL MÜƏSSİSLƏRİNİN FƏALİYYƏTİNDƏ İCTİMAİ ƏLAQƏLƏRİN ROLU

***Fərhad Cabbar oğlu Hüseynov***
***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası***
***farhadland@yahoo.fr***

**Açar sözlər:** *təhsil sistemi, ictimai əlaqələr, tədris prosesi*

*Təhsil xidmətləri sahəsində demoqrafik vəziyyət şiddətli rəqabət yaradır. Mövcud olan vəziyyətdə təhsil sahəsində içtimai əlaqələrin rolu kəskin şəkildə artır. Bu şəraitdə öz məhsulun savadlı irəliləməsi müvəffəqiyyətli fəaliyyətin həlledici faktoruna çevrilə bilər. Buna görə ictimai əlaqələrin fəaliyyəti prosesində effektivli kommunikasiya sisteminin yaradılması təhsil müəssisənin rəqabət qabiliyyətinin artırılmasına köməklik edir.*

## ДЕЯТЕЛЬНОСТЬ ПО СВЯЗЯМ С ОБЩЕСТВЕННОСТЬЮ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Фархад Гусейнов***

**Ключевые слова:** *система образования, социальные отношения, учебный процесс*

*Демографическая ситуация в сфере образования создает жесткую конкуренцию. В сложившейся ситуации роль общественных отношений в сфере образования резко возрастает. В этой ситуации грамотное продвижение своего продукта может стать решающим фактором для успешной работы. Именно поэтому создание эффективной системы коммуникации в процессе социальных отношений способствует повышению конкурентоспособности образовательного учреждения.*

# THE ROLE OF PUBLIC RELATIONS ACTIVITIES IN EDUCATIONAL INSTITUTIONS

***Farhad Huseynov***

**Keywords:** *educational system, social relations, educational process*

*The demographic situation in the field of education creates fierce competition. In this situation, the role of social relations in the field of education increases dramatically. In this situation, competent promotion of your product can be a decisive factor for successful work. That is why the creation of an effective communication system in the process of social relations contributes to the competitiveness of an educational institution.*

Təhsil xidmətləri sahəsində demoqrafik vəziyyət ciddi rəqabət yaradır. Mövcud şəraitdə təhsil sahəsində içtimai əlaqələrin rolu kəskin şəkildə artmışdır. Bu şəraitdə xidmətlərin inkişafı müvəffəqiyyətli fəaliyyətin həlledici faktoruna çevrilə bilər. Buna görə içtimai əlaqələrin fəaliyyəti prosesində effektivli kommunikasiya sisteminin yaradılması təhsil müəssisənin rəqabət qabiliyyətinin artırılmasına köməklik edir.

Təhsil sistemində içtimai əlaqələr haqqında ətraflı məlumat verməzdən əvvəl, "ictimai əlaqələr" terminini aydınlaşdırmaq lazımdır.

İctimai əlaqələr fəaliyyəti sahəsini ənənəvi olaraq iş və siyasət sahələrilə əlaqələndirirlər. İctimai əlaqələrdə texnologiyaların savadlı tətbiq edilməsi hər bir sahədə özünü göstərir. Təhsil sahəsi istisna hesab olunmur.

Təhsildə içtimai əlaqələr - təhsil müəssisəsinə və onun təhsil xidmətlərinə müxtəlif kanallar ilə məlumatın ötürülməsi, marağın təmənnasız təmin edilməsidir. İctimai əlaqələr - təhsil müəssisənin işini daha müvəffəqiyyətli olması məqsədilə və onun nüfuzunun artırılması üçün içtimai fikirin təşkilidir. İctimayətlə əlaqələrin savadlı qurulması idarəedici təşkilatlar, valideyinlər, müəllimlər və tələbələr tərəfindən tədris müəssəsinə etibarlığı formalaşdırır.

İctimai əlaqələr ilə praktiki olaraq hər bir tədris müəssəsi şüurlu məşğul olur. Bu valideyin iclasları, bölgə sakinləri və rəhbərliyi, içtimai təşkilatlar ilə işdir.

Müasir dövrdə təhsildə içtimai əlaqələr çox vacibdir. Hər bir təhsil müəssisəsi deyə bilər ki, onların təhsil müəssisəsi ən yaxşısıdır. Lakin bu təhsil ocağının fərqli, unikal olması haqqında digərləri necə məlumat ala bilər, övladları üçün məktəb seçən valideyinləri necə inandırmaq olar? Məlumdur ki, bu gün müəyyən ixtisaslaşmalar ilə heç kimi təəcübləndirmək olmaz, hər bir

məktəb və ya lisey, gimnaziya xarici dilin, humanitar və ya sosial-iqdisadiyat sahəsini dərindən öyrədilməsini təqdim edir. Hazırki şəraitdə valideyinlər övladlarını hansı məktəbə aparılmalarını və əlavə xidmətlərdən nəyi seçmələrin özləri müəyyən edirlər. Lakin onlar, bir qayda olaraq təhsil müəssisəni seçərkən, şəhərdə tam mövcud olanlardan çıxış etmirlər, yalnız yaşayış evinə yaxın olan bir neçə müəssisələr haqqında anlayış və məlumat, inam və etibarlıq yaradanlara üstünlük verirlər. Şagird və onların valideyinləri adətən evə yaxınlıq, rahatlıq və tədris otaqlarının şəraitinə, pedaqoji kollektivin xeyirxahlığına, dərs cədvəlinə, tədris planının xüsusiyyətlərinə, eyni zamanda öz rayonlarında olan məktəbin nüfüzuna xüsusi diqqət yetirirlər.

Öz tədris müəssisəsinin fəaliyyətində içtimai əlaqələrin qurulması üçün sadə reklam bukletlərin hazırlanması kifayət etmir. İçtimai əlaqələrlə və şəxsiyyətlər arası əlaqələr prosesində müəssisədə həyata keçirilən təhsil proqramları, unikal şərait və ya müəllimlər, təhsil xidmətlərinin qiymətləri, böyük layihələrdə iştirakı, işçilərin nailiyyətləri, şagirdlərin müvəffəqiyyəti, tədris prosesinin təşkili haqqında həqiqi və inandırıcı məlumat verilməlidir. Tədris planlarından, təhsil prosesinin təşkili, tədris olunan fənlər haqqında məlumatların toplanmasından əlavə olaraq təhsil müəssisənin psixoloji iqlimi vacib və müəyyənedici rol oynayır. Müəssisənin orijinallığını, keyfiyyətini, qiymətliliyini çatdırmaq üçün yalnız içtimai əlaqələrlə fəaliyyəti və şəxsiyyətlərarası ünsiyətlər prosesində çatdırmaq olar. Buna görə içtimai əlaqələrlə fəaliyyət bu sahədə öz spesifikasına malikdir və aparıcı məna daşıyır, lakin bu sahədə işlərin təşkili kifayət qədər zəifdir [3].

Təhsil mühitində içtimaiyətlə müvəffəqiyyətli əlaqələr fəaliyyətinin əsas meyarı təhsil xidmətlərinin müxtəlif kateqoriyalı istehlakçılarının tələbatının ödənilməsi hesab edilə bilər. İctimai əlaqələr fəaliyyətinin hədəf nəticəsi: ilk növbədə, təhsildə tədris şəxsiyyətinin ehtiyaclarının təmin edilməsi; ikincisi, təhsil müəssisəsi tərəfindən göstərilən xidmətlərin yüksək keyfiyyəti ilə bağlı ictimai rəy; üçüncü, müəllim heyətinin və təhsil müəssisəsinin heyətinin rifah və şəxsi inkişaf şərtləri ilə təmin edilməsi; dördüncü, təhsil keyfiyyətinin yüksək qiymətləndirilməsi. Düzgün təşkil edilmiş içtimai əlaqələrin vacib bir xüsusiyyəti ondan ibarətdir ki, bu iş bir anlıq nəticəyə deyil, uzunmüddətli faydaların nail olunmasına istiqamətlənib.

Qeyd etmək lazımdır ki, içtimai əlaqələrin vasitələri hər hansı bir təhsil müəssisəsində daha çox və ya az miqdarda istifadə olunur, lakin fəaliyyətlər hadisələrə, parçalanmaya və əksər hallarda reklamlara və hadisələrə qatıla bilər. Açıq təhsil sistemində bir təhsil müəssisəsinin səmərəli fəaliyyəti və inkişafı üçün kifayət deyil. İctimai əlaqələrin səyləri strateji əsasda həyata keçirilməlidir və təşkilatdakı idarəetmə vəzifələrinə uyğun olmalıdır [2].

Bu gün mütəxəssisləri maraqlandıran yalnız bir məsələdir - təhsil müəssisələrində içtimai əlaqələr fəaliyyətində maksimal fayda gətirən iş sisteminin yaradılması aktualdır.

İlk növbədə, bu cür fəaliyyəti təşkil etmək üçün hansı vasitələrdən istifadə edə biləcəyik. İctimaiyyətlə əlaqələr fəaliyyəti media, məsləhətləşmələr, sərgi fəaliyyəti, təqdimatlar, hadisələrlə işləməkdən ibarətdir. Bundan əlavə, yerli mətbuat və yerli hakimiyyət orqanları, poliklinikalar, sosial xidmətlər, iri müəssisələr və s. ilə əməkdaşlığı öyrənmək lazımdır.

İctimai əlaqələr üzrə fəaliyyətin bir neçə növü vardır (ictimai əlaqələr və obyektin məqsədindən asılı olaraq fərqlənirlər). İctimai əlaqələr fəaliyyətinin əsas növlərini nəzərdən keçirək.

**Korporativ ictimai əlaqələr (təşkilatın imicinin formalaşması)**

Bir təhsil müəssisəsinin imici əsasən onun daxilində işləyənlərdən asılıdır. Uşaqları məktəbə apararkən, valideynlər çox hallarda məktəbi yox, ancaq konkret bir müəllimi seçirlər. Lakin təhsil müəssisəsinin bütöv bir təsviri çox vacibdir.

Təhsil müəssisəsinin müsbət imicinin yaradılması üçün onun təsviri vacibdir: nə sizin təhsil müəssisəsi görmək istəyirəm - böyük məktəb evi, uşaq bacarıqlarının inkişafı, yenilikçi platforma üçün elit təşkilat, ziyalılar üçün bir məktəb, yaradıcı laboratoriya? Bunun üçün hansı imkanlar var? Yaxınlıqdakı bir neçə gimnaziya varmı və ya iş sahəsindəki məktəbinizdir? Valideynlərin və şagirdlərin şərti nədir? Bütün bunlar PR-in dəstəklənməsi üçün dəstəklənməlidir və bu səbəbdən hər hansı bir şəraitdə məktəbin effektiv fəaliyyətini təmin etmək üçün marketinq tədqiqatları məsələsidir.

Qurumun imicinin mühüm komponenti valideynlərin etimadı təşkil edir. Onlar sakit və əmin olmalıdırlar ki, burada onların uşağına layiqli keyfiyyətli təhsil veriləcək, təhqir etmədən, anlanlb və dəstəklənəcək.

Belə fəaliyyətə nail olmaq üçün əsas təhsil xidmətləri təşkilatı şagirdlərin valideyinlər və ya qanuni nümayəndələrinə özləri haqqında məlumat verilməsi bacarığıdır. Onlara lazımi məlumatın çatdırılması üçün şəraitin yaradılması vacıbdir. Burada sözlər belə seçilməlidir ki, çoxsaylı xüsusi terminlərin və ya mürəkkəb elmi ifadələr olmasın. Bu nöqteyi nəzərdən ən təsiredici üsullardan biri müəssisənin açıq olması, valideyinlərə hər hansı dərsdə iştirak etmə və hər hansı müəllimin işinə müşahidə etmək imlanların yaradılması olmalıdır.

İnzibati işçilərin hər hansı çıxışları bu içtimai əlaqələrlə fəaliyyətin bir hissəsidir. Onların çıxış məzmununun hazırlığı - özündə dəqiq və anlayışlı sözlərin, ifadələrin seçilməsini daxil edən böyük yaradıcılıq işidir.

Təhsil müəssisəsinin imicinin vacib təşkiledici hissəsi simvol və atributlar, ənənələrin olmasıdır. Bütün bunlar ruh yaradır. Onlara aiddir: himn,

bayraq, emblem, şuar. Əgər bunların yaradılmasına şagird, valideynlər və müəllimlər cəlb edilərsə onlar bu təhsil müəssisinin hissəsi kimi hiss edəcəklər. Cəlbedici və orijinal görünərsə belə hallar cəmləşdirir və birləşdirir. Qeyd etmək lazımdır ki, ən vacib an - digər təhsil müəssisələrdən fərqləndirici geyim forması və ya digər xarici atributların mövcudluğudur (məsələn, müxtəli rəngli geyimlər və onun üstündə əlavələr). Əgər məktəb geyimlərindən şagirdlər tərəfindən imtina varsa, belə etmək lazımdır ki, onların özlərindən bu təşəbbüs gəlsin. Yaxşı olar ki, məktəbli geyiminin ən yaxşı lahiyəsi müsabiqəsi elan edilsin. Yaxşı olar ki, məktəbli geyimlərinin modellərinin işlənilməsi prosesinə məktəb şurası, müəllimlər və valideyinləri cəlb edilsin. Vacibdir ki, belə modellərin yaradılmasında və onların nümayişində fəal iştirak etsinlər. Münsiflər heyətində formal və qeyri formal liderlərin dəvəti vacibdir. Belə halda, şagirdlərin digər müəssisələrdən fərqli edən eyni geyimlərin istifadəsi onların fikri kimi özlərindən irəli gəlir. Şagird və işçilərin geyim kodunun və xarici görünüş və qaydalarının yaradılması, psixoloji durumun yüksəlməsi və özünə giymətin qorunub saxlanılması - müsbət sosial-psixoloji iqlim və korporativ mədəniyyəti yaradır.

Ənənəvi tədbirlərin yaradılması və keçirilməsi bu tədbir və bayramlara valideyinlərin, rəhbərlərin və media işçilərinin dəvəti korporativ ruhunu ifadə edir (məsələn şagird günü). Şagirdlərə vacibdir ki, onların giymətləndirilməsi nəinki "qiymətlərdə" əks olunsun. Müasir zamanda onların valideyinlərinə internet-onlayn vasitəsilə təşəkkürlüyün bildirilməsi və ya mediada dərc edilməsi vacib istiqamətdir. Radio, çap və tv - bu kütləvi süura ən güclü təsir faktoru hesab edilir.

Medianın diqqətinin cəlb edilməsi üçün onun sosial əhəmiyyətinə diqqət yetirmək vacibdir. Düzgün təqdimatla belə xəbər üçün hər bir tədbir xidmət edə bilər - yeni tikinti, son zəng, yeni istiqamətli siniflərin açılması, xarici qonaqların qarşılanması, konkurslar, sərgilər, iş aksiaları, muzeyin işi və s.

Məktəbə peşəkar media işçilərini dəvət etmək lazımdır. Şagirdlərdən jurnalist olmaq arzusunda olanlar üçün gözəl təcrübə ola bilən mətbuat mərkəzini yaratmaq, məktəbin hər hansı əhəmiyyətli hadisə və tədbirləri haqqında mətbuata mətnlərin göndərilməsi məsləhətdir. Müxtəlif mətn formaların arasında mətbuat şərhi, dəvətnamə, arxa plan, sual-cavab siyahısı, şəkil müsahibəsi, tərcümeyi-hal, media bəyanatı, şəkilli məqalə, hadisə, təbrik, məktub və s. Hər hər birinin yazılış qaydalarını asanlıqla internetdə tapmaq olar.

Media ilə qarşılıqlı fəaliyyət hər iki tərəfin marağı və əməkdaşlığı ilə həyata keçirilir. İnsanlar təhsil sahəsində yeniliklərlə maraqlanırlar. Bir sıra qazetlər, jurnallar və televiziya kanallarında təhsilə həsr olunmuş xüsusi proqramlar mövcuddur. Bu məlumatların bir çox hissəsini onlar özləri əldə edirlər, lakin son illərdə təhsil müəssisələri öz işləri haqqında təhsil prosesində

iştirak edənlərin məlumatlandırılmasına daha böyük diqqət ayırırlar. Oxuculara, tamaşaçılara maraqlı xəbərlər haqqında məlumatları əks etdirən mətbuat vərəqələrini göndərməklə, diqqəti cəlb edirlər. Əlavə olaraq, televiziyanın bir çox jurnalisti maraqlı bir hadisə baş verərsə, hadisə yerinə gəlməyə hazırdır. Bəzi təhsil müəssisələrinin rəhbərliyi belə məlumatların yayılması üçün müxtəlif məlumat mənbələri bu təhsil müəssisəsi haqqında məlumatın dərc edilməsi şansını artırır (köhnə qəzet fayllarını, jurnal məqalələrini, məktubları, şəkilləri görmək); təhsil müəssisəsinin yaranması, onun formalaşması, işləyən və ya tanınmış insanlar ilə bağlı qeyri-adi və ya maraqlı hadisələr; təqaüdçülərin xatirələri (onlar haqqında emosional olaraq video və ya audio daşıyıcılara media haqqında öz hekayələrini yaza bilərsiniz); təhsil prosesinin fotoşəkilləri və videoları. Digər insanları təəccübləndirəcək bir şey tapmalıyıq [1].

İctimai əlaqələrin digər istiqaməti - hakimiyyət orqanları, rəhbərlər və ictimaiyyətlə əlaqələrdir."İctimai" anlayışı (təhsil müəssisəsinə tətbiq edilən) aşağıdakıları əhatə edir:

- təhsil təşkilatının yerləşdiyi ərazinin əhalisi;
- hakimiyyət orqanları;
- məktəbdənkənar tədris-tərbiyə prosesinin yaradılmasına köməklik edən (yol polisi, polis şöbəsi, Fövqəladə Hallar Nazirliyi, idman məktəbləri, kinoteatrlar, muzeylər, klinikalar, veteran təşkilatları, aşpazlar) müxtəlif qurumlar və ictimai təşkilatlar);
- təhsil müəssisəsinin pedaqoji və tələbə qurumları;
- şagirdlərin valideynləri və qanuni nümayəndələri;
- media.

İctimai əlaqələrin fəaliyyətinin sponsorlarla işin qurulması məsləhətdir. Əsas vəzifələrdən biri ondan ibarətdir ki, sponsorluq edən müəssisəsinin rəhbəri davamlı maliyyə yardımı ilə təmin etməyə hazır olsun və bunu zövqlə etsin. Uşaqların onların tanınması üçün onları müxtəlif tədbirlərə dəvət etmək lazımdır, saytda onlara həsr olunmuş bir səhifə açaraq müxtəlif fotoşəkilləri paylaşmaq vacibdir. Bahalı hədiyyələrə ehtiyac yoxdur - media vasitəsilə bölgə şöbələrində nə qədər gözəl sponsor olduğunu, rəhbərin adını bütün ölkəyə yaymaq üçün radio vasitəsi ilə salamlayın. Şəxsiyyət əlaqələrini, təşəkkür məktublarını unutmaq lazım deyil (sponsorlar bağışladığı idman avadanlıqları sayəsində, məktəb idman yarışlarında, olimpiadalarda, elmi konfranslarda qazandığı yer və s. iştirak deməkdir), hətta rayon icra hakimiyyətinin saytında təşəkkür məktubunu göndərmək olar - bu çox inandırıcı haldır

Bu gün ictimai əlaqələrlə fəaliyyətlər bir təşkilat, onun istehlakçıları və bütövlükdə cəmiyyət arasında əlaqə qurma, qarşılıqlı anlaşma, yerləşdirmə və əməkdaşlığı təmin edən bir təhsil müəssisəsinin idarə olunması funksiyalarından biri kimi baxıla bilər. Nəticədə, təhsil sahəsində içtimai əlaqələr fəaliyyətinin texnologiyasının istifadəsinin xüsusiyyətlərini bilmək

yalnız bazarda təhsil müəssisəsinin təşviq edilməsi məsələlərini deyil, həm də təşkilatı ictimai rəy və məlumatları inkişaf etdirməklə təmin etmək kimi vacib idarəetmə vəzifələrini həll etməyə kömək edir; ictimai marağın idarə olunması planlaşdırılması; əvvəlcədən tendensiyanı gözləyərək qurumun müxtəlif dəyişikliklərə hazır olmasını dəstəkləyirik.

## ƏDƏBİYYAT

1. Вифлеемский, А. Б. PR-технологии в образовании. Журнал «PR в образовании» № 1, 2003.

2. Ермоленко И. Специфика осуществления PR-деятельности в сфере платного образования / И. Ермоленко // PR в образовании. – 2010. – №4. – с. 4-15.

3. Как «продвинуть» институт – II, PR коммуникации для негосударственного ВУЗа // PR в России. № 12, 2001.

4. Мажевич, Н. М., Экономические проблемы регионов и отраслевых комплексов / А. А. Жабреев, Н. П. Жук. Журнал «Проблемы современной экономики», № 1 (37), 2011.

**UOT 37.01**

# XIX ƏSRİN ORTALARINDA AZƏRBAYCANDA YENİ MƏZMUNLU HUMANİZM İDEYALARI VƏ ONUN TƏŞƏKKÜLÜNÜ MÜMKÜN EDƏN AMİLLƏR

***Gülyanaq Mahir qızı Nəbiyeva***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***gulnebiyevaismail@gmail.com***

**Acar sözlər:** *humanizm ideyaları, Azərbaycanda humanizm, pedaqoji fikir, XIX əsr,mədəni-pedaqoji mühit*

*Humanizmin tarixi qədimdir. Bu, Azərbaycan ictimai-pedaqoji mühitinə də aiddir. Lakin XIX əsrin ortalarından etibarən Azərbaycan ictimai-mədəni və pedaqoji mühitində yeni məzmunlu humanizm ideyaları formalaşmağa başladı. Əlbəttə, bu, bir sıra səbəblərlə bağlıdır və təsadüfi hadisə deyil. Məqalədə həmin səbəblər izah edilir. Eyni zamanda yeni məzmunlu humanist ideyaların mahiyyəti şərh olunur. Bu ideyaların hansı Azərbaycan mütəfəkkirlərinin, demokratik maarifçilərinin yaradıcılığında özünü göstərdiyi nəzərə catdırlır. Məqalədə bu ideyaların hansı Azərbaycan maarifçisinin yaradıcılığında hansı şəkildə üzə çıxdığına da diqqət yetirilir. Göstərilir ki, bu dövrdə humanst fikirlər həm bədii, həm pedaqoji, həm də ictimai-siyasi əsərlər vasitəsi ilə təbliğ edilirdi.*

## ИДЕИ НОВОГО ГУМАНИЗМА В АЗЕРБАЙДЖАНЕ В СЕРЕДИНЕ XIX ВЕКА И ФАКТОРЫ, КОТОРЫЕ ДЕЛАЮТ ЭТО ВОЗМОЖНЫМ

***Гулянак Набиева***

**Ключевые слова:** *идеи гуманизма***,** *гуманизм в Азербайджане, педагогицеская идея, XXI век, педагогицеская культурно среда*

*История хунанизма древняя. Это относится к социально-педагогической среде Азербайджана. Но с середины XIX века в социокультурной и педагогической среде Азербайджана начали формироваться новые идеи гуманизма. Конечно, это связано с рядом причин и не является случайным событием. В статье объясняются эти причины. В то же время, суть новых гуманистических идей интерпретируется.*

*Идеи, что эти идеи нашли отражение в творчестве азербайджанских мыслителей и демократических просветителей. Он также фокусируется на том, как эти идеи возникли в работе азербайджанского просвещения. Показано, что в этот период гуманистические идеи продвигались через художественные, педагогические и общественно-политические произведения.*

## THE IDEAS OF NEW HUMANISM IN AZERBAIJAN IN THE MID-19th CENTURY AND THE FACTORS THAT MAKE IT POSSIBLE

***Gulyanag Nabıyeva***

**Keywords**: *humanism ideas, humanism in Azerbaijan, pedagogical idea, XIX century, cultural and pedagogical environment*

*The history of Hunanism is ancient. This applies to the socio-pedagogical environment of Azerbaijan. But since the middle of the 19th century, new ideas of humanism have begun to form in the socio-cultural and pedagogical environment of Azerbaijan. Of course, this is due to a number of reasons and is not a casual event. The article explains these reasons. At the same time, the essence of new humanistic ideas is interpreted. The ideas that these ideas are reflected in the creativity of Azerbaijani thinkers and democratic educators. It also focuses on how these ideas emerged in the work of Azerbaijani enlightenment. It is shown that during this period humanistic ideas were promoted through artistic, pedagogical, and public-political works.*

Azərbaycanda yeni məzmun və mündəricəli humanist baxışların, humanizm ideyalarının, insana yeni münasibət sisteminin təşəkkülü və formalaşması XIX əsrin 30-40-cı illərindən başlayıb əsr boyunca davam edir. Nəhayət, XX əsrin ilk onilliklərində, daha mükəmməl formaya düşür, daha yetkin mahiyyət və keyfiyyət kəsb edir. Əlbəttə, bu, xalqımızın ictimai-mədəni, fəlsəfi və pedaqoji fikir tarixi, dirçəliş yolu üçün kifayət qədər əhəmiyyətli olan bir məsələ idi. Onun baş verməsi və gerçəkləşməsi də səbəbsiz deyildi. Yəni o, birdən-birə, səbəbsiz yoxdan var olmadı. Təbii ki, bu əlamətdar prosesin baş verməsini şərtləndirən, mümkün edən bir sıra mühüm ictimai, siyasi, tarixi və mədəni-pedaqoji amillər vardır. Həmin amilləri ilk növbədə Azərbaycanda XIX əsrin əvvəllərində baş verən siyasi-tarixi hadisələrdə, bu hadisələrin nəticəsində Şimali Azərbaycanın üzünün bir çox sahələrdə şərqdən ayrılıb qərbə tərəf çevrilməsində axtarmalıyıq.

Məlum olduğu kimi, XIX əsrin əvvələrində Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildi. Gülüstan (1813) və Türkməncay (1828) müqavilələri ilə Azərbaycan Rusiya və İran arasında bölündü. Araz çayı sərhəd olmaqla Azərbaycanın şimal hissəsi Rusiya imperiyasının tərkibinə keçdi. Əlbəttə, bu, işğal və xalqımızın rus çarizminin əsarəti altına keçməsi demək idi. Bununla belə Azərbaycanın üzünün müəyyən mənada şərqdən ayrılıb qərbə çevrilməsi onun tarixi taleyində  yetərincə müsbət, mütərəqqi nəticələr də doğurdu. Deyilən hadisəni nəzərdə tutaraq onun mütərəqqi nəticələrindən danışan Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan cümhuriyyəti" əsərində yazırdı: "Qafqasiyanın Azərbaycan qismi dəxi istər-istəməz bundan müstəfid oldu. Azərbaycanın şəhərləri böyüdü. Aralarında münasibət və mübadilə artdı. Xanlıqlar zamanındakı xüsusiyyətlər rəf oldu. Məmləkət iqtisad və ticarətcə inkişaf etdi. Təkamül yoluna girdi. Bu təkamül fəal bir dövr istehsal vücudə gətirərək təqsimi-məsaiyi-mucib oldu (yəni ayrı-ayrı sahələrin inkişafına səbəb oldu -G.N.). Təqsimi-məsai sayəsində də ictimai yeni zümrələr təşəkkül ediyordu" [10, 21].

Siyasi-inzibati dəyişikliyin arxasınca Azərbaycanda yeni bir epoxanın bünövrəsi qoyuldu. İctimai, mədəni, ədəbi, pedaqoji, iqtisadi mühitdə əsaslı dəyişikliklər, təbəddülat və yeniliklər dövrü başladı. XIX əsrin 30-cu illərindən etibarən dövlət tərəfindən rus dilində yeni tpli-Avropa tipli maarif ocaqları təsis edildi. Əsr boyunca onların sayı getdigcə artdı. 70-80-ci illərdən etibarən Azərbaycanda "üsuli-cədid" hərəkatı başladı. Məktəb və maarif sahəsində ciddi nailiyyətlər qazanıldı. Yeni tipli məktəbin gətirdiyi ən mühüm uğurlardan biri də bu oldu ki, həmin maarif ocaqlarında yeni təfəkkürlü, müasir bilik və dünyagörüşə, milli düşüncəyə yiyələnmiş, vətənpərvər, xalqsevər bir ziyalı nəsli yetişdi. Həqiqətən də, yeni tipli məktəb və maarif mühiti elə əsaslı, tarixi  təbəddülata səbəb oldu ki, "bu zəmində rus məktəbi vasitəsilə mədəniyyəti-hazırəyi az-çox dərk etmiş ürəfa ilə xəlq arasında yekdigərini anlamaq dövrü başladı" [10,17]. Ümumiyyətlə, Azərbaycanın Rusiya tərəfindən işğalı carizmin imperiya siyasətindən asılı olmayaraq xalqımızın qabaqcıl Avropa və rus mədəniyyətinə qovuşmasına zəmin və şərait yaratdı. Pedaqoq alim H. Əhmədovun dediyi kimi: "Rus demokratik mədəniyyəti Azərbaycan mədəniyyətinin müvəffəqiyyətlə inkişaf edib dövrün tələbləri səviyyəsinə yüksəlməsinə kömək etdi, ictimai-pedaqoji fikrin, xalq maarifi və məktəb təhsilinin inkişafına istiqamətverici təsir göstərdi. Azərbaycan mədəniyyətinin və elminin bir cox sahələrində ümumi bir inkişaf dövrü başladı: dövlət tərəfindən açılan məktəblər ictimai həyata bir yenilik gətirdi. Teatr və mətbuatın rüşeyimləri yarandı, yeni mədəniyyət xadimləri yetişdi. Azərbaycanda maarifcilik hərəkatı özünü göstərməyə başladı" [5,85].

Yaranan müasir mədəni-pedaqoji atmosfer, yenicə yetişən milli məslək və düşüncəli ziyalı nəsli ayıq başla, çevik təfəkkürlə müasir dünyanın gedişatını

dərk etdi. Bir vətən yanğısı, xalq təəssübkeşliyi ilə mənsub olduğu millətin nicatı yolunda əməli fəaliyyətə başladı. Həmin ziyalılar öz vətənlərinin tərəqqisinin, vətən övladlarının azadlığının, hürriyyətinin, xöşbəxtliyinin nəyə bağlı olduğunu yetərincə anladılar. Başa düşdülər ki, nicat, tərəqqi və milli səadət yolu insana, vətəndaşa yeni münasibətdən başlayır. İnsana münasibət dəyişmədən, onun şəxsiyyətinə, ləyaqətinə layiqincə dəyər verilmədən, başqa sözlə, ictimai mühitdə insan öz həqiqi qiymətini almadan, insanlararası münasibətlər müasir humanist dəyərlərə söykənmədən lazım olan ali məqsədə çatmaq mümkün deyil. Bunu gözəl şəkildə anlayan Azərbaycan maarifçiləri həm şərqin, həm də qərbin insana münasibətdə ortalığa qoyduqları ən mütərəqqi dəyərləri, ideya və mətləbləri əxz etdilər, öyrəndilər. Onların milli ictimai gercəkləkdə təbliği, yayılması, şüurlara yeridilməsi və tətbiqi, xalqın bu istiqamətdə tərbiyəsi yolunda mübarizəyə başladılar. Mübarizənin təməl daşını qoyanlar Azərbaycanın ilk maarifçiləri oldular. M.F.Axundov və "Əkinçi" ilə gürlaşan bu ideyalar sonrakı onilliklərdə də inkişaf edib zənginləşdi, yeni-yeni mütərəqqi keyfiyyətlər qazandı, nəhayət, mükəmməl, müasr dünyanın məqbul saydığı yetkin bir səviyyəyə gəlib çatdı.

Ümumiyyətlə, Azərbaycanda milli intibah epoxası kimi səciyyələnən və XIX yüzilliyin ortalarından başlayıb XX yüzilliyin ilk iki onilliyini də əhatə edən dövrü humanizmin yeni keyfiyyətdə, cağdaş məzmun və mahiyyətdə təzahürü, təkamülü və inkişafı baxımından iki mərhələyə ayırmaq olar: 1.Təşəkkül və formalaşma mərhələsi (XIX əsrin 30-40-cı illərindən başlayıb əsrin sonuna qədər olan dövr); 2.Yetkinlik mərhələsi (XX əsrin əvvəlləri).

Dediyimiz mənada ilk maarifçilərimizdən İsmayıl bəy Qutqaşınlının (1806-1861) "Rəşid bəy və Səadət xanım" hekayəsi xüsusi maraq doğurur. Uzun illər çar ordusunda hərbi xidmət göstərən İsmayıl bəyin bu şərq hekayəsi 1835-ci ildə Varşavada fransız dilində çap olunmuşdur. Eyni bir əsərdə müəllif Azərbaycan cəmiyyətində (əslində bütövlükdə islam şərqində) həm insana bəslənilən ənənəvi, mühafizəkar, birtərəfli, köhnə münasibəti, həm də bəslənilməli olan yeni, mütərəqqi, insani münasibəti müqayisəli şəkildə verə bilmişdir. Bu müqayisə ilə ədib oxucunu əyani surətdə başa salmaq istəmişdir ki, insana münasibətin ənənəvi tipi, ata-baba yolu nə qədər rəzil və qəbuledilməzdir. Çünki həmin münasibət fərdin şəxsi istəklərini, arzusunu, şəxsi səadətini nəzərə almır. Onun insan "mən"inə heç bir dəyər vermir, ləyaqətinə ehtiramla yanaşmır. Fərdin istəkləri, azadlığı, iradəsi tamamilə əlindən alınıb başqasının istklərinə, iradəsinə, məqsədlərinə tabe tutulur. Belə bir dəsti-xətt fərdin cəmiyyətdəki hüquqlarını əlindən alır, onun bədbəxtliyinə səbəb olur. Təbii ki, bu yol qeyri-humanist davranış yoludur. İnsanın fəlakətinə, bədbəxtliyinə aparan yoldur. İkinci yol isə fərdin istəklərinə, ləyaqətinə, azadlığına hörmətlə yanaşmaq yoludur. Bu əsl insanpərvərlik yolu olub insanı şəxsi səadətə qovuşdurur. Cəmiyyətin bütövlükdə səadəti isə fərdlərin səadətindən asılıdır.

Dediyimiz geniş miqyaslı məsələləri yazıçı iki gəncin-Rəşid bəyin və Səadət xanımın bir-birinə olan qarşılıqlı məhəbbəti və bu məhəbbətlə bağlı macəralar əsasında verir. Həm də onları dolğun, yaddaqalan hadisələrin fonunda sadə şəkildə təqdim edib nəticə çıxarmağı oxucunun öhdəsinə buraxır. Oxucu isə köhnə ilə yenini, yəni insana humanist münasibətlə qeyri-humanist münasibəti çətinlik çəkmədən anlaya bilir. İstər fərd, istərsə də cəmiyyət üçün ikincinin daha vacib və üstün olduğunu anlayır. Hekayədə maarifçi sənətkarın insana və onun şəxsiyyətinə münasibəti mövcud şərq ictimai qanunlarından fərqli bir çalarda üzə çıxır.

"Rəşid bəy və Səadət Xanim"da belə bir əhvalat təsvir edilir. Rəşid də, Səadət də gəncdir, hər ikisi bəy övladıdır, hər ikisi gözəldir. Onlar bir-birlərini sevirlər. Lakin qızı vəzəfə, ixtiyar və maddi cəhətdən üstün olan Ərəş xanı Kazım xan öz oğluna almaq istəyir. Səadətin valideynləri və xalası da qızın istəyi ilə hesablaşmadan onu daha imkanlı olan Kazım xanın oğluna vermək istəyirlər. Bu hərəkət və dəsti-xətləri ilə onlar ənənəvi şərq ictimai mühitini, onun insana baxış və münasibətinin köhnəlmiş streotipini təmsil edirlər. Onların başqalarına, yəni rəiyyətə münasibətləri də qeyri-insani davranışa, hökm-fərmalığa, təkəbbürə əsaslanır. Rəşid bəy və Səadət xanım isə yeni humanist baxışın təmsilçiləridirlər. Bu baxış onların həm bir-birlərinə, həm də başqa-larına münasibətlərində özünü aydın göstərir. Rəşid bəy və Səadət xanım bütün maneələrə, tənələrə baxmayaraq bir-birini sevir, bir-birinə sədaqət göstərir, böyük çətinlik və cəfalardan sonra, nəhayət, qovuşurlar. Bu şərq həyatı üçün yeni, uğurlu sevgi macərası idi ki, insanın sevgi və dəyəri xoşbəxt sonluqla nəticələnirdi.

Biz Rəşid bəyin rəiyyətə və öz nökəri Əzizə, Səadət xanımın rəiyyətə və öz dayəsi Şamaha münasibətində də bir insanlıq, səmimiyyət, qayğıkeşlik, alicənablıq görürük. Yazıçı Səadət xanımın yoxsullara münasibətini belə xarakterizə edir: "Səadət xanım yoxsul və dilənçilərin pənahı idi. O, yoxsullara çoxlu ehsan verərdi. Səadət xanımın yanına dilənçilərdən başqa kimsənin yolu yox idi" [3,546].

Yazıçı əsərdə Avropada və şərqdə qadının cəmiyyətdə mövqeyi, hüquqları, onlara bəslənilən münasibət problemini də birbaşa müqayisə yolu ilə oxucuya çatdırır. Belə ki, Səadət xanımın valideynlərinin, yaxınlarının razılığı olmadan sevdiyi oğlana-Rəşid bəyə xəlvəti qoşulub qaçdığını gözlənilməz bir fədakarlıq, qəhrəmanlıq kimi Avropa oxucularına təqdim edən müəllif onları başa salmağa calışır ki, Səadət xanımın belə bir əməli Avropa oxucuları üçün adi gələ bilər. Çünki qərbdə qadınlar azaddır. Onlar cəmiyyətdə, məclislərdə, başqaları ilə ünsiyyətdə, sevgidə sərbəst, öz iradələri ilə hərəkət edir, istədilkəri qərarı verə bilirlər. Yəni qadının ictimai mühitdəki hüquqları genişdir, humanist qanunlar cəmiyyəti bütövlükdə ehtiva edib qadınlara da şamil olunur. Deməli, biz burada ümumilikdə humanistləşmiş bir cəmiyyət görürük. Şərqdə isə mənzərə

tamamilə fərqlidir. Avropa oxucularına müraciətlə yazıçı həmin mənzərəni belə izah edir:"Şərq qadını isə öz ata və qardaşlarından başqa heç kəsi görmür. Əlbəttə, belə bir şəraitdə yaşayan qadının bu qədər asanlıqla atəşli bir sevgiyə düşməsi sizin təsəvvürünüzə sığmaz. Ah! Siz bu qadınların yerinə olsaydınız, onlar kimi daim dörd divar arasında, pərdə altında yaşasaydınız, o zaman Səadətin bizim qəhrəmana qoşulub qaçmasını, ümidvaram ki, bağışlar və bu hekayənin dalını lütf ilə oxuyardınız" [3,556]. Göründüyü kimi, maarifçi ədib şərq-islam toplumunda qadına göstərilən qeyri-humanist münasibətin müəyyən detal və mənzərəsini nəzərə çatdırır. Həm də bir şərqli kimi öz mövqeyini də ortalığa qoyaraq buna təəssüflənir. Bu cür köhnəlmiş, qeyri-insani adət-ənənələri dəyişdirməyin lüzumunu bildirir.

İlk maarifçilərimizdən Abasqulu ağa Bakıxanovun (1794-1847) da yaradıcılığında insanpərvərlik ideyalarının təzahürünü görürük. Bir sıra şeirlərində o, dostluğu, yoldaşlığı, səmimiyyəti, alicənablığı, əliaçıqlığı, səxavəti, mərhəməti, rəhmdilliliyi və s. insani keyfiyyətləri insanpərvərliyin atributları kimi tərənnüm edir. Müəllifin uşaqlar üçün qələmə aldığı "Kitabi-nəsihət" (1836) əsərindəki nəsihətlərin bir çoxu da insanpərvərlik ruhundadır. Məsələn: "Bir adamı ehtiyac içində görəndə nə qədər bacarırsan ona kömək et ki, sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kəmək etsin; Yaxşılıq vasitəsilə azad xislətli adamı özünə bəndə edə bilərsən, amma əziyyət verdiyin zaman bəndələr səndən qaçar; Qonşularla və yerli əhali ilə yaxşı davran, ta ki səninlə də o sayaq müdara etsinlər. Bil ki, sən təksən, onlar isə çoxdurlar. Birin çoxa ehtiyacı aydındır" [4, 352-356]. Sənətkar oxucularına adamları sevməyi, mümkün qədər onlara yaxşılıq etməyi, həqarətlə baxmamağı, kimliyindən asılı olmayaraq qayğı ilə yanaşmağı, onların məhəbbətini qazanmağı tövsiyə edir.

Bəhs etdiyimiz mövzu ilə bağlı vacib bir problemə də diqqəti cəlb etmək yerinə düşər. Orta əsrlər boyunca islam şərqində, bir qayda olaraq, humanizmin təbliğat-çıları, tərbiyəçiləri və nəzəriyyəçiləri didaktika, öyüd-nəsihət yolunu tutmuşlar. Onlar şahdan tutmuş rəiyyətə, tərbiyə subyekti olan fərdə qədər hər kəsə insanpərvərliyin faydasını, qaydalarını, atributlarını, çalarlarını, dini və dünyəvi mahiyyətini öyüd-nəsihət yolu ilə başa salmğa səy göstərmişlər. İrəli sürdükləri nəzəri təlqinləri, tövsiyələri, izahatları ən uzağı müəyyən həyat hadisələrinin, rəvayətlərin, ibrətamiz əhvalatların, dini buyruq və kökmlərin xatırladılması fonunda oxucuya çatdırmaq məramı izləmişlər. Humanizmin ümumcəmiyyət miqyasında bərqərar olması üçün başqa yola əl atmamışlar. Yəni tənqiddən, ifşaçılıqdan, inkarçılıqdan, inqilabçılıqdan uzaq olmuşlar. XIX əsrin ortalarından, konkret olaraq Mirzə Fətəli Axundovdan (1812-1878) başlayaraq Azərbaycan ziyalıları dərk etdilər ki, sosial həyatın başqa sahələrində olduğu kimi humanizmin də ümumcəmiyyət miqyasında kütləviləşməsi üçün nəsihətçiliyin elə bir effektiv təsiri və əhəmiyyəti yoxdur. Bunun üçün yeni vasitələrdən-tənqiddən, ifşaçılıqdan, yeni məzmunlu məktəb və maarifin

gücündən, zülmü və ədalətsizliyi lazım gələrsə, inqilabi yolla aradan qaldırmaqdan, nəhayət, bütövlükdə ictimai quruluşu dəyişməkdən yararlanmaq olar. Həm də bu, yeni dövrün tələbi, diktəsidir. Təbii ki, bu cür mübarizə üsulunu qəbul edərkən M.F.Axundov da, onun müasirləri və sələfləri də son əsrlər qərb mütəfəkkirlərinin ideya və baxışlarından faydalnır, bir sıra Qərbi Avropa ölkələrində baş verən azadlıq mübarizələrinin, inqilabların praktikasını əsas götürürdülər.

Ümumiyyətlə, Azərbaycanda humanist cəmiyyət yaratmaq məramını ümumdövlət səviyyəsinə qaldırmaq, onu dövlətin və cəmiyyətin ideoloji strategiyasına çevirmək ideyası M.F.Axundovdan başlayır, cücərib boy atır və XX yüzilliyin əvvəllərində milli ictimai-mədəni, maarifçi-pedaqoji fikirdə yetkin bir sistem halına gəlir. Mirzə Fətəli isə deyilən mətləb və ideyanın əsas konturlarını özünün də dediyi kimi, Avropanın Volter, Russo, Monteskyö, Mirabo və s. kimi "söhban təbiətli" filosoflarından, ədiblərindən, qabaqcıl elm və fikir adamlarından əxz etmişdi.

Azərbaycanın maarifçi filosofu izah edirdi ki, humanist cəmiyyət yaratmaqdan ötrü ilk növbədə ictimai gerçəklikdə zülmün və despotizmin kökünü kəsmək gərəkdir. Zülmü aradan qaldırmaq üçünsə iki şey lazımdır: ya məzlum zülmə dözməməlidir, yəni hansı yolla olursa olsun, onu aradan qaldırmalıdır, ya da zalım zülmdən əl cəkməlidir. İdrak hələ ki zülmün rəfi üçün bu iki yoldan başqasının olduğunu təsəvvürə gətirə bilmir. Dahi ədib daha sonra fikirlərinə davam edərək izah edir ki, min illər boyunca peyğəmbərlər, filosoflar, şairlər və s. öncül mütəfəkkirlər zülmün aradan qaldırılmasını istəmiş, buna təşəbbüs göstərmiş və belə hesab etmişlər ki, bu işdə əsas və həm də yeganə çıxış yolu zalıma nəsihət vermək, moizə oxumaqdır. Peyğəmbərlər zülmdən əl çəkmək müqabilində zalıma behişti vəd etmiş, zülm qarşısında isə cəhənnəm əzabı ilə qorxutmuşlar. "Filosoflar zülmü dövlətin zəvalının səbəbi bilərək, dövlətin davamı üçün ədalətli olmağı məsləhət görmüşlər". Bununla əlaqədar peyğəmbərlər kitablar, hədislər ortalığa qoymuş, şairlər və filosoflar isə saysız-hesabsız əsərlər yazmışlar. Bu həm qərbdə, həm də şərqdə əsrlər boyunca belə olmuşdur. Lakin tarixin min illərlə davam edən təcrübəsi göstərmişdir ki, bu insanların zülmü aradan qaldırmaq yolunda çəkdikləri bütün zəhmətlər "nəticəsiz və faydasız qalmışdır". Yəni "zülmü aradan qaldırmaq üçün moizələr və nəsihətlər zalimin təbiətinə qətiyyən təsir göstərməmiş", zülm isə heç yerdə aradan qaldırılmamışdır. Qərbin inqilabçı humanistlərindən təsirlənən M.F.Axundov israr edir ki, zülmü aradan qaldırmaqdan ötrü heç də zalıma nəsihət vermək lazım deyil, "bəlkə, əksinə, məzluma demək lazımdır ki: Ey nadan, sən ki qüdrət, say və bacarıq cəhətdən zalimdən qat-qat artıqsan; bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalimin atasının goruna od vur!" [1,305].

Azərbaycan mütəfəkkirinin fikrincə humanist cəmiyyət yaratmağın ən mühüm şərtlərindən biri də ictimai-siyasi idarəetmədə despotizmi ləğv edib dövlət səviyyə-sində demokratik idarəçilik sisteminə keçməkdir. Sənətkar təəssüf edir ki, min illərdir şərqin bütün dövlətlərində idarəçilik sistemi tama-milə despotizm üzərində qurulmuş-dur. "Kəmalüddövlə məktubları" traktatında bunu İranın timsalında şərh edən müəllif göstərir ki, despotizm yüz illərdir ki, İranın "rövnəqini pozmuş", onun fanatizmə, cə-halətə, geriliyə, vəhşətə, zəifliyə, natəvanlığa yuvarlanmasına səbəb olmuşdur. Ölkə vətəndaşlarının "qabiliyyətini künd edib, cövhəri-əqlini paslandırıb", onların rəzalətə və zillətə düşməsinə bais olubdur. Sədaqəti, ədaləti, vəfadarlığı, asayişi məmləkətdən uzaq salıbdır. Onu hər cür yüksəlişdən, "dünyanın proqresindən məhrum qılıbdır" [1,44-45]. Həyatın, aləmin xeyir-şərindən bixəbər və qafil olan İran vətəndaşları hal-hazırda da bir tikə çörək üçün dünyanın bir çox yerlərinə səpələnib zülm və ehtiyac içərisində yaşayırlar. Bu fəlakətin səbəbi isə despotizmdədir. Deməli, despotizm yox olmadan cəmiyyətdə geniş mənada insanpərvərlik amillərini qərarlaşdırmaq, ictimailəşdirmək, qanunlar səviyyə-sinə qaldırmaq mümkün deyil. Humanist cəmiyyəti isə yalnız ayrı-ayrı fərdlərin insanpərvərliyi hesabına yaratmaq olmaz. Bunun üçün dövləti, cəmiyyəti idarəetmə mexanizminin özü, idarəçilik qanunları ədalətli, demokratik və humanist olmalıdır.

Avropanın intibah humanistləri və XVIII əsr maarifçiləri kimi M.F.Axun-dov da din xadimlərini humanist cəmiyyət yaratmaq yolunda böyük maneə hesab edirdi. Qərb ideoloqları Avropada kilsəni demokratiya və humanizm yolunun zülmət bataqlığı hesab etdikləri kimi azərbaycanlı mütəfəkkirlər də məscidi və islam ruhanilərini bu yolun qaranlıq kabusu, əsas müqəssiri sayırdı. "Kəmalüddövlə məktubları"nda o, mollaların minbərdən oxuduqları bəzi moizələrin mətnini verir və göstərir ki, bütün islam aləmində əsrlər boyunca hər yerdə və hər zaman ruhanilərin moizələri, vəzləri, söhbətləri bu cür cəfəngiyat-lardan ibarət olmuş, xalqı mövhumata, xürafata və cəhalətə sürükləmişdir. Şərq cəhalətinin əsas memarları din xadimləridir. Onların ikinci böyük təqsiri ondan ibarətdir ki, xalqla dövlət arasında daim uçurum, ziddiyyət yaratmış, xalqı dövlətdən ayrı salmışlar. Ədib təəssüflə bildirir ki, şərqdə "ruhanilər xalqın ruhuna və təbiətinə o qədər müsəllət olmuşlar ki, camaat onların dediklərinə sorğu-sualsız itaət edir, ürəyində dövlətə nifrət bəsləyir" [1, 292].

M.F.Axundov belə bir vacib məsələyə də toxunur ki, din xadimləri özlərinin mənasız moizələri, nəsihətləri, buyruqları, yozmaları, uydurmaları ilə "ilahi nurun əsəri olan insan ağlını", insan zəkasını onun əlindən almış, insana "şərafət və etibar" qazandıran, onu başqa varlıqlardan üstün edən bu ilahi nemətləri "həbsdə saxlamış", "təfəkkür və təcrübədə" ondan istifadə etmək ixtiyarını, imkanını onun əlindən qoparmışlar. Müəllif öz dini-sosioloji şərhlərini yekunlaşdıraraq belə bir həqiqəti təkidlə nəzərə çatdırır: "Beləliklə,

bəşər övladına səadət və qurtuluş ancaq o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada, insanın şüuru tamamilə əbədi həbsdən xilas olacaq və bütün işlərdə və təfəkkürdə hədislər deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi-mütləq olacaqdır" [1, 218-219]. Nəticə etibarı ilə müəllif onu demək istəyir ki, demokratik və humanist bir cəmiyyətin yaranması üçün ən vacib şərtlərdən biri də insanın ağıl, zəka və təfəkkürünün azad olması, dini buxovdan, ehkamçılıqdan, xürafatdan və ruhanilərin əsarətindən qurtuluşudur.

Mirzə Fətəlinin humanist cəmiyyət yaratmaq ideyasının əsas şərtlərindən biri də toplumu təşkil edən fərdlərin bütövlükdə düşüncə və fikir azadlığına malik olmaları idi. Bu məsələdə o, daha çox ingilis filosofu Con Stüart Millin azadlıq barədə görüşlərindən qaynaqlanırdı. Bununla əlaqədar Azərbaycan maarifçisi "Con Stüart Mill azadlıq haqqında" adlı dəyərli bir məqalə də yazmış, burada həm ingilis filosofunun fikirlərini şərh etmiş, həm də öz baxışlarını vermişdi.

## ƏDƏBİYYAT

1.Axundov M.F. Əsərləri. 3 cilddə. II c., Bakı: Elm, 1988

2.Axundov M.F. Əsərləri. 3 cilddə. III c., Bakı: Elm, 1988

3. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. VIII c. (XIX əsrin I yarısında Azərbaycan ədəbiyyatı). Bakı: Elm, 1988

4.Bakıxanov A. Bədii əsərləri. Bakı: Azərnəşr, 1973

5.Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014

6.Əhmədzadə A.Ş. Azərbaycanda humanizm meyllərinin yaranması və inkişafı. Bakı: Elm və təhsil, 2014

7.Əliyeva Ş.,İlyasov M,.və b. Humanist pedaqogikanın aktual məsələləri (Metodiki vəsait). Bakı: ADPU nəşriyyatı, 2018

8.Əliyev R. Humanizm tərbiyəsinin sosial-psixoloji əsasları//"Azərbaycan məktə-bi" jur,. 2017, №5, s.49-58

9.İlyasov M. Humanist pedaqogika: mahiyyət, prinsiplər, istiqamətlər// "Azərbaycan məktəbi" jur., 2017, №6, s.13-16

10.Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. Bakı: Elm, 1990

**UOT 37**

# RƏŞİD BƏY ƏFƏNDİYEVİN ŞEİR VƏ TƏMSİLLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Vəfa Oruc qızı Həsənova***
***Naxçıvan Dövlət Universiteti***
***hesenli-vefa@list.ru***

**Açar sözlər:** *Rəşid bəy Əfəndiyev, elm, tərbiyə, təmsillər, ləyaqət və bacarıq*

*Məqalədə Rəşid bəy Əfəndiyevin pedaqoji görüşləri təhlil edilir. Onun çağdaş dövrümüzdə aktuallıq kəsb edən gender bərabərliyi məsələlərinə "Ana kimdir?", "Qızlara vəsiyyət", "Anamıza xitab" kimi şeirlərində toxunulur. Bir maarifçi və pedaqoq kimi Rəşid bəy Əfəndiyev qadınların bərabər hüquqlu olmaları fikrinə tərəfdar çıxır və qızının təhsillənməsinə, elm, savad qazanmasına mane olan ataları təqsirləndirir. "Qaz və durna", "Kirpi və dovşan", "Uşaq və gül", "Fəqir bülbül və qəni qarınca" və s. təmsillərində isə əməklə məşğul olmayanlar, tənbəllər, müftəxorlar, əliəyrilər, lovğalar, zalımlar ifşa edilir, təvazökarlıq, zəhməti sevmək, sənəti yaxşı öyrənmək, cəsarət və hünər kimi müsbət keyfiyyətlər təbliğ edilir.*

## ВОПРОСЫ ВОСПИТАНИЯ В СТИХОТВОРЕНИЯХ И БАСНЯХ РАШИД БЕЯ ЭФЕНДИЕВА

***Вафа Гасанова***

**Ключевые слова:** *Рашид бей Эфендиев, наука, воспитание, басни, достоинство и способность*

*В статье анализируются педагогические мысли Рашид бея Эфендиева. В его стихотворениях «Кто такая мать?», «Заветы для девочек», «Обращение к матери» разъясняются вопросы гендерского равноправия, которые актуальны в современном периоде. Как педагог и мыслитель Р.Эфендиев боролся за права женщин, обвинял отцов, которые запрещали своим дочерям учебу и образование. В его баснях «Гусь и Журавль», «Ежик и Кролик», «Ребенок и цветок», «Соловьи-то разные» и других разоблачаются лодыри, тунеядцы, плутократы, бахвалы и угнетатели, пропагандируются смирение, любовь к работе, хорошее изучение ремесла и такие положительные качества, как смелость и гордость.*

# THE ROLE OF EDUCATION IN POEMS AND BASES RASHID BEYEU EFENDIYEV

***Vafa Hasanova***

**Keywords:** *Rashid Bey Efendiyev, science, education, fables dignity and skill.*

*The article emphasizes the thoughts of the teacher and educator Rashid Bey Efendiyev on the equality of women and men in his poems "Who is mother?", "Covenants for girls", "Appeal to mother", which are consonant with appeals of our era, and fathers are accused, not anxious illiteracy their daughters. In his fables "Gus and Crane", "Hedgehog and Rabbit", "Child and flower", "Nightingales are different"and others are exposed by those who are not engaged by labor, loafers,*

Rəşid bəy Əfəndiyev XIX əsrin sonu - XX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və pedaqoji fikrin inkişafı tarixində özünəməxsus yer tutan pedaqoq və maarifçilərdən biridir. Rəşid bəy pedaqoji fəaliyyəti ilə bərabər, bir tərəfdən dərsliklər yazmış, digər tərəfdən xalqın mənəvi tərəqqisinə kömək edən bədii əsərlər yaratmış, mətbuat səhifələrində xalq maarifinin bu və ya digər məsələlərinə aid faydalı fikirlər söyləmiş, bir sözlə, təlim və tərbiyəni yaradıcılığını üzvi surətdə birləşdirmişdir.

Rəşid bəyin həyat və fəaliyyətində diqqəti cəlb edən əsas cəhətlərdən biri də, 1900-cü ildən 1916-cı ilə qədər Qori Müəllımlər Seminariyasında müəllimlik etməsidir. Seminariyada müəllim və şagırd kollektivi arasında yüksək hörmət və nüfuz qazanan maarifçi-pedaqoq III kursda oxuyarkən həndəsə və cəbrdən həll etdiyi məsələlərdən ibarət "Həndəsə ilə hesab məsələləri məcmuəsi" kitabını yazmış, həndəsə kitabını isə rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

R.Əfəndiyevin dərslikləri uzun müddət ibtidai və orta mətəblər istifadə edilmiş və tədrisin müxtəlif pillələrində təhsil alan uşaqlar kitablardan təlim və tərbiyə almışdır. O, uşaqların yaş xüsusiyyətindən və tədris fənlərindən asılı olaraq, müxtəlif təlim üsullarının tətbiq edilməsinə aid də fikirlər irəli sürmüşdür.

R.Əfəndiyevin pedaqoji fikirləri içərisində diqqəti cəlb edən məsələlərdən biri tərbiyənin məqsədidir. Pedaqoqun fikrincə: "Tərbiyə insanı bəsləyib onun bədəninə, ruhuna və əxlaqına yavaş-yavaş qüvvət kəsb etdirməyə deyilir" [1, 5].

R.Əfəndiyev tərbiyə deyəndə üç cəhəti: fiziki, əqli və əxlaqi tərbiyəni nəzərdə tuturdu. O, yazırdı: "Hər kəs bədəncə, ruhca və əxlaqca üç qism tərbiyəyə möhtacdır... Bu üç qism tərbiyədən məhrum olan şəxs həqiqətdə adam cərgəsində sayılmaz".

Rəşid bəy uşaqların bədənə, ruha və əxlaqa yiyələnməyin yolunu anada görürdü. O yazırdı ki, hər bir millətin və hər bir tayfanın səadəti və xoşbəxtliyi arvadların dərəceyi-elmiyyəsindən asılıdır. Bu cəhətə görə arvad da ziyalı olmalıdır ki, nöqsansız bir cism halında təsəvvür olunsun. Bu halda arvadlarımıza elm və mərifət öyrətmək hər bir şeydən əfzəldir.

Qadının ailədə, cəmiyyətdə və övlad tərbiyəsində rolu Rəşid bəyi həmişə düşündürmüşdür. "Arvad məsələsi" kitabında çap etdirdiyi şeirlərin çoxu müqəddimədə yazdığı tərbiyəvi fikirlərin bədii inikasıdır. "Ana kimdir?" şeirində kişilərə xitabən yazır ki, sizi doğub böyüdən, yedizdirib içirdən, hər cür bəladan qoruyub qayğınıza qalan anadır. Uşaq ədəb və tərbiyəni hər kəsdən əvvəl, anadan öyrənir.

Kim sizi hifz edir bəlalardan,
Əl çəkib qohum-əqrabalardan,
Qaçmayıb cövrdən, cəfalardan,
O zəhmətkeş, yazıq, cavan ananız!
Canı candan sizə yanan ananız!

misraları cəmiyyət üçün bu qədər böyük xidmətləri olan anaların qatlaşıb övladlarını cövr və cəfalardan qoruduğu halda, özlərini zülmə məruz qaldığını göstərir.

Şaki, kimdi yazır bu əhvalı,
Eyləyir sizi elmdən halı,
Söyləyir sizə bu günü və iqbalı?
Tərbiyə rəmzin qanan ananız,
Kamilə, alimə olan ananız! [1, 35]

misraları ilə maarifçi-ədib anaları elmə, maarifə çağırır. Qız uşaqlarının təhsili və tərbiyəsini o, millətin cəhalətdən sıyrılan yolu sanırdı.

"Qızlara vəsiyyət" şeirində deyir:

Qız da, oğlan da həp bərabərdir.
Biri arvad isə, biri ərdir.
Verməsə mərifət qıza atası,
Qurtararmı bəladan yaxası!

İnsanlar arasında hüquqi fərq qoymayan ədib pedaqoji fikirlərini bədii nümunələrdə də verirdi. Kişinin qadın üzərində üstünlüyü, ailədə kişi zorakılığı onu narahat edən məsələlərdən olmuşdur. Buna görə də şair kişilərlə qadınların eyni hüquqa bərabər olmaları fikrini irəli sürür və qızının savadlanmasına çalışmayan ataları təqsirləndirir.

"Anamıza xitab" şeirində isə şair qadınların hüquqsuz və bisavad qalmalarına bais olanları düşmən adlandıraraq anaları onlara qarşı mübarizəyə çağırır:

Al ələ tif bərq əfşanın,
Tök yerə, durma, düşmənin qanın.
Qaytar, al ixtiyarın vicdanın,
Yaşa azadə, hifz elə canın.

Yaxud:

Keçmiş əyyami-hurr olan anamız
İndi ən dalda qul qalan anamız,
Get oxu elmini, avam qalma!
Başına öz əlinlə daş salma.
Şahlardan bac alan anamız,
Lərzələr canlara salan anamız!

deməklə qadınlarımıza tariximizi xatırladaraq Nüşabə, Şirin kimi şahlara ibrət dərsi verən, haqqını və namusunu qəhrəmanlıqla qoruyan azad və ağıllı əcdadını yada salır və bugünkü nəslin onlartək mübariz olmalarını arzu edir.

R.Əfəndiyevin bədii yaradıcılığında tərbiyə məsələləri təmsillər yanrında yazdığı əsərlərdə də mühüm yer tutur.

Onun İ.A.Krılov və S.Ə.Şirvaninin təsiri ilə yazılmış təmsilləri ideya-bədii cəhətdən lirik və didaktik seirlərindən daha qüvvətlidir. Təmsillərdə namuslu əməklə məşğul olmayanlar, tənbəllər, müftəxorlar, əliəyrilər, lovğalar, zalımlar ifşa edilməklə, təvazökarlıq, zəhməti sevmək, sənəti yaxşı öyrənmək, cəsarət və hünər təbliğ edilir. "Qaz və durna" təmsilində R.Əfəndiyev hələ vaxtilə Nizami Gəncəvi tərəfindən irəli sürülən, sənət öyrənmək, öyrəndiyi sənəti isə kamil öyrənmək ideyası tərəfdarı olmuşdur.

Təmsildə belə bir əhvalat verilir: bir qaz lovğalanaraq deyir ki, "mən özümdə üç sənəti birləşdirmişəm: həm suda üzürəm, həm yerdə gəzirəm, həm də havada süzürəm", iddəasını eşidən durna qaza belə cavab verir:

Dedi: "ey xudpəsənd, ey ədna!
Sən balıq tək bilirmisən üzmək?
Ya maral tək qaçarmısan de görək?!
Ərşə laçın kimi uçub çıxsan,
Elə tərifin anda ey heyvan.
Çox peşə, pis bilmək nə hacətdir
Birini yaxşı bil kifayətdir [2, 59].

Şeirdən alınan ibrətamiz mənzərə budur ki, peşəni və elmi dərindən öyrənməyən, gündə bir sənətə, bir elmə meyil göstərən axırda hər işdən avara qalır.

Rəşid bəyin "Kirpi və dovşan" adlı təmsilində yaxşı sənətkar, görkəmli alim və qiymətli adam olmaq üçün təkcə sənəti və elmi sevmək və ya bunların

dalınca getmək kifayət deyil, hər kəs öz nöqsanını bilməli və özündə hiss etdiyi nöqsanı düzəltməlidir qənaəti irəli sürülür.

Bir sıra təmsillərində insanın ləyaqətli və bacarıqlı olmasında əsl-nəsəbin müsbət və ya mənfi cəhətlərinin həlledici rol oynaması fikrini irəli sürənləri tənqid edərək kiçikyaşlı oxucuların ata-babaların xidmət və qabiliyyəti ilə qürrələnməyi, elm, mərifət qazanmağı, bacarıqlı, namuslu olmağı məsləhət görür. "Uşaq və gül" təmsilində bağda gəzən bir uşağın gül budağını əyərək gül üzmək istədikdə əlinə tikan batır. Maarifpərvər şairə görə qanı axan, canı ağrıyan uşaq gülə deyir:

Nə tikandır – dedi – basıb səni, gül?
Qonmasın üstünə yazıq bülbül?
At yerə hər nə var tikan səndə,
Qan tökən olma, bir usan sən də! [2, 45]

Tərbiyə prosesində təmsil janrının nəsihətamiz rolunu pedaqoq yaxşı bilirdi. Onun təmsilləri İ.A.Krılovun təmsilləri kimi geniş mövzu dairəsinə malik və bədii cəhətdən zəngin olmasa da, gənclərin tərbiyəsində rol oynamışdır. Bu təmsillər həyati olduğu və sadə dildə yazıldığı üçün onları uşaqlıqda oxuyan bir çox yaşlı adamların indi də dilinin əzbəri olaraq qalır.

Rəşid bəy Əfəndiyev müşahidə etdiyi mövzulardan yazdığı təmsillərlə yanaşı, İ.A.Krılovun onlarca təmsilini nəsr və şeir formasında iqtibas etmişdir. "Naxa və pişik", "Pişik və kəsəyən", "Qarğa və balıq", "Qurbağa və öküz", "Yalançı" və s. belə iqtibaslardandır. Bu təmsillərin mövzusu Azərbaycan həyat tərzinə elə ustalıq və yaradıcılıqla uyğunlaşdırmışdır ki, oxucu onların başqa xalqın həyatından götürülə biləcəyini güman belə etmir.

"Fəqir bülbül və qəni qarınca" təmsili də belə iqtibaslardan biridir. Bu təmsildə zəhmətin insanı səadətə catdırdığından bəhs olunur. Qışda ac qalan bülbül azuqə üçün qarıncanın yanına gəlir və ondan yemək istəyir. Qarınca ona belə cavab verir:

Mən ki yüz rəng, yüz məşəqqət ilə,
Çalışırdım çəməndə zəhmət ilə.
Sən gülün şaxinə qonub hər vəqt,
Eyleyirdin təranə, ey bədbəxt!

Verməzəm heç mən sana danə,
Deyirəm doğru mərd-mərdanə,
Fikr elə mən nə üçün toxam, sən ac?
Bax bəsirət gözü ilə ey möhtac.

Bu təmsil Krılovun "Cırcırama və qarışqa" təmsilindən iqtibasdır. Rəşid bəy Əfəndiyev Krılovdakı cırcıramanı təsadüfi olaraq bülbüllə əvəz etməmişdir. Bülbül Şərq ədəbiyyatında, həmçinin Azərbaycan ədəbiyyatında həmişə müsbət obraz kimi qələmə alınmışdır. Klassik ədəbiyyatımızda məşuqə yolunda öz

həyatından keçməyə hazır olan bir aşiqin simvolu kimi verilən bülbül R. Əfəndiyevin təmsilində tənbəllik və ətalət rəmzidir. Şair göstərmək istəyir ki, nəğmə çox gözəldir, onu sevmək lazımdır. Lakin nəğmə o zaman insana zövq verər ki, onu oxuyan zəhmətkeş adam olsun. Bülbülün bütün günü boş-boş nəğmə oxumasını ədib tənbəllikdən gələn əlamət sanır.

Azərbaycan maarifçi-realist ədəbiyyatın və pedaqoji fikir tarixinin tanınmış nümayəndəsi Rəşid bəy Əfəndiyevin bədii irsi bu gün də təlim-tərbiyə prosesinin məzmun və təşkilində əxlaqi, etik, estetik və mənəvi-tərbiyəvi cəhətdən aktuallıq kəsb edən pedaqoji ideyalarla səsləşir.

## ƏDƏBİYYAT

1. Əfəndiyev R. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 120 səh.
2. Əfəndiyev R. Uşaq bağçası (Tərtib və transliterasiya edən H.M.Əhmədov). Bakı: «Beynəlxalq Universitet» nəşriyyatı, 2010, 192 səh.

UOT 373.3

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İBTİDAİ TƏHSİLİN İNKİŞAFINA İNNOVATİV YANAŞMALAR (1900-1920-ci illər)

***Aytəkin Telman qızı Məmmədova***
***Sumqayıt Dövlət Universiteti***
***telmanaytekin_82@mail.ru***

**Açar sözlər:** *ibtidai təhsil, innovativ yanaşma, milli məktəb, qadın məktəbi, müəllim hazırlığı*

*Təhsildə innovativ proseslər müxtəlif tarixi dövrlərdə yaranıb və onun inkişafını müəyyənləşdirib. İnnovativ yanaşmalar bilavasitə cəmiyyətin sosial sifarişi ilə bağlı olub, təhsilin məzmununda, formasında və texnologiyasında yeniliklərin yaranmasını şərtləndirir. XIX əsrin sonunda XX əsrin əvvəlində bu proses ABŞ, Almaniya, Fransa və Rusiyada daha çox özünü büruzə verib. Bu ölkələrdə məktəbyaşlı uşaqların təhsil-tərbiyəsi sahəsində ciddi islahatlar həyata keçirilib, təlim prosesinin təşkilində fərqli yanaşmalara üstünlük verilib. Bu təcrübə Azərbaycana yad deyildi. XX əsrin əvvəllərində Azərbaycanda açılan məktəblər innovativ (müəllif) məktəbləri idi. Təhsilin infrastrukturunu, tədrisin texnologiyasını, təlimin məzmununu, təlimin təşkilini, şagirdlərin sayını və digər zəruru pedaqoji məsələləri həmin maarifpərvərlərin özləri həll edirdi. S.M.Qənizadənin və H.Mahmudbəyovun açdıqları ilk "rus-müsəlman" məktəbinin fəaliyyəti də innovativ xarakter daşıyırdı. Azərbaycanda fəaliyyət göstərən 14 ali ibtidai məktəb innovativ məktəb idi. Bu tendensiya Azərbaycan Demokratik Respublikası dövründə davam etdirildi. Məktəbə və təhsilə innovativ yanaşmalar meydana gəldi.*

## ИННОВАЦИОННЫЕ ПОДХОДЫ К РАЗВИТИЮ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ 20 ВЕКА (1900-1920 гг)

***Айтекин Мамедова***

**Ключевые слова:** *начальное образование, инновационный подход, национальная школа, женская школа, подготовка учителей*

*В статье рассматриваются вопросы инновационных процессов начала XX века. Инновационные процессы в образовании возникли в разные исторические периоды и определили его развитие. Инновационные подходы напрямую связаны с социальным порядком общества и создают условия для инноваций в содержании, форме и технологии обучения. На рубеже XX века этот процесс был более распространенным в Соединенных Штатах, Германии, Франции и России. В этих странах были проведены серьезные реформы в области школьного образования для детей, и предпочтение отдавалось различным подходам к организации учебного процесса. Этот опыт не был чужд Азербайджану. Школы, открытые в Азербайджане в начале XX века, были инновационными (авторскими) школами. Эти педагоги сами решали инфраструктуру образования, технологию обучения, содержание обучения, организацию обучения, количество учеников и другие необходимые педагогические вопросы. Деятельность первой русско-мусульманской школы, открытой С.М.Ганизаде и Г.Махмудбековым, также была новаторской. 14 начальных школ в Азербайджане были инновационными. Эта тенденция была продолжена во времена Азербайджанской Демократической Республики, и в ней появились инновационные подходы к школе и образованию.*

## INNOVATIVE APPROACHES TO THE DEVELOPMENT OF PRIMARY EDUCATION IN AZERBAIJAN IN THE EARLY 20 TH CENTURY (1900-1920 years)

**Aytakin Mammadova**

**Keywords:** *elementary education, innovative approach, national school, women's school, teacher training*

*Innovative processes in education arose in different historical periods and determined its development. Innovative approaches are directly related to the social order of the community and create conditions for innovation in content, form and technology of education. At the turn of the twentieth century and at the beginning of the twentieth century, this process was more common in the United States, Germany, France, and Russia. Serious reforms in the field of school education for children were carried out in these countries, and preference was given to different approaches to the organization of the educational process. This experience was not alien to Azerbaijan. Schools opened in Azerbaijan at the beginning of the twentieth century were innovative (copyrighted) schools. These teachers themselves decided the educational*

*infrastructure, the technology of training, the content of training, the organization of training, the number of students and other necessary pedagogical issues. The activity of the first Russian-Muslim school, opened by S.M.Ganizade and G.Makhmudbekov, was also innovative. 14 primary schools in Azerbaijan were innovative. This trend was continued during the times of the Azerbaijan Democratic Republic, and innovative approaches to school and education appeared in it. The article addresses these issues.*

Təhsildə innovativ proseslər müxtəlif tarixi dövrlərdə yaranıb və onun inkişafını müəyyənləşdirib. İnnovativ yanaşmalar bilavasitə cəmiyyətin sosial sifarişi ilə bağlı olub, təhsilin məzmununda, formasında və texnologiyasında yeniliklərin yaranmasını şərtləndirir. XIX əsrin sonunda XX əsrin əvvəlində bu proses ABŞ, Almaniya, Fransa və Rusiyada daha çox özünü büruzə verib. Bu ölkələrdə uşaqların təhsil-tərbiyəsi sahəsində ciddi islahatlar həyata keçirilib, təlim prosesinin təşkilində fərqli yanaşmalara üstünlük verilib. Amerika məktəblərində bu və ya digər təhsil istiqamətinin seçilməsində şagirdlərin qabiliyyəti və arzusu nəzərə alınmağa başlanıb.Amerika maarifçiləri ictimai münasibətlərin inkişafı və sosial ədalətsizliyin aradan götürülməsində ibtidai təhsilin vacib rol oynaması qənaətinə gəlib. Sonra Amerikada C.Dyuinin praqmatik təhsil nəzəriyyələri formalaşdı. Eksperimental pedaqogikanın əsası qoyuldu. Rusiyada K.D.Uşinskinin L.N.Tolstoyun, S.T.Şatskinin təhsil konsepsiyalarında böyüyən uşaq və onun istəkləri təlimin mərkəzinə qoyuldu. Onlar nəzəri fikirlər söyləməklə kifayətlənmədi, irəli sürdükləri ideyaların məktəb həyatında tətbiqinə nail oldular. Bu konsepsiyaların bəziləri təcrübədə müəllif məktəbləri formasında həyata keçiriliblər. L.N.Tolstoyun Yasnaya Polyana məktəbi, S.T.Şatskinin "Təcrübə stansiyası" belə müəllif məktəblərindən idi.

Bu təcrübə Azərbaycana yad deyildi. XIX əsrin axırlarında Azərbaycanda dövlət məktəbləri ilə barəbər, müəllif məktəbləri açıldı. Təhsilin infrastrukturunu, tədrisin texnologiyasını, təlimin məzmununu, təlimin təşkilini, şagirdlərin sayını və digər zəruru pedaqoji məsələləri həmin məktəbi açan maarifpərvərlərin özləri həll edirdi. S.M.Qənizadənin və H.Mahmudbəyovun açdıqları ilk "rus-müsəlman" məktəbinin fəaliyyəti də innovativ xarakter daşıyırdı. Yaranan ibtidai məktəblər ictimai-pedaqoji hərəkatın nəticisi idi.

Azərbaycan maarifçiləri təhsilin demokratikləşdirilməsi uğrunda ciddi mübarizə aparırdılar. XIX əsrin ikinci yarısında başlanan maarifçilik hərəkatı XX əsrin əvvəllərində yeni mahiyyət və məzmun kəsb etmişdi. Yaranan Avropalı tipli məktəblər, xeyriyyə cəmiyyətləri və şəhər özünüidarə orqanların təşkili o dövrdə pedaqoji hərəkatın yeni istiqamətdə inkişafını təmin etdi. 1905-1907-ci illər inqilabı fəhlə və kəndlilərlə yanaşı, həm də müəllim və şagirdlərin

siyasi fəallığını artırdı. İctimai-siyasi həyatda baş verən yeniliklər millətin "milli diriliyi" məsələsini önə çəkdi, demokratiya uğrunda mübarizənin güclənməsinə, siyasi şüurun yüksəlməsinə və milli pedaqoji fikrin formalaşmasına səbəb oldu. Rusiya müsəlmanları qurultaylarının təsiri ilə Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultayları keçirildi. Qurultaylarda dövrün mühüm pedaqoji problemləri (pulsuz, ümumi, icbari təhsil; yeni məzmunlu dərsliklərin yazılması; Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsi; milli ibtidai məktəblərin yaradılması; qadın təhsili və s.) müzakirə olundu.Azərbaycan maarifçilərinin inadla uğrunda mübarizə apardıqları milli məktəb, milli dərslik, milli müəllim kadrlarının yetişdirilməsi, milli mətbuat nəticədə milli ideologiyanın yaranmasını şərtləndirdi. Milli ideologiya isə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması ilə nəticələndi.

Yeni yaranan hökumətin qarşısında zaman-zaman yığılıb qalmış xeyli problemlər var idi ki, onların həlli vaxt tələb edirdi. Azərbaycanın ərazi bütövlüyünün qurunub saxlanılması və təhsilin milləşdirilməsi millətin tarixi taleyində mühüm rol oynayan ən vacib problemlər idi. Hər iki problemin həlli çətinliklərlə müşayiət olunurdu. Sərhədləri qorumaq, Qarabağda, İrəvanda, Zəngəzurda, Göyçədə azərbaycanlılara qarşı soyqırımı törədən erməniləri dayandırmaq, mübahisəli əraziləri Azərbaycanın xeyrinə həll etmək üçün Milli Ordu, silah-sursat və hərbi kadrlar, demək olar ki, yox idi. Azərbaycanın ürəyi olan Bakı işğalçıların nəzarətində idi. Nəhayət ki, Qafqaz İslam Ordusunun köməyi ilə Bakı işğaldan azad olundu. Milli mədəni məsələlərin həllinə diqqət artırıldı.

Hökumətin Parlamentdə təhsilin milliləşdirilməsi ilə bağlı qəbul etdiyi qərarlar qısa bir zamanda təhsilin milli zəmində inkişafına təkan verdi. Onu qeyd edim ki, 1918-ci ilə kimi Azərbaycanda milli orta məktəb olmamışdır. Tədqiqatçıların fikrincə, ADR dövründə Azərbaycanda orta təhsil statuslu cəmi 23 məktəb olub ki, onlardan üçü "Müqəddəs Nina" qadın məktəbi, biri politexnik məktəb, biri ticarət məktəbi, onu gimnaziya (dördü qadın, altısı qadın), beşi real məktəb, üçü isə Müəllimlər Seminariyası idi (3, s.9).

Azərbaycanda cəmi 14 ali ibtidai məktəb: Bakı oğlan məktəbi (1912), Bakı türk qız məktəbi (1912), Görüs məktəbi qarışıq (1912), Gəncə oğlan məktəbi (1914), zaqatala oğlan məktəbi (1914), Qazax məktəbi qarışıq (1914), Quba məktəbi qarışıq (1914), Lənkəran məktəbi qarışıq (1904), Şəki oğlan məktəbi (1914), Naxçıvanoğlan məktəbi (1914), Ordubadoğlan məktəbi(1914), Petropavlovka məktəbi qarışıq (1913), Şamaxı oğlan məktəbi (1914), Şuşa oğlan məktəbi (1914), 4 şəhər məktəbi: Bakı I oğlan məktəbi (1889),Bakı II oğlan məktəbi (1896), Bakı III qarışıq məktəbi (1914), Şabuçu oğlan məktəbi (1914) fəaliyyət göstərurdi. 4 ali məktəbin aşılması nəzərdə tutulmuşdu. Ümumiyyətlə, 1914-cü ilin məlumatına görə, Azərbaycan ərazisində fəaliyyət

göstərən 942 ibtidai məktəbdən yalnız 22-si yüksək tipli idi. Onun da 75 %-i 1 sinifli, 25 %-i 2 sinifli idi (1,s.12). İbtidai məktəblərdə oxuyanların cəmi 35,2 %-i azərbaycanlı idi ki, onların da 92 %-i oğlanlar, 8 %-i qızlar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ibtidai məktəblərin böyük əksəriyyəti milliləşdirilsə də ibtidai məktəblərin sayını 1914-cü il səviyyəsinə qaldırmaq mümkün olmadı. Bunun da əsas səbəbi Azərbaycanın kənd və şəhərlərinin erməni-daşnaq birləşmələri tərəfindən dağıdılmas, məktəblərin yandırılması, əhalinin qaçqına çevrilməsi idi. Faktlara diqqət yerirək:

**İbtidai məktəblər** (1914-1915-ci tədris ili)

1. İbtidai məktəblərin say – 942
2. Müəllimlərin sayı – 62788

**İbtidai məktəblər** (1919-1920-ci tədris ili)

1. İbtidai məktəblərin say – 643
2. Müəllimlərin sayı – 48078

Ümumiyyətlə, AXC dövründə ibtidai məktəblərin ümumi sayı 31,8% (399) azalıb. Rəqəmlərdən də aydın olur ki, məktəblərin sayındakı azalma müəllimlərin də sayının azalmasına ciddi şəkildə təsir göstərib. Faktlara diqqət yetirək:

1. Müəllimlərin ümumi azalma sayı– 14710 nəfər (23 %)
2. Başqa millətlərdən olan müəllimlər – 9170 nəfər (22,5 %)
3. Azərbaycanlı müəllimlərin sayı – 5540 nəfər (25 %)
4. Azərbaycan dili müəllimləri – 5098 nəfər (25,2%)
5. Azərbaycanlı qadın müəllimlər– 442 nəfər (23,8%)

*Azərbaycanlı şagirdlərin sayı* (1914-1915-ci tədris ili)

1. Oğlanlar –20290 nəfər
2. Qızlar –1862 nəfər

*Azərbaycanlı şagirdlərin sayı* (1919-1920-ci tədris ili)

1. Oğlanlar– 13201nəfər
2. Qızlar– 1420 nəfər (1, 18).

Ümumi şagirdlərin sayında azərbaycanlı şagirlərin sayı artdığına görə azərbaycanlı müəllimlərin sayı da artmışdır. Qeyd etmək lazımdır ki, 1917-ci ildən sonra Rusiyada və onun milli ucqarlarında baş verən ictimai-siyasi hadisələr, kütləvi tətillər, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi mart soyqrımı nəticəsində mövcud məktəblərin işi tamam iflic olmuşdu. Azərbaycan nümayəndə heyəti 1919-cu ildə Parisdə olanda çox çətinliklə Amerika Prezidenti V.Vilson onları qəbul edir. Azərbaycan nümayəndi heyəti milli istiqlal uğrunda apardıqları mücadilədə 500 kəndin xarabalığa çevrilməsi, 100-150 min azərbaycanlının şəhid olması haqqında məlumat verir, Azərbaycanın müstəqilliyinin dəstəklənməsinə kömək göstərməyi ondan xahiş edirlər. Millətin məhvinə hesablanmış qanı cinayətin nəticəsi idi ki, məktəblərin bəziləri tamam bağlanmışdı. Sonralar həmin məktəbləri (məsələn,

H.Z.Tağıyevin qız məktəbini) bərpa etmək mümkün olmadı. Sovet dövründə aparılan tədqiqatarda isə AXC dövründə 23 ay müddətində təhsil sahəsində aparılan işlər tamamilə yanlış mövqedən təhlil və tədqiq edilir: "Bütün məktəb işinin məzmunu mürtəce istiqamət aldı. Bakı Kommunasınım ləğv etdiyi şəriət dərsləri bərpa olundu. Rusiya coğrafiyası və və tarixinin tədrisi ləğv edildi, azərbaycanlı olmayan əhali öz uşaqlarını ana dilində oxutmaq hüququndan məhrum edildi. Azərbaycanlılar oxuyan məktəblərdə dərslər mahiyyət etibarilə Azərbaycan dilində deyil, osmanlı türklərinin dilində keçirilirdi. Bu məqsədlə Türkiyədən dərsliklər və sair ədəbiyyat gətirdir, müəllimlər dəvət edirdilər" (2, 15).

Həqiqən də ilk vaxtlar Türkiyədən xeyli kitab gətirilmişdi, dəvət edilən 50 nəfər müəllim ibtidai məktəblərin milliləşdirilməsində, yeni məzmunlu dərsliklərin hazırlanmasında, pedaqoji məzmunlu əsərlərin nəşrində fədakarlıq nümayiş etdirirdilər. Vaxtı ilə Ümumrusiya Müəllimlər İttifaqınım fəaliyyətinə tərəfdar olan müəllimlər sovet hakimiyyətinin təklif və tövsiyələrini dəstəkləmir, mütərəqqi rus müəllimləri kimi bolşevikləri terrorda və demokratiyanı boğmaqda ittiham edirdilər. AXC dövründə milli istiqlalın və azadlığın yaratdığı şəraitdən bəhrələnən müəllimlər milli məfkurəli gəncliyin yetişdirilməsi istiqamətində səmərəli pedaqoji fəaliyyət göstərir, böyüyən nəsli yeni dövrün tələblərinə uyğun tərbiyə etməyə çalışırdılar. İlk dəfə AXC dövründə xarici ölkələrdə dövlətin maliyyə dəstəyi ilə təhsil almanın əsası qoyuldu. Müəllimlərin ixtisasının artırılması məqsədi ilə üç aylıq və beş aylıq pedaqoji kurslar təşkil edildi, Bakı Dövlət Universitetinin əsası qoyuldu, 100 nəfər gənc dünyanın nüfuzlu universitetlərinə təhsil almaq üçün göndərildi, Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi F.B.Köçərlinin fədakarlığı nəticəsində Qazaxa köçürüldü, yeni pedaqoji seminariyalar təçkil edildi və s. Marksizm-leninizm metodologiyası ilə aparılan tədqiqatlarda o dövrdə müəllimlərə olan münasibət aşağıdakı kimi şərh edilir: "Müsavatçıların mürtəce siyasəti müəllimlərə qarşı da yönəlmişdi. Müəllimlərin vəziyyəti dözülməz dərəcədə pis idi. Təchizat yox idi, əməkhaqqı isə olduqca az idi. Müsavat məmurları addımbaşı müəllimləri təhqir edir, onların hüquqlarını tapdalayırdılar. Müsavat hökuməti müəllimlər və şagirdlər üzərində polis nəzarəti qoyur, tez-tez məktəblərin daxili işinə qarışırdılar. Müəllimlərin çoxu pedaqoji işdən əl çəkməyə məcbur olmuşdu. Bu isə öz növbəsində şagirdlərin məktəbdən yayınıb getməsinə səbəb olurdu" (2, 15). Bu yanaşma tədqiqatçının şəxsi mövqeyindən daha çox AXC dövrünə sovet hakimiyyətinin düşmən münasibətinin təzahürüdür. Fikrimizcə, tədqiqatın müəllifi Mirzə Məmmədov həmin dövrün canlı şahidi olduğundan əsil həqiqətin mahiyyətindən məlumatlı idi.Lənkəran rayon Partiya Komitəsinin I katibi (1937-1938), xalq maarif komissarı (1938-1942), Azərb. K(b)P MK -nın katibi (1942-1944), maarif naziri (1955 -1959), Azərb.ETPEİ-nin direktoru (1959 -1974) vəzifəsində

işləyən Mirzə Məmmədovun AXC-nin təhsil siyasətinə fərqli mövqedən yanaşması mümkün düyildi. Sovet hökumətinin sərt cəza tədbirlərinin həya keçirildiyi 30-cu illərin ictimai-siyasi hadisələrinin mərkəzində olan patiya fəalının fərqli mövqeyi onun məhvinə səbəb olardı.

Çox təəssüf ki, Milli Hökumət təhsil sahəsində başladığı milliləşdirməni başa çatdıra bilmədi. 1920-ci ilin aprel ayının 28-də bolşeviklər Azərbaycanı işğal etdi, Milli Hökumət devrildi. Təhsilin milli platformada təşkili tamamilə dayandırıldı.

## ƏDƏBİYYAT

1. Azərbaycanda xalq maarifi (1920-1927). Bakı, Azərb.XMK, 1928, 184 s.
2. Məmmədov M.Azərbaycan SSR-də ümumi icbari təhsilin həyata keçirilməsi.Bakı, Azərnəşr, 1960, 224 s.
3. Ахмедов Г., Рустамов Ф. Народное просвещение в АДР (1918-1920 гг) // Педагогика. Москва, 1992, №9-10, с. 82-84
4. Равкин З.И .Основные проблемы развития теории и практики общеобразо- вательной школы РСФСР (1917-1931 гг.). Автореф. дисс... док. пед. наук. М., 1965, 202 с.

## MÜNDƏRİCAT


*Abbas Qadir oğlu Seyidov, Həbibə Mirpaşa qızı Əliyeva.* **BABA NEMƏTULLAH NAXÇIVANİ BÖYÜK MÜTƏFƏKKİR, ELM VƏ DİN XADİMİ .......... 3**

*Leyla Kərim qızı Nəbiyeva.* **SOYUQ MÜHARİBƏ İLLƏRİNDƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏTİ .......... 14**

*Naibə Əhmədağa qızı Əhmədova* **. ABBASQULU AĞA BAKIXANOV: TARİXƏ BAXIŞ .......... 24**

*Tofiq Teyyub oğlu Mustafazadə* **. I PYOTRUN XƏZƏR YÜRÜŞÜ .......... 38**

*Марзия Сабир гызы Искендерова.* **К ВОПРОСУ О РОЛИ АЗЕРБАЙДЖАНА В ПОЛИТИКЕ РОССИЙСКОГО ГОСУДАРСТВА В 20-30-е ГОДЫ XVIII ВЕКА .......... 48**

*Şahlar Şahbaz oğlu Şərifov.* **ERKƏN XİLAFƏT DÖVRÜNDƏ YAŞAMIŞ AZƏRBAYCANLI ALİMLƏR (VII-X ƏSRLƏR) .......... 60**

*Fəridə Səyədulla qızı Cəbrayılova.* **QƏDİM TÜRKLƏRİN İSLAMAQƏDƏRKİ DÜNYAGÖRÜŞÜ: TANRIÇILIQ (TENQRİZM) İNANCI .......... 70**

*Ramilə Bəhlul qızı Dadaşova , Vahid Allahverdi oğlu Ömərov.* **ABŞ VƏ BÖYÜK BRİTANİYADA DÖVLƏT İDARƏÇİLİYİ KADR HAZIRLIĞI .......... 77**

*Cəlal Əbdürəhman oğlu Novruzov* **. BORÇALI AZƏRBAYCANLILARININ ƏNƏNƏVİ TOY ADƏTLƏRİ .......... 87**

*Şahnisə Tahir qızı Rüstəmova.* **ERMƏNİSTAN – AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN CƏNUBİ AZƏRBAYCANLILARIN MİLLİ ŞÜURUNUN İNKİŞAFINA TƏSİRİ .......... 94**

*Namiq Eldar oğlu Məmmədov.* **TÜRKİYƏDƏ AKP-NİN QURULMASI, İDEOLOGİYASI VƏ HAKİMİYYƏTƏ GƏLMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR .......... 103**

*Əzizə Firidun qızı Ağayeva.* **ÇAR RUSİYASININ AZƏRBAYCANDA "ERMƏNİ DÖVLƏTİ" YARATMAQ PLANLARI VƏ ONUN NƏTİCƏLƏRİ .......... 114**

*Şəhla Rafiq qızı Məmmədli.* **AZƏRBAYCAN İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ KİMİ .......... 125**

*Ülviyyə Yadulla qızı Hüseynova.* **BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINDA ANQLİKANİZM, METODİZM VƏ PRESVETERYANLIĞIN YARANMA TARİXİ VƏ TƏMƏL PRİNSİPLƏRİ .......... 133**

*Kamal Həsən oğlu Camalov* **BALASAQUNLU YUSİF XAS HACİBİN "QUTADĞU BİLİG" ƏSƏRİNDƏ AİLƏ QURMAQ VƏ AİLƏ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ ........................................................................144**
*Mələk Əlislam qızı Zamanova.* **TƏLİM PROSESİNİN İNSANŞÜNASLIQ ARXİTEKTONİKASI ................................................151**
*Fərhad Cabbar oğlu Hüseynov.* **TƏHSİL MÜƏSSİSLƏRİNİN FƏALİYYƏTİNDƏ İCTİMAİ ƏLAQƏLƏRİN ROLU ..........................158**
*Gülyanaq Mahir qızı Nəbiyeva.* **XIX ƏSRİN ORTALARINDA AZƏRBAYCANDA YENİ MƏZMUNLU HUMANİZM İDEYALARI VƏ ONUN TƏŞƏKKÜLÜNÜ MÜMKÜN EDƏN AMİLLƏR .................165**
*Vəfa Oruc qızı Həsənova.* **RƏŞİD BƏY ƏFƏNDİYEVİN ŞEİR VƏ TƏMSİLLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ ......................................174**
*Aytəkin Telman qızı Məmmədova.* **XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İBTİDAİ TƏHSİLİN İNKİŞAFINA İNNOVATİV YANAŞMALAR (1900-1920-ci illər) ...........................................................180**

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2019, 2 (25)*

***Çapa imzalanmış 28.06.2019-cu il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 9,5***
***Sifariş 108 , sayı 200***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail: sevinc0610@mail.ru***
***www.adpu.edu.az***